
Vahid QAZİ
YOL
Səyahət yazıları

**VAHİD QAZİ**

# YOL

## Səyahət yazıları

Redaktor: Bəsti İsmayılova

Üz qabığındakı fotonun müəllifi: Vahid Qazi

2022

# İÇİNDƏKİLƏR


Müəllifdən ........................................................................................................ 4

Paris günləri. *Sena sahilindən reportaj* ..................................................................... 5

Vyanada Şuşalı günlər. *Avstriya paytaxtından xatirə söhbəti* .................................. 12

Varşava – azadlıq və sevgi şəhəri. *Şopen, Osvensim, Kopernik* ............................... 19

Tanrılarla baş-başa. *Qədim Ellada allahları ilə söhbət* ........................................... 26

Dumansız Albion. *London: təsəvvürdən təəssürat reportajı*...................................... 38

Əndəlüs lövhələri. *İspaniyadan sürreal-real reportaj* .............................................. 48

Ağ Rusiyanın qara taleyi. *Belarusun görüb bilmədiyimiz üzü* ................................ 58

Qırmızı ada. *Kuba dəftərindəki qeydlərim* ................................................................ 63

Afrika sərgüzəştləri. *"Qəmli gözlərin süitasi" essesindən*........................................ 67

Çufut-Kala: Krımda qədim türk şəhəri. *"Ölü şəhərlər muzeyi" essesindən* ..... 71

Sarayevodan Tuzlaya. *Bosniya qeydləri.* .................................................................. 74

Maldiv – Yer üzünün cənnəti. *Mərcan adalarından reportaj* .................................. 77

Şri-Lanka gözəlləməsi. *Filli-pələngli Seylondan pürrəngi foto-reportaj* ................. 83

Tatar çölü Rusiya. *Kazandan tarixi-infantil foto-reportaj* ........................................ 89

Fironlar ölkəsinə səyahət. *Misirdən şəkilli səfər qeydləri* ........................................ 96

Qotland. *İsveç savannasına səyahət* ....................................................................... 107

Qaraqoyunlu Karaqounis. *Səmərqənddən futbol reportajı* ...................................... 113

...Və başqa macəralı yol xatirələri.............................................................................. 116

# Müəllifdən

Dünyanın evə qapandığı pandemiya günləri idi. Gördüm, koronavirus ucbatından bu yay da gəzməklərə getmək alınmayacaq, dedim, səyahətsevər dostlar üçün bir kitab bağlayım. İndiyədək "Ölkələr və şəhərlər" silsiləsindən yazdığım reportajlar, səfər təəssüratları, yol qeydlərinə bəzi esselərin, məqalələrin səyahət hissələrini də əlavə etdim. Beləcə, "Yol. Səyahət yazıları" kitabı alındı.

Kitabı oxuyanlar Parisi, Londonu, Varşavanı, Vyananı, Havananı, Kazanı, Afinanı, Qahirəni, Kolombonu, Durbanı, canım sizə desin, başqa neçə-neçə şəhəri mənim bələdçiliyimlə gəzəcək, onların küçə və xiyabanlarını, muzey və mədəniyyət mərkəzlərini dolanacaq, tarixi yerləri ilə tanış olacaqlar. Şri-Lanka, Kuba, Maldiv, Qotland adalarına üzəcək, Belarusun, "Tatar çölü Rusiya"nın bilmədiyimiz üzünü görəcək, qorxulu Quantanamaya, Osvensimə baş çəkəcək, Şopeni, Mosartı, Bethoveni, Koperniki, Dikkensi, Darvini evlərində ziyarət edəcək, Versal, Luvr, Şönbrunn, Bukinqem kral saraylarına tamaşa edəcək, qədim Elladada Zevs qarışıq neçə yunan tanrısı, tanrıçası ilə, Misirdə Günəş allahı Amon Ra ilə, neçə-neçə fironla söhbətimə qulaq şahidliyi edəcək, İspaniyada "Əndəlüs köpəyi"nə baxacaq, Seylonda pürrəngi çay içəcək, istəsələr lap ingilis pabında viski, Eyfelin başında fransız şampanı, Egeydə yunan "Santorini"si də dadacaqlar.

Bir sözlə, dünyanı fırlanıb, dolanıb sağ-salamat Bakıya qayıdacaqlar.

# Paris günləri

*Sena sahilindən reportaj*

Tarix var, ölüdür, yalnızca olmuş hadisələrin toplusudur. Tarix də var, canlıdır, bu gün də yaşayır. Sahibinə tək mənəvi fəxarət hissi vermir, maddi qazanc da gətirir. Bax elə, Fransa tarixi kimi. Hər il Fransaya 75 milyondan çox adam səfər edir. Ölkənin turizmdən gəliri 33 milyard avroya yaxındır.

Paris uzun illərdir, dünyanın ən çox turist cəlb eləyən şəhəri, Eyfel qülləsi isə diqqətçəkən məkanıdır. Şəhərdə YUNESKO-nun mühafizəsi altında olan üç mindən çox tarixi abidə var. Qısacası, hər tikilisi foroaparatın kadrına düşəsidir Parisin. Nə qədər şəkil çəkdiyimi bilmədim, bircə, ayırseç edəndə sildiyimi təxmin elədim, 500-dən çox kadr idi.

Parisə kimi inqilablar, kimi də sevgilər şəhəri deyir. XIX əsrin Parisini düşünəndə təsəvvürə barrikadalar gəldiyi kimi XX əsr Parisi göz önündə şanson sədaları altında sevgi dramları canlandırır. Bura gələn ya aşiq olub qalar, ya da inqilabçılıq eşqinə düşər. Bilmirəm, dərviş Parisi "partlatmasaydı", Mirzə Fətəli Axundovun Şahbazı Qarabağdan Parisə gəlib hansından olacaqdı: aşiq, yoxsa inqilabçı?! Amma onu bilirəm ki, tanıdığım başqa iki qarabağlıdan biri aşiq olub burda qaldığı halda – rejissor dostum Şahin Sinariya sayaq, o biri vətənə dönüb şüurlarda inqilab eləməyə getmişdi – Əhməd Ağağolu kimi.

## Əhməd Ağaoğlunun Sorbonnası

Parisdə gəzəcəyimiz yerləri şəhərin istiqamətləri üzrə qruplaşdırdığımdan hər gün bir tərəfə yön alırdıq. Birinci günün planında ilk dəyiləsi yer Sorbonna universitetiydi. Uşaqlar xəritəylə kəsə yolu asan tapırdı – "Jardin du Luxembourg" bağından keçib sağa burulasıydıq. Onlara bura niyə gəldiyimizi universitetin qarşısındakı "Place de la Sorbonne" parkında əyləşəndə izah eləməyə başladım.

Paris də, Sorbonna universiteti də qaldı bir tərəfdə, Əhməd Ağaoğlu adlı bir şuşalının 120 il əvvəl 20 yaşında ikən Qarabağdan gəlib burda oxumağından, bu divarlar arasında aldığı təhsillə zəmanəsinin ən ünlü zəka sahiblərindən birinə çevrilməyindən, 1905-ci ildə başlayan erməni terroruna qarşı "Difai" adlı gizli silahlı təşkilat yaratmağından, 1919-cu ildə Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətini təmsil edən heyətdə yer almağından, bolşevik işğalından sonra Türkiyəyə köçüb Atatürkün siyasi müşaviri olmağından xeyli söhbət elədim.

Durub gedəndə Sabir Rüstəmxanlının "Difai fədailəri" kitabından sitat da gətirdim: "Difai" təşkilatının qorxusundan 1906-1909-cu illərdə Qafqazda bir dənə də erməni terroru olmayıb".

Uşaqların maraqla dinləməyindən anladım ki, ilk ziyarət yeri kimi Sorbonna universitetini seçməkdə və Əhməd Ağaoğlundan söz salmaqda düz iş tutmuşam.

## Notr-Damda Esmeralda sevdası

Notr-Dam kilsəsi şəhərin ən çox turist cəlb edən üç-dörd yerindən biridir. Notr-Dam, bizim dillə desək, Məryəm Ana kilsəsi Sena çayındakı Site adasında yerləşir. 1163-cü ildə özülü qoyulan kilsə iki yüz ilə tikilib. Səfər öncəsi uşaqlar "Notr-Dam qozbeli" filminə baxmışdılar deyə, elə hey filmi müzakirə edirdilər. Kvazimododan, Esmeraldadan danışırdılar. Giriş üçün uzun növbəyə durduğumuz vaxt girəvələyib onlara baxdıqları filmlə Hüqonun "Paris Notr-Dam kilsəsi" romanındakı fərqli yerlərdən danışdım.

Hüqonun bu romanda məqsədi fransızlara Parisin arxitekturasını sevdirmək olub. O, məqsədinə çatıb, Paris tək fransızların yox, onun əsərləri oxuyan hər kəsin sevimli şəhərinə çevrilib. Bayırdan əzəmətli görünən kilsənin içərisi füsunkar gözəlliklə ilahi hüzurun qovuşduğu andı, elə bilirsən. Ayağının ucunda gedirsən, sanki kilsənin daş döşəməsi deyil, Kvazimodonun titrək ürəyidi yeridiyin yer. Burda dərk edirsən ki, dünyanın ən böyük dərdi qozbel Kvazimodo kimi doğulmaq yox, Esmeralda kimi gözəli sevməkdir.

…Kvazimodo Esmeraldanı sevməyində olsun, bizim turistlər üçün bir məlumatı yazım. Paris bahalı şəhərdir. Bizim ağız dadımıza və cibimizə uyğun türk yeməkləri arzulasanız elə bura gəlin, adanın sağ körpüsünü keçən kimi Petit Pont küçəsində "İstanbul" adlı sərfəli türk restoranı var. Braziliya yığmasının Almaniyaya faciəvi məğlubiyyət oyununa elə burda baxdım.

Bayırda qısa yağışdan sonra çıxan günəş altında Notr-Dam kilsəsi hüznlü görünürdü, elə bil braziliyalı katoliklərin kədərinə yas tuturdu.

## İnsanlara ürək açan Hüqonun bağlı qapısı

Viktor Hüqonun ev muzeyinə getmək üçün, yalan olmasın, bəlkə 10 kilometr piyada yol gəzdik. Elə də uzaqda yerləşmir, sadəcə, yolboyu Sorbonna universiteti, Notr-Dam kilsəsi kimi xeyli yerə baş çəkdik, bağlar, parklar dolaşdıq. Uşaqlar əldən düşməsin deyə söhbətə tutsam da, özüm ayaqlarımı güclə sürüyürdüm, elə bil Jan Valjan kimi özümlə sürgün əzabı daşıyırdım. Amma qarşıma yepiskop Miriel çıxmadı – muzeyin qapısı bağlı idi. Sən demə, bazar ertələri muzey işləmirmiş.

"Place des Vosges" bağında dünya ədəbiyyat patriarxının bir vaxtlar əyləşdiyi skamyada oturub onun pəncərəsindən görünə biləcək yanakı evlərin pəncərələrinə baxırdım. Bu pəncərələrin birindən yazıçının yarım əsrlik bir sevgilisi baxarmış.

Deyirlər, Hüqo ailəli olmasına rəğmən sevdalısı Cülyetta Drueni də yaxında saxlayırmış. Harda yaşasa qonşuluqda ona ev tuturmuş. Bu o qadındı ki, Hüqoya görə aktrisa karyerasına son qoymuş, onu sürgündə belə tək buraxmamışdı.

Parkdan çıxanda özümə söz verdim ki, bir də gəlmək qismətim olarsa, ilk gedəcəyim iki yerdən biri Hüqonun bu ev muzeyi, o biri isə Əlimərdan bəy Topçubaşovun Müqəddəs Kloud qəbiristanlığındakı qəbri olacaq. Sağlıq olsun!

## Luvr – muzeylər kralı, krallar evi

Səhəri gün Luvr muzeyinin girişindəki şüşə piramidanı uzaqdan görən kimi Den Braunun "Da Vinçi şifrəsi" romanını xatırladım. Elə bildim, onun qəhrəmanı Robert Lenqdon kimi bu piramidadan keçib müəmmalar dolu bir dünyaya girəcəm.

Rəssamlıqdan, heykəltaraşlıqdan mənim kimi üzdən baş çıxaranlar Luvr muzeyini bir günə, lap istəsə yarım günə də dolanıb bitirər. Amma əsl incəsənət xiridarına onun hər bölməsini gəzməyə ən azından bir gün lazımdır.

Açığını deyim, məni burda gördüklərim nə qədər heyrətləndirdisə, bunca dünya sənət incisinin dəyərini bilib əsrlərlə qoruyan, nəsildən-nəslə ötürən xalqın fədakarlığı bir o qədər vəcdə gətirdi.

Fransız krallarının qış sarayı olmuş Luvrun divar və tavanlarına çəkilmiş rəsmlər, salonlarını bəzəyən heykəllər bir vaxtlar burada yaşamış kral ailəsinin zövqündən xəbər verir. Bu qədər gözəllik sənəti yaratmış mədəniyyətə heyran qalırsan.

## Mono Lizanın təbəssümü

"Mona Liza" adlı bir rəsmin mövcudluğundan 7-ci sinifdə oxuyanda xəbər tutmuşdum. Ağdamda mənə tarix dərsi demiş Asif müəllim onun dəyərindən danışanda deyirdi ki, dünya ekspertləri yığılıb bu əsərə qiymət qoya bilməyiblər.

Sovet vaxtı Leninqraddakı Ermitaj muzeyində sərgilənməyə gətiriləndə hava sərhədini keçərkən dörd sovet qırıcı təyyarəsi onu müşayət edibmiş. Heç dövlət başçılarını belə qarşılamırdılar. O vaxt yuxuma da girməzdi ki, bir gün dörd qırıcının qoruduğu o möhtəşəm "Mona Liza"nı üzbəsurət görəcəm.

Luvrun simvolunu ayrıca guşədə, gülləkeçirməz şüşə arxasında sərgiləyirlər. Muzeyin ən çox seyrçi yığan rəsmidir, qabağında basabas olur. Onu böyük tablo bilirdim, balacaymış, 77 x 53 santimetr. Özü də 4-5 metr aralıdan sədd qoyublar deyə, yaxınlaşa bilmirsən. Odur ki, dünya gözəli Cakondanın nə təbəssümünü duya, nə də "Da Vinçi şifrəsi"ni aça bildim.

## Rənglər allahı Mone

İstəyirəm nə vaxtsa Parisə yolu düşəsi dostlar mənim görmək istədiyim, amma çatdırıb dəyə bilmədiyim yerlərə də getsinlər. Məsələn, Orse muzeyi kimi. Çox sevdiyim fransız rəssamı Klod Monenin rəsmləri, əsasən, bu muzeydə sərgilənir. Təzəcə bitirdiyim "Çöl Qala" adlı povestin qəhrəmanı da Moneni sevir. Onun haqqında belə deyir: "Sanki Allah onu Yer üzünə ona görə göndərib ki, vaxt eləyib yarada bilmədiyi rəngləri yaratsın".

Fransız xalqı adı Fransa ilə qoşa çəkiləsi yüzlərlə, minlərlə şəxsiyyət yetirib. Moneni tərəddüd etmədən ilk onluğa salardım. Bu sətirləri yazanda öz Monemizi – Toğrul Nərimanbəyovu xatırladım. Ömrünün son çağlarında Şuşa deyib, xiffət çəkən rəssamın qəbri də Parisdə ziyarət olunacaq məkanlardan biridir.

## Eyfeldə Luvr qiymətinə şampan əyləncəsi

Səfərin üçüncü günü uşaqların ən çox can atdığı Eyfelə gəldik. Yayda Eyfel qülləsinə çıxmaq üçün saatlarla növbə gözləməlisən. Elə bu cür növbələrə görə istədiyimiz xeyli yerə gedə bilmədik. Uşaqlar inad eləməsəydilər, bəlkə, saatlarca gözləməyə hövsələm çatmazdı. Həm də özündə canlı tarix yaşadan Paris muzeyləri, kilsələri, park və xiyabanlarından sonra Eyfel adama attraksion kimi gəlir. Bilmirəm, o qədər möhtəşəm tarixi yerlərin əvəzinə buranı niyə şəhərin simvolu sayırlar. Yəqin, hündürlüyü, hər yandan göründüyü üçün.

Hər il 7 milyon adam Eyfel qülləsini görməyə gəlir. Adamlar onunla müxtəlif pozalarda şəkil çəkdirirlər, elə bil yanlarındakı “dəmir yığnağı” yox, Sofi Lorendir.

Qüllənin lap yuxarı qatınacan qalxdıq, açığı, əvvəl-əvvəl hündürlükdən hürkdüm, lap Hiçkokun “Başgicəllənmə” filmindəki kimi. Sonra alışdım. Uzun saatların yorğunluğunu Eyfelin zirvəsinə qaldırmaq kimi, elə o zirvədəcə Luvr muzeyinin bilet qiymətinə bir qədəh şampan almaq da adama səfehlik kimi görünə bilər, amma elə deyil, sadəcə, xoş əyləncədir.

Parisin “yeddinci qatı”nda – 324 metrlik hündürlükdə 12 avroya fransız şampanı… Heç Hitlerə də nəsib olmayıb bu əyləncə. Fransada belə deyim var: “Hitler Parisi tutsa da, Eyfeli fəth edə bilmədi”. Şəhərin işğalından sonra bura səfər edən Hitler qülləyə qalxmaq istəyib. Qalxa bilməyib! Lift xarab imiş. Bəlkə də hansısa fransız vətənpərvəri onu qəsdən sıradan çıxarıbmış.

## Senaya açılan “andeqraud” qapılar

Düz deyirmişlər, Parisin gözəllikdə tayı yoxdu. Düzdü, korpüləri qəşənglikdə Praqa körpülərinə çatmaz, amma tarixə şahidlik edən Paris körpülərinin altında “andeqraund” bir həyat var: pivələyən dostların yığnağı, öpüşən sevgililər, çaxır süfrəsi açan tələbələr, qaçışan idmansevərlər, mahnı çalan musiqiçilər və sair.

Bir körpünün altında rus, fransız və amerikan rəssamlar 30 avroya istəyənin portretini çəkir. Qabağa Nərgiz durdu, onun portreti çəkilincə rus rəssamları söhbətə tutdum. Məşhur sovet rejissorları Alov və Naumovun “Qaçış” filmində general Çarnotanın elə məhz bu körpünün altında dediyi tükürpədən monoloqunu xatırlatdım. Gənc rusun bu filmdən xəbəri yox idi. Saqqallı qoca rəssam isə sözümü göydə qapdı: “Я опять богат, но почему мне грустно?” (“Yenə varlıyam, bəs, niyə kədərliyəm?”). Vətən həsrəti haqda eşitdiyim ən təsirli sözlərdən biridir.

Yəqin Çarnotanın monoloqunu bu rus rəssamlara görə xatırladım. Əslində isə bütün günü fikrimdə məşhur Bakı milyonçuları Şəmsi Əsədullayevlə Musa Nağıyevin nəvəsi Ümmülbanu idi.

Bir vaxtlar vətəndən dərbədər düşən milyonlarla insan içində o da olub. 15 yaşlı qızcığaz Parisin bu gözəl küçələrində yaşamaq, ayaqda qalmaq, həyatın dibinə yuvarlanmamaq üçün məşəqqətli günlər yaşayıb, çabalar verib. Onun “Qafqaz günləri”, “Paris günləri” əsərlərini oxumayanlara tapıb oxumağı məsləhət görürəm.

Körpülərin altından yol alan qayıqların birinə elə Baninə köklənmiş ovqatla mindim. Körpüləri, məhlə və küçələri keçdikcə elə bilirdim, gözüm indicə o 15 yaşlı bakılı Ümmülbanuya sataşacaq.

Çay qırağı kilsə və evlərə tarixi vərəqləyirmiş kimi baxıb keçirsən. Qayıq da zaman kimidir, dayanmır. Sena boyu o baş-bu baş üzən qayıqlar elə bil fransız film və romanlarının qəhrəmanlarıdılar, Paris xiyabanlarında seyrəngaha çıxıblar, gəzişirlər.

Ağappaq balaca qayıq gözəllikdə sanki məşhur “Emmanuel” erotik filminin qəhrəmanıdı, ətrafa naz satır.

Uşaqlıq illərimin cazibədar müğənnisi Mirey Matyönün qayıqda səslənən füsünkar “Paris valsı” mahnısı ovqatıma bir başqa rəng qatır, qəribə duyğular yaşadır.

Eh, Paris, Paris, sən nə qədər adamı sehrinə salıb sevdalı duyğular yaşatmısan!?

## Napoleon türbəsi

Növbəti günə Fransa hərb tarixinə şahidlik edən “Des İnvalides”, bizim dildə “Əlillər Evi”nə baxmaqla başladıq.

Burada ordunun müxtəlif əsrləri əhatə edən döyüş ləvazimatı, hərbi geyimlər və silah-sursat sərgilənir. Kompleksin turistləri cəlb edən cəhəti Napoleonun burada basdırılmasıdır. Müqəddəs Yelena adasında dəfn olunan imperatorun qalıqlarını sonradan gətirib burda basdırıblar.

Mərmər döşəmə və divarlar, rəsmlər çəkilmiş hündür tavan əzəmətli memarlıq abidəsinə incə gözəllik qatır.

Napoleonun qəbrinə baxa-baxa Səmərqənddə Əmir Teymurun, İstanbulda Sultan Süleymanın türbələrini xatırlayıram. Tarixin özünü yaradan nəhəng şəxslərin aurası özlərindən sonra da qalır.

Böyük fatehlərin əzəmətli məqbərəsində qəribə hisslər keçirir, suallar düşünüb cavablar axtarırsan: insanlar bunca qanlar tökmüş adamları niyə sevir, adını yaşadır, qəbri üstə türbə, mavzoley tikir, ziyarət edirlər? Minlərlə adamın ölümünə bais olan bu insanları yaratmaqla Allah insanlara hansı mesajları ötürmək istəyir?

Onu da deyim ki, gördüyüm bu üç məqbərənin ən sadəsi Əmir Teymurundu, orada özünü elə Teymurun zamanında duyursan. Onun türbəsində yaşadığım ətürpədici qorxu duyğusunu Napoleonun məqbərəsində hiss eləmədim. Bəlkə Qarabağacan gələn Teymurdan genetik qorxu qalıb canımda, nə biləsən!

## Zəfər Tağı

Napoleon Avstriya üzərində qələbə münasibətiylə Zəfər tağı tikmək əmri verəndə simvolik anlam daşısın deyə əvvəl onu daşı daş üstündə qalmayan Bastiliya qalasının yerində ucaltmaq istəyiblər, sonra şəhərin dörd bir tərəfinə yol gedən mərkəzi bir yer seçiblər.

On iki küçənin yol aldığı Şarl de Qoll meydanında yerləşən əzəmətli Zəfər tağına axşam çağı çıxdıq. Günəş bathabatda idi. Qürub edən günəşin şüaları Parisə bir başqa gözəllik verirdi.

Tikintisi təxminən 30 il sonra bərpa edilən Zəfər tağı dahi sərkərdənin qələbə salnaməsidir. Abidə haqqında vikipediyadan ətraflı məlumat almaq olar deyə geniş yazmağa lüzum görmürəm. Sadəcə bir şeyi qeyd edim ki, Avropanın bir çox ölkəsində türklərlə döyüşü xatırladan abidəyə rast gəlmişəm.

Bir vaxt Varşavanın Lazienki parkında türkləri Vyana darvazası ağzında durduran Polşa kralı III Yan Sobolskinin at belində heykəli diqqətimi çəkmişdi. Atın ayaqları altında kraldan imdad diləyən iki nəfərin biri Atillanın hun döyüşçüsü, o biri isə Osmanlı ordusunun əsgəri idi. O heykəl haqda hələ 10 il əvvəl "Ağ Rusiyanın qara taleyi" essesində yazmışdım. İndi burada da türklərin Napoleona məğlub olduğu Əbu-Kir döyüşünü əks etdirən barelyef var.

Tarix təsadüflərlə doludu. 1785-ci ildə dünya səyahətinə çıxan fransız səyyahı Laperuz o vaxt Paris Hərbi Məktəbində oxuyan Napoleonu heyətə daxil eləmir. Ərizəsinə rədd cavabı verən səyyah onun yerinə astronomiyadan başı çıxan birini götürür. Tale elə gətirir ki, tarixə "Laperuz ekspedisiyası" adı ilə düşən bu heyət itkin düşür və geri qayıtmır. Napoleon da onlarla gedib itkin düşsəydi, Avropanın sonrakı tarixi necə olardı? Yalnız güman eləmək olar.

## Yelisey çölləri

Zəfər tağından düşüb məşhur Şanzelize bulvarıyla, bizim dillə desək, Yelisey çölləriylə gəzəndə əvvəl adam özünü əsl kübarlarsayaq ədalı görkəmdə hiss edir. Amma fransız sadəliyi tezliklə adama hakim kəsilir.

Küçə boyu uşaqlara elə bundan bəhs edirəm. Koko Şanelin moda dünyasında inqilabından söz açıram. Dəbdəbəli, amma narahat qadın geyimləri yerinə müasir dövrün sadə və rahat dəbini gətirdiyindən danışıram.

Bura dünyanın ən bahalı prospektlərindəndir. Dünyaca məşhur "Lido" kabaresi (Cabaret Le Lido) önündən keçəndə Bakının "Lido" restoranı yada düşür. Bir dəfə olmuşdum o restoranda. Amma buranın "Lido"sunu Nadir Qafarzadə, Xumar Qədimova ilə təsəvvür eləmək olmur.

Ümumiyyətlə, dünyanın hər şəhəri Parisdən çox şey "oğur"layıb. Eyfel qülləsi, Zəfər tağı kimi məşhur abidələri demirəm, arxitektura, moda bənzətmələrinə hər yanda rast gələrsən. Məsələn, Bakının yeni qəzet köşkləri formaca Paris köşklərinin eynidir. Təəssüf ki, yalnız formaca…

Bizimkindən fərqli olaraq, burada köşk öz təyinatı üzrə fəaliyyət göstərir, yəni qəzet satır. Kaş Bakı Parisi təkcə zahirən imitasiya eləməyəydi, məzmunca da ona oxşayaydı, bütün azadlıqları ilə birgə.

Azadlıq dedim, Parisin bu milyonçular küçəsində dilənməyin orijinal formasını tapan bir uşaqdan da danışım. Avropalılar bizim kimi hər dilənçiyə pul verən deyillər. Dilənçi gərək dilənməyin də kreativ yollarını tapa. Bax bu oğlan kimi. O, pul qabını iki mert uzunluğunda bir qarmağa keçirərək səkiyə uzadıb, sanki balıq tutacaqmış. Ötən hər üç adamın biri o qaba qəpik atmağı xoş əyləncə sayır.

## Versal

Fransız krallarının qış sarayı Versal Parisdən 30 kilometr aralıdır. Səfərimizin son günü bura gəldik. Giriş üçün beş uzun cərgədə növbə vardı. Dünyanın dörd bir tərəfindən gəlmiş turistlərə baxa-baxa, uşaqlara 1919-1920-ci illərdə Versalda Azərbaycan nümayəndə heyətinin ölkənin müstəqilliyini tanıtmaq üçün etdiyi ağılasığmaz fədakarlıqdan danışa-danışa vaxtın necə keçdiyindən xəbərim olmadı.

Sarayın zal və otaqları, dəhliz və pilləkənləri Luvr sarayı kimi gözəl olsa da, onun təkrarı deyil. Mənisə divarlardakı şəkillər yox, əsrlər boyu bu divarlar arasında baş vermiş hadisələr daha çox düşündürürdü.

Bu divarlar ABŞ kimi, Azərbaycanın da istiqlalının tanınmasına, sonralar bütün dünya azadlıqsevərlərinin mayakına çevriləcək Böyük Fransa İnqilabının baş sənədi – İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin qollanmasına şahidlik edib.

1871-ci ildə fransızları məğlub edən almanlar öz imperiyalarını burda elan etdiklər kimi, 1919-cu ildə alçaldıcı məğlubiyyət müqaviləsini də elə burda imzalamağa məcbur olublar.

Sarayın park və bağlarının isə dünyada bənzəri yoxdur. Çox imperatorlar belə saray və bağa sahib olmaq istəsələr də təkrarını yarada bilməyiblər.

900 hektarlıq ərazidə ağac, kol və güllərdən, hovuz və fontanlardan, heykəl və fiqurlardan möcüzələr yaradıblar. Uzun-uzadı yazmıram, internetdən Versal haqda ətraflı məlumat oxuyub şəkillərinə baxmaq yetər ki, insanın yaratdığı gözəlliyə heyran qalasan.

***

Paris beş günə gəzilib qurtarası şəhər deyil. Həftələr, aylar gərəkdir. Elə bu beş gündə gəzib gördüklərim də bir məqaləlik deyil, silsilə yazılar istər.

Bu yazını yazmaqda da məqsədim oxucuya Parisi tanıtmaq yox, sadəcə, bunu deməkdi: “Mən də Parisə aşiq oldum!”

**İyul, 2014**

# Vyanada Şuşalı günlər

*Avstriya paytaxtından xatirə söhbəti*

Ondan başlayım ki, Vyana bizim kimi günyarımlıq gəlinəsi şəhər deyil, bura ən azından dörd-beş günlüyə gəlmək lazımdır. Yüz illərcə tarixin cürbəcür memarlıq üslublarında donub qaldığı sarayları, gəzdikcə gəziləsi küçə və xiyabanları, baxdıqca baxılası muzeyləri var. Dinləməyə konsertlərini, operalarını demirəm heç.

Əslində bu yayın səyahət proqramında yalnız Polşanın şəhərlərinə səfəri nəzərdə tutmuşduq. Gəmi-bərə ilə Baltik dənizini keçib, uşaqları Qdanskda "Solidarnost" hərəkatının tarixi ilə, Varşava, Krakov, Vroslav kimi şəhərlərdə tarixi yerlər və muzeylərlə tanış etmək, Osvensimdə faşistlərin "konslager"ini, Torunda Kopernikin evini göstərmək idi qəsdim. Araya salıb, yolüstü tamam fərqli bir yerə – Vyanaya da dəymək qərarını son anda verdik. Odur ki, bu şəhərə cəmi iki gün ayıra bildik.

Sizə bir məsləhət verim, Vyanaya səfər edəndə bizim kimi etməyin, yəni Habsburqların özlərindən sonra qoyduqları mədəniyyəti görüb tam anlamaq üçün Praqa-Budapeşt-Vyana marşrutunu seçin!

***

Avstriya sərhədini keçən kimi uzun illər kommunist rejimində yaşamış Polşa və Çexiyadan fərqli ölkəyə gəldiyini hiss edirsən. Uzaq Alp dağları fonunda yaxın yamaclar, üzümlüklər, laləzar çəmənliklər xoş uşaqlıq xatirələrimi göz önünə kino lenti kimi gətirir.

Eniş-yoxuşlar boyu dolama yolları uşaqlara göstərib Qarabağa bənzədirəm, Ağdamdan Şuşaya gedən yoldu elə bil, deyirəm. Maraqlı gəlir, boylanıb baxırlar.

Vyanada qaldığımız müddətcə Qarabağa, Şuşaya köklənən ovqat məni tərk eləmədi. Bir-bir yazacam, qaynağını biləcəksiniz.

Çoxunuza bəlkə də qəribə gələr bu bənzətmə – cəmi əlli-altmış il ömür sürən balaca bir xanlığın paytaxtı Şuşa hara, əsrlərcə neçə imperiyanın baş şəhəri olmuş Vyana hara, deyərsiniz.

Tarixlərinin əzəmətindən yox, bu şəhərlərin musiqili taleyindən danışıram – Şuşa Azərbaycanın musiqi beşiyi sayıldığı kimi Vyana da dünyanın musiqi mərkəzi hesab edilir. Altı yüzillik Habsburqlar sülaləsinin idarə etdiyi dövlət və imperiyaların siyasi paytaxtı olduğu kimi, Vyana, həm də Avropanın mədəniyyət mərkəzi olub.

Şəhərin adı Haydn, Mosart, Bethoven, Şubert, atalı-balalı Ştrauslar kimi klassik bəstəkatların adı ilə bağlıdır. Sevgi novellalarının bənzərsiz ustadı Stefan Sveyqin adını qoy ayrıca çəkim!

Vyana haqda hər cür məlimatı internetdən əldə etmək olar, odur ki, uzun tarix açmayacağam, eləcə təəssüratımı bölüşəcəm.

Az bir vaxtda nə qədər yerə getmək olardısa, o qədər yerə baş vurduq, çaparaq gəzdik. Siz gələndə arxayın dolanıb bu yerlərə öz gözünüzlə baxarsınız, hələlik mənim nəzərlərimlə seyr edin.

## Dunay sahilində Hacıbəyov heykəli

Maşını birinci Üzeyir Hacıbəyovun heykəli olan Dunay parkına sürdüm. Park Dunayın ortasındakı adada yerləşir. Şəhərin bu yerində çay ikiyə bölünür, qoşa kanalla axır.

Bu yer bir suyu Şuşanın "dom otdıx" dediyimiz istirahət evinin bağçasına oxşayır. Elə bu oxşarlıq fikrimi uzaq 1981-ci ilə apardı. Heykəlin torun-tozun silə-silə uşaqlara onlar yaşda olanda həmin bağda Üzeyir bəy haqda "Uzun ömrün akkordları" filminin çəkilişlərinə tamaşa etməyimi danışıram. Anardan tutmuş Qədir Rüstəmovacan xatırlayıram. Elə bilirlər, qədim zamanlardan, uzaq ölkələrdən nağıl deyirəm.

Yeri gəldi qoy, elə birini də sizə söyləyim! Demək, bir yay həmin istirahət evində dincəlirdik. Səhər yeməklərinin birində yeməkxana divarına vurulan afişada oxuduq ki, Cıdır düzündə konsert olacaq. Axşamı böyüklərimizlə yığışıb getdik. Konsert uşaq marağımıza tuş gəlmədi – simfonik orkestr nəsə qəliz musiqi çaldı. Sonralar dünyanı dərk edəndə o konsertin dəyərini anlayacaq, göyüm-göyüm göynərti ilə xatırlayacağam. Xatırlayacağam ki, o isti yay axşamı Cıdır düzündə simfonik orkestr maestro Niyazinin dirijorluğu ilə "Koroğlu" üverturasını çalırmış.

Bilmirəm, uşaqlara bunun nə demək olduğunu tam duydura bildim, ya yox! Amma bir qədər yaşlı adamlar, xüsusilə də Şuşanı görənlər "Cıdır düzü", "maestro Niyazi", "Koroğlu üvertürası" sözlərindən gözəl bir xəyal qurar, onların yaratdığı harmoniyanı hiss edərlər, düşünürəm.

## Bethovenin ev muzeyində

Hoteldə otaqlarımızı tutandan sonra əvvəlcədən hazırladığımız proqram üzrə Mölker Bastei 8 ünvanına piyada yol aldıq.

Bethovenin "Ay işığı" sonatasını Bethovenin evində dinləmək də varmış! Onu ilk dəfə Qreta çalanda eşitmişəm. Səkkiz, ya doqquz yaşındaydım. Qriqoryan Qreta Bakı ermənisi idi, Ağdam Musiqi Texnikumunda oxuyurdu. Evimizin birinci mərtəbəsində kirayə qalırdı. İllər uzunu hər səhər yuxudan onun, başqa qızların çaldığı musiqilərlə oyandım.

İndi burda, Bethovenin evində həmin musiqini dinləyəndə xəyalım artıq Yer üzündən silinmiş bir şəhərin mən olan çağlarına getdi. Zaman maşınına minmişdim elə bil. Heç nə eşitmirdim, Bethovenin özü kimi kar idim. Eşitmirdim, amma onun musiqisini dumanın, tüstünün yerdən qalxan halı kimi görür, yağış isladan torpağın ətri kimi qoxulaya bilirdim…

Divardan asılan Bethovenin "Ay işığı" sonatasını həsr etdiyi Cülyetta Qviççardinin portretidir. Çoxsaylı sevgi yaşayan Bethoven heç vaxt evlənməyib. Ölümündən sonra tapılan son məktubunda mirasını naməlum qadına vəsiyyət edib. Rejissor Bernard Rouzun çəkdiyi

“Ölümsüz sevgili” adlı film elə o məktubdan bəhs edir. Düzdü, filmdə məktubun kimə yazıldığı sonda bəlli olur, amma bəstəkarın bioqrafları məktubun ünvanlandığı qadının kimliyini dəqiqləşdirə bilməyiblər.

Muzeyin pilləkənləri ilə düşdükcə Bülbülün Şuşadakı ev-muzeyini xatırlayırdım. Yamyaşıl baxçanın içində kürsülü, sürahili bir ev idi. O muzeydə ən çox yadımda qalan eksponat ona İtaliyada verilən bir orden idi. Deyirdilər ki, bu ordeni taxan paradda hamıdan qabaqda gedə bilər. O vaxt elə fəxr eləmişdim ki Bülbüllə…

## Mosartgilə qonaq getmək

Bethovenin mənzilindən Mosartın Domgasse küçəsi, 5 saylı binada yerləşən evinə Siebensterngasse küçəsindən keçib getdik. On beş dəqiqəlik yol bir an kimi gəldi.

Orta əsr barokko memarlıq üslubu ilə müasir dizaynlı binaların bir-birini əvəz elədiyi binalara baxa-baxa keçəndə elə bilirsən, zaman sənsiz ötür, xəbərin olmur. Buralara yolunuz düşsə, brend dükanlara baş çəkib vaxt itirməyin, elə çölə açılan vitrinlərdə qiymətləri görüb heyrət etməyiniz yetər.

Mosartın muzeyinə baxış litflə çıxdığımız axırıncı mərtəbədən başladı. Audio-bələdçini dinlədikcə gözümün önündə Miloş Formanın “Amadeus” filmi canlanırdı. Məni o filmə baxmağa bayaq haqqında danışdığım evimizin kirayəçi qızları həvəsləndirmişdi. Bir qış gecəsi “Retro” proqramında baxmışdıq o filmə. Uşaqlığımın son çağları idi. Elə o vaxtdan milyonlarla insan kimi, mən də Mosartın ecazkar musiqisinin sehrinə düşdüm.

Sonralar “Çöl Qala” povestində Mosartın “Rekviyem”i haqda bunları yazacaqdım: “Rekviyem” bəşəriyyətin musiqili tarixidir. Burada insanın yaranışı, yaşamaq uğrunda mübarizəsi, hiss və duyğuları, sevgisi və nifrəti, arzu və umudu, yerdəki tufan, zəlzələ və vulkanlar, sərin səba yelləri, bu dünyanın cənnət və cəhənnəmi, bir sözlə, Yer kürəsinin genetik kodu cəmlənib. Mosartın “Rekviyem”i İnsanın Kainata mesajıdır”.

Dahi bəstəkar muzeyin yerləşdiyi binanın son mərtəbəsində yaşayıb, şəhər hakimiyyəti sonralar o biri mərtəbələri də alıb muzeyə verib. Audio-gid deyir ki, bəstəkar Vyanada on üç ev dəyişib, əksər dahilər kimi onun da özünəməxsus əhlikefliyi varmış. Burda yaşadığı iki il maddi cəhətdən imkanlı vaxtına təsadüf edir. Deyilənə görə, Vyanaya təzə gələndə üzbəüz binanın zirzəmisində yaşayan Mosart tez-tez həsrətli baxışlarla bura baxıb deyərmiş: “Bir gün gələcək o binada yaşayacam”. Və yaşayıb…

Muzeydə sərgilənən eksponatların heç biri bəstəkarın deyil. Qulaqcıqlardan dinlədiyim audio-gid söyləyir ki, muzeydə Mosartı xatırladacaq tək şahid mənzilin divarlarıdı. Hətta hansının yataq, hansının qonaq otağı olması belə ehtimal edilir. Ev-muzeyləri ona görə xoşlayıram ki, heç bir eksponat olmasa belə sahibini duya, həyatını fantaziyanla təsəvvür edə bilirsən. Sizi bilmirəm, hərdən məndə alınır belə şey. Bax, bu pəncərə qırağında Mosartı şıltaqlığı ilə tez-tez küsdürdüyü Konstansiyanın könlünü alan gördüm. Düz sözümdür!

Həmişə komfort arzulayan bəstəkarın həyat yolu acılarla doludur. Dəbdəbəli əyləncə gecələrini sevən Mosartın pulla amansız rəftarı tez-tez onu varlı himayədarlardan borc istəməyə vadar edərmiş. Sonra maddi sıxıntılarına onu ölümə aparan xəstəlik də əlavə olunur.

Qəribədi, dünyanı heyran qoyan həmişəyaşar əsərlər xoşbəxt həyatda yox, kədər və iztirablarla sürülən ömürlərdə yaranır. Kamil əsər sevincdən yox, qüssədən doğulur.

Söz açdığım filmə baxsanız, xüsusən də, onun sonuna diqqət etsəniz, ağır xəstəlikdən ölən, dəfninə pul olmadığından ümumi məzarda basdırılan bəstəkarın həyat dramını tam acılığı ilə duymuş olarsınız.

Muzeydə şəkil çəkməyə icazə vermirdilər. "Oğurluq" yalnız birini çəkə bildim. Belə "oğurluq" jurnalist adətimdən qalmadı, qüsura baxmayın!

## Vyananın simvolu

Müqəddəs Stefan kilsəsi Vyananın Innere Stadt adlanan mərkəzi hissəsində yerləşir, bizim dillə desək, İçərişəhərində, ən qədim yerində. Köhnə Vyana Dunayın cənub sahilində yerləşir. Çayın şimalı, əsasən, son dövrlərin tikililəridir.

Bir neşə yüz ilə inşa edilən kilsə 1511-ci ildə indiki görkəmini alıb. Tək Vyananın yox, elə Avstriyanın da milli simvolu sayılır.

Vyananın demək olar, hər muzey və tarixi abidəsində Osmanlı imperiyası ilə müharibələr xatırlanır. Məsələn, bu katolik kilsəsinin tarixində xüsusi yazılır ki, ona arxiyepiskopluq statusu yalnız osmanlı ordusu geri çəkiləndən sonra verilib.

## Şönbrunn – kralların yay sarayı

Türklər Habsburqlar sülaləsinin uzun əsərlər boyu yay sarayı olmuş Şönbrunnun (Schönbrunn Palace) tarixində də yad edilir. İndi muzey olan sarayın audio-gidi söyləyir ki, 1683-cü ildə türklərin başlatdığı II Vyana Savaşında saray dağılıb, sonra onu fransız krallarının Versal sarayı nümunəsində bərpa etməyə başlayıblar. Saray, onun füsunkar bağı kraliça Mariya Terezanın zamanında indiki görkəmini alıb.

1441 otağı olan sarayın aldığımız biletin imkan verdiyi qədər odasını gördük. Otaqdan otağa, zaldan zala keçdikcə, audio-gidin söylədiklərini dinlədikcə elə bilirsən hər addımın tarixin bir dövrüdü, ayağının ucunda keçirsən.

Bu, Napoleonun Avstriyanı işğal edəndə yaşadığı otaqdı! Bu salonda kral üçün piano çalanda Mosartın 6 yaşı varmış! Xruşşovla Kennedi yüksək səviyyədə ABŞ-SSRİ görüşünü bu zalda keçiriblər. Hansı birindən yazasan!

## Məşhur Şönbrunn bağçası

Saraydan çıxıb bağa keçəndə nə görsəm yaxşıdı?! Sevimli gülüm – sarmaşan qızıl gül! Uzun bir talvara dırmaşdırıblar.

Bizim Ağdamda bir ara dəb idi bu gül. Gül həvəskarları hasarboyu əkirdi, uzanıb barıdan küçəyə aşırdı. Yazda qızılgüllü məhlələrdən keçəndə adamı cənnət iyi vururdu. Peşman oldum bunu uşaqlara deməyə. Yalan olmasın bəlkə yüz cür şəkil çəkdirdilər.

Şönbrunn parkın "Labirint bağı"nda hündür yerə çıxdım ki, uşaqlar azanda yol göstərə bilim. Bir vaxtlar kral uşaqlarının sevimli oyun yerində indi böyüklü-kiçikli hamı dolana-dolana qalır.

Labirintdən çıxışı göstərmədim, dedim, həyat yolu da belədi, çalışın özünüz tapın. Onlar yolu tapıb çıxanacan hövsələmi basıb gözlədim!

## Mariya Terezanın heykəli

Müqəddəs Roma İmperiyasının kralıçası Mariya Terezanın təkcə heykəli əzəmətli deyil, elə özü də möhtəşəm xanım olub. İki Avstriya imperatorunun, Fransa və Siciliya kraliçalarının anasıdı.

Bu hökmdar qadın elmdə, təhsildə, maliyyə və idarəetmədə o qədər köklü islahatlar aparmaqla yanaşı, Yeddiilik müharibədə də iştiraka necə vaxt tapıb?! Dünyaya on altı uşaq gətirdiyini də düşünəndə, məəttəl qalırsan. Heykəldə onu dövrələyənlər ona dövləti idarə etməyə kömək eləmiş yaxın əyanlarıdır.

Avropa tarixində əzəmətli xanımlar olub, fransızlarda Katerina Mediçi, ruslarda II Yekaterina, ingilislərdə Viktoriya belə qadın hökmdarlardandı.

Hökmranlığı əlindən alınsa da xanımlığı ilə könülləri fəth eləyən Natəvan da bizim Qarabağın xanzadəsi idi. Bənzətməmi uğursuz sayacaq oxucuya onu deyim ki, qəriblikdə vətən tarixi də adama əzəmətli gəlir, o tarixi yazan adamlar da! Yoxsa bu heykələ baxanda Natəvanın Bakıdakı o balaca abidəsi hardan yadıma düşərdi ki…

## Belveder sarayı

Belveder adını ilk dəfə "İnam" Plüralizm Mərkəzində işləyəndə eşitmişəm. Beynəlxalq konfranslar təşkil edərdik. Bəzən xarici dostlar mənə suvenirlər, içkilər hədiyyə gətirərdilər. Bir dəfə biri "Belveder" adında araq gətirmişdi. Sonra öyrəndim ki, xeyli bahalı imiş.

Belveder italyanca "gözəl mənzərə" deməkdi. Saraya elə Vyana botanika bağından keçib getdik.

Kompleksə barokka stilində tikilmiş iki nəhəng saray, möhtəşəm bağ, böyük hovuz daxildir. Türklərlə müharibədə ad çıxarmış, dövrünün qüdrətli sərkərdələrindən olan Savoy şahzadəsi Yevgeni tikdirib. Ölümündən sonra sarayı Mariya Tereza alıb.

Məşhur Avstriya Qalereyası burda yerləşir. Elə saraylardakı rəsmlərə baxmağa bir gün vaxt lazımdır.

Aşağı Belveder sarayını dolaşıb, hektarlarla sahəni əhatə edən bağı gəzəndən sonra Yuxarı Belveder sarayına keçməyə tələsməyin, sarayın sağ böyründəki kafedə dondurma yeyin, ya da kofedən, çaydan için.

Dincinizi alandan sonra 1955-ci ildə Avstriyanın Müstəqillik Bəyannaməsi imzalanan bu möhtəşəm saraya baxmaq olar.

## Hofburq – kralların qış sarayı

Avstriya krallarının qış sarayı. 1654-cü ildə tikilib, zaman-zaman müxtəlif təyinatlı başqa tikililər də əlavə olunub.

Məsələn, bu, kral VI Karlın vaxtında tikilmiş at tövləsinin tavanıdır.

Arxadakı bu əzəmətli bina isə sarayın başqa bir hissəsidir, indi burada Avstriya Milli Kitabxanası yerləşir. Onu da VI Karl tikdirib, 1754-cü ildə – Şuşa Qarabağ xanlığının mərkəzi elan edilən il.

7 milyon nüxsədən çox kitab saxlanılır, aralarında qədim papiruslar, əlyazmalar da var. Qarşısındakı atlı heykəl həmin o Savoy şahzadəsi Yevgeninindir. Sarayın içərisinə girməyə vaxt olmadı, çünki cavan bir maestro ilə görüşümüz vardı…

## Vyanada bala Niyazi ilə görüşmək

Bayaq maestro Niyazidən söz saldım, elə Vyana Musiqi Akademiyasında dirijorluq təhsili alan Abuzər Manafovla görüşəndə də ağlıma Niyazi gəldi. Elə bildim gələcəyin Niyazisi ilə görüşürəm.

Abuzərgilin ailəsində hamı musiqiçidir, İstanbulda yaşayırlar, atası tanınmış pianoçu İslam Manafovla da, bacısı Turanla da elə feysbukda dostlaşmışıq. Gənc dostumuzla görüşümüz maraqlı oldu, gördük ki, o, tək istedadlı musiqiçi deyil, həm də sadəqəlbli vətənsevərmiş.

## Alp çeşməsi

Vyananın küçələrindəki bulaqların suyu Alp dağlarından gəlir. Dodağını dirəyib iç, içə bildikcə. Uşaqlara Ağdamda çay daşlarından düzəldilmiş bulaqlardan danışıram, Qaraqaya kəhrizindən axardı. Şuşa küçələrindəki belə bulaqların suyu isə Turşsudan gəlirdi. Turşsuyu həm içirdik, həm də gözümüzə tuturduq. Deyirdilər, gözə xeyirdi.

Alp dağlarının da suyu elə Qarabağ bulaqlarının suyu kimidi, buz kimi, şipşirin.

## Vaxta sığmayan məkanlar

Adam vaxtın qədrini yaşa dolduqca bilir. O qədər boşuna vaxt öldürmüşük ki, elə bilmişik, bitib tükənən deyil. Sonralar, gərdişi-dövrandan az-çox baş çıxaranda vaxtın dəyərini bilirsən. Onu qızılla ölçənlər də var hələ, onları demirəm heç. Sizi bilmirəm, məndə son vaxtlar yaranıb bu hiss – elə bilirəm, baxmaq istədiyim yerləri, görmək istədiyim işləri vaxt azlığından çatdırıb görə bilməyəcəm. Tələsirəm!

Vyana kimi şəhərdə günyarımlıq zamanın hər dəqiqəsini qənimət bilsək də görüləsi yerlərin çoxuna çatdırıb görə bilmədik. Məsələn, İohann Ştraussun Praterstrabe 54 ünvanındakı ev muzeyinə gedərdim həvəslə. Onun "Mavi Dunay" valsını elə Dunayın sahilində dinləsə idım ömür boyu sağa-sola xərclədiyim milyon-milyon anın ən qiymətlilərindən birini yaşamış olardım. Bu böyük bəstəkarın Rusiyadakı sevgisindən bəhs edən "Peterbuqla vidalaşma" adlı sovet filmini görən mənim kimi sovetdənqalma hər bir adam ora getməyə can atar, mənə belə gəlir.

Yaxud Nubdorfer Strabe küçəsi, 54 saylı ünvanda yerləşən Frans Şubertin ev muzeyinə gedərdim. Cəmi 31 il yaşamış bu dahi o balaca ömrünə nələri sığdıra bilibmiş! 600 musiqi əsəri, 9 simfoniya. Musiqidə romantizmin əsasını qoyan Şubert elə təkcə pianoda dördəllə çalınan "Fantaziya"sı ilə əbədi şöhrətini saxlayardı, fikrimcə. İnanmırsınızsa, yutubda tapıb dinləyin, dəlisiyəm onun.

Sevgi novellalarının bənzərsiz ustası Stefan Sveyqin Kochgasse, 8 ünvanında yerləşən balaca mənzil-muzeyinə də baş çəkər Sveyqə aşiq olan kəs, hələ desən, onun Salzburq şəhərindəki muzey-mərkəzinə də gedər, baxmaz 300 kilometrlik yola.

Sveyq yaradıcılığı ilə tanışlığım "Naməlum qadından məktub" novellası ilə başlayıb, sevgi romanları oxuyan vaxtlarım idi onda.

Bu şəhərə yolunuz düşsə, bir də mütləq onun operasına gedin, ya bir tamaşa olsun, ya konsert, fərq etməz, biletin bahalığına fikir verməyin, alıb baxın, dinləyin. Həyat adama bir dəfə verilir, Vyanaya da hər gün gələsi deyilik ki! Dünya musiqisinin beşiyində də konsertə getməyib harda gedəcəyik? Şansınızı qaçırmayın! Amma küçələrdə addımbaşı sizi konsertə dəvət edənlərin felinə uymayın, əsl musiqi onlar çalan deyil.

*******

Beləcə, bu füsunkar şəhərdən ayrılıb marşurutumuzdakı başqa Avropa şəhərlərinə yol aldıq. Uşaqlar bir də gələcəklərini dedilər. Vyananı mən də sevdim, həm də ona görə ki, mənə Qarabağlı günlərimi epizod-epizod yaşatdı!

…Şuşanın havasını alan kimi oldum!

Şuşada da Vyananı xatırlamaq arzusuyla.

**İyun, 2016**

# Varşava – azadlıq və sevgi şəhəri

*Şopen, Osvensim, Kopernik*

Varşava adına ilk dəfə evimizdəki köhnə valların üstündə rast gəlmişəm. Rəşid Behbudovun atası Məcid Behbudovun, Cabbarın səs yazıları, rus romansları olan vallar 1898-1910-cu illər arası Varşavada yazılmışdı. Oxuda bilməsək də, atam onları atmırdı, atasından qalan əziz xatirə kimi saxlayırdı.

Sonralar işimlə bağlı Polşaya tez-tez səfər elədim. Yalan olmasın, bəlkə bir iyirmi dəfə.

Hər dəfəsində onu bir başqa yöndən tanıdım, adi baxışla belə sezilən sürətli inkişafına şahid oldum. Misal üçün onu deyim ki, 20 il əvvəl Minsk-Varşava qatarı ilə bu ölkəyə ilk səfərimdə vaqonun pəncərəsindən tarlada xışla yer şumlayan görəndə təəccüblənmişdim. Xışı ata qoşmuşdular. O vaxtdan bu ölkəni elə o qatar sürətiylə kommunizmdən uzaqlaşan, bütün varlığı ilə sərhədləri təzəcə açılan Qərbi Avropaya can atan gördüm.

***

Maşınla çıxdığım bu dəfəki Polşa səfərim isə əvvəlkilərdən fərqlidir. İndi ailəmləyəm, uşaqları gəzməyə, görməyə, tanımağa gətirmişəm.

## “Varş və Sava” əfsanəsi

Varşava Visla çayı sahilində yerləşir. Əfsanəyə görə, Varş adında bir balıqçı bu yerdən üzüb keçərkən sehrli bir səslə oxunan gözəl mahnı eşidir. Səs onu valeh edir, tilsimləyir. Varş mahnı oxuyanı axtarıb tapır. Tapır və heyrətlənir. Sən demə, o sehrli səsin sahibi Sava adlı qəşəng bir su pərisi imiş – yarı qız, yarı balıq.

Varş su pərisinə aşiq olur, onu evinə gətirir, amma Sava bütün günü göz yaşı tökür, “susuz yaşaya bilmərəm, məni çaya qaytar”, – deyib yalvarır. “Mən axı səni sevirəm!” “Elə sevdiyin üçün yaşat məni, qaytar ora, sənin qoruyucun olaram, hər cür bəladan hifz edərəm”.

Sevgilisinin bu halına dözməyən Varş onu çaya gətirir. Onlar elə buradaca evlənib yurd salırlar. Sava dediyi kimi də edir, ailəsini, təzə yurdunu qoruyucu mələk kimi təhlükələrdən qoruyur.

Varşava sözü Varşla Sava adlarından yaranıb. Əlində qılınc və qalxan tutan su pərisi bugünkü Varşavanın emblemidir.

## İşğallar ölkəsi

Elə bil Varşavanı gözləyən saysız-hesabsız təhlükələr Savaya əyan imiş. Bilirmiş gələcəkdə nələr gələcək bu şəhərin başına.

Ölkə dəfələrlə istilaya məruz qalacaqdı, neçə-neçə müharibəyə meydan olacaqdı. Qonşuların biri qoşunu Qərbdən salanda, o biri Şərqdən çəkəcəkdi. Sözləşib aralarında bölən vaxtları da olacaqdı Polşa torpaqlarını. Amma heç biri onun azadlıq əzmini qıra bilməyəcəkdi. Hər dəfəsində polyak xalqı yadellilərə qiyamla cavab verəcəkdi.

İkinci Dünya müharibəsində Varşava tamamən dağıdılmışdı. Bizim Ağdamın indiki günündə idi. Bu bənzətmə Ağdam xarabalıqlarını görən polyak kökənli ABŞ diplomatı Metyu Brayzaya məxsusdur.

1944-cü ildə Polşa Müqavimət Hərəkatının faşistlərə qarşı qaldırdığı qiyam qanda boğuldu, şəhər yerlə-yeksan edildi. Qiyamın Londonda yerləşən gizli hökumətə bağlı olması səbəbindən sovet ordusu Vislanın Şərq sahilində gözləmə mövqeyi tutdu, müdaxilə etmədi. Polyak dostların çoxu bunu Rusiyanın tarix boyu onlara etdiyi çoxsaylı zülmlərdən ən dəhşətlisi sayır.

Varşava xarabalıqları Roman Polanskinin 2002-ci ildə şəkdiyi "Pianoçu" filmində iri planda təsvir edilib.

Müharibədən sonra şəhər yenidən tikilib. Onun Stare Miasto adlanan qədim hissəsi əvvəl olduğu kimi – XVII-XVIII əsrlərin çertyojları əsasında bərpa olunub.

Elə həmin yerdəcə booking.com saytından xudmani bir mənzil kirayələdim.

Mənzilimizin pəncərəsi Rynek Starego Miastaya, yəni Bazar meydanına açılır. Şuşada buna oxşar yerə Bazarbaşı deyərdik. Qələbəlik bir yerdir. Çoxlu suvenirlər satılan butikləri, kafe-restoranları var.

Qəsr meydanı (Plac Zamkowy) burdan bir məhəllə aşağıdadır. Kral sarayının darvazası bu meydana açılır. Darvazadan keçib sarayın həyətinə giririk. Uşaqlara iştirakçısı olduğum konfransların birində Varşava merinin burada verdiyi ziyafət haqda danışıram. Onların "İrena nənə" çağırdıqları İrena Lasotanın sonralar Polşa prezidenti olan Lex Kaçinski ilə məni tanış eləməsindən söz açıram. Onda Varşavanın meri idi. Uşaqların onun təyyarə qəzasında ölməsindən, bu haqda yazdığım "Xilas missiyalı ölüm" adlı məqaləmdən xəbərləri yox imiş. Evə qayıdanda oxuyacaqlarını deyirlər.

Kral Ziqmund III Vasanın (eyni zamanda İsveç kralı və Böyük Litva knyazı idi) 8,5 metrlik sütun üstündəki tunc abidəsi də Qəsr meydanındadır. 1644-cü ildə tikilib. Müharibə vaxtı faşistlər vurub heykəli yerə salıbmışlar. Onu da sonra bərpa ediblər.

Meydanın elə bura yaxın yerindən köhnə qala divarlarının qalıqları görünür. Divar köhnə şəhərlə təzə şəhər arasında yerləşən Barbakan (yarımdairəvi hərbi tikili) abidəsinədək uzanır. Buralar turistlərin çox gələn yeridir.

Qala divarlarının qalıqları başlayan yerdə Katın faciəsi qurbanlarının şərəfinə qoyulmuş abidə var. 1939-cu ildə Polşanın şərq torpaqlarını işğal edən sovet ordusunun əsir götürdüyü polyak zabitlərinin kütləvi güllələnməsi faktını faşistlər aşkarlayır, "kommunist vəhşiliyi" deyib dünyaya car çəkirlər.

Tarixə "Katın qırğını" kimi düşən faciə haqda məşhur polyak rejissor Anje Vaydanın çəkdiyi "Katın" filmində ətraflı bəhs olunur.

Sonra Świętojerska küçəsində vaxtilə yəhudi gettosunun divarları keçən yerdə qoyulmuş abidə önünə gəlirik.

Uşaqlar yəhudilərin tarixindən, zaman-zaman düçar olduqları talan və qırğınlarından dediklərimi həvəslə dinləyirlər, sual verirlər. "Azərbaycan yəhudilərin incidilmədiyi tək-tük ölkələrdəndi" deyib dağ yəhudilərindən də söz salıram.

## BİRİNCİ HAŞİYƏ. Ölüm muzeyi

*Yəhudilərdən danışdığımız günün səhəri Krakova yollanmaqda əsas məqsədim uşaqlara Osvensim həbs düşərgəsini göstərmək idi. Almanların Auşvitz dediyi ölüm düşərgəsi Krakovdan 60 kilometr aralıdır.*

*Muzey kompleksə üç düşərgə daxildir. Auşvitz I əvvəl düşərgə kimi istifadə olunub. Auşvitz II və Auşvitz III düşərgələri tikiləndən sonra əvvəlkini ümumi düşərgə kompleksin inzibati ərazisi ediblər.*

*Auşvitz faşistlərin bir çox yerdə yaratdığı düşərgələrin ən böyüyüdür. Burada milyondan çox yəhudi, on minlərlə qaraçı, polyak və sovet əsiri məhv edilib.*

*Ot tayası boyda insan saçı, qalaq-qalaq eynək, çemodan, ayaqqabı, əlil protezi adamda vəhşət duyğuları yaradır.*

*Bəli, bura Yer kürəsinin ən vahiməli yeridi. Qaz kamerasından keçib krematoriyaya girəndə elə bilirsən milyonlarla insanın bağırtısı qulağında cingildəyir.*

*Uşaqların üzündə əvvəllər rastlamadığım ifadə vardı. Balaca Ayanın gözlərindəki qorxu qarışıq kədəri görəndə bir anlıq onları bura gətirdiyim üçün özümü qınadım. Sonra ətrafda yüzlərlə turist arasında onlardan da kiçik uşaqlara baxdım, daha qınamadım.*

*Səfər öncəsi Stiven Spilberqin "Şindlerin siyahısı", Uve Bollun "Auschwitz" kimi filmlərinə birgə baxmışdıq deyə onları hazırlıqlı bilirdim. Görünür, muzey daha real təəssürat yaradırmış.*

## Qiyamlar diyarı

Divar boyu gəzintini davam edirik. 1944-cü il qiyamında iştirak etmiş uşaqların xatirəsinə düzəldilən heykəlin (Pomnik Małego Powstańca) önündə dayanırıq.

Uşaqlara Polşa tarixində olan qiyamlardan danışıram. 1830, 1863-cü illərdə Rusiya imperiyasına, 1944-cü ildə alman faşistlərinə, 1980-ci ildə kommunist rejiminə qarşı "Solidarnost" hərəkatından bildiklərimi deyirəm. Ötən yay Gdanskda olanda "Solidarnost" muzeyində olmuşduq, hərəkatın başladığı gəmiqayırma zavoduna getmişdik.

Dolanıb Bazar meydanına gəlirik. Burda saysız-hesabsız restoran-kafenin səyyar filialı var. Baxa-baxa keçirik. Menyüsündə əsasən polyak milli yeməkləri olan "Zapiecek" kafesini seçirik.

Kəmərin altını bərkidib qələbəlikdə gəzintiyə davam edirik. Axşam düşüb, şər qarışsa da, heç kim evə tələsmir.

Adamların sıx olduğu küçənin tinində bir dəstə gənc musiqiçi ötənlərin diqqətini çəkməyə çalışır. Yaxınlaşırıq. Yaraşıqlı qız skripkada tanış musiqi çalır. Uğura işarə edirəm ki, qoşul

bunlara. Əvvəl utanır. Sonra qızdan skripkanı elə ərklə istəyir ki, sanki yüz ilin dostudur. Alıb əla bir popuri çalır.

## Şopenin ürəyi

Növbəti günün səhəri Müqəddəs Xaç kilsəsində (Kościół Świętego Krzyża) Şopenin ürəyi gömülən sütunun yanında uşaqlara dedim ki, qəlbi ilə dinləməyi bacaran kəs bu ürəyin döyüntüsünü eşidə bilər. Elə inamla söylədim ki, dediyimə az qala özüm də inandım.

İyirmi yaşında Polşanı tərk edəndə bir daha qayıtmayacağı Şopenin ağlına da gəlməzdi. Qəbri Parisdə qazılan bəstəkar ürəyinin vətəndə dəfn olunmasını vəsiyyət edib. Onun ürəyini vətənə bacısı gətirib. Yerji Antçakın çəkdiyi "Şopen. Sevgi arzusu" filmində bu səhnə yaxşı təsvir edilib, baxmağı şopensevər oxuculara tövsiyə edirəm.

Kilsədə, ürəyin qoyulduğu sütunun önündə adam özünü ziyarətgahdakı kimi hiss edir. Şopen musiqisini duyub sevənlər üçün bura elə müqəddəs ziyarətgahdır. Allah evində uyuyan bəstəkar qəlbi – məbəd içində altar.

Şopenin muzeyi kilsədən elə də aralı deyil. Piyada 15 dəqiqəyə Okolnik küçəsi, 1 ünvanında yerləşən muzeyə çata bilərsən. Şopenin notları, əlyazmaları, fortepianosu sanki böyük bəstəkarla canlı ünsiyyət vasitələridir.

Nərgiz yaşadığımız Blekinge lənində (inzibati ərazi vahidi) keçirilən müsiqi müsabiqəsinin qalibi olanda Şopenin "Op.7 No.1" saylı mazurkasını da çalmışdı. İndi onun fortepianosuna elə maraqla baxır, elə bil, bəstəkarın özü ilə danışır.

## Palas Kultura – mədəniyyət ironiyası

Kommunist dövrünün "Palas Kultura" deyilən əzəmətli binası şəhərin mərkəzində Misir ehramı kimi durur. Eyfel qülləsi Parisin hər yanından göründüyü kimi bu nəhəng bina da Varşavanın dörd bir tərəfindən boy verir.

Polyaklar ona ağır illərin acı xatirəsi kimi baxırlar. İkinci Dünya Müharibəsindən sonra qalib kommunistlər çox ölkənin paytaxt şəhərində belə möhtəşəm binalar tikiblər. Kommunizmin əzəmətini göstərən bu binalara "Stalin göydələni" deyirdilər. Bakıda "hökumət evi" dediyimiz bina da bu silsilə tikililərdəndir.

Stalin adına Elm və Mədəniyyət Sarayı kimi tikilən "Palas Kultura"dan hündür bina tikintisinə uzun illər icazə verilməyib. Yalnız kommunizm erası bitəndən sonra binanın ərtafında xeyli müasir göydələn tikilib.

231 metrlik "Palas Kultura"nın 33-cü mərtəbəsində şəhərə mənzərə açılır. Turistlərin çox gəldiyi yerlərdən biridir bura.

Yeri gəldi, onu da deyim ki, turistləri ən çox cəlb edən Polşa şəhəri Krakovdu.

## İKİNCİ HAŞİYƏ. Renesans yadigarı Krakov

*Krakov 1611-ci ilədək Polşanın paytaxtı olub. Onun inkişaf edib başqa məşhur Avropa şəhərləri ilə yanaşı durmasında İtaliyada başlayan İbtibah dalğası əsas rol oynayıb. O*

*dövrün məşhur italyan rəssamları, tacirləri bura axışıb və təbii olaraq, özləri ilə yeni mədəniyyət havası gətiriblər.*

*Sürət qatarı Varşavadan bura iki saat yarıma gəlir. Dörd saata maşınla da yetişmək olur. Özü də əsl Avropa standartlarına cavab verən yeni magistral yolla gəlsəniz yolurmazsınız.*

*Polyakların ən çox sevdiyi şəhər Krakovdur. Müharibədən salamat qurtulan şəhər saysız tarixi abidələrini qoruyub saxlayır. Yolunuz bura düşsə, şəhərin qədim hissəsinə – Köhnə şəhərə (Stare Miasto) mütləq baş çəkin. Bazar meydanı (Rynek Główny), Müqəddəs Məryəm kilsəsi, Barbakan qala tikilisi, xüsusilə xoşuma gələn Qumaş bazarı (Sukiennice w Krakowie) burda yerləşir. Qumaş bazarı bir suyu İstanbulun Çarşı bazarını xatırladır, amma o boyda yekə yer deyil.*

*Krakova gəlib Vislanın Şərq sahilindəki Vavel təpəsində yerləşən, Polşanın simvollarından sayılan Vavel (Wawel) tarixi kompleksinə baş çəkməsəniz, günah olar.*

*Kral qəsri, polyak müqəddəslərinin uyuduğu neçə-neçə kilsə, Məryəm Ana rotondası (dairəvi sütunlu günbəz), qüllələr, darvazalar, bir sözlə, müxtəlif təyinatlı tarixi tikililərə baxdıqca özünü orta əsr Avropasında hiss edirsən.*

*Varşavada barəsində uşaqlara danışdığım Polşa prezidenti Lex Kaçinski Müqəddəs Stanislav və Vatslav Kafedral kilsəsində uyuyur. Əvvəlki səfərimdə ziyarət etmişdim. Bu dəfə dini ayinlərin icra olunduğu vaxta düşdü deyə turistləri içəri buraxmadılar.*

***HAŞİYƏ İÇİNDƏ HAŞİYƏ.** Əvvəlki səfərim 2010-cu ilin iyulunda olmuşdu. Demokratiyalar İcmasının 10 illik yubileyinə gəlmişdim. Konfransda dünyanın dörd bir tərəfindən neçə-neçə ölkənin hazırkı və keçmiş lideri, dünya çaplı siyasətşünaslar, iqtisadçılar, demokratiya fədailəri iştirak edirdi. ABŞ-ın o vaxtkı dövlət katibi Hillari Klintonun gənc demokratiyalara yönəlik çıxışını xatırlayıram. "Demokratiyanın yarımçıq təbəssümü" adlı yazıda o səfər haqda yazmışam. Uşaqlara bundan söz açdım, maraqlı gəldi, oturub danışmamı istədilər, bir kafeyə döndük. Demokratiya fəalı olan hər kəsə tövsiyə edirəm o məqaləni – bugün-sabah ABŞ prezidenti olacaq xanım Klintonun məni inandırmayan çağırış-çıxışından yaranan o yazını bloqumda oxuya bilərsiniz.*

*Krakovda qalmağa yer soraqlasanız, "Royal" hoteli nişan verərəm. Sadaladığım yerlərə yaxın tarixi binadı. Bu yaxınlıq qəfil leysana düşəndə dadımıza elə çatdı ki, dedim, bir də gəlsəm, yenə burda yer alacam. Aşağısında da xudmani restoranı var.*

## Rəsulzadənin ayaq izləri

Məmməd Əmin Rəsulzadənin Varsavadakı unvanı – Poznanska 4. 1930-cu illərdə burada çap etdirdiyi vizit kartında bu unvan yazılıb. Tədqiqatçı dostumuz Dilqəm Əhməddən aldım bu vizit kartı.

Ünvandakı bina yeni tikiliyə oxşayır, görünür müharibə vaxtı dağılıbmış. Bəlkə də yenidən nömrələmədə dəyişiklik olub. Əsas bina deyil, bu böyük insanın adı olan ünvandır.

Uşaqlarla gəldik ziyarət edək və deyək ki, sən bizimsən, bizimsən, son azərbaycanlı yaşayanacan, ey böyuk insan! Sən bizim mənəvi atamız, səmt ulduzumuzsan! Sənin izin olan hər yer əzizdir bizə!

Rəsulzadə mühacirət illərini sürdüyü ölkələrdə Azərbaycanı nəşr etdirdiyi qəzet, jurnal və kitablarda yaşadıb. 1939-cu ildə Varşavada polyak dilində çıxmış "Azərbaycanın hürriyyət savaşı" kitabını bu şəhərdə yaşayan dostum Hicran Əliyevada görmüşəm.

İndi bu sakit küçəyə baxıram, xəyalımda o böyük insanın ayaq səslərini dinləyirəm elə bil.

Budur! Yanımdan bir cüt adam keçdi, qol-qola, aramla, küçənin sükutu pozulmasın deyə pıçıltıyla danışırlar. Qulağım tək bir sözü çaldı: "Azərbaycan!" Qərib Məmməd Əmin sevgilisi Vandaya yurdundan danışırdı. Cütlük tarixin səhifəsi çevrilirmiş kimi döngəni dönüb o biri küçəyə keçdi.

Mənsə xəyalımdan ayrılıb yoluma davam etdim.

## Visla sahilində Atillanın əsgəri

Lazienki parkı Varşavanın çox sevdiyim yerlərindəndir. 76 hektar ərazini əhatə edən parkda Polşa krallarının yay rezidensiyasından tutmuş rəsədxanayacan cürbəcür tarixi abidələr var. Sonalı göllər fonunda "Roma teatrı", "Misir qəsri", bir-birinə bənzəməyən saraylar xüsusilə gözəl görünür.

Şopenin heykəli ətrafındakı açıq konsert meydaçasında yay axşamları simfonik orkestrin ifasında dahi bəstəkarın musiqisini dinləmək şansı da qazanarsan, yolun burdan düşsə. Əvvəlki səfərlərin birində belə bir xoş təsadüfə rastlamışdım.

Parkda heykəllərin sayı-hesabı yoxdur, amma biri haqda ətraflı yazmaq istəyirəm. Osmanlı ordusunu Vyana yaxınlığında durduran kral III Sobieskinin at belində heykəlini deyirəm. Atın ayaqları altında iki nəfər imdad diləyir. Başı çalmalı Osmanlı əsgəri məğlub orduya işarədir. İkinci əsgərin isə hörüklü saçı var.

"Osmanlılar hörük saxlamırdılar, bu, Atillanın əsgəridi. Heykəli 1788-ci ildə düzəldən heykəltaraş nə demək istəyib bununla?", – deyə uşaqlara sual verdim.

Sonra parkın skamyalarının birində oturub mövzunu davam etdik.

Heykəl tökülən zaman Avropada türk ruhu hələ mövcud idi, heykəltəraş bu obrazları boş yerə yaratmayıb. Osmanlılar Avropaya gələnə qədər burada hərbi və bəzi rəsmi əmrlər qədim türk dilində verilirmiş.

Bəlkə də osmanlıların buralara gəlməyi tarixi səhv olub. Onlar bununla özləri də bilmədən min il əvvəlki türk ruhunu təzələyiblər və nəticədə bu izlərin "yox edilməsinə" rəvac veriblər. Heykəltəraş kralın qələbəsi ilə qədim Hun türklərinin Avropadakı minillik nişanələrinə də son qoyulduğuna işarə edir…

## Kopernikin göyüzü

Varşavaya uşaqlarınızla gələndə sadaladığım ünvanlara gedə bilməsəniz, indi söz açacağım bu iki yerə mütləq gedin. Biri Kopernik Elm Mərkəzidi, o biri isə "Varşava üsyanı" muzeyi.

Hər iki yerdə alacağınız təəssürat uzun müddət sizi tərk etməyəcək, uşaqlarınızın isə istər bilik, istərsə də mənəvi dünyagörüşündə xoş iz buraxacaq.

Kopernik Elm Mərkəzi nəhəng elm muzeyidir. Burada yüzlərlə interaktiv eksponat var. Cürbəcür laboratoriya ziyarətçilərin ixtiyarına verilir ki, özləri təcrübə aparsınlar. Bu muzeyə ayrıca bir yazı həsr olunmalıdır.

Uzun yazmayım, bircə onu deyim ki, gəldiyiniz gün muzeyin istədiyiniz bölməsinə bilet tapmaya bilərsiniz. Odur ki, səfəröncəsi bileti muzeyin saytından almağınızı tövsiyə edirəm.

## ÜÇÜNCÜ HAŞİYƏ. Kopernikin evində…

*Kopernikin Varşavadan 260 kilometrlik məsafədə yerləşən Torun şəhərindəki ev muzeyi sarayı xatırladır. O dövr üçün kifayət qədər böyük olan ev zəngin tacir atasından qalıb.*

*"Səma cisimlərinin hərəkətinə dair" kitabı ilə elmi inqilabın başlanğıcını qoymuş Kopernikin əsərləri ölümündən uzun illər sonra qadağan olunur. Kilsə onu kafir elan edir. İnkvizisiya məhkəməsi onun elmi varislərindən biri Qalileyi ömürlük ev dustağı etsə də, Brunonu tonqalda yandırır.*

*"Allahla söhbət eləyən" Kopernikin evində olmaq uşaqlara maraqlı gəldi. Əlbəttə, mənə də maraqlı idi, amma məni heyran edən onun əşyaları, əlyazmaları, ulduzölçən alətləridən çox bu evini 500 ildi qoruyub saxlayan bir xalqının öz tarixinə, tarixi şəxsiyyətinə verdiyi dəyər oldu.*

*Bakının istər İçərişəhərində, istər Bayırşəhərində sökülən neçə-neçə tarixi binada nə qədər tarixi şəxsiyyətin, elm, mədəniyyət adamının ev muzeyini aça bilərdik, tariximizə, bizə tarix yazan adamlarımıza dəyər verən olsa idik!*

***

"Varşava üsyanı" muzeyi 1944-cü ildə alman faşistlərinə qarşı gizli hökumətin başlatdığı müqavimət hərəkatına həsr olunub. Dördmərtəbəli binada yerləşən muzeydə mindən çox foto, yüzlərlə eksponat nümayiş etdirilir. Muzeydə seyr etdiklərin azadlıq mücadiləsi aparan xalqın qəhrəmanlıq tarixinə işıq salmaqla yanaşı, iki işğalçı dövlətin – faşizm və kommunizm kimi bəşər düşməni ideologiyaların mahiyyətini anlamağa da kömək edir.

***

Polşa tarixi dövlət müstəqilliyi, insan hüquq və azadlıqları uğrunda mübarizə tarixidir. Varşavaya səfər yazımı da elə bu muzey ilə – "üsyan" muzeyi ilə də bitirdim.

Azadlıq sözünün mahiyyətini tam dərk eləmək üçün saysız-hesabsız nümunələrlə zəngin bir ölkəyə hər bir azadlıqsevər insanı səfər etməyə həvəsləndirmək üçün yazdım bu yazını.

Gəlin, görün, tanıyın!

**Avqust, 2016**

**Karlskrona, İsveç**

# Tanrılarla baş-başa

*Qədim Ellada allahları ilə söhbət*

Səfər çemodanımı yığıb nəfəs dərməyə balkona çıxanda günəş də bugünlük işini bitirhabitirdə idi, üfüqün meşə qurtaran hasarını aşıb yatmağa gedirdi.

Sizi bilmirəm, mənim hər səyahətqabağı yuxum qaçaq düşür. Budur, Yunanıstana hazırlaşdığım bu günlərdə yaddaş tanrıçası Mnemosina da bir yandan gəlib durub başımın üstündə, huşumun toz basmış elə yerlərinə əl gəzdirir ki, özüm məəttəl qalıram.

Uzaq səksəninci illərdə jurnalistika fakültəsində bizə antik yunan ədəbiyyatından dərs deyən Məmmədbağır Həyatzadə neçə gündür yadımdan çıxmır. Onun təbəssüm əskik olmayan üzü gözümün qabağına gəlir, bəlağətli səslə Homerdən, Esxildən, Sofokldan, canım sizə desin, Aristofandan şövqlə söylədiyi misralar qulağımda səslənir. Elə bilirəm, yaşından xeyli qıvraq bir ehtirasla təsvir etdiyi o mifik dünyaya yola düşürəm. Bizə tanıtdığı antik qəhrəmanlarla, tanrılarla görüşəcəm, muza-tanrıçalarla gap edəcəm.

Elə o cür də oldu…

**BİRİNCİ GÜN**

## Zaman maşını ilə tarixi adlamaq

Kopenhagendən qalxan içi danimarkalı yaşlı kişi, qadınla dolu təyyarə Kalamata səmasında dövrə vurub enişə başlayanda alnımı illimünatora dirəyib gözümü aşağı dikdim. Qədim Elladanın göyüzündə gözə dəyəsi bir əlçə bulud da yox idi. Günəş isə elə bil göydə yox, yerdə çıxmışdı – ucsuz-bucaqsız zeytun bağlarından, dəniz ləpələrindən boy verirdi.

Mövsümsonu olduğundan idi yəqin, “Bravo Tours” turist firmasının müştəriləri arasında uşaq-muşaq, gənc-cavan yox idi – elə bir az canısulu biz idi – hamısı pensiya pulundan qənaət edib səfərə çıxan yaşlılar idi. Uçuş boyu elə onlardan danışdıq, bizim qocalarla müqayisə elədik.

Niyə bizdə adamlar yaşı yetmişə çatmamış əldən düşürlər? Niyə bizim nənə-babalar əl-ələ tutub dünyanı gəzməyə çıxmırlar?

Titrək əliylə adyalı yuxuya gedən qarısının üstünə çəkən yaşı, yalan olmasın, doxsanı haqlayan, üzündən elə danimarkalı yazıçı Hans Xristian Andersenə oxşayan qocaya baxıram…

***

Təyyarədən düşən turistləri müxtəlif istiqamətə gedən iki avtobusa mindirdilər. Bizim üzümüz Toloya sarıdır. Yol boyu dərə-təpəyə, çöl-çəmənə, bağ-bostana, kənd-kəsəyə baxıb

düşünürdüm, Məmmədbağır müəllimin bizə oxutduğu kitablardakı o mifik olaylar buralardamı baş verib?

O qaya qorxunc Minotavra oxşayır!

Uzaqda otlayan at da, elə bilirsən, at deyil, Kentavrdır!

Yolu keçən yunan qızların birini hüznlü Elektra, o birini eşq ilahəsi Afrodita sanırsan!

Timenio qəsəbəsindən keçəndə sahildəki yelkənli qayığı "Arqo" gəmisi, içindəkiləri arqonavtlar zənn edirsən, Kolxidaya "Qızıl dəri" dalınca gedirlər. Göyərtədəki Yasondu, son göstərişlərini verir.

Qafqaz gözəli Medeya, nə olar, vurulma Yasona! Ona sən yox, qızılı qoyun dərisi lazımdır!

Eşitməz məni Medeya. Sevginin gözü kor, qulağı kardır.

Eh, qadınlar, elə bilirsiniz kişilərə tək sevgi üçünmü lazımsınız?! Sevgi..! Sevgi deyilmi, sehrini qıran, tilsimini puç edən sehrbaz Medeyanın?!

Heç bilmədim, müqəddəs qoçu tanrısına birinci kim qurban kəsib, İbrahimmi Allahına, ya Friksmi Zevsinə?

Amma yol boyu gördüyüm neçə yunan kişisini nə Axillesə, nə də Herakla bənzətdim. Ya elə Kalamatada doğulmuş məşhur Yanni qrupunun yaradıcısı Yanni Xrisomallisə oxşayırdılar, ya da futbolçu Yorqos Qaraqunisə.

Kalamatadan Toloya – qədim Spartanın zeytunluqlar, çimərliklər, antik əfsanələr diyarına iki saata çatdıq. Tolo Egey dənizinin Arqolis körfəzi sahilində balaca bir şəhərcikdir.

Biz çatanda günün əyilən vaxtı idi. Sanki zaman maşını ilə tarıxın o üzünə keçmişdim.

Hotelin balkonundan açılan füsünkar mənzərə adamı özündən alıb qəribə duyğularla uzaq xəyalların ağuşuna atır. Nə gizlədim, elə burda qaldığım həftəboyu minbir düşüncəyə qərq oldum. Hara getsəm də, nə etsəm də, gecəyarısı, sübhçağı, günortaüstü, qürub vaxtı demədim – bu gözəlliyə tamaşaya durdum, fikirlərimdə aranı dağa, dağı arana daşıdım. Özüm-özümə suallar verdim, özüm-özümdən cavab aldım, bəzən bu söhbətə yunan tanrıları, tanrıçaları da qoşuldu.

## İKİNCİ GÜN

## Ağzıbağlı Ağapaşa Camisi

Tolo haqda ilk dəfə Homer "İlliada"sında yazıb. Troya müharibəsində öz donanması ilə iştirak edən şəhərlərin biri də Tolo imiş. Bu, əfsanəyə görə belədi, tarixi reallıq isə deyir ki, bura əsrlərlə venesiyalıların, türklərin işğalında olub.

Bu gün isə Yunanıstan büdcəsinin əhəmiyyətli hissəsini tutan (ÜDM-un 20 faizi) turizmə öz töhfəsini verir. Ölkəyə hər il gələn 22 milyon turistin neçəsi yolunu burdan salır, bilmirəm, onu bilirəm ki, Yunanıstanın elə hər yeri beləcə, görməli, gəzməli, öyrənməlidir.

Afinadan 90 kilometr cənub-qərbdə yerləşən Tolonun 1500 sakini var. Turizmin Yunanıstan iqtisadi həyatında rolu barədə təsəvvür yaratmaq üçün elə Tolodan bir statistik rəqəm desəm bəs edər – bu balaca şəhərcikdə 64 hotel var.

## 913 pilləkənli Palamidi qalası

Afinaya səfəri nəzərə almasaq, demək olar, burda olduğumuz günlərdə yalnız Poleponnes periferiyası, xüsusilə də onun Arqolis nomu ərazisindəki tarixi yerlərə baş çəkdik. Poleponnes Yunanıstanın 13 periferiyasından, Arqolis isə 54 nomundan, bizim dillə, rayonundan biridir. Ölkənin materik hissəsində yerləşir.

Xanımımla sözləşmişdik ki, bir gün hansısa tarixi yerə getsək də, o biri gün mütləq Egey sahilində qalaq, İsveçdə ələ düşməyən isti dənizlə, qaynar günəşlə baş-başa olaq. Qərara sonacan əməl edə bilmədik, gəzmək həvəsi üstün gəldi.

Çoxbilmişlik çıxmasın, bir söz deyim, bir yeri yaxşı tanımaq istəyirsinizsə, oranı piyada, ya da ictimai nəqliyyatla gəzin. Səfərin ikinci günü şəhərlərarası avtobusa minib Tolodan 10 kilometr aralıdakı Nafplion şəhərinə getdik. Yol boyu narıngi, portağal, limon, zeytun bağları səliqəsi ilə diqqət çəkir.

Nafplion Arqolis nomunun mərkəzidir. Liman şəhəridir. Afina Osmanlı işğalında olduğu vaxtlarda Yunanıstanın paytaxtı olub. Qədim hissəsi dar küçələrdən, iki-üç mərtəbəli evlərdən ibarətdir. 1730-cu ildə inşa edilən Ağapaşa Camisi sonra Yunanıstanın ilk parlament binası olub, təmirsiz, ağzıbağlı tikilidir.

Şəhərin hər yerindən görünən uca dağ başındakı Palamidi qalasına çıxmaq təklifim qəbul olundu. Nə dik pillələr, nə başgicəlləndirən hündürlük, nə də yarıyolda yorulub qalmaq xanımı qorxutmadı – "getdik üzü küləyə".

Palamidi qalasını 1687-ci ildə türkləri məğlub edən venesiyalılar tikib. İçində bir-birindən ayrı 8 bürc var. Qala darvazasına qədər 913 pilləkən saydım. İçəridəki istehkam-bürclərə daha neçə yüz pillə qalxdığımı bilmədim.

Sonuncu dəfə buna bənzər yolla Krımda, Baxçasaray yaxınlığındakı Çufutkalaya qalxmışdım. Oranın yaşatdığı sehrli təəssüratı "Ölü şəhərlər muzeyi"ndə təsvir etmişəm.

## Axilles üzümə baxmadı – Qarabağa görə

Pilləkənləri qalxdıqca arxanda bir yanı Nafplion şəhəri, o biri yanı Arqolis körfəzi olan ecazkar mərzərə açılır. "Axilles istehkamı"nda qala bürcünə çıxıb sınırsız sonsuzluğa tamaşaya durdum. Xəyalımda göydə qədim yunan tanrılarını, yerdə mifik qəhrəmanlarını gəzdim.

*Qala divarına dirsəklənib üfüqü seyr etdiyim yerdə Axilles bürcündən çıxıb yanıma gəldi. Xeyli söhbət elədi. Qəhrəmanlığından danışdı. Amma üzünü mənə çevirmədi. Səbəbini soruşdum. Belə cavab verdi:*

*"Bizim Troyada uğrunda illərlə can verdiyimiz Yelenamız var. Amma sizin Qarabağ ondan da gözəldi. Müqəddəs sevgilərdə bütün hədəflər canlıdır. Qarabağ sadəcə dağ-daş deyil. Görüb gələn səyyahlarımız elə vəsf edirlər ki oranı. İsgəndər Nuşabəyə yox, Bərdədən*

*üzüyuxarı Qarabağ gözəlliyinə aşiqmiş. Gör neçə ildir əsirdir, amma siz bir iş görmürsünüz. Elə gözəli düşmən əsirliyində qoyarlarmı? Növbəti dəfə qalibiyyətlə gəl yanıma, sənə qələbə şərabını özüm süzəcəm".*

Gecələrimi ərşə çəkən Mnemosina, burda da rahat buraxmayacaqsanmı məni?!

Axilles sözünü dedi, sonra çevrilib getdi, bürcün alaqapısında görünməz oldu. Elə bil onunla söhbətdən ayılan kimi oldum…

Sonra xanımla yorulub-ərinmədən, xırda addımlarla, ehmal-ehmal sürüşkən yastı daşların üstüylə səkkiz bürcün səkkizinə də baş vurduq. Bürclərin adı hər yeni sahib dövründə dəyişdirilib. Venesiyaların, türklərin, yunanların öz dillərində ad qoyduqları bu bürclər bir-biri ilə yeraltı əlaqəlidir. Burda ərzaq anbarı, böyük su çəlləyi, silah cəbbəxanası, hələ desən, zindan da var.

Geri qayıdanda, elə sonuncu pilləkəni düşən kimi yolun o üzündə hündür çinarlı, şəlaləli "Propolis" kafesinin sərinliyində yorğunluğu çıxardıq. Oturduğumuz yerdən təzəcə düşdüyümüz hündürlüyə baxıb, xanımla bir-birimizi xeyli öydük – "Hələ qocalmamısan!"

## ÜÇÜNCÜ GÜN

## "Vallah, "Zorbas" türk sözüdü"

Hotelimizin barmeni Orestislə mənimki elə ilk gündən tutdu. Rusca bildiyi beş-on kəlmə ünsiyyətimizə körpü saldı. Rus olmadığımı kəsdirsə də, məni hardansa "uruset" tərəfdən gələn bilirdi. Söhbətimiz çəlləkdən süzdüyü "Zorbas" pivəsinin adından başladı. Nə illah elədim, inandıra bilmədim ki, "zorbas" türk sözüdü. Əvvəl-əvvəl ürəyinə yatmırdım, mənə şübhəylə baxırdı. Elə ki, "Yunan Zorba" ("Zorba the Greek") adlı köhnə yunan filmindən danışdım, qırışığı açıldı, münasibəti tamam dəyişdi, isinişdik. Sonrakı günlərdə türklərlə yunanların adətlərində, məişət və mədəni həyatlarında oxşarlıqlardan danışanda bu filmdən yenə misallar çəkəcəkdim.

Bir adətim var, səfər etdiyim ölkə haqda bilgi toplamaq mənim üçün səfərqabağı hazırlıqların ən vacibidir. O filmi seyr etmək də səfərqabağı hazırlıqlardan biri idi. Baxmağı sizə də məsləhət görürəm, əsl yunan xarakterini usta sənətkar Entoni Kuinn məharətlə yaradıb.

Beləcə, hər dəfə bara girəndə Orestislə elə uzaqdan bir-birimizə əl edib salamlaşırdıq. Bir səhər menyüsündəki "Greek coffee"ni görüb dedim, iki fincan qəhvə dəmləsin. Gətirəndə yenə dilimi dinc tutmadım: "Bu ki, türk kofesidir". Elə bil ona söyüş söydün. "Nə türk? Yunan kofesidir", - dilxor oldu. "Axşam danışarıq", deyib qəhvə dolu fincanları otağa apardım.

Əlbəttə, axşam "Zorbas" bizi barışdırdı. Orestis məni çəlləyə yaxın ayaqüstü masaya çəkdi, bir yekə bakal pivə süzüb gətirdi. Dirsəklənib üzümə baxmağından anladım ki, səhərki söhbətin davamını eşitmək istəyir. İzah elədim ki, qəhvəni Həbəşistandan gətirib Avropaya çıxaran türklərdir.

Bir həbəş çoban sürüsündən bir keçinin neçə gecə yatmadığını görüb maraqlanır. Güdüb görür ki, keçi bir ağacın qəribə meyvələrini yeyir, sonra da dəliliyi tutur, gecəni yatmır. Qəhvə ağacı belə kəşf olunur. Osmanlılar da qəhvəni öz mətbəxlərində Avropaya daşıyır.

Onunla bu söhbət bizim ermənilərlə "dolma", "Sarı gəlin" davamızı xatırladırdı. Məğlubiyyət kompleksidi, tanış hissdi! Ta dərinə getmədim.

Yeri gəlmişkən deyim ki, 400 il əsarətdə saxlasalar da, olduğum yerlərdə türklərin sən deyən o qədər də izinə rast gəlmədim. Tək Nafplio şəhərində ağzıqıfıllı yumru tikili vardı, deyirdilər əvvəl məscid olub. Öyrəndim ki, Ağapaşa camisi imiş. Minarələrini də türklər gedəndən sonra söküblər.

Mnemosina qoymaz yalan deyəm, yadıma salır ki, bir dəfə Britaniyanın Vestminster fondunun şotlandiyalı nümayəndəsi ilə ingilislərin işğalçı kimi şotland mədəniyyətinə təsirindən danışırdıq. Həmsöhbətim yunanlardan da misal çəkərək deyirdi ki, başqa balkan xalqlarından fərqli olaraq, yunanlar antik dövrdən qalan mədəniyyətləri hesabına türklərin gətirdiyi türk-islam mədəniyyətində "ərimə"dilər. Yəni, məsələ silah gücündə deyil, oturuşmuş mədəniyyətləri "əritmək" olmur.

Onun dediklərinə kilsə və yerli özünüidarəetmə institutlarını da əlavə edərdim. Yunanlar öz milli kimliklərini qoruyub saxlaya bilmələri üçün bu iki instituta borcludurlar.

Əvvəla, Osmanlı sultanlarının yunan xristian ruhaniliyinə verdiyi azadlıq o dövr katolik ölkələrinin protestantlarında belə yox idi. Həm də türklər mövcud yerli idarəetmə sistemini dəyişmədilər. Gərək ondan yaxşını təklif edə idilər. Bu seçkili özünüidarəetmə institutu işğalın sonunacan yaşadı.

Yunan milli şüurunun saxlanmasında yerli məktəblərin rolu əvəzolunmazdır. Osmanlıların toxunmadığı bu məktəblərdə təhsilin keyfiyyəti türk dərsxanələrindən bir neçə baş yüksək idi. Elə sonralar "Fənərli Rumlar" adı ilə məşhurlaşan yunanlar Osmanlıda elit təbəqəyə çevrilərək, dövlət işlərində mühüm vəzifələr tutdular, imperiyanın Avropada danışan dili oldular, onun Avropa siyasətində yönləndirici rol oynadılar.

Bu sərbəstliklər hesabına salamat qalan milli şüur işğalçılara qarşı nifrəti də ölməyə qoymadı. Osmanlının güclü vaxtı içdə bəslənən nifrət imperiya zəifləyəndə zahirə çıxdı və 1821-ci ildə başlayan yunan üsyanı on il sonra qələbəylə sonuclandı.

Bütün bunlar indi gülərüz Oresteslə söhbətdə də özünü göstərirdi. Amma içi barmen qarışıq yunanlar etiraf etməsələr də. türklərin təsiri danılmazdı. Bu təsir, xüsusən də, musiqidə, rəqsdə, mətbəxdə, məşiətdə aydın görünür.

## Şərab tanrısı Dionislə qədəh toqquşdurmaq

Qaldığımız "Sofia" hotelinin Egey suları yuyan restoran məhəccərinə söykənib dənizin qürub rəngini seyr edirdim. "All inclusive" ("nə qədər istəyirsən" – hərfi tərcüməsi "hər şer daxil"dir, mən qavradığım kimi çevirdim) xidmətindən yararlanıb bir qədəh də çaxır süzmüşdüm. "Santorini" çaxırı dəniz yaşılı rəngi ilə qürubun yeddi çalarında əsl fotoluq fon verirdi.

Adamlar əllərində çaxır, pivə, viski dənizə tamaşa edir, söhbətləşirdi – hamı sərgilənəcək tamaşanı gözləyirdi. Bu axşam konsert olacaqdı.

*"Santorini" xoşuma gəldi, içdikcə adamı yaxşıca məst edirdi. Elə bu məstlikdən idi, ya nə oldusa, bir də gördüm şərab tanrısı Dionis böyrümü kəsdirib. Elə hey öz çaxırlarını tərifləyirdi. Mənim də vətənpərvər damarım tutdu, başladım bir vaxtlar şəhərimin adını SSRİ yekəlikdə ölkədə məşhuri-cahan eləyən "Ağdam"dan danışmağa.*

*Dionis sözümü kəsmədi, axıracan qulaq asdı, sonra bunları dedi:*

*"Eşitmişəm böhran sizin də ölkənin dizini qatlayır, iqtisadiyyat üzüaşağı yumalanır, banklarınız uçalanır. Bilmirdiniz, qara nöyüt adamı ağ günə çıxaran deyil? Yüz ildi çıxarırdınız də o nefti, hara nə qoydunuz? Yalan-gerçək deyir, 2 milyon ton üzüm becərirmişsiniz, şərabınız dörd bir yanda satılırmış. Nə qədər gec deyil, qayıdın şərabçılığa, kənd təsərrüfatına. O dediyin "Ağdam"dan da içmişəm, adamı tez tutsa da, yaxşı çaxır idi".*

*Sözünü bitirdi, gedib barmen Orestesdən iki qədəh şərab süzüb gətirdi. "Bunu biz ambrosiya yeməyi ilə içirik, dirilik suyudur", – birini mənə uzatdı. "Şərəfə" deyib toqquşdurduq. Sonra qədəhini məhəccərin üstünə qoydu, sağollaşıb getdi.*

## Demis Russosun səsi və ləpələrin pıçıltısı

Konsert başladı. Oxuyan Dimitros adlı qoca bir müğənni idi. İlk zümzüməsi iləcə hamını sehrlədi. Şirin, yanıqlı səsi vardı, elə bilirdin əfsanəvi Demis Russosun özüdür oxuyan. Az keçmədi məclisi ələ aldı, dünyanın dörd bir tərəfindən gəlmiş turistlər ona qoşulub şaqraq yunan mahnılarını oxumağa başladı.

Dimitros mahnılarına ara verəndə aralığa rəqqaslar girdi. Sirtaki rəqsinin bir adı da Zorbadır. Gənc rəqqasların oyunu, rəqsin havası hamımızı tilsimlədi – çaxır da bir yandan işini görürdü – ayaq üstə ritmə uyğun əl çalır, dingildəyirdim.

Növbəti rəqsə könüllülər dəvət edildi. Mən də qabağa çıxanlardan oldum. Əvvəl-əvvəl ayaqlarım dolaşır, səhvlər edirdim, amma yavaş-yavaş öyrəşdim.

Bizim yallıya bənzəyir Sirtaki.

Sonra növbəylə turist-rəqqasların dövrə qurduğu dairədə tək-tək oynamağa başladıq. Türklərin Zeybək rəqsinin tam oxşarıdır yunanların Zorbası. Vallah, özümə bir əl qatmışdım ki. "Son Balo" filmində Atatürk rəqs edir ey, bax, eylə. Bir süzürdüm ki, gəl görəsən!

Sən demə, rəqsimi xanım telefonla çəkirmiş. Masaya qayıdanda tərifləməyə başladı: "Əla oynadın". "Oynayan mən deyildim ki, çaxır idi, lap düzü çaxır tanrısı Dionis idi, mənim cildimdə oynayırdı".

Konsert gecə yarıyadək davam elədi. Dimitrosun səsi, ansambl ifaçılarının buzuki, kanonaki alətlərində çaldıqları musiqi Egey ləpələri fonunda bizə fantastik ovqat yaşatdı.

## DÖRDÜNCÜ GÜN

# Xristianlığın "İŞİD" dövrü

Epidavros məbədi Arqolid yarımadasında yerləşir. Bura bir teatrı ilə, bir də akslepionu, bizim dildə desək, xəstəxanası ilə məşhurdur. Qədim Yunanıstanın hər yanından, hələ desən Romadan belə zəvvarlar bura axışarmış. Təbabət tanrısı Asklepidən şəfa diləmişlər. Onun adı ilə açılan yüzlərlə şəfa ocağından ən məşhuru olan Epidavros akslepionunda müailcə alar, axşamlar da beşaddımlıqdakı teatrda tamaşaya baxarmışlar.

Asklepion rahiblərinin şamanlar kimi dini rituallar icra etməklə yanaşı təbiblik qabiliyyətləri də vardı. O vaxtkı inanca görə xəstəliklər tanrılardan gəlirdi, səmavi idi. Hippokratın özü də belə rahib nəslindən idi. Amma o, sələflərindən fərqli mövqe tutaraq, xəstəliklərin səbəbini yerdə axtarmağı üstün tuturdu.

*...Elə Epidavros muzeyində eksponatlara baxıb Hippokratı düşünürdüm ki, arxadan qəfil çıxıb əlini çiynimə qoydu.*

*"Necədi, xoşun gəlir bizim şəfaxanamızdan? Burda təkcə müalicə etmirik, həm də təhsil veririk. Bilirsən kimlər oxuyub burda? Mark Avrelinin şəxsi həkimi Galen, daha kimlər, kimlər. Sizin səhiyyədən xəbərim var. Sənin "Semaşko" xəstəxanasında bir gecə qaldığını da bilirəm. Ordan yazdığın "Ağrının sərhəd məntəqəsi" yazını oxuyub dəhşətə gəlmişdim. Sizin Şərqin müdrik təbibləri olub. Elə tək İbn Sina dünyalara dəyər. Bəs niyə o gündədi səhiyyəniz? Həkimlərinizə de ki, tibbdə mərhəmət biliklə təndir. Mərhəmətli olsunlar, yoxsa mənim andımı içib eləməsinlər".*

*Maraqlı söhbət edəcəkdik, hələ bəlkə ağrıyan yerimi də göstərəcəkdim, mələk gözəlliyində bir tibb bacısı imkan vermədi, çağırıb təcili apardı...*

Dünyada ilk klinik müalicə bu akslepionlarda həyata keçirilib. Xəstələr burda qalıb müalicə olunurmuşlar. Tibb tarixində xəstələrin ilk xəstəlik tarixçələri də burada yazılırmış, özü də daş lövhələrə. Muzeydə sərgilənən tibb alətləri elə buradakı qazıntılar zamanı tapılıb. Alətlərdən məlum olur ki, qədim rahib-təbiblər cərrahi əməliyyatlar da aparırmışlar.

# Epidavros teatrında Esxillə söhbət

*Antik yunan dramaturqu Esxil iki bilet göndərib Epidavros teatrında oynanılacaq özünün "Zəncirlənmiş Prometey" tamaşasına dəvət elədi. Axşam xanımı da götürüb getdim. Tamaşadan əvvəl ayaqüstü söhbətimiz oldu.*

*"Niyə "İbrus" teatrı bağlanıb? Pantomimdən də xeyli vaxtdı səs-soraq yoxdu! Fəxrəddin Manafov, Mehriban Zəki kimi oyunçularınız, Ramiz Mirzəyev təki rejissorunuz var. Camaatınız bəs niyə teatra getmir? Bax, bizim bu teatra hər dəfə 14 min tamaşaçı gəlir. Hansı məbləğdə desən teorikon alırıq. Teorikon tamaşalara, şənliklərə, qurbanlıq törənlərinə ayrılan xüsusi dövlət kreditidir. Elə il olur ki, dövlətimiz belə işlərə ordudan çox pul ayırır. Daş oturacaqlı teatrlar tikiləndə biletləri satmağa başladıq. Tamaşaçıbaşına 2 obolos, sizin pulla 2 manat. Sağ olsun, Perikl hakimiyyətdə olanda qərar çıxardı ki, kasıb tamaşaçıların bilet pulunu dövlət ödəsin".*

*Başqa nəsə deyirdi, bir də gördüm Zevsin qızları, incəsənət və elm tanrıçaları – muzalar gəlir. Canıyanmışlar bir-birindən gözəl – fikrim getdi, ağzımı ayırıb onlara baxdım. Xanımım qolumdan bərk dürtmələdi ki, hara baxırsan? Huşum qayıtdı söhbətə. İstədim deyəm ki, nə teatr, rəhmətliyin oğlu, bizim indi yaxşı şou çıxaranlarımız var, onlara baxıb qaqqıldaşır-gülüşürük – gördüm Esxil muzaların əhatəsindədir, ta məni görmür, eşitmir...*

Epidavros teatrı elə yerdə tikilib ki, uzaq yamaclardan, dərin dərələrdən gələn meh həm adamın üzünə sərinlik verir, həm də səhnədə deyilən sözləri mikrafon əvəzi qulağına çatdırır. Qəribə akustikası var. Aktyorların dediyini ən hündür sırada belə rahat eşidirmişlər.

## Aqamemnonun kəsif qoxulu türbəsi

Epidavrosdan qayıdanda yolüstü Mikena xarabalıqlarına döndük. Mikena akropoluna (yüksəklikdə məbəd) Aslan qapısından keçib girirsən. Bura qədim Yunanıstanın antiköncəsi mədəniyyət beşiyidir. Eradan əvvəl ikinci minillikdə inkişafın zirvəsini yaşayıb. Tunc dövrdən qalma tarixi tikililəri, qızıl zinətlərlə dolu sərdabələri ilə məşhurdur. Mikena mədəniyyəti özündən sonrakı sivilizasiyalara yön verib, elə antik dövrün erkən çağlarında ömrünü o mədəniyyətlərə bağışlayıb, səhnədən çəkilib. Çox qədim yerdir, hələ Strabon yazırdı ki, onun vaxtında şəhərdən əsər-əlamət qalmayıb.

Mikena akropolunun beşaddımlığında Aqamemnonun nəhəng məqbərəsi var. "Aqamemnon maskası" adıyla Afina muzeyində saxlanılan qızıl maska burda tapılıb. Homerin "İlliada"sının baş qəhrəmanlarında olan Aqamemnon antik yunan mifik obrazı kimi məşhurdur. Yelenaya görə Troya müharibəsini başladan da, o olub.

Məqbərə buz kimiydi. Həm də tam kəsdirə bilmədiyim qəribə qoxusu vardı, elə bil tarixin kəsif iyi gəlirdi.

**BEŞİNCİ GÜN**

## Müharibə tanrısı Ares ürəyimdən yaraladı

Səhər yeməyindən sonra Tolonun baş küçəsi ilə suvenir mağazalarını dolaşdıq. Bu gün heç yana getməyəcəkdik. Elə sahildə günlənəcəkdik. Xanım uşaqlara, iş yoldaşlarına suvenir seçdi, mən də bir-iki şüşə yunan çaxırı, bizim araq, türklərin rakı dediyi uzo aldım. İsveçdə içki çox bahadır, fürsət idi.

İki saatlıq bazarlıq-dolaşmadan sonra otelə qayıtdıq. Hərə öz kitabını götürdü, getdik sahil çimərliyinə. Yusif Vəzir Çəmənzəminlinin "Studentlər"i neçə gündür mindiyim zaman maşınını üzü yüz il əvvələ döndərdi, bir neçə saatlığa Egey sahilindən Dnepr ləpədöyəninə apardı.

...Axşamadoğru balkondan görünən mənzərə teatr səhnəsini xatırladır. Günəş otelin arxasına keçdiyindən elə bilirsən qaranlıq zalda işıqlı səhnəyə baxırsan. Sahildən bir qədər aralı o xaçlı adaya üzmək həvəsinə düşdüm. Dedim, görüm haracan üzə bilərəm.

Suya girib qayıqları, katamaranları bir-bir arxada qoya-qoya adaya sarı üzdüm. Duzlu suda hərəkət çətin olmasa da xeyli üzüb yoruldum. Yəqin bu yorğunluqdan idi, ada gözümə ada kimi görünmürdü, elə bil, meh titrədən tül idi.

Dəniz ilğımı Fata Morgana buna deyirlər?

*Dayanıb üzü göyə sarı suda uzandım ki, nəfəsimi dərəm, bir də eşitdim kimsə məni çağırır. Adaya sarı qanrılıb baxanda kimi görsəm yaxşıdır! Müharibə tanrısı Aresdir, qayanın üstündə durub bağırır:*

*"Hara gəlirsən? Sənin qiblən bu xaç deyil, yaxşı tanıyıram səni, sənin qiblən heç Kəbə də deyil. Qiblən Qarabağdı, yeri-üz ora! Sarkisyan at oynadır orda, odey indi də parad keçirir".*

*Uzaqdan Aresin üzünü görməsəm də səsi bəs elədi, canımı üşütmə tutdu, qorxdum.*

Həqiqət tək acı olmur, o, həm də qorxuncdur!

Üzüsulu geriyə üzməyə başladım. Sizi bilmirəm, məndə bəzən qorxu hissi utanc duyğusundan yaranır. "Sarkisyan at oynadır orda, odey indi də parad keçirir".

Qorxulu fikirlər beynimə dolmuşdu. Yenə gözümə Fata Morgana görünürdü. Yaxınlaşdıqca ilğımlığından çıxırdı, amma nəyə oxşadığını hələ kəsdirə bilmirdim.

## Poseydon əl elədi, əylədim

*Bir az da yaxınlaşanda gördüm dəniz tanrısı Poseydondu, əl elədi, dayanıb durdum. Odisseyi qovalayıb gəlirdi, kefi kök idi.*

- *"Gördüm, babat üzürdün, bəyəndin Egeyin suyunu?"*
- *"Elə bil göz yaşıdı, bizim Xəzərdən duzlu, Göygöldən durudur".*
- *"Düz deyirsən, bu su deyil, batırdığım adamların göz yaşıdır, yığmışam bir yerə, ona görə belə duzlu, durudur.*
- *"Siz tanrılar niyə bizi ağladırsınız? Ağlaya-ağlaya gəlirik dünyaya, elə ağlayaraq da, gedirik".*
- *"Biz məğlubları sevmərik. Mənim sularımda onlara yer yoxdur. Bir də, ömrü xoşbəxt gülüşlərdə keçən insan axırda allahlıq eşqinə düşür. Boş buraxsaq, allahlığımızı da alarsınız".*

Sözünü deyib, sualımdan incimiş kimi o xaçlı adanın dalındaca yox olub getdi. Mən də var gücümlə sahilə doğru tələsik üzməyə başladım. "Bax allahlıq eşqinə düşüb fironluq edən beş-on hökmdara görə min illərdi insanlıq ağlar günə qalıb" sayaq fikirlərlə üzə-üzə bir də gördüm sahilə çatmışam.

Gözüm su içmədi bu Poseydondan, nə desən çıxar ondan, Odisseyin başına açdığı oyunlardan da xəbərim var.

Ta şər qarışanda girməyəcəm Egeyə.

## ALTINCI GÜN

# Tanrı qızı Afina

Afina səfərinə qəribə ovqatda yola çıxdım. Avtobusumuzda elə bizimlə təyyarədə gələn qocalar idi. “Hans Xristian Andersen” də qarısı ilə burada idi. Amma məni daha onlar maraqlandırmırdı. Huşum indiyədək oxuduğum kitab, baxdığım filmlərdən təsəvvürümdə formalaşan mifik dünyaya getmişdi. Zaman maşını tarix şossesi ilə şütüdükcə antik dövrün real, mifik qəhrəmanları yol qırağında durubmuş kimi bir-bir görünür, mənə əl edir, itirdilər. Bilmirəm bu qoca turistlər avtobusun pəncərəsindən nəyə baxırdılar, mən söz açdığım o dünyaya baxırdım.

Avtobusumuz Korinf kanalını keçib eyni adlı şəhərin girəcəyində qədim bir xarabalıq – tarixi yerin yanındakı kafe qarşısında əylədi. On beş dəqiqəlik fasilədən hərə bir cür istifadə etdi. Mən “Sivilizasiyanın 8,5 min yaşı. Miflə tarix arasında” adlı turistlər üçün kitabın ruscasını aldım. Əvvəl əlim gəlmədi, ucuz deyildi, on beş avroya idi. Maraq güc gəldi, aldım. Elə oradaca indi üstündən keçdiyimiz Korinf kanalı haqda məlumat axtardım.

Kanal Egey dənizi ilə İon dənizini birləşdirir. Hələ eradan altı yüz il əvvəl belə bir kanalın sözü gedirmiş. Tarix boyu hər gələn hakimiyyət iki dəniz arasında keçidin inkişafa ciddi təkan verəcəyini desə də, onun tikintisinə yalnız Misirdə Süveyş, Amerika qitəsində Panama kanallarının çəkiliş söhbəti yayılandan sonra həvəslənib XIX əsrin ikinci yarısında qərar veriblər. Uzunluğu 6 kilometr olan kanalın eni 25 metrdi, hündürlüyü isə bəzi yerlərdə 76 metrə çatır.

Afinada ilk gəldiyimiz yer olimpiya oyunları keçirilən stadion oldu. Qədimdə el şənliklərinin ən möhtəşəmi olimpiya oyunları idi. Yarışlar Yunanıstanın müqəddəs yerlərindən olan Olimp dağı yaxınlığında keçirilirdi. Bu, tək idman yarışı deyildi, həm də dini mərasim idi. Yarışlardan əvvəl idmançılar da, hakimlər də qurban kəsər, ədalətli olacaqlarına and içərmişlər. Turist firması Olimpiyaya səfər təşkil edən gün biz Egey sahilində qaldıq. İndi deyirəm, kaş qalmaya idik, ora da gedərdik.

Növbəti dayanacağımız Sintaqma meydanı oldu. Yunanıstan parlamenti burada yerləşir. Efzon deyilən elit hərbi bölmənin əsgərləri fəxri qaravulda dururlar. Saatbaşı dəyişən qaravulu tamaşaya xeyli turist toplaşır. Efzonlar 1821-ci ildə başlayan müstəqillik savaşında öz şücaətləri ilə seçiliblər. Elə ona görə də bu gün ölkənin elit əsgərləri sayılırlar. Bura seçim ciddidir, boyu 1,87 metrdən aşağı əsgər götürmürlər. Diqqətçəkən həm də onların geyimidir, xüsusilə, 400 büzməli ətəkləri. Bu, 400 illik Osmanlı işğalına işarədir, qara günləri unutmamaq üçündür.

Efzon əsgərə yaxınlaşa-yaxınlaşa xanımıma qədim Afina demokratiyasından danışıram, dünya tarixinin ilk demokratik parlamenti – Ekklesiyadan bəhs edirəm. Deyirəm ki, antik dövr siyasiləri içində ən çox bəyəndiyim Perikldi. O, Afina demokratiyasının qurucularından olub.

Bu söhbəti sonra bələdçimiz bizi “Thanasis kebab” restoranında nahara aparanda da davam elədim. Ofisiant sifariş verdiyimiz yeməkləri gətirəndə mən “III Sektor” adında nəşr etdiyimiz demokratiya jurnalına Periklin büstü olan şəkli emblem seçməyimdən danışırdım.

Yeməklər gələndə demokratiya da, Perikl də yaddan çıxdı.

Sifariş verdiyim “Thanasis kebab” bizim lülə kababın eynisidir, “Greece salad” da bizim çoban salatdan elə də fərqlənmir. Xanımın seçdiyi “Chicken kalamaki” adlı çubuq şişdə toyuq kababı imiş. Barmen Orestesi xatırladım, olardı yanımda mətbəxlərimizin də nə qədər yaxın olmasından danışardım.

Restoran heyətinin bizim bələdçini tanımasından anladım ki, turist firması öz müştərilərini elə bura gətirir. Narazı qalan olmadı, qiymətlər də münasib idi. Mənə xüsusilə xoş gələn “Amstel” pivəsinin ucuz olması idi. İsveçdə bənzər restoranda 8 avroya olan bir bakal pivə burda 1,8 avroya idi.

## Zevs mənə dedi ki…

Nahardan sonra Afina akropoluna gəldik. Akropola qalxmadan öncə onun yaxınlığında arxeoliji qazantılar aparılmış yerin üstündə tikilən “Yeni Akropolis muzeyi”nə baxdıq. Tarixi eksponatlar müasir texnoloji vasitələrlə adamda keçmişə səfər təsiri doğurur. Şüşə döşəmədən qədim Afinanın xarabalıqları hündürlük həyəcanı qarışıq qəribə duyğu oyadır.

Bilet adambaşı 10 avroyadır. Düzdü, Yunanıstanda muzeylərə giriş qiyməti Qərbi Avropa ölkələrinin muzeyləri ilə müqayisədə bir qədər ucuzdur, amma bunu Parfenon yerləşən Akropolis muzeyinə aid etməzdim. Açıq havada, restavrasiyası illərlə uzanan, tikinti materialları arasında tarixi tikiliyə baxmaq üçün 25 avro çox gəldi mənə.

Muzeylə üzüyoxuşa altı yüz metr qalxıb Afina Akropoluna çıxırsan. Burada Yunanıstanın ən böyük tarixi abidəsi Parfenon uçuq halıyla belə əzəmətli görünür. Muzeydə baxdığımız qısa filmdən Parfenonun tarixi barədə ətraflı məlumatlandıq. Bura qədim Yunanıstanın baş məbədidir. Zevsin qızı müdriklik, ilham, sülh tanrıçası Afinanın şərəfinə eradan əvvəl V əsrdə tikilib. Vaxtilə burda onun nəhəng heykəli də varmış. 1203-cü ildə mövhumatçı kütlə səlibçilərin qorxusundan uçurublar.

*Parfenonun qarşısındakı Aqoranı (bazar meydanı) dolaşıb Platonun oturduğu daşın üstündə dərin xəyala daldım. Bir də gördüm tanrılar tanrısı Zevs gəldi yanıma.*

*“Nə yaman fikrə getmisən? Buranın halına acıyırsan? Görürsən də mənim məbədimi nə günə qoyublar. Buranı məndən dönüb sami dinlərini qəbul edənlər dağıdıb. Əvvəl xristianlar heykəllərimi uçurub məbədimi kilsəyə çevirdilər. “Aqora” filminə baxmısanmı? Hələ o filmdi, realda bilirsən nələr oldu? Keşişlər xristian fanatik parabolaniləri qızışdırıb mənim məbədlərimi yerlə-yeksan eləməyə göndərdilər. Kahinlərimi öldürdülər, sarayları, məktəbləri, kitabxanaları alt-üst etdilər, yandırdılar.*

*Sonra müsəlman türklər gəldi, minarə tikib kilsəni məscidə döndərdilər. Katolik venetsiyalılar da top atıb uçurdular. İndi heykəllərimin biri Paris Luvrunda, biri Nyu-Yorkun Metropoliten muzeyində, nə bilim, Ermitajda-filandadır. Burda tək bu sütunlar, bir də, bu daşlar qalıb. Niyə susursan? Din də!”*

*“Elə mən də bayaqdan bunu düşünüb dururam, sussam yaxşıdı”, dedim.*

*Qoca Zevs çevrilib ağır addımlarla getdi. Onun bu halı ürəyimi ağrıtdı. Ta demədim ki, 2000 il əvvəl xristianlar uçuran heykəlləri indi "İŞİD" müsəlmanları İraqda, Suriyada dağıdır. Özümüz də daha göydəki yox, yerdəki "allah"lara heykəl qoyuruq.*

## Tanrılarla vidalaşma

Səfəri xoş bir ovqatla başa vurub geri dönürdük. Nağıllar aləmini dolaşıb, onun qəhrəmanları ilə görüşüb gəlirmiş kimi idim. Təyyarəmiz elə təyyarə sürətiylə də məni geriyə – zamanımıza qaytarırdı…

*Gözüm illüminatorun o üzündə topa ağ bulud üstündə bir qaraltını aldı. Tanrılar idi, muzalar da gəlmişdilər, üzdə təbəssüm əl edirdilər, yola salırdılar...*

"Hans Xristian Andersen" də sevincli idi, qarısına həvəslə nəsə danışırdı. Qarı başını onun çiynınə qoyub gülümsəyirdi. Mənə elə gəldi ki, bu qoca danimarkalı qarısına həmyerlisi Hans Xristian Andersenin "Köhnə küçə fənəri" nağılını danışırdı.

İş yerində – işıq dirəyində son gecəsini yaşayan qoca Küçə Fənəri ona yeni həyat vəd edən sabahı ümidlə gözləyirdi.

Sabahı kim gözləmir ki! Keçmişlərin də sabahları olub. Sabahlar keçmişlərdən çırtlayan tumurcuqlardır.

Neçə-neçə mədəniyyətin sabahı antik Yunanıstan keçmişindən açılan kimi…

**Payız 2016**

**Tolo, Yunanıstan – Karlskrona, İsveç**

# Dumansız Albion

*London: təsəvvürdən təəssürat reportajı*

Durum deyim, İngiltərə deyəndə ağlıma ilk gələn Şekspirdir, Nyutondur, "Bitlz"dir, "Big Ben"dir, nə bilim, Çörçill, Diana, Devid Bekhemdir, yalan olar. Adam tanıyıram Britaniya onun üçün tək Oskar Uaylddan ibarətdir. Bütöv İngiltərə bir futbol meydanıdır "Çelsi" fanatı gənc dostum, bacıoğlu Orxana görə.

Londonu funt strelinq, yəni pul kimi təsəvvür edənlər də az deyil. Hər halda dünyanın dörd bir yanına hökmü keçmiş imperiya paytaxtının gündəmində yalnız siyasət və hərb söhbətləri olmayıb. Parasız nə siyasət, nə hərb?

Günü bu gün hər yandan varlı adamlar üzünü bura tutur, pul-parasıyla birgə. Özü də tək keçmiş metropoliyalardan yox. Bizim Sovetin "qırıq-quruğ"undan qəfil varlanan neçə milyonçunun adını sayaram bir nəfəsə. Elə öz qəfil varlanmışlarımızın mülklərindən dastan danışırlar.

Fərq etməz necə qazanmısan, varlısansa sənə qucaq açar London. Dumanı yox olar Albionun.

"İngiltərənin əlindən "time is money"yi alın – onda İngiltərədə nə qalacaq?" Viktor Hüqo yazıb bunu "Səfillər"ində. Yəni, ingilis üçün vaxt puldur, deyib dahi yazıçı.

Hərənin beynində bir assosasiya yaradır "London" kəlməsi. Onu görməyənlərin təsəvvürü, görənlərin təəssüratı ilə eyni olmur bəzən. Bax elə mənim kimi.

Bu şəhərin adını eşidəndə, nə qədər qəribə olsa da, gözümün qabağına ilk Şerlok Holms gəlir. Niyə real insanlar yox, məhz bədii əsər qəhrəmanı – qəribəlik də bundadır. Mən bunun səbəbini yaddaşda görürəm. Yaddaşa ilk yazılan, özü də həkk olunası yazı ilə yazılan ömürlük qalır. İzah eləyim, niyəsini deyim.

Demək, 1980-ci il idi. Ağdamda indi bəxtəvər görünən günlərin birində atam evə el arasında "Tağının mağazası" deyilən kitab dükandan aldığı "Baskervillərin iti" kitabı ilə gəldi. Oxuyub bitirəndən sonra nə qədər təriflləsə də, məndə o kitaba əl qatmağa həvəsi atam yox, Sovet aktyoru Livanov mükəmməl oyunu, qulağayatım səsi ilə oyatdı.

Yalan-gerçək deyirlər, Şerlok Holms haqda 200 film çəkilib. Mənə görə onların heç biri Sovetin məşhur "Şerlok Holms və Doktor Vatsonun sərgüzəştləri" çoxseriyalı filminə çatmaz. Hər halda baş rolun ifaçısı Vasili Livanova 70 illiyində "Britaniya imperiyası ordeni" kimi möhtəşəm mükafat elə-belə verilmədi.

Əvvəl bu əsər, sonra da Sovet jurnalisti Vsevolod Ovçinnikovun o dövrdə ədəbi rezonansa səbəb olan “Palıd kökləri” kitabı mənim İngiltərə və ingilislər haqda ilkin təəssürat və düşüncələrimi formalaşdırdı.

Elə bədii əsər qəhrəmanları var ki, müəllifindən populyardı. Şerlok Holms, Harri Porter, Şrek, Ceyms Bond kimi. Məşhuri-cahan Beyker-strit 221B ünvanında, yəni Holmsun ev muzeyində Artur Konan Doyl adına rast gəlmirsən. Bilməsən, deyərsən, bəs, Holms tarixi şəxsiyyətdir. Elə bu evdəcə yaşamış detektivdir.

Londona gələn hər Holms aşiqi bura dəyməmiş dönmür. Muzey Viktorian stildə tikilmiş dörd mərtəbəli binada yerləşir. Doylun əvvəl seriya hekayələrdə, sonra isə romanlarda yaratdığı Holms, doktor Vatson, miss Hadson, professor Moriarti kimi obrazların maketi, Şerlokun qonaq evi, yataq otağı, şəxsi əşyaları sənə o dövrün havasını yaşadır. Elə bilirsən evin sahibi əsər personajları ilə birgə səni də qonaq çağırıb.

Muzey pulludur. Yaşa uyğun olaraq 10-15 funt arası. Metronun “Baker street” stansiyasınacan gəlsəniz, rahat taparsınız.

## Yerin altındakı London

İri şəhərlərdə, adətən, metro xəritəsindən istifadə edirəm. Belə rahatdır. Getmək istədiyin yerə ən yaxın stansiyanı seçirsən, qalan azacıq yolu piyada gedirsən! Metroyla şəhərləri tanımaq daha asan olur.

London metrosu dünyanın ilk yeraltı nəqliyyat vasitəsidir. 1863-cü ildən fəaliyyət göstərir. 11 xətt üzrə 270 stansiyası var. Hər gün 4 milyondan çox sərnişin daşıyır. Gedişhaqqı bir tərəfə 2 funtdur. Turistlərə həftəlik, ya da “Oyster” kartı almaq əl verir. “Oyster”in qiyməti 5 funtdur, karta istədiyin qədər pul yükləyə, səfər başa çatanda da pulun qalığını çıxara bilərsən.

Bax elə indi metroyla “Victoria and Albert” muzeyinə gedirik. Qatar “Charing Cross” stansiyasında dayanıb. Səfər yoldaşlarıma bir əhvalat danışıram, yeridir, deyim siz də eşidin.

Deməli günlərin bir günü Rabindranat Taqorun oğlu Rothindranat elə burdan – “Charing Cross”dan “Bloomsbury” tərəfə gedərkən çantasını metroda unudur. Bundan yalnız səhəri gün, atası “Gitancali” kitabının əlyazmasını istəyəndə xəbər tutur. Kitabın ingilis dilində yeganə əlyazması həmin çantada imiş. Əlyazma “Unudulmuş əşyalar bürosu”nda tapılır. Kimsə görürüb büroya veribmiş. Taleyin ironiyası demək olarmı, bilmirəm, bir il sonra – 1913-cü ildə məhz həmin kitaba görə Taqor Nobel mükafatı alır. Sonralar oğlu yazacaqdı ki, balaca bir xəta ucbatından az qala atası belə bir mükafatdan məhrum olacaqdı.

## Ərdəbil gözəli

Biz “Victoria and Albert” muzeyinə səhər-səhər ilk girənlərdən olduq. Dünyanın dörd bir tərəfindən müxtəlif mədəniyyətlərə məxsus tətbiqi sənət nümunələri muzeyin 145 zalında nümayiş olunur. 1852-ci ildə yaradılan muzey əvvəllər Dekorativ İncəsənət muzeyi adlansa da, sonradan kraliça Viktoriya və əri Albertin adını daşımağa başlayıb. Muzeyin formalaşmasında xüsusi əməklərinə görə bura onların adı verilib.

Azərbaycana aid qədim xalçalar, miniatür tikililər, qablar az deyil. Can atdığım isə məşhur “Şeyx Səfi” xalısıdır. Xalı 1539-cu ildə Təbrizdə Şah Təhmasibin sifarişi ilə Ərdəbil məscidi üçün toxunub. Muzeyin ayrıca bir zalında iri şüşə qəfəsdə yerə sərilib.

Ona vətənin bir parçası kimi baxırsan. “Şeyx Səfi” itirilmiş torpaq kimi gəlir adama, məsələn, Cıdır Düzü kimi. Əlini, üzünü sürtmək istəyirsən. Olmur! Birini monitorda, birini şüşə dalında görürsən. Görürsən, amma toxuna bilmirsən.

Boyun ölçdüm. 13 addımdır. Mistik düşüncələrdən uzaq adam olsam da, yadıma 1813-cü il düşdü.

“Ardabil Carpet” adıyla nümayiş olunur. Lövhədə Azərbaycanda toxunduğu qeyd edilib. Sən demə, əvvəllər bu da başqa xalçalarımız kimi İran xalısı adı ilə sərgilənirmiş. Londonda yaşayan jurnalist həmkarım Zülfüqar Rüfətoğlunun dostları ilə müdaxiləsindən sonra yazı dəyişdirilib.

Sabahın nəhəng dalğası dərya dərinliyində bu gün toparlanır!

Gələcəyin iqtisadi, siyasi güc mərkəzini müəyyənləşdirmək istəsəniz, bu gün hansı ölkənin elmə, texnologiyaya sərmayə qoyduğunu, dünyanın elm adamlarına qucaq açdığını müşahidə edin. Muzeydə sərgilənən İngiltərənin Sənaye inqilabı dövrünün maşınqayırma, poladəritmə texnologiyaları, canım sizə desin, buxar maşını, toxucu dəzgahı, bir sözlə, əl əməyini mexanikləşdirən hər şey gələcəyin iqtisadi, siyasi, hərbi mərkəzinin – dünya imperiyasının konturlarını göstərir. Doğrudan da bu texnika tezliklə Britaniyanı dünyaya hökm edən imperiyaya çevirir.

“Viktoriya və Albert” muzeyini dolanmaq həm də ona görə xoşdur ki, burada yeknəsəklik yoxdur. Elə bil müxtəlif dövrlər, fərqli mədəniyyətlər kaleydoskopuna baxırsan.

Muzey “South Kensington” metro statsiyasına yaxındır. Pulsuzdur.

## “Hayd park” – “cilovu buraxılmış azadlıq”

Bura gəlmişkən yaxınlıqdakı başqa görməli yerlərə də baş çəkin. Ətrafda xeyli maraqlı muzey, mədəniyyət abidələri var. Bəlkə həmin gün “Royal Albert Hall”da yaxşı bir konsert də oldu. Bilet sizə baha görünər, amma dünyanın ən nüfuzlu konsert zallarından birində musiqi dinləmək hər deyəndə ələ düşməyən fürsətdir. Bizim belə fürsətimiz olmadı.

Bir tin dönüb piyada düşürük Kensinqton bağlarına sarı. Sadə görkəmli Kensinqton sarayı burdadır, indi Uels Şahzadəsi Uilyam yaşayır. Şahzadəyə əl havası salam verib gəlirik məşhur Hayd parka.

Buralar vaxtilə Vestminster abbatlığının torpağı idi. XVI əsrdə monastrların ləğvi dövründə krallığın mülkiyyətinə keçir, ov yeri olur. Kral II Karlın zamanında isə sadə londonluların üzünə açılır.

Park daha çox siyasi mitinqlərin, kütləvi tədbirlərin, şənliklərin keçirildiyi məkan, camaatın gəzinti yeri kimi ad çıxarıb.

Serpentin gölünün kənarında eyni adlı kafedə südsüz ingilis çayı (ingilislər gül kimi çaya niyə süd qatır, bilmirəm) sifariş verib dincimizi alırıq. Çay içə-içə səfər dostlarıma – qızıma və keçmiş kişilərin sözü olmasın, uşaqların anasına hələ 23 il qabaq jurnalist həmkarım Səbuhi Məmmədlinin "525-ci qəzet"də açdığı maraqlı "Hayd Park" rubrikasından danışıram.

Parkın "Natiqlər köşəsi" deyilən yerində hər kəs camaat qarşısında istədiyi mövzuda çıxış edə bilər. "Hayd park" SSRİ-də yenidənqurma illərində məşhurlaşdı, demək olar, hər iri şəhərdə belə "hayd park"lar yaranmağa başladı.

Səbuhi də ictimaiyyət üçün maraqlı müsahiblərə "haydpark"lıq suallar verirdi. Həmsöhbətlərimə "haydparklıq sualları"ı "cilovu buraxılmış azadlıq" kimi izah edirəm.

"Hayd park"dan çıxıb "Prayd-parad"a düşdük.

Kafedən çıxıb üzü BBC-yə yol alırıq. Oksford-strit boyu nəhəng paradla qarşılaşırıq. Sən demə, həmin gün Londonda gey-parad keçirilirmiş.

Türkiyəyə, Rusiyaya baxmayın, burda hürriyyətçilikdir, belə paradlar dağıdılmır, əksinə, şəhərin baş küçələri nümayiş iştirakçılarının ixtiyarına verilir.

Çoxdan bu qədər insan kütləsini bir yerdə görməmişdim. Nəhəng insan seli uzaq illərin 1 may paradlarını xatırladırdı.

İzdihamı keçib BBC-nin "Portland Place"dakı qərargahına gəldik. Azərbaycan xidmətinin əməkdaşı Elçin bəy qısa ekskursiya ilə nəhəng BBC teleşirkətinin iş həyatı ilə bizi tanış etdi. Şənbə günü olduğundan başqa əməkdaşlar işdə deyildi.

Şirkətin Azərbaycan xidmətinə uzun illər rəhbərlik etmiş Zülfüqar Əhmədoğlu ilə axşama doğru görüşdük. Bizə yaxşı bir türk restoranında qonaqlıq verdi.

## Muzeylər "lənd"i

Bir şəhərdə muzeylərin bolluğu onun zəngin tarixinə işarədir.

O biri günlərdə də, imkan düşdükcə muzeylərə dəyirdik. Amma səfərin iki gününü tamamən muzeylərə həsr etdik.

"Çarlz Dikkensin ev muzeyi" Dayti-strit 48 ünvanında yerləşir. Bura metronun bir neçə stansiyasından gəlmək olar. Biz "Russell Square"da düşdük.

Dikkens bu evdə cəmi iki il yaşayıb. Onun Londonda qaldığı evlərdən tək bu durur. 2012-ci ildə təmir ediblər. Dəhlizin, pilləkənin bir neçə yerində divara Dikkensin "kölgə"sini elə çəkiblər, deyirsən bəs, sahibi elə indicə burdaydı, çıxıb, bu saat gəlir.

"Oliver Tvistin macəraları" bu evdə yazılıb. Balaca Oliverin ağrı-acılarını xatırlayıb Çalzın romanı yazarkən hansı ovqatda olduğunu duymağa can atıram. Muzeyin kafesində oturub kofe içirik. Radio-bələdçi dahi yazıçının burda iztirablı günlər keçirdiyini deyir.

Öz acılarındanmı yaradıb Oliveri?

***

Bir tin o yanda Roger-strit 12 ünvanında yerləşən "Çarlz Darvin Evi" (Charles Darwin House) bağlı idi. Əgər Darvinin həyatı, yaradıcılığı ilə maraqlanırsınızsa, bir qədər uzaqlığına baxıb ərinməyin, onun ev-muzeyinə – "Down House"a gedin.

Vaxt qıtlığıdırsa, ora gedə bilmirsinizsə, "Təbiətşünaslıq muzeyi"ndə (Natural History Museum) "Darvin mərkəzi"ni ziyarət edin. Bəşərin yaranış tarixinə səyahət də adlandırardım bu muzeydə dolaşmağı. Əlimdə əlac olsa təkamülü inkar edən, dünyanın bir "Ol!" əmri ilə altı günə yarandığına inananları bura ekskursiyaya gətirərdim. Xüsusən də, təkamül nəzəriyyəsini məktəb proqramlarından çıxaran Türkiyənin təhsil uzmanlarını, bizim dindən xəbərsiz dindarlarımızı.

XIX əsrin ortalarında elan etdiyi təkamül nəzəriyyəsi ilə Darvin dünyanı dəyişdi. Əsrlər boyu davam edən elm-din debatında söz sahibi oldu.

Alimlər İngiltərədə tapılan qədim insan sümüklərini öyrənərkən, hannibalizmin nişanələrinə rastlayıblar. Britaniyalıların mağara dövr əcdadları yemək tapmayanda bir-birlərini yeyirmişlər. Ocaq başında ora-bura tolazlanmış sümüklər bir adamın imiş. Çöldə-meşədə adam kabab yeyəndə sövq-təbii sümüyü hara gəldi atır ey, bax heylə, əti yeyib sümüyü fırıldadıbmışlar.

İnsanlığın sonrakı inkişaf tarixini düşünəndə hannibalizmin canımızda olmasına inanırsan. İnsanlar elə indi də bir-birini yeyirlər, sadəcə indi ətini yox, ruhunu, canını, ömrünü yeyirlər. Lap şairanə çıxdı!

Darvinlə vidalaşıb yolumuza davam edirik.

***

Açığı gəzinti proqramına "London Film muzeyi"ni salanda zənn edirdim ki, Çaplin, Hiçkok, başqa ingilis kino xadimlərini xatırladan eksponatlar da görəcəyik. Sən demə, muzey yalnız məşhur Ceyms Bond seriya filmlərinə həsr olunubmuş.

İngilis yazıçısı Yan Fleminqin romanları əsasında 50 il ərzində 24 film çəkilib. Baş rolu xeyli aktyor oynayıb. Mən Şon Konnerinin "Bond"unu bəyənirəm.

Muzeyi gəzə-gəzə "Agent 007" – Ceyms Bondun filmlərdən təhlükəli tryuk süjetlərini, çəkilişlərdə istifadə olunmuş maşın, qayıq, təyyarə, silahları qızıma göstərib dilxoşluq edirəm: "Cavanlıqda atan da belə edərdi". Arxadan xanım dillənir: "Nəsə yadıma gəlmir axı". Ayana mənim zarafatımdan çox anasının sözü ləzzət elədi, gülməyindən bildim.

Mən isə Bondun "Aston Martin DB5" markalı maşınına baxa-baxa zarafata davam edirəm: "İmkan verməz ki, hamının şəxsi qəhramanlıq tarixi uydurduğu zəmanədə gənc nəslə həqiqəti çatdırasan".

Muzeydən aldığımız xoş ovqat "Covent Garden" yunan kafesində də davam elədi.

***

Böyük Britaniyanın bir vaxt dünya imperiyası olduğunu "Britaniya muzeyi"ndə daha aydın dərk edirsən. Bu nəhəng muzeydə bütün sivilizasiyaları əhatə edən 7 milyonacan eksponat var. Luvrdan sonra dünyanın ən çox ziyarətçi qəbul edən muzeyidir.

İngilis əsgərinin ayağı dəyən yerə arxasınca arxeoloqlar, tədqiqatçı alimlər gedib. Ən dəyərli mədəniyyət nümunələrini imperiya paytaxtına daşıyıblar. Öyrənib, qoruyub saxlayıblar. Yunanıstan, Misir hələ də onlardan aparılmış tarixi abidələrin davasını döyür, geri qaytarmağı tələb edir.

Qədim Misir abidələri sərgilənən zalda dediklərim Ayana maraqlı gəlir deyə ətraflı danışıram. Deyirəm, Məmlük sultanlığından üzü bəri biz türklər Misirdə 700 il hakim olsaq da bir dəfə maraqlanmadıq ki, bu ehramlar, piramidalar nədir, kimindir. Amma Napoleonun cəmi bir neçə illiyinə tutduğu Misirdə fransızlar abidələri tədqiq edir, qədim mədəniyyəti öyrənir, tarixi nümunələri toplayıb Parisə aparırlar. 1798-ci ildə Misir İnstitutu (Institut d'Égypte) belə yaranır.

Hələ ingilislərin sonralar daha geniş tədqiqata başlamalarını demirəm.

Uzatmayım, bir sözlə, Londonda 300-dək muzey və qalereya var. Dövlətinkilərlə yanaşı özəl muzeylər də çoxdur. Hər zövqə, marağa uyğun olanını tapa bilərsiniz. Bircə bol vaxtınız və bir az da pulunuz olsun. Pul da əsasən özəl muzey və qalereyalarda gərəkdir. Əksər dövlət muzeyləri pulsuzdur.

## Maqna Karta və Çingiz xanın Yasası

"Londonun gözü"nə ("London eye") metronun "Westminster" stansiyası ilə gəlmək olar. Düzü fikirləşirdim ki, neçə günün yorğunluğunu bir qədər adrenalinlə çıxararam. Dedim, fırlanan nəhəng əyləncə çarxında başgicəlləndirən hündürlük həyəcanlı olar. Amma o qədər yavaş fırlanırmış ki, qorxu-filan duymadım. Növbəyə uzun zaman sərf etməyə dəyərdimi, bilmirəm. Hər halda yaxşı fotolar çəkdik.

Adama deyərlər, sənə həyəcan-adrenalin lazımdır? Onda buyur, "Qarıneşən Cek Muzeyi"nə ("Jack the Ripper Museum"). Metronun "Tower Hill" stansiyasında düş, Keybl-strit 12 ünvanına, sonralar saysız bədii əsərə, filmə personaj olacaq qorxunc qatilin muzeyinə gəl.

Burada adamı vahimə bürüyür. Öldürdüyü qadınların fotoları, işgəncə və qətl alətləri, qurbanın saxlandığı otaq xüsusi səs fonunda xof yaradır.

"Qarıneşən Cek" 1888-ci ildə silsilə qətllər törədən, London sakinlərini vahimədə saxlayan, polisin tapa bilmədiyi naməlum manyaka verilən şərti addır. Qatil polisə göndərdiyi məktubları Cek adı ilə imzalayırmış. İlk dəfə bu ada Boris Akuninin "Dekorator" povestində rastlamışam.

Ceki qoyaq tarixdə qalsın, yolumuza davam edək.

"Londonun gözü"ndən düşüb "Vestminster körpüsü"nə sarı gedirik. Bir az təlaşlıyam. Buranı tez keçmək istəyirəm. Şəkil çəkdirməyə də hövsələm çatmır. Üç ay qabaq bir terrorçu bu körpüdə adamların üstünə maşın sürmüşdü, beş nəfəri öldürmüş, əllidən çoxunu yaralamışdı. Belə görürəm, narahatlıq keçirən tək mənəm, izdiham öz kefindədir – körpü o qanlı günü "unudub".

Körpünü keçən kimi məşhur "Big Ben" saatı olan qülləyə çatırsan. Təmirə bağlandığı üçün biz ora çıxa bilmədik. Yolunuz düşsə, açıq olsa, tənbəllik eləməyin, qalxın.

Ölkənin parlamenti elə burada – "Vestminster sarayı"nda yerləşir. Britaniya parlamenti dünyada parlamentarizmin inkişafına ciddi tövhələr verib. Qədim tarixi var.

Böyük Azadlıqlar Xartiyası hələ 1215-ci ildə qəbul olunub. Daha çox "Maqna Karta" adı ilə tanınır. Kral Con ingilis baronlarının təzyiqi altında imzalayıb onu. Xartiyaya əsasən zadəganların razılığı olmadan kral hər hansı siyasi, iqtisadi qərarlar qəbul edə bilməz.

Maraqlıdı, bu sənəd dünyada insan hüquq və azadlıqlarının ilk aktı hesab olunur. Amma nədənsə unudulur ki, "Maqna Karta"dan 9 il əvvəl 1206-cı ildə sosial mənşəyindən asılı olmayaraq, insanların bərabərliyi, hüquq və azadlıqları kimi bəşəri dəyərlər Çingiz xanın Yasasında – qanunlar toplusunda öz əksini tapmışdı. Onun yaratdığı Böyük Məclisdə – monqol-uyğur zadəganlarının iştirakı ilə keçirilən ümumxalq Qurultayında qəbul edilən Yasaya (müasir konstitusiyanın analoqu) sonrakı əsrlərdə sələfləri də əməl edir.

Daha maraqlısı odur ki, kral Condan fərqli olaraq, Çingiz xan bu hüquq və azadlıqları təhdid altında yox, təbəələrinə özü könüllü vermişdi.

Britaniya ənənələrə sadiq ölkədir, parlament islahatları kralın səlahiyyətlərini məhdudlaşdırsa da, onu bir institut kimi ləğv etmədi. Tək krallıq yox, ölkənin ənənəvi zadəganlıq istitutu da qorunub saxlanıldı – parlamentin Lordlar palatası kimi. Palata ali ruhanilərdən, zadəganlardan formalaşır, lordların əksəriyyti bu hakimiyyəti irsi olaraq qazanır.

Ölkənin qanunverici söz sahibi seçkili orqan olan Nümayəndələr palatasıdır.

Parlament meydanından keçib, qoca Çörçillin heykəlinin yanından ötüb yola davam edirik.

Vestminster Abbatlığı parlamentin iki addımlığındadır. Bir adı da Müqəddəs Pyotr olan kilsə ön tərəfdən Paris Notr-Dam kilsəsinə bənzəyir. Hər ikisi qotik memarlıq stilində tikilib. Britaniya krallarının tacqoyma və kəbin mərasimləri burada keçirilir.

Abbatlıqdan Bukingem sarayına piyada on beş dəqiqəlik yoldur. Hazırkı Britaniya kraliçası II Elizabet burada yaşayır. Biz keçəndə sarayın damında bayraq yox idi, bu o deməkdir ki, sahibə evdə deyil.

Evdə olardı, dönüb bir stəkan çayın içərdim. "Zaman"dan söz salardım. "Zaman" bir vaxtlar adına "konzavod" dediyimiz Ağdam Atçılıq Zavodunda yetişdirilən Qarabağ atlarından idi. 1956-cı ildə Britaniyaya səfər edən Sovet rəhbəri Nikita Xruşşov təzəcə taxta çıxan kraliçaya bağışlayıb. Qızılı-kürən ayğır duruşu, yerişi, qaçışı ilə kraliçanı heyran qoyubmuş. Danışırlar ki, "Zaman" burda çox yaşamır, qüssədən ürəyi partlayır. Qürbətin nisgilinə ürəkmi dözər?! Nə olar at ürəyi olanda!

Kraliça Viktoriyanın qızılı abidəsi olan dairəyə dövrə vurub Müqəddəs Ceyms parkına keçirik. "İmperiya Hərb muzeyi" parkın o biri başındadır. Bura gələsi olsanız, mənə baxmayın, siz mütləq muzeyin "Çörçill Müharibə Otağı"na dəyin.

Britaniyanın iki kərə baş naziri olmuş Uilyam Çörçill dünyanın siyasi gedişinə yön verən tək-tək tarixi şəxslərdəndir. O, 1946-cı il martın 5-də ABŞ-da Fulton Vestminster kollecində tarixə "Fulton çıxışı" kimi yazılan nitqində SSRİ ilə gələcək münasibətlərin konturlarını cızır. Soyuq müharibənin başlanğıcı bu çıxışdan hesablanır. Elə həmin ilin noyabrında İranın

şimalında Sovetin dəstəyilə qurulmuş Azərbaycan Milli Hökuməti qanda boğulur. Sən demə bu iki hadisənin bir-biri ilə əlaqəsi varmış.

Hələ 1941-ci ildə İran Britaniya ilə SSRİ arasında pay-püş edilmişdi. Almaniyaya meylli Rza şah devrilib sürgün olunmuş, yerinə müqəvva kimi oğlu gətirilmişdi. Professor Cəmil Həsənli "SSRİ-İran: Azərbaycan böhranı və Soyuq müharibənin başlanması" kitabında Soyuq müharibənin məhz burada başladığını yazır.

Müharibədən sonra dünya qaliblər arasında bölüşdürülür. Mərkəzi və Şərqi Avropaya yiyələnən SSRİ İranı Britaniyaya güzəştə gedir. Çörçill xatirələrində bunu "İran tikəsini Stalinin boğazından çıxarmaq" kimi xarakterizə edir. Çanaq bizim başımızda çatlayır – bir əsrdən artıq ikiyə bölünmüş Azərbaycanın tarixi birləşmək şansı əldən çıxır.

Müqəddəs Ceyms parkında gölün qırağında bunları kədərlə düşünürdüm. Oturduğum skamyadan göl, əksi gölə düşən ağaclar, quşlar daha maraqlı gəldi. Və beləcə Çörçillin muzeyinə getməyə həvəsim öldü.

***

Səfərin son günü gəzintiyə "London körpüsü"ndən başladıq. Bura metronun eyni adlı stansiyasından gəlmək olur. Körpünü keçib Temza çayı boyu sahillə gəzə-gəzə on dəqiqəyə "London Tauer"ə çatdıq. Min yaşı olan qalanı dolaşmaq istəsəniz azından yarım gün sərf edəcəyinizi bəri başdan göz önünə alın.

Bu yerdə turist axını üç yerə bölünür. Bir hissə qalaya baxmağa gedir, bir qrup gəmi ilə gəzməyə üstünlük verir. Biz üçüncülərə qoşulub "Tauer körpüsü"nə üz tutduq.

Londonun simvollarından olan "Tauer körpüsü" XIX əsrin sonlarında tikilib. Çayın hər iki sahilində ucaldılan qala-bürcləri bir-birinə iki körpü birləşdirir. Nəqliyyatın keçdiyi aşağı körpü açılıb-bağlanandır. Yuxardakı piyada körpüsü indi turistləri cəlb edən qalereyadır.

Şüşə döşəməli 65 metr hündürlükdən aşağı baxanda əvvəl-əvvəl başın gicəllənir. Addımladıqca hündürlük qorxusu çəkilir, öyrəşirsən.

"İnsanlar az körpü salıb, çox divar hörürlər", yadıma Nyutonun bu sözləri düşür.

Bunu Nyuton insanların bir-birinə əl uzatmağa ehtiyacın olduğu vaxtda deyib. Bu o vaxt idi ki, vəba 100 min insanı məhv etmişdi, Hollandiya ilə aparılan uğursuz müharibə ölkəni haldan salmışdı, "Böyük London yanğını" şəhəri bürümüşdü. İngiltərə "lənətlənmiş" total depressiya illərini yaşayırdı. Ardıcıl bəlalar şəhərləri boşaldır, adamları "qın"ına yığırdı. Dahi Nyuton da bağlanan kollecdən kitab-dəftərini, alətlərini evinə daşıyıb, təcrid olub, böyük kəşflərini elə burada eləməyə başlamışdı.

Bunlar çox-çox əvvəllər olub, indi isə London ömrünün bəxtəvər çağını yaşayır. "Tauer körpüsü" şəhərin ən gəzməli yerlərindəndir. Amma biz bir dostumuzla görüşməliyik, odur ki, vaxt itirmədən buradan ayrılıb vədələşdiyimiz "Victoria" stansiyasına gedirik.

# İngilis pabında Azərbaycan havası

Rauf Qaraişıqla xanımı Sauthemptom şəhərindən bizimlə görüşmək üçün gəliblər. Elə bizim oteldə bir gecəlik otaq götürüblər ki, söhbətləşməyə, yaxından tanış olmağa çox vaxtımız olsun.

Rauf mühəndisdir, onu feysbuk dostları arasında şair kimi tanıdan jurnalist İbrahim Nəbioğludur. Maraqlı şeirlərini, haykülərini paylaşanda vətəndən uzaqda qərib bir şairin yaşamasından xəbər tutduq.

Onunla tanışlığım poçtla göndərdiyi şeirlər kitabı ilə başladı. O gün isə canlı görüşdük. Yağışın bitməsini metroyla üzbəüz "Şekspir" pabında gözlədik.

Yağışsız günümü var Londonun – axşamacan şəhəri çətir altında dolaşdıq.

Axşam Zülfüqar Əhmədoğlu da Londonun o biri başından gəldi və Raufla məni "Courtfield" pabına apardı.

Britaniya pabları bir növü bizim çayxanalar kimidir, dostların, tanışların yığışıb gap elədiyi yerdir. Çayxanadan fərqli olaraq burda içki içirlər. Viski, pivə, çaxır daha çox populyardır.

Pablar Britaniya kültürünün bir hissəsidir. İctimai yerdir. Qədim ənənələrə söykənən istirahət və əyləncə mərkəzidir. Gecələməyə yeri olan pablara qədim Roma dövründən taverna deyərlər. Eynən bizim karvansaralar kimi.

İngilis pabında iki Azərbaycan ziyalısı arasında elə bilirsən 1980-ci illərin Bakı çayxanasındasan. Bakıya təzə gəldiyim vaxtlarda ən xoş keçirdiyim zaman "Azneft çayxanası"nda o dövr ağıllı adamlarının söhbətlərinə qulaq asdığım anlar idi.

Masamızda "pab nemətləri" ilə yanaşı, Arif Əliyevin "Yalama"sı, İlham İsmayılın "KQB-MTN. Görünən dağın bələdçiliyi", Rauf Qaraişığın "77 şeir", bəndeyi-həqirinizin "Çöl Qala" kitabları var. Bir-birimizə kitab bağışlayırıq. Çoxu Zülfüqara düşür.

Məclisin ovqatı bayırdakı yağış havasındadır – nostalji duyğulara pabın romantikası xüsusi rəng qatır. Pab alaqaranlığında közərən hər lampa şüası yüz il keçsə belə, yad ölkəyə uyuşa bilməyən qəribin sabaha ümidinə bənzəyir. Vətən xiffəti qəribi ölüncə tərk etməyən tək duyğudur. Biləsiniz deyə, deyirəm bunu.

*Vətən dediyin –*
*Sumqayıtın zavod çörəyidi.*
*Qarbuşkası, yəni…*
*Bir az da iyli brınza*
*Bir də…*
*Bir dəmir qruşka*
*Şirin çay.*
*Bir də,*
*Bir də*
*Səni*
*Olmayan Vaxtından*
*Daha çox sevən*

*Bir Adam*
*Vəssalam…*

Raufun kitabından oxuyuram bu şeiri. Sonra bu vətən-adamlarla bitməsini istəmədiyimiz yurd havalı məclis davam edir.

Vətən dağı, meşəsi, dənizi ilə deyil, adamları ilə vətəndir. Ələlxüsus da, ziyasından bir tel nur alacağın adamları ilə. Bax elə Zülfüqar kimi, Rauf kimi.

İki gün qabaq məni Londonun gecə həyatı ilə tanış edən qərvəndlı Fuad Məmmədov kimi. Fuad bəy London küçələrində maşını elə sürürdü ki, elə bilirdim, məni Ağdamın bir məhləsindən o birinə keçirir. Doğma Qarabağ ləhcəsi ilə bir gecədə İngiltərə və ingilislər haqda yuxarıda bəhs etdiyim "Palıd kökləri" qədər informasiya verdi.

***

Son gecə Londonun yağışlı küçələrini xeyli dolaşdıq. Küçə fənərlərinin, reklam işıqlarının iynəgöz şüaları fonunda şütüyən qara London "keb"ləri – dünyaca məşhur taksilər, ikimərtəbəli qırmızı avtobuslar kino lentini xatırladır, qəribə ovqat yaşadırdı. Elə bil, yağış damlaları da çətiri müsiqi ladında döyəcləyirdi – əfsanəvi "Beatles" qrupunun "Yağış" mahnısını oxuyurdu.

**İyul-avqust, 2017**

## Əndəlüs lövhələri

*İspaniyadan sürreal-real reportaj*

Avropanın şimalı ilə cənubu arasında iqlim bənzərsizliyi nə qədərdirsə, adamlarının xarakterində fərq də elə o boydadır. Soyuq yerin adamı xaraktercə də soyuqdur. Günü günəş altında keçən cənubluların isə tək qanı qaynamır, deyərsən bəs, gözləri də işıq saçır.

Dəfələrlə olub, İsveçdə evlərin açıq aynabəndində, yaxud həyətdə neçə adamı süfrə başında yeyib-içən görmüşəm. Yalan olmasın, qadınlı-kişili bir düjin məclis əhlinin səsini beşcə metr bəridə eşitməmişəm.

Di gəl ispanlara bax! İki adamın söhbəti məhləni başına götürər.

Məndən soruşsanız, bunların hansı yaxşıdı, deyərəm, hərəsinin öz yeri var. Ovqatıma bağlıdır. Bəzən girərəm dərin bir səssizliyə, günlərlə çıxmaram. Bəzən də ürəyim partlayar sükunətdən, qaynar həyat istərəm.

İsveçin iqlimi mülayimdir, hər halda mən yaşayan yerində rus şaxtasına, ərəb istisinə rastlamazsan. Amma soyuq canlarına oturub deyə, isveçlilər istisevərdilər. Hər evin hamamdan savayı, ayrıca bastusu da var, biz suana deyirik ona, qışda girib fətir kimi qızaranacan otururlar.

Onların ən çox sevdikləri səfər isti dənizi olan ölkələrədir. Bir dəfə oxudum ki, yüz mindən çox isveçli isti ölkələrə köçüb ilin əksər fəslini orda yaşayır. Bunlar əsasən təqaüdə çıxıb azından 20 il yaşamağa ümidi olan yaşlılardır. İsveçdə orta yaş həddi səksəndir.

Dəqiq rəqəmi bilmirəm, yalan-gerçək deyir, neçə yüz min isveçlinin İspaniya, Tailand kimi ölkələrdə evi var. Amma imkanlılarla yanaşı İspaniyanın isti sahillərində tək-tük evsiz isveçliyə, finə də rast gələrsən.

Populyar "Expressen" qəzeti İspaniyanın cənub sahillərində çöldə-bayırda yaşayan isveçlilərdən reportaj dərc eləmişdi. Şimal "bomj"ları gündüzlər dolanır, gecələr isə palatkalarda yatırlar. İsveç kilsəsi belələrinə sahib çıxır. Vətənə dönmək istəyənə yolpulu tapır, qalanları isə ərzaqla, tibbi yardımla təmin edir. Malaqanın mərkəzində hər gün 2 mindək çöldə-biyabanda gecələyən adama yemək payı ayrılır. Aralarında isveçlilər qarışıq nə qədər əcnəbi də var.

Bütün bunları ona görə yazıram ki, isti bir dəniz sahilində özümüzü günə verməyə yer axtaranda İspaniyanın Aralıq dənizi sahilini seçməyimizin səbəbini dib-dəhnəli izah edə bilim.

Elə sadaladığım bu səbəblərdən urmiyalı dostum Səməd bəyə dedim ki, götürək xanımağalarımızı da gedək Əndəlüsə.

"Bə niyə, nə işə getmiyəx. Gedəx, baba, gedəx".

## Dali, Bunuyel, Lorka – Azadlıq, Sənət, Sevgi üçbucağı

Torremolinos Andalucia (biz Əndəlüs deyirik) muxtar vilayətinin Malaqa əyalətində 70 min əhalisi olan şəhərdir. Malaqa aeroportundan 9, Cəbəllüttariq boğazından 120 kilometr aralıda yerləşir.

Əvvəl onu deyim ki, İspaniya ərazisi inzibati baxımdan 17 muxtar vilayətə, 50 əyalətə bölünüb. Ölkənin cənubu dünyanın dörd bir yanından milyonlarla turistin axışıb gəldiyi ucsuz-bucaqsız qumlu çimərlikdir. Malaqa əyaləti Costa-del-Sol adlanan sahil regionuna daxildir. Əndəlüs vilayəti demək olar, ölkənin bütün cənub ərazisini əhatə edir. Əndəlüs Pireney yarımadasının 711-1492-ci illərdə ərəblərin hakim olduğu hissəsinə verilən addır.

Nə isə ki, Torremolinosa gecə çatdıq. Hotelin onuncu qatında üzü dənizə baxan balkona çıxanda ılıq cənub küləyi əsirdi. Ləpələr də sanki ispanca "Hola! Hola!" deyib, adamı salamlayırdı. Şəhər işıqlarının o üzündəki qaranlıqda dəniz hənirtisi ilə mövcudluğunu duydururdu. Qara boşluqdan – dənizdən o yanda isə Ay boy verirdi.

Təyyarənin sərt eniş təsirindən, ya hündür balkon effektindən idi, bilmirəm, qarşımdakı mənzərə əsl sürrealist tabloya bənzəyirdi. Gördüyüm nə yuxuya, nə də real həyata oxşayırdı, nə idisə, ikisinin qarışığı idi.

İspaniyanı həmişə sürreal yer kimi təsəvvür etmişəm – nağılvari ölkə yəni. Çox güman ki, buna səbəb İspaniya haqda oxuyub, baxıb, eşitdiklərimdir. Onları pazl parçaları təki toplayanda təsəvvürümdəki İspaniya bax, dediyim yarıyuxulu təsvir, sürreal tablo kimi canlanır.

Luis Bunyuelin filmləri, Salvador Dalinin, Pablo Pikassonun rəsmləri, 1898-ci ildə İspaniyanın ABŞ-a sarsıdıcı məğlubiyyətinin sosial, siyasi, mənəvi iztirabını yaşayan "98-ci il nəsli" ("Generacion de 1898") adlı qrupun nümayəndələri Maçado, Unanumo, Ximenes, yaxud "27-ci il nəsli"nin ("Generacion del 27") Federiko Lorka, Oskar Dominges kimi ünlü ədəbiyyat, incəsənət isimləri bu "təsəvvür tablosu"nun müxtəlif rəngləridir. Hələ Servantesdən, Lope de Veqadan söz açmıram.

Təsəvvürümdəki "sürreal ispan tablosu"nda parlaq rəng çalarları ilə seçilən şansonları qəlblər fəth etmiş Xulio İqlesias, dünya çaplı tenorlar Xose Karreras, Plasido Dominqo, soprano Monserrat Kabalyeni heç demirəm.

Dağlıq Qarabağa dəfələrlə getdiyinə, Parisdə "Artsax: xristian adacığı" adlı albom buraxdığına görə Kabalyeni bu tabloda qara boyada da görə bilərəm. Amma bu, ucuz vətənpərvərlik olar. Adama deyərlər fərəsətin olsun, Kabalye, onun çapında dünya ünlülərini

sən də Bakıya gətir, özünə dost elə, Qarabağ adında albomlarının təqdimatını Parisdə, Londonda, nə bilim, Nyu-Yorkda filanda keçir.

İspan kinosu deyəndə ağla ilk gələn Luis Bunyueldir. Onun 1929-cu ildə Salvador Dali ilə birgə çəkdiyi "Əndəlüs köpəyi" filminə səfərdən qayıdanda bir də baxdım. Yaşımın müxtəlif çağlarında dəfələrlə baxmışam ona, hər dəfə də nəyisə anlamağa çalışmışam. Dünya sürrealist kinosunun incisi sayılan bu film ekrana çıxdığı gündən kinotənqidçilər orada çox mətnaltı məna axtarıblar, hər üzünə təhlil ediblər. İlk baxışda bir-birinə dəxli olmayan süjetlərdən ibarət 16 dəqiqəlik filmin niyə "Əndəlüs köpəyi" adlandırılmasını bilmək üçün ona bir də baxdım. Kino tənqidçisi deyiləm, dahi əsər deyirlərsə, demək belədi. Mənə qalanda isə Bunuyelin "Burjuaziyanın gizli cazibəsi" filmini bəyənirəm.

Bu gün isə ispan kinosu Pedro Almodovarla tanınır. Çox demirəm, elə tək "Anam haqda hər şey" filminə baxsanız yetər. Müasir ispan kinosunun səviyyəsi haqda təsəvvürünüz yaranar.

Kinodan söz düşmüşkən, üç ispan dahisinin – Salvador Dali, Federiko Qarsia Lorka, Luis Bunuyelin dostluğundan bəhs edən "Keçmişin əks-sədası" filminə baxmağı təkidlə tövsiyə edirəm. Məndən olsa, filmin adını "Azadlıq, Sənət, Sevgi üçbucağı" qoyardım.

Hələ qoy şaqraq ispan mahnı və rəqslərdən də deyim! Dəfələrlə Havanada kubalı dostların məclisində ispan mənşəli Latın Amerikası rəqslərini oynamağa cəhd eləmişəm. Bir-iki hərəkət yamsılamadan sonra onların ritmində öz rəqsimizə keçmişəm. Elə qəşəng alınıb ki! Ətrafdakıların gülməyindən bilmişəm. Ürəkləri gedib.

Flamenko, sarabanda, bolero ritmləri alov şöləsləri təki oynaqdır. Rəqqas Xoakin Kortesin rəqslərindən cuşa gələrsiniz. Kortes qaraçıdır. Elə "Flamenko" da mavrların, XV əsrdə Bizansın çökməsi ilə qaçıb İspaniyanın cənub sahillərinə sığınan qaraçıların, yerli ispanların, yəhudilərin qədim xalq musiqisindən yoğrulub.

Mənim yaşıdım oxucular flamenko stilində mahnılar oxuyan, rəqslər edən bir vaxtların məşhur "Gipsy Kings" qrupunu yaxşı xatırlayarlar.

Sözümün canı odur ki, sizi bilmirəm, mənə həmişə elə gəlib ki, İspaniya tam Avropa deyil, heç Afrika, Asiya, Amerika da deyil. Nədirsə, fərqlidir, onların hamısının cəmidir. O, İtaliya, Yunanıstan, başqa cənubi Avropa ölkələrindən elə buna görə seçilir.

## "Əndəlüs köpəyi"

İnternet yepyekə Yeri bapbalaca yumağa döndərib. Komputerin monitorundan dünyanın hər dəlmə-deşiyinə baş vura bilirsən. Adamın ağlına qəribə fikirlər gəlir, küfr olmasın, düşünürsən, yəqin Tanrı da Yerə öz monitorundan belə baxır. Amma o, tək dünyanın "dəlmə-deşikləri"ni yox, insan qəlbinin qaranlıq dərinliklərini də görür.

…İspaniyanın cənubunda elə yer axtarırdıq ki, aeroporta, Cəbəllüttariq boğazına, islam sivilizasiyasının Avropa nişanələrindən olan məşhur Qranadaya əlçatan olsun. Bu istəyə cavab verdiyindən, həm də internetdən girib gəzərkən küçə və sahilboyu çimərliklərindən xoşumuz gəldiyi üçün Torremolinosu seçdik.

Səfərin ilk günü Torremolinosla tanışlığa başladıq. "Parasol Garden" hotelinin hazırladığı çoxçeşidli səhər yeməyindən sonra "Crocodile Park"a, yalnız timsahlardan ibarət zooparka

piyada yol aldıq. Korrida – öküz döyüşü tamaşalarının keçirildiyi “Plaza de Toros” da elə ordadır. Getdiyimiz yol şəhərin yalnız sahilə əks hissəsini görməyə imkan verirdi. Biz tələsmədən, otuz dəqiqəlik yolu iki saata getdik.

İsti ölkələrə xas iri, açıq balkonlu, üstü küləfirəngili evlər, limon, portoğal ağaclı küçələr, indiyədək rastlamadığımız cürbəcür gül kolları, ağaclarla zəngin parklarda tamam fərqli bir ölkəyə gəldiyini anlayırsan.

Timsahlar parkında Avstraliya, Afrika, Cənubi Amerikadan gətirilmiş timsahlar var. Burada bildim ki, “timsahın göz yaşı” deyimi heç də onların mərhəmətli olmasına dəlalət etmir. Bəlkə də bunu əzazil tiranların rəhmdil obrazını yaratmaq istəyən saray şairləri, filosofları uydurublar. Guya şikarını yeyəndə timsahın ağlamağı gəlir. Yox, sən demə, bədəndə yığılan həddən artıq izafi duz timsahın bədənindən göz yaşı ilə çıxırmış.

Baxışlarımı yekə bir alliqatorun gözünə zilləyib durdum. Elə bu saat ağlayar, indi ağlayar. Heç bir damla da yaş çıxmadı. Bunyuelin “Əndəlüs köpəyi” filminin ilk kadrı yadıma düşdü. Ülgüclə göz bəbəyinin kəsilməsi, o kəsikdən bir damla suyun düşməsi yeri.

Dünyanın ən qorxunc yırtıcılarından olan timsahlara baxa-baxa ağlıma gəldi ki, belə parklarda bəslənən timsahlar azadlıqlara qapalı ölkələrin oliqarxlarına bənzəyirlər. Hamını lərzəyə salan gücləri var, di gəl, özləri qəfəs sahibinin əsiridirlər.

“Plaza de Toros” bağlı idi. Yaxın günlərdə korrida tamaşası olmayacaqdı. Açığı bilmirəm, belə bir tamaşaya baxmaq istərdim, ya yox. Gözünün qabağında bir canlını alçaldaraq, əzabla öldürsünlər, sən də baxıb ləzzət alasan. Nəsə, çatmır mənə.

Düzdür, uşaq vaxtı mənim də daşla qarışqa öldürən, cırcıramaya sap bağlayan, torbaya pişik salan vaxtlarım olub. Amma indi uşaq qəddarlığından əsər-əlamət qalmayıb, ürəyiyumşaq olmuşam.

Heyvanları mühafizə təşkilatları bu korrida tamaşalarının qadağan olunması üçün illərdir mübarizə aparır. Onların tərəfdarları getdikcə çoxalır. Artıq Kataloniya parlamenti Kataloniya ərazisində bu tamaşaları yasaq edib.

Parkdan geriyə əks yolla – şəhərin mərkəzinə aparan küçəylə qayıdası olduq. Torremolinosun qədim hissəsi bir növü bizim İçərişəhəri xatırladır. Dar-dolambac küçələr, əyri dalanlar, suvenir dükanları, kafe-restoranlar. Xanımlar rəfiqələrinə, uşaqlara suvenir seçincə biz özümüzü verdik vayfayı olan pivəxanaya.

Gün əyiləndə mərkəzi San Migel küçəsi ilə düşdük sahilə. Şəhərin bu yeri çal-çağırlıdır, əyləncələrlə doludur, kafe-restoranları, gecə barları adamlarla dolub daşır. Axşam sahil bağı öz palmaları, dənizi ilə bir başqa cür gözəldir.

## Malaqada “Ağdam bazarı”

Malaqaya qatarla yol heç yarım saat eləmədi. “La Colina” dayanacağından “Malaga Centro” stansiyasına cəmi 3 avroya qəttəzə, son model vaqonlarda getdik. Yolboyu pəncərədən görünən mənzərə qatar sürətində kino lenti idi sanki, huşumu uzaq 1982-ci ilə apardı. Malaqa adını ilk dəfə o vaxt keçirilən futbol üzrə dünya çempionatında eşitmişdim. Fanatiki olduğum

SSRİ yığması Şotlandiya ilə bu şəhərdə oynayırdı. Məşhur futbol şərhçisi Ozerov "Malaqa" kəlməsini elə coşğuyla deyirdi ki, o həkk olan yaddaşıma yazılıb qaldı.

Şəhər bizi günəşli səhəri ilə qarşıladı.

Malaqa mədəniyyətlər kontrastıdır. Cazibədarlığı da elə bundadır. Hər il bura 6 milyon turist gəlir. Ən çox ziyarət olunan yer Pablo Pikasso muzeyi, "Centro historico" adlanan Malaqanın qədim hissəsi, yəni "içərişəhəri", bir də çimərliyidir.

Şəhər bir günə gəzilib qurtarası deyil. Əsas görməli yerləri bir-birinə yaxın yerləşsə də, piyada gediləsi olsa da, gəzib dolanmaq üçün sənə bir neçə gün lazımdır. Muzeylərini, Əlkasaba Roma teatrını, Gibralfaro təpəsini, korrida tamaşalarının keçirildiyi "Plaza de Toros"u, bir-birindən yaraşıqlı meydan və küçələrini dolaşmağa saatların, günlərin gedəcək.

Gibralfaro təpəsindən Aralıq dənizinə, Malaqaya füsunkar mənzərə açılır. Burada X əsrdə Kordova əmirinin tikdiyi, XIV əsrdə Qranada əmiri I Yusifin yenidən qurduğu eyniadlı qəsrin xarabalıqları durur.

Əlkasaba xüsusi tip qala qəsridir. Bizim qalalardan fərqlidir, belə ki, burada qəsr iki qala divarı arasında yerləşir. Çöl divar xarici düşmənlərdən qorunmaq, iç divarsa şəhərdaxili qiyamlar vaxtı gizlənmək məqsədilə tikilib.

Gibralfaro qalası ispanların işğalçı ərəblərə qarşı uzun əsrlər boyu apardığı Rekonkista azadlıq hərəkatı qalibiyyətlə başa çatandan sonra süqut edir. Qalaya katolik kral Ferdinand yerləşir. Beləliklə, katoliklər müsəlmanların Priney yarımadasında 8 əsrlik hakimiyyətinə son qoyurlar. Əvvəl müsəlmanları, sonra isə yəhudiləri yarımadadan qovurlar.

Biz "Molina Lario" küçəsiylə gəzə-gəzə Maqala kafedral kilsəsinə gəldik. Əvvəl burda məscid olub, ərəblər qovulandan sonra 1582-ci ildə məscidi söküb yerində Renessans dövrünün memarlıq üslubunda bir kilsə tikməyə başlayıblar.

Kilsə ilə qısa tanışlıqdan sonra iki tin keçib Atarazanas bazarına gəldik. Çoxdan belə bazar görmürdüm. Sıra-sıra balıq, ət, meyvə-tərəvəz bölmələrindən başqa ayrıca zeytun, quru meyvə, ədviyyat satılan hücrələri də var.

Malaqadakı "Mərakeş bazarı"nın (Atarazanas el arasında belə adlanır) bir suyu bizim Ağdam bazarına bənzəyir, nə istəsən taparsan. Mən bir vaxt məşhur olan bazarımızı tərifləyəndə Səməd bəy də Təbrizin "Üstüörtülü" bazarından söz açdı. Bir fərqimiz vardı – o, Təbriz bazarının indiki halını təsvir edirdi, mən isə Ağdam bazarından keçmiş zamanda danışırdım.

Yeridir, Səməd bəyin Təbriz söhbətlərindən birini danışım sizə. Universiteti Təbrizdə oxuyan səfər yoldaşımın Təbriz və təbrizlilər haqda söhbətlərini onun şirin ləhcəsində eşitmək başqa aləmdi. Deyir, bir bahar bazarda nübar alça gördüm, istədim biz az alım. Bir dənəsini dişimə çəkdim, xoşuma gəldi, dedim, çək. Satıcı bir kilo alça çəkəndə dedim, halal elə bir dənəsini yedim. Təbrizlilər hazırcavab, itoynadan olur, qayıdıb nə desə yaxşıdı? "Qəydəş, halal xoşun olsun, çox belə bir dənələrlə bir kilolar soxuşdurmuşuq".

Amma ispan tərəziləri halal çəkənə oxşayırdılar.

Təbrizdən söz düşmüş birini də deyim, sonra yolumuza davam edək. Səməd bəy danışır ki, nəbadə Təbrizdə özünü nabələd göstərəsən. Bir dəfə peşman olub kitabxananın yerini xəbər almağa. "Kütübxananı istirsən? Tanımeysan? Tanımeysan bə nəyə gəlibsən?" deyib əməli-başlı məzələniblər.

Şuşada da gəlmələrlə belə dilxoşluq edərdilər.

## Tariqin dağları başı dumanlı

Ertəsi gün balaca bir "Fiat" kirayələyib Cəbəllüttariqə yol aldıq. Gedəndə də, elə bəribaş qayıdanda da, maşını özüm sürdüm. Səməd bəyin maşın sürməklə arası yoxdur. Onunku velosipeddir. Hər yana onu sürür.

Cəbəllrüttariq Böyük Britaniyanın Priney yarımadasının cənubunda eyni adlı boğazın sahilində yerləşən dənizötəki torpağıdı. İspaniyanın neçə illərdi davasını döydüyü bura Avropanın Afrikayla burun-buruna durduğu yerdir.

Tarix boyu Yer üzünün ən strateji boğazları, kanalları dünyaya yiyəlik edənlərin hədəfində olub. Süveyş, Panama kanalları, Cəbəlrüttariq, Bosfor boğazları kimi. Bura da dünyaya ağalıq elədiyi vaxtda Britaniyanın koloniyası olub.

Cəbəllrüttariq öz adını ərəb sərkərdəsi Tariq ibn Ziyadın adından götürüb, Cəbəli-Tariq, yəni "Tariqın dağları" deməkdir. Deyilənə görə, ərəb qoşunları boğazı keçən kimi Tariq gəmiləri yandırmaq əmri verir: "Geriyə qayıtmaq yoxdur!" O qalan ərəblər İspaniyada düz 800 il qalırlar, İslam tarixinin Qranada, Kordova kimi mədəniyyət incilərini yaradırlar.

Sərkərdənin o əmrini düşünəndə razılaşırsan ki, bəzən gələcəyi qurmağın yolu keçmişlə üzülüşməkdən keçir.

Filosofluğum tutmamış söhbətimi davam eləyim.

Demək, La-Linea Cəbəllrüttariqin sərhədində yerləşən sonuncu ispan şəhəridir. Hələ sərhəddən xeyli aralıdan məşhur Cəbəllrüttariq dağı öz sərt qayaları ilə görünür. İspaniya sərhədçiləri heç sənədə də baxmadılar, amma britaniyalılar hər kəsin pasportunu bitbəbit yoxladılar.

Buranın ərazisi 6,5 kvadrat kilometrdir. Təxminən Bakının Nəsimi rayonu boyda. Yox, ondan da xeyli balaca. 30 min əhalisi olan bu qala-ölkəyə il ərzində 10 milyon turist gəlir. Turizmlə yanaşı ölkənin əsas gəlir mənbəyi gəmi daşımaları və ofşor banklardı. Təkcə bunu deyim ki, ofşor banklardan qazanc ÜDM-un 20 faizini təşkil edir. "Ofşor bank" sözünü son vaxtlar tez-tez eşidirik, bizə yad söz deyil deyə haqqında uzun yazmıram.

Turistləri bura cəlb edən tək onun tarixi abidələri deyil, məncə, həm də coğrafi yeri, ekzotikası, üstəgəl fərqli "kulturoloji adacıq" olmasıdır Elə bil yağışlı yox, isti, günəşli İngiltərədəsən.

Buranın hər addımında tarixin neçəsə dövrünün nişanəsi var. Onu deyim ki, Cəbəllrüttariq yalnız ərəblər yarımadadan qovulandan sonrakı 300 ildə İspaniyanın olub. 1462-ci ildə ərəblərdən azad edilən bu yerlərə 1704-ildə ingilislər yiyələniblər. O gələn hələ də burdadılar.

Sərhədi keçən kimi maşını birbaşa şəhər-ölkənin o başına – məşhur Cəbəllrüttariq mayakına sürdüm. 7 kilometrlik yolun sağı sıldırım qayalıqlar, solu boğazdır. Mayak 1838-41-ci illər arası tikilib. Təzəlikcə təmir olunub, dənizin 27 kilometrliyindən görünür. Səudiyyə kralının hədiyyə kimi tikdirdiyi İbrahim-əl-İbrahim məscidi də burdadır.

Cəbəllrüttariqə gələsi olsanız, imkan edib bir-iki gün qalın. Bu müddətə görməli yerləri tam gəzib dolaşarsınız. Amma bizim kimi yarım günlüyə gəlsəniz, “La-Kalle Real” deyilən mərkəzi küçəsində çox vaxt itirməyin. Bütün şəhərlərin baş küçəsi kimi bura da insanların gur olduğu, mağazalar, restoran-pablarla dolu bir yerdir. Ondansa elə bu küçənin girişinə yaxın yerdən kanat yolu ilə məşhur Cəbəllrüttariq qayalarına çıxmağı məsləhət görərdim.

Dağın başından şəhərə, boğaza füsunkar mənzərə açılır, aydın səmalı günlərdə Afrika sahillərini, Mərakeşdə Seuta şəhərini də görə bilərsiniz. Seuta Mərakeşdə yerləşsə də İspaniyanın ərazisidir.

Bax, güc belə şeydir, birinə çatır, birinə yox. Cəbəllrüttariqi qaytarmağa ispanların gücü yetmir, əvəzində Mərakeşin Seutasını tutublar. Rusiyadan Dərbəndi almağa gücümüz yoxdur, bəs, ermənilərdən Qarabağı geri almağa nədi sözümüz?!

Yenə “yaxın” Afrikanı qoyub fikrim getdi “uzaq” Qarabağa.

Vaxt olsa idi gəmi-bərə ilə Seutaya baş çəkərdim. Şimali Afrikanın iki ölkəsi cəlbedici gəlir mənə, Mərakeş, bir də Tunis. Fürsət düşsə, qaçırmaram, gedərəm. Bu dəfə alınmadı. Bu dəfə heç planladığımız kimi Qranadaya da gedə bilmədik. Nə isə…

Cəbəllrüttariq qayalarının üstü turistlərin ən çox gəldiyi yerdir. Kanat yol təzə təmir olunub. Avropada meymunların təbii şəraitdə yaşadığı yeganə yer buradakı qoruqdur. Meymunlar Cəbəllrütariqin simvoludur. Yerli inanca görə nə qədər ki, bu meymunlar Cəbəllrütariqdə yaşayır bura Britaniya torpağı olaraq qalacaq. Yəqin ona görə özlərini ərköyün aparırlar. Turistlərin üstünə hoppanır, evlərdən yemək oğurlayır, nə bilim, yüz cür meymunluq edirlər, amma onlara gözün üstə qaşın var deyən yoxdur.

Qayalığın altında yüzəcən mağara var. Yalan-gerçək deyirlər, mağaralararası tunellərin uzunluğu 50 kilometrə çatır. Onların bəziləri turistlərin üzünə açıqdır. Bəzilər hələ də hərbi obyekt kimi istifadə olunur.

Cəbəllrüttariq haqda uzun-uzadı yazmıram, gələsi olsanız istəyinizə uyğun baxmağa yer seçəcəksiniz. Bircə onu deyim ki, İspaniyanın cənubuna gəlib bura dəyməsəniz, sizə əsl səhayətçi deməərəm.

Unutmuşdum az qala! Bura gələndə mütləq Britaniya vizanız olsun. Yoxsa Səməd bəygil kimi sizi də sərhəddən buraxmazlar. Elə təəssüfləndik ki, Cəbəllrüttariqi səfər yoldaşlarımızsız ziyarət etməyə. Biz “ispan İngiltərəsi”ni dolaşıb qayıdanacan onlar da Əndəlüsün La-Linea şəhərində maraqlı sərgüzəştlər yaşayıblar.

## Sevgilim dəniz

Dənizə aşiqliyim gəncliyimin ilk ilindən başladı – Bakıya oxumağa gələndən. Az olmayıb “Baksovet”dəki jurnalistika fakültəsində dərsdən qaçıb bulvarda dənizə tamaşa eləməyim. Sonralar Şıxova gedərdim təmtəkcə.

Özünlə söhbətin varsa, dənizə tək get!

İndi Baltik sahilində yaşayıram. Gündə bir dəfə Stumholmen adasını dolanmasam, sahil skamyasında əyləşib qağayılara salam verməsəm, üzən gəmi-bərələri, qayıqları qarşılayıb yola salmasam, baxışlarımı dənizlə səmanın görüş yerində azdırmasam, elə bilərəm, dəniz məndən küsər.

Burda, Torremolinos sahilində isə dəniz ayrı cürdür. Aralıq dənizi Baltik kimi deyil, fərqlidir, bütün isti dənizlər soyuq dənizlərdən fərqlənən kimi.

İsti dəniz sənin gəlişindən xəbər tutmur. Onun gələni çoxdur, yəqin o üzdən sənə biganədir.

Şimalın soyuq dənizi isə gəlişinə sevinir, deyirsən bəs, sənə görə çalxalanır, hər dalğasında bir mesaj, hər ləpəsində bir pıçıltı sözü var. Bütün diqqətinlə bağlanırsan.

Soyuqluqda tənhalıq var. Bəlkə də şimal dənizinin soyuqluğu tənhalıqdandı. Bəlkə onun sənə ehtiyacı var?!

Bəlkə hər dəfə nəfəsimlə qızdırırmışam üşüyən Baltiki…

Aralığın isə bir suyu bizim Xəzərə bənzəyir. İllah da günçırtlayan vaxtı. Qaldığım günlərin hər səhəri obaşdan durub günəşin doğmasına tamaşa elədim. Bəzən onuncu mərtəbə yüksəkliyindən, bəzən də sahildə düz üfüqün tuşundan.

Aralıq da Xəzər kimi ancaq səhərlər sənin olur.

Əndəlüsün dəniz kənarında qəribə bir sehr var. Qumlu sahildə palma ağacları arasında dolaşanda duyursan bunu. Paulo Koelyonun "Kimyagər"ində Əndəlüsdən yol alıb xəzinə dalınca Misir piramıdalarınacan gedən Santiyaqonu xatırladım bir sabah "Playa el Bajondillo" çimərliyini dolaşanda. Hələ sübh çağıdır, sahildə tək-tük adam gəzişir, çimən yoxdur.

Adamın Santiyaqo olmağı gəlir! Dünyanın bütün gözəlliklərini vətəndə yaşamaq istəyirsən. O da sonunda xəzinə-xoşbəxtliyi öz vətənində tapır.

…Günorta çimərliyə Səməd bəylə gəldim. Qumda uzana bilmədik – yaman isti idi. Çoxdan qaynar qumda gəzmirdim nə idisə, əvvəl-əvvəl ayaqyalın yeriyə də bilmədim. Sonra öyrəşdim.

Aralıq dənizinin suyu bizim Xəzər qədər duzlu deyil. Elə çimərliyi də fərqlidir, ilk dəfə özünü lüt ətcəbala günə verən xanımları burda gördüm. Əyinlərində elə təkcə əyin idi, ayrı heç zad. Fotoaparatımın obyektivinə təsadüfən bir neçəsi düşdü. Amma ta o şəkilləri bu foto-reportajda yaymaram. Paparatsi zad deyiləm ki. Hər halda jurnalistika fakültəsində bizə etika dərsi keçiblər.

İspaniyada çimərliklər bələdiyyəyə məxsusdur. Ona görə də bizdəki kimi pul verməyə məcbur deyilsən – istəsən günü 5 avroya çətirlə birgə uzanacaq götürərsən, istəməzsən öz qətfəni salıb pulsuz uzanarsan. Bizim təbii çətirimiz palma ağacı oldu. Açığı ilk dəfəydi palma kölgəsində yuxuya gedirdim. Elə qəşəng mürgüləmişdim ki. Buddası kömək olmuş bir tailandlı qızın səsinə oyandım. Dirəndi ki, 10 avro ver, masaj eləyim. Birtəhər başa saldım ki, publik masaj lüksüm yoxdur. Ondansa dənizə girərəm. Heç onun şirin dilinə sıyılan Səməd bəyi də masaj olunmağa qoymadım. Plyajda da masaj olar?!

Dənizin ilk bir-iki metrliyi balıqqulağı, çınqıldı, sonrası qumludur. Katamaran da kirayələyə bilərsən. Amma saatına 20 avro ona verincə sahil boyu çoxsaylı kafelərin birində buz kimi pivə daha cəlbedici gəldi bizə.

Elə o cür də elədik, babat pivələdik.

## Kalamorroda “kəkotu çayı”

Benalmadenaya yolumuz qatarla iki dayanacaqlıq oldu. O da Aralıq sahili şəhərlərdən biridir. Qatardan qələbəliyə düşdük. Sən demə bu gün yerli əhali Müqəddəs Barnabe (Dia de San Bernabe) gününü bayram edirmiş. Ümumiyyətcə, ispan xalqı bayram sevəndir, heç nədən şənlik düzəltmək üçün sino gedirlər. Bu bayram isə, xüsusilə, əlamətdardır.

11 iyunda yerli əhali 1485-ci ildə Əndəlüsün katoliklər tərəfindən tutulmasını qeyd edirlər. Müxtəlif kilsə, məktəb, dərnək təmsilçiləri xüsusi bəzədilmiş öküz arabaları ilə yürüşə çıxırlar, bir növ parad-karnaval kimi. Həmin gün tək İspaniyanın şəhərlərindən yox, başqa ölkələrdən də gətirilən malların böyük yarmarkası təşkil olunur, öküz döyüşləri keçirilir.

Kanat yolunda gözəl mənzərələr bir-birini əvəz edirdi. Kabinlər həyətlərin, evlərin üstündən keçirdi. Burda hər evin hovuzu var. Odur ey, suda uzanan xanıma bax, kanat yolla üstündən keçənlərin baxışları heç vecinə deyil.

Beləcə, arxada sınırsız dəniz, qarşıda səmaya dikələn dağa doğru aramla qalxdıq.

Biz yalnız öküz arabalarının karvan-paradına baxdıq, ta izdihamın arxasınca getmədik. Planladığımız kimi kanat yolla Kalamorro dağına çıxdıq.

Uşaq vaxtı Şuşada eşidərdik ki, Cıdır düzündən o üzə kanat yol çəkiləcək. Elə söz olaraq da qaldı, bəlkə də, Qarabağa Sovet dönəmində hökmümüz, iradəmiz yetmədiyindən. Oradan təzəcə qayıdan çexiyalı jurnalist Petruşka Şustrova son görüşümüzdə deyirdi ki, ermənilər Xankəndidən Şuşaya kanat yol çəkməyi planlayırlar. Onların Qarabağa o vaxt da hökmləri olub, indi də var, çəkərlər.

İspaniyanın Aralıq sahilində çoxsaylı kanatların birində başgicəlləndirən yüksəklikdən qorxmasın deyə xanıma Şuşa söhbətləri edirdim. Hökmün çatanlara sahibsən, istər yer olsun, istər qorxu.

Qorxunu cilovlamağı hələ uşaqlıqdan bilirəm. Gecə vaxtı kəndə nənəmgilə təmtəkcə gedəndə fit çalar, ya da mahnı oxuyardım. Qorxunu səslə, sözlə, söhbətlə aşarsan!

Dağın başında gözaparan sonsuzluqla qarşılaşdıq. Aşağıda Kosta-del-Solun sıra-sıra şəhərləri, ucsuz-bucaqsız sahil, dəniz ənginliyi idi. Göydə isə tək göy idi, buludsuz, dəpdərin göy. Dağ cığırları ilə neçəsə kilometr dolanıb kafenin küləfirəngisində gözoxşayan nəhayətsiz sonsuzluğa baxa-baxa kofe içdik.

Xanıma deyirəm, təsəvvür elə, Topxana meşəsini gəzib kanat yolla qayıtmışıq, indi də Cıdır düzündə “kəkotu çayı” içir, dincimizi alırıq.

…Beləcə, səfəri xoş xəyallara köklənən ovqatla başa vurduq.

***

Yazdıqlarım sirli-sehrli Əndəlüsdə görüb duyduqlarımın azacıq hissəsidir. Yazmaqla bitməz, görmək gərək. Könlünüzdən nağılvari ölkə gəzmək keçsə, tərəddüd etmədən İspaniyaya səfər edin. Elə bir yerə ki, orda xəyallar həqiqətlə çulğaşır.

Sürreal bir dünya olur…

**İyul – noyabr, 2017**

**Torromolinos, Malaqa, Cəbəllüttariq, Karlskrona**

# Ağ Rusiyanın qara taleyi

*Belarusun görüb bilmədiyimiz üzü*

Uzun illər eyni iqtisadi-siyasi məkanda yaşadığımızdan haqqında kifayət qədər məlumatlı olduğumu düşündüyüm Belarusa son səfər təəssüratım məni rahat buraxmır. Sən demə, kitablar, filmlər, eşitdiklərim və əvvəlki qısamüddətli səfərlərdə gördüklərim bu xalq haqqında əsl həqiqətləri sanki Belarusun bataqlıqları kimi ilim-ilim itirməyə xidmət edirmiş. Həqiqət görünənlərin astar üzündəymiş…

Tarixin siyasət qarşısında acizliyinə öz xalqımın taleyi timsalında şahidəm, amma tarixi həqiqətin siyasi ideologiyanın bunca məzlum kölgəsində gizlədildiyini təsəvvürümə də gətirə bilməzdim.

Bu ölkənin şəhər, qəsəbə və kəndlərində adi adamlar, siyasətçilər, QHT nümayəndələri, jurnalistlər, hüquq müdafiəçiləri, tarixçilər, kommunistlər, demokratlar, vətənpərvərlər, kimliyi (əqidəsi) məlum olmayan şəxslər, pravoslavlar, katoliklər və nəhayət, azsaylı müsəlmanlarla söhbətlərim, yaxın-uzaq tarixdən xəbər daşıyan abidələrlə tanışlığım Belarus barədə təsəvvürlərimi alt-üst elədi. Bir şeyi yəqin bildim: belarusların tarixən ruslarla hansısa etnik bağlığı olsa da, onlar tamamilə fərqli, hətta bəzən bir-birini inkar edən xalqlardır.

## Rusiya – ana vətən?!

Yaşanan, fəqət yazılmayan tarix başqa şey deyir: Rusiyanın belaruslar qədər mənəvi və fiziki genosidə məruz qoyduğu ikinci xalq yoxdur ("ruslaşıb" sıradan çıxan, assimilə olunan xalqları demirəm), nə qədər təəccüblü olsa da, Rusiyanı da belaruslar qədər …sevən ikinci bir xalq tapmaq çətindi. Bu, qəribə olduğu qədər də təzadlı reallıqdır.

…Otuz beş-qırx yaşlarında millətçi qadın həmsöhbətim öz xalqının tarixindən yanğı ilə danışır və qəhərini boğmağa uğursuz cəhd edirdi: "Biz belaruslara üzüyola, qorxaq deyirlər. Bəs necə olmalıyıq ki?! Zaman-zaman kişilərimizi qırıblar. Analar "Başını çölə çıxarma!", "Yanımdan uzağa getmə!" deyib övladlarını "ev uşağı" kimi qorxaq böyüdüblər. Artıq neçə əsrdir ki, hər otuz-əlli ildən bir kişiləri, ziyalıları, başını bir balaca dikəldənləri zəmi kimi biçirlər. Bu, milli mentalitetimizin formalaşmasında öz işini görüb… Qorxu iliyimizə işləyib".

Tarixini Rusiya ilə bağlayan Belarus kommunistləri və ruslaşmış adamlardan fərqli olaraq milli şüur hissini itirməyən kəsim özünü Böyük Litva Knyazlığının bir hissəsi sayır. Tarix, milli adət-ənənə, folklor, dil yaxınlığı, başqa amillər bu cür düşünməyə əsas verir. Tarixçi həmsöhbətim belə deyir: "Belarus etnomədəniyyət baxımdan heç vaxt Rusiya ilə bir olmayıb. O, daha çox litov-polyak mədəniyyətinə yaxındır. Böyük Litva Knyazlığında dövlət dili Belarus dili olub… "Rus" adında xalq olmayıb. Fikir verin, Belarus, Polyak, Litov – bunlar isimdir, addır. Amma "russkiye" sifətdi, nəyinsə təyinidir. 19-cu əsrin ortalarına qədər

əhalinin səksən faizi katolik idi. 1839-cu ildə rus çarının əmri ilə katolik dini qadağan olundu və adamları pravoslav dininə keçməyə məcbur elədilər. Milləti etiqadına görə iki yerə böldülər. Katoliklərə polyak, pravoslavlara belarus dedilər. İndi belarusların əksər hissəsi pravoslavlardır, katoliklər iyirmi-iyirmi beş faizdən artlq deyil… Adımız müstəqil olsa da, dövlət siyasəti yenə də ruslaşmaya yönəlidir, bizi zorla rusun ayağına yazmağa davam edirlər. Belarus mədəniyyəti və dili ikinci dərəcəli hesab olunur… Ruslar öz mədəniyyətlərini Belarus-Litov mədəniyyəti üzərində qurublar, onu mənimsəyib, sonra da danıblar".

***

Rus mədəniyyətinin formalaşmasında (özləri dansalar da) qədim türklərin əsas rollardan birini oynaması iddiasında olmamız heç də təzə xəbər deyil. Həmin tarixçi və digər həmsöhbətlərimlə qədim türklərin bu ölkədəki izləri barədə də fikir mübadiləsi aparırdıq. Təəssüf ki, bizim gördüyümüz bu izləri onlar görmür, yaxud eyinlərinə belə almırdılar. Adının qədim türk sözü olduğunu bir çox türkoloqların iddia etdiyi Polotsk şəhərində həmsöhbətlərimə Varşavanın kral bağında rastlaşdığim bir hadisəni danışdım.

Hadisə belə olmuşdu. Məni parkla, onun tarixi ilə tanış edən polyak tanışım osmanlıları Vyana darvazası ağzında durduran Litva kralı (bu knyazlıq Polşa və Belarus tarixinin şanlı dövrlərindəndir) Yan III Sobelskinin at belində heykəlini göstərib onun şücaətindən danışırdı. İki yüz ildən çox yaşı olan bu abidə ayaqları altında iki əsgərin imdad dilədiyi atı minmiş kralın tunc heykəli idi.

İmdad diləyənlərin kimliyinə şübhə etmirdim, amma yenə də soruşdum. Tanışım fəxrlə "Osmanlı əsgərləridir" dedi. Heykələ bir az da yaxınlaşdım, ikinci əsgərin hörüklü saçı vardı. "Osmanlılar hörük saxlamırdılar, bu, Atillanın əsgəridir, Osmanlı əsgəri isə bax, o birisidir" – deyərək çalmalı əsgəri göstərdim. Tanışım "ola bilər" deyib mövzunu dəyişmək istəyirdi. Ona dedim ki, iki yüz əvvəl bu heykəl tökülən zaman Avropada türk ruhu hələ mövcud idi, heykəltəraş bu obrazları boş yerə yaratmayıb. Osmanlılar Avropaya gələnə qədər burada hərbi və bəzi rəsmi əmrlər qədim türk dilində verilirmiş. Bəlkə də osmanlıların buralara gəlməyi tarixi səhv olub. Onlar bununla özləri də bilmədən min il əvvəlki türk ruhunu təzələyiblər və nəticədə bu izlərin "yox edilməsinə" rəvac veriblər. Heykəltəraş kralın qələbəsi ilə qədim Hun türklərinin Avropadakı minillik nişanələrinə də son qoyulduğuna işarə edir… Tanışımsa mənə göldə üzən Qu quşlarını göstərib onların gözəlliyindən danışırdı. Sonralar bildim ki, bu, avropalıların bəyənmədiyi, unutmaq istədiyi mövzudur.

Türklər Asiyanın müsəlmanlaşmasında həlledici rol oynadıqları kimi Avropanın da xristianlaşmasında mühüm işlər görüblər. Qədim türklərin bu dinlərə loyallığı sitayiş etdikləri Tanrıçılıq dininin ruh etibarı ilə İbrahim dinlərinə yaxın olması ilə izah olunur. Xristianlığın müqəddəs rəmzlərinin – xaç, ikona, məbəd, həmçinin yeni ildə bəzədilən yolka və neçə-neçə başqa tarixi atributlar Xalqların Böyük Köçü dövründə hunların Avropaya gətirdikləri yeniliklər idi. Belarusların tarixi kupala mərasimlərində, kupala mahnılarında qədim türk ruhunu sezməmək mümkün deyil.

***

Bu meşələr və bataqlıqlar ölkəsində ayrı-ayrı həmsöhbətlərimdən eşitdiklərim mənə yad gəlmirdi. Azərbaycanın son iki yüzillik tarixinə nəzər yetirmək bu məsum xalqın acı taleyini dərk etməyə bəsdir. Nə qədər tanış mənzərə…

Suvorov, Minin və Pojarski, Susanin kimi rus qəhrəmanları öz hikkələrini öncə belarusların başında çatladıblar. Belarus torpaqları rusların hərb meydanı olub. Onlar istər isveçlilərlə, istər başqaları ilə müharibələri bu torpaqlarda aparıblar. I Pyotrun atası Aleksey Mixayloviç 1654-67-ci illər müharibəsində bu xalqın yarısından çoxunu qırıb. Sovet tarix kitablarında isə onun haqqında belə yazılıb: "Rus çarı əmr etdi: belarusları öldürməyin, daxmalarını yandırmayın, çöllərini tapdamayın".

Belarusların ruslar üzərində son qələbəsi 1514-cü ildə Orşa şəhərində olub. Belarus ordusu sentyabrın 8-də Moskva knyazlığını darmadağın edib. İndi belarus milli-demokratları bu tarixin qəhrəmanlıq günü kimi qeyd olunmasını istəyirlər. Ötən il "Gənc Cəbhəçilər" təşkilatının üzvləri həmin günü Belarusun Rusiyaya birləşməsini təklif edən Kreml rəhbərinin müqəvvasını Rusiya səfirliyinin həyətinə atmaqla qeyd ediblər. Müqəvvanın üstünə bu sözlər yazılıbmış: "Putin, Belarusdan əlini çək, yoxsa ikinci Orşa olacaq". Bu hadisəyə görə aksiyanın təşkilatçısı Dima Daşkeviç 15 sutka alıb.

Bu xalqın uzun əsrlər boyu göstərdiyi müqavimət 1796-cı ildə, Belarus Rusiyanın tərkibinə qatılanda qırılıb. Bütöv bir xalqın taleyini yönləndirənlər ona yeni tarix də yazıblar, başqa sovet xalqlarının tarixini yazdıqları kimi…

## Sovet İttifaqı rus imperiyasının kulminasiya nöqtəsidir

Belarus xalqının faciəsi sovetlər dönəmində özünün son həddinə çatıb. Bu yerlər "qırmızı terror"un çiçək açdığı diyar olub. Əsl soyqırım 1939-cu ildə Polşa faşistlərlə kommunistlər arasında bölünəndən, Belarusun qərbi ilə şərqi "birləşdiriləndən" sonra başlayıb. NKVD "qərbli"lər arasında daha amansız repressiya aparıb. Yürüdülən siyasət xalqı parçalamağa xidmət edib – şərqli provaslavları qərbli katoliklərlə üz-üzə qoymağa çalışıblar. İkinci Dünya müharibəsində Belarus xalqı 1654-67-ci illər savaşından sonra ən çox itkiyə məruz qalıb, bu xalqın dörddə biri məhv edilib.

Yaşlı nəsil belarusları daha çox partizan xalq kimi tanıyır. "Bataqlıqlar arasında, düşmən əhatəsində qanlı mübarizə aparan qəhrəman" sovet ədəbiyyatının, kinosunun ən çox müraciət elədiyi obrazlardan idi. Malodeçni rayonunun qoca sakinləri isə partizanlar haqda belə deyirdilər: "Partizan dəstələri yaradılanadək almanlar yerli əhali ilə normal davranırdı. Belə dəstələrin yaradılması əmri Moskvadan verilmişdi. Əhalinin almanlara rəğbəti yox idi, hər halda işğalçı idilər, amma ilk illər onlara dərin nifrət bəslənmirdi. Qırğınlara partizan dəstələri peyda olandan sonra başladılar. Elə fikirləşirdilər ki, yerli əhali partizanlara yardım edir… Azuqəmizi almanlar da əlimizdən alırdı, partizanlar da. Onlar çox vaxt ərzağın pulunu, heç nəyə yaramasa da, verirdilər, "bizimkilər" isə dədələrinin malı kimi – müftə aparırdılar. Kəndləri almanlar da yandırırdı, partizanlar da".

Üzü qırışlı, ağzı dişsiz olduğundan çənəsi burnuna dəyən başqa bir qocadan isə bunları eşitdim: "Əvvəl-əvvəl almanların bizimlə işi yox idi, özlərini aparmalarından elə bilirdik ki, bura uzun müddətə gəliblər, odur ki, yerli əhali ilə münasibəti pozmaq istəmirdilər. Bir alman əsgəri məzuniyyətdən qayıdanda xiyar toxumu gətirib əkmişdi. Tağ əməlli-başlı bar

gətirmişdi. Gizlətmirəm, ilk dəfə qarnımız almanlar gələndə doyub. Onlar kolxozları dağıdıb əhali arasında böldülər… Bizə qarşı vəhşiliyi əvvəl NKVD, sonra da SS nümayəndələri etdilər. Yerli polislər, başqa xalqlardan seçilmiş "cəza" dəstələri daha amansız idi. Camaatımız isə vuruşmaq istəmirdi. Elə qardaşlar vardı ki, biri partizan, o biri almanlar tərəfdə idi. Axşam bir evdə yatır, səhər o başdan durub hərə öz dəstəsinə gedirdi. Adamlar yalnız sağ qalmaq haqda düşünürdülər".

***

Bu ölkənin müxtəlif yerlərində görüşdüyüm insanlarla elədiyim söhbətlər başqa bir təsəvvürümün də yanlış olduğunu üzə çıxardı. Sovet dövründə belarusların və ukraynalıların xüsusi statusa malik olmaları xeyli şişirdilib. Müəyyən sahələrdə, məsələn, yüksək dövlət və hərbi vəzifələrdə onlara üstünlük verilsə də, milli məsələlərdə belarus xalqı ilə daha amansız rəftar edilib. Belarus vətənpərvərləri bu ögey münasibəti unutmaq istəmirlər…

Kommunistlərdən söhbət düşəndə sürücümüz də üz-gözünü turşudurdu. O, uzaqda, yamyaşıl meşənin üstündə burulan dumana bənzər dümağ tüstünü göstərib deyirdi: "Yanan torfdur. Sovetlər sonrasını düşünmədən bataqlıqları qurutdular. Nəticədə ekoloji fəlakət yaranıb. Bir balaca quraqlıq olan kimi torf yanmağa başlayır".

Daha ağrılı hadisəni başqa bir həmsöbətim danışır: "Çernobıl hadisəsi vaxtı radiasiyalı buludlar Belarus üzərindən Moskvaya doğru uçurdu. Bilirsiniz, neylədilər? Toplarla vurub buludların səmtini Belarusa yönəltdilər. Uzun müddət başımıza şüalı yağış yağdı. Bu da Moskvanın bizə sevgisi".

## Lukaşenko erası

Belarusda imzalanan Belovejsk müqaviləsi SSRİ-ni yaradan respublikalara müstəqillik bəxş eləsə də, tarixi sammitə ev sahibliyi edən millət əsl azadlıq sevincini çox az yaşadı. İndi belaruslar Stanislav Şuşkeviçin rəhbərlik illərini demokratiya dövrü kimi xoş təəssüratla xatırlayır. 1994-cü ildən, ölkənin tarixində keçirilən ilk və son azad seçki sovxoz direktoru, sonralar isə "Bilik" cəmiyyətinin təlimatçısı işləmiş Aleksandr Lukaşenkonun qələbəsi ilə nəticələnəndən Belarus geriyə – "ittifaqa" sürüklənməyə başladı.

"Nomenklatura və təqaüdçülərin hakimiyyəti" (ifadə bir belarus jurnalistinə məxsusdu) bərpa edildi. Prezidentlik fəaliyyətinə Belarusun milli atributlarını – bayraq, gerb və himnini dəyişməklə başlayan Lukaşenko həm də rus dilinə dövlət statusu verdi. Çox tezliklə onun Rusiyaya maksimum inteqrasiya siyasəti yürüdəcəyi məlum oldu. Rusiya ilə razılaşdırılmış xarici və daxili siyasət aparıldı. Nəticədə Belarus Rusiyanın satellitinə çevrildi. Yerli mütəxəssislər bunun bir çox ağır fəsadlarını qeyd edirlər. Bircə bu fakta diqqət yetirmək kifayətdi: hazırda iki milyon əhalisi olan Minsk şəhərində cəmi dörd belarusdilli məktəb var. Belarusca danışanları əvvəllər əyalət adamı sayırdılar, indi isə müxalifətçi hesab edirlər…

Rusiya telekanalları ölkənin elektron KİV sistemində hegemon üstünlüyə malikdir. Belarusdilli qəzetləri barmaqla saymaq olar. Artıq Milli Bank rus rubluna keçidin təqvimini hazırlayıb. Lukaşenko isə özünü birləşmiş Rusiya-Belarus dövlətinin başçısı vəzifəsinə ən real namizəd hesab edir. Hətta Rusiyanın vilayətlərində yaratdığı sənaye-ticarət nümayəndəliklərinə özünün potensial dayaq məntəqələri kimi baxır.

Əhalinin artım sürəti sıfıra bərabərdir və ya ondan da aşağıdır. Aparılan sorğular göstərir ki, şagirdlərin 86 faizi orta məktəbi bitirən kimi ölkədən getmək istəyir, qadınların böyük əksəriyyəti isə xarici vətəndaşa ərə getməyi arzulayır.

Ölkədə avtoritarizm tam gücü ilə hökm sürür. Məmurlar mükafat, yaxud cəza prinsipi ilə idarə olunur. Son prezident seçkisindən sonra 172 məmur dövlət büdcəsi hesabına “Mersedes” markalı avtomobillə mükafatlandırılıb. Amma eyni zamanda məmurlara qarşı ildə 20 mindən çox cinayət işi açılır. Bütün bunlar məmur aparatını qorxu altında saxlamaq üçün edilir. Yerli mütəxəssislər prezidentin kadr siyasətini bolşeviklərinkinə bənzədirlər. Ölkənin baş prokuroru heç bir hüquq təhsili olmayan hərbçi, tank qoşunları mayorudur. Mərkəzi Banka isə inşaatçı, trest müdiri işləmiş şəxs rəhbərlik edir.

Ölkədə 18 qeydiyyatdan keçmiş, 3 qeydiyyatsız partiya fəaliyyət göstərir. Onların heç biri ayrılıqda real güc mərkəzi deyil. Hətta birləşmiş müxalifət belə öz partiyası olmayan prezidentlə müqayisədə gücsüzdür. Nüxalifətin özü də yekcins deyil. Bəziləri Lukaşenkonu ölkənin Rusiyaya az inteqrasiya olunmasında, digərləri isə milli maraqları Rusiyanın ayaqları altına atmaqda ittiham edir.

Bir sözlə, bu gün hələ də Rusiyanın təsir dairəsindən çıxa bilməyən (azsaylı vətənpərvərlər olmasaydı, çıxmaq istəməyən yazardım) Belarus insan hüquqlarının kütləvi şəkildə pozulduğu avtoritar dövlətlər siyahısındadır. Özünütəcrid siyasəti Belarusa Avropa üçün arzuolunmaz ölkə, Lukaşenkoya isə qəbuledilməz prezident statusu bəxş edib.

…Xalqlar bir-birinə oxşayır, öz tarixləri, öz taleləri ilə.

…Xalqlar bir-birinə həm də oxşamırlar. Yazıq olduqları qədər güclü, güclü olduqları qədər də yazıq olmaları ilə…

**Fevral, 2003**

# Qırmızı ada

Kuba dəftərindəki qeydlərim

Kubaya ikimiz getmişdik. Sovet tarix dərsliklərindən xəbərsiz cavan tərcüməçi dostum Emin Hüseynov, bir də gözünü açıb ölkəni "Azadlıq adası" kimi tanıyan sovet adamı, mən. Emin çox şeyə təəccübləndi – kommunizmi birinci dəfə görürdü. Mən haçansa bu "xoşbəxtliyi" dadmış sovet xalqının övladı kimi o qədər də heyrətlənmədim.

Sovet xalqı demişkən, bizimlə hər şey aydındır: hara getmək istəyirdik və hara gəlib çıxdıq! Bəs hələ də "kommunizm günəşinin parladığı" Kuba hara gedir? Səfər boyu Eminlə, demək olar, söhbətimizin əsas mövzusu bu oldu.

***

Kubanın əhalisi 11 milyondur. Millət müxtəlif irqlərin və mədəniyyətlərin qarışığından formalaşıb – qara dərili afrikalı, ispandilli avropalı və artıq yoxa çıxmış aborigen xalqlar… Bura təzadlar ölkəsidir. 2 milyonluq paytaxt Havana 3 şərti rayona bölünüb: yoxsullar məhəlləsi, qədim hissə, bir də diplomatik missiyalar və yerli dövlət orqanlarının yerləşdiyi kvartal.

Ümumiyyətlə, Kubada qeyri-rəsmi bölgü üzrə bir-birindən ayrı yaşayan iki cəmiyyət var – yerli əhali və turistlər. Dövlət bütün gücü ilə bu "cəmiyyətlərin" təmas qurmamısına çalışır. Onlar üçün hər şey ayrıdır. Ölkədə 2 rəsmi valyuta var: biri turistlər üçün – təzə, konvertə olunan, digəri yerli vətəndaşlar üçün – konvertə olunmayan. Turistlər üçün yaradılmış şərait – rahat taksilər, avtobuslar, otellər, bar və restoranlar, çimərliklər, 12 saat işləyən internet, bütün dünyanın telekanalları, açıq mobil və beynəlxalq telefon danışıqları – yerli əhali üçün əlçatmazdır. Söhbət sadəcə kasıbçılıqdan getmir – diktatura rejimi vətəndaşlarını dünyadan "qoruyur". Sovet İttifaqında olduğu kimi…

***

Çe Gevara Latın Amerikasının az qala nağıl qəhrəmanı, əfsanəyə dönmüş mübarizə simvoludur. "Hər yerdə azadlıq uğrunda mübarizə aparan xalqların önündə gedən" Çe xüsusilə gənclərin sevimli qəhrəmanıdır. Kommunistlər nə qədər baş kəsəni kütlələrə sevdirə biliblər… "Mənim kimi düşünməyən mənim dostum ola bilməz" deyən bu macərapərəst inqilabçı bolşeviklərin və onların mübarizə metodununun heyranı idi. Leninə olan sevgisini oğluna Vladimir adı verməklə bildirmişdi. Xobbisi "onun kimi düşünməyən" adamları dizi üstə oturdub boynunun arxasından güllələmək olub. Kuba gəncliyi bunu hələ sonralar biləcək.

***

Havana Universiteti 1793-cü ildə yaradılıb. İnanılmaz səslənir, amma belədir: 55 fakültəsi var. Kubada təhsil məcburidir. Təhsildən yayınma qanunla təqib olunur. Məktəbə getməyən

şagirdlərin valideynləri 4 ilədək həbs oluna bilər. Bir sözlə, hamı oxumalıdır, amma ixtisas seçmək hüququ dövlətin əlindədir.

***

Gisela kompüter mütəxəssisidir. Bu sahədə işləmək ona qadağandır. Səbəb sadədir – siyasi məhbusun, xalq düşməninin arvadıdır. İxtisasca fizik olan əri tanınmış dissidentdir. Xarici mətbuatda Kastronu tənqid etdiyi üçün 25 illik həbsə məhkum olunub. Burada 25 illik həbs adi şeydir. Giselanın dostları ilə birgə yaratdığı "Ağ paltarlı qadınlar" hərəkatı bütün dünyaya səs salan aksiyalar keçirməsə idi, ərinə ölüm hökmü çıxarardılar. "Ağ paltarlı qadınlar" hərəkatı əri, atası, qardaşı siyasi məhbus olan qadınların təşkilatıdır. Bu hərəkatın aksiyalarından sonra ağ paltar geyinmək yasaq olunub. Kuba türməsi dünyanın ən dözülməz şəraiti olan cəza yerlərindən sayılır. Min bir xəstəliyin tüğyan etdiyi, işgəncə və təhqirlərin ölçüsü olmayan bu yerdən salamat çıxmaq hər adama nəsib olmur.

Giselle – Giselanın qızı – quşları sevir, onları əzizləyir, yedirdir. Sanki bununla həbsdə olan xəstə atasına qulluq edir. Havana Universitetində oxuyur, təbii ki, istədiyi diplomatiya fakültəsində yox, dövlətin "məsləhət" bildiyi fakültədə. Dissident qızını diplomat olmağa qoymazlar.

Giselanın evi həm də ictimai kitabxanadır. O, ölkənin hər yerində fəaliyyət gostərən 137 ictimai kitabxananın koordinatorudur. Onun evi belə kitabxanaların ən böyüyüdür. İndi 83 kitabxana qalıb. O birilərini hökumət bağlayıb. Siyasi polis vaxtaşırı bu kitabxanaları "lazımsız ədəbiyyatdan" təmizləyir. Hər halda burada dövlət kitabxanalarından fərqli olaraq maraqlı kitablar tapmaq mümkündür.

Biz bu ziyalı dissident ailəsini qaldığımız "Havana Libre" otelinə nahara dəvət edirik. Otel 1959-cu ilədək "Hilton" adlanıb. Gisela hər gün bu otelin yanından keçib gedir. Amma indiyəcən burda olmayıb. Çünki bura turistlər üçündür. Bizimlə gəldikləri üçün ilk dəfə otelin içini görürlər və hər yana heyranlıqla baxırlar. Onları ən çox heyrətləndirən menyüdəki qiymətlər oldu. Elnur ana-balanın söhbətini qorxurmuş kimi pıçıltı ilə tərcümə edir: "Heç nə yemək istəmirlər, çünki ən ucuz bir yemək sadə kubalının aylıq qazancı qədərdir". Biz təkid edirik. Demək olar, dinib-danışmırlar. Hər kəsin – ofisiantdan tutmuş qapıçıyadək – xüsusi xidmət orqanları ilə əməkdaşlığına şübhə yoxdur.

***

Havana Kapitoliyası Vaşinqtondakı Kapitoliya binasının bənzəridir. ABŞ-ı xatırladan yeganə yer buradır. Amerika firmalarının inqilaba qədər tikdiyi binaların hamısının adı dəyişdirilib.

"ABŞ-ın maraqları sektoru". Səfirlik və ya konsulluq səlahiyyəti yoxdur. Kuba hökuməti binanın ətrafını qara bayraqlarla əhatələyib. Onlar bunu belə əsaslandırırlar: "ABŞ dünyada terrorla mübarizə apardığını bəyan edir. ABŞ terrorundan ən çox əziyyət çəkən isə Kubadır".

***

Burada 50-ci illərin ABŞ və 60-70-ci illərin sovet istehsalı olan avtomobillər əksəriyyət təşkil edir.

Yoluxucu xəstəliklərin əsl miqyasını bilən yoxdur. Səhiyyə xidməti pulsuzdur. Amma belə bir xidmət mövcuddurmu? Adi sabun, diş pastası, şampun, yuyucu tozunun tapılmadığı ölkədə səhiyyənin keyfiyyətini özünüz təsəvvür edin.

***

Həmsöhbətim qara dərili gözəlin adını unutmuşam. Havanaya əyalətdən gəlib. Onun bu barda işləməsi qanunla yasaqdır, çünki şəhərdə qeydiyyatı yoxdur. Belə şeyə görə 2 ilədək həbs oluna bilər. Onun gündəlik qazancı bir dollardır. Bayram günlərində iki dollar da qazana bilir. Beş-on dollara turistlərə intim xidmət də göstərməyə hazırdır, təbii ki, işdən, yəni gecə 11-dən sonra. Bu iş üçünsə cəza qat-qat ağırdır. Həyat onu daim risk altında işləməyə vadar edir. "Nə etməliyəm ki, mənim yaşadığım yerdə iş yoxdur, beş nəfərlik ailəmizdə isə təkcə mən işləyirəm. Hər an qorxu içində".

***

Havananın tarixi hissəsi klassik Avropa memarlıq üslubunda tikilib. Tarixi abidələr baxımsızlıq üzündən dağılmaq təhlükəsi altındadır. Yaxşı ki, YUNESKO var. Bəzi binaları bu təşkilatın hesabına təmir edirlər. Hökumət isə öhdəsinə götürdüyü binalara hələ də əl vurmayıb.

Havananın mərkəzində xaraba qalmış bu binalara bir neçə milyon dollar veriləcək zaman hələ qabaqdadır.

***

Havananın yaşayış kvartallarından birinə gəlmişik. Bu evlərdə sadə insanlar yaşayır. Ümumiyyətcə, kubalılar çox səmimi və mehribandırlar. Amma onlarla birgə "inqilab keşikçiləri" də yaşayır. Əslində onlar da sadə kubalılardır, amma bir qədər fərqli. Kubada hər məhəllədə "inqilab keşikçiləri" kantoru var. Rəsmi olaraq bu kontor məişət işləri ilə məşğuldur. Əsas vəzifəsi isə sakinləri tam nəzarətdə saxlamaq və şübhəli işlər barəsində hökumətə xəbər verməkdir. Qorxu və şübhənin insan mənəviyyatında yaratdığı catlar bizə otuzuncu illərdən tanışdır. Heç kimə bel bağlamaq olmaz, hətta ailə üzvlərinə də.

Kubada peyk antenləri qadağandır, bunun üçün də həbs cəzası var. Bəzi hallarda adamlar gizlində belə antenlər quraşdırırlar. Amma təhlükəsizlik orqanları xüsusi cihazlar vasitəsilə onları tez tapa bilir.

Dövlət Xose Marti meydanında xalq atasının 80 illik yubileyinə hazirlaşır. Əslində Fidel Kastronun doğum günü avqustdadır, xəstə olduğuna görə dekabra keçiriblər. Amma heç dekabrda da onu görən olmadı. Şəninə təşkil olunmuş hərbi paradı qardaşı Raul Kastro qəbul etdi. Kommunizmin nəhəng simalarının portretləri meydanı bəzəyib. Marks, Engels, Lenin, Xose Marti, Çe Gevara və bizim tanımadığımız Latın Amerikasının solçu qəhrəmanları. Meydana ölkənin hər yerindən yüz minlərlə insan gətirilir. Əlində bayraq və şüarlar olan bu insan seli Fideli alqışlamalı, onları "xoşbəxtliyə çıxarmış" inqilabın şəninə "ura" qışqırmalıdırlar. Elnur cavandır, kommunistlərin belə məcburi paradını görməyib: "İnsanları nifrət etdikləri adamı alqışlamağa necə məcbur etmək olar?"

***

Bu gözəl ölkədən ayrılıb göy üzünə qalxırıq. Buludların altında həqiqi azadlığa və xoşbəxtliyə qovuşacaqlarına ümidini itirməyən insanların yaşadığı Kuba adasıdır. Bizdən yuxarıda isə Tanrıdır.

**Fevral, 2007**

# Afrika sərgüzəştləri

*"Qəmli gözlərin süitasi" essesindən*

"Mən həmişə ağdərililərin də, qaradərililərin də zorakı hökmranlığına qarşı mübarizə aparmışam. Mən bütün insanların birlikdə, harmoniyada yaşayacaqları və bərabər imkanlara malik olacaqları demokratik, azad bir cəmiyyətin qurulması xəyalları ilə yaşamışam. Bu xəyalları gercəkləşdirmək mənim həyatımın mənasını təşkil edir. Və əgər lazım gələrsə, mən onlar uğrunda ölməyə belə hazıram".

Böyük azadlıq carçısı Nelson Mandelanın sözləridir. Bu sözlərin arxasında 29 illik həbsxana həyatı, bu həyatın içində dəmir insan iradəsi, bu iradənin qarşısında məqsədyönlü uzun mübarizə yolu və bu mübarizənin sonunda azad ölkənin məğrur prezidenti dayanır.

Cənubi Afrika Respublikasının prezidenti kimi, Mandela andını bu sözlərlə bitirir: "Bu gözəl ölkə bir də heç zaman, heç vaxt insanların bir-birinə işgəncə verdiyi, bütün dünyada nifrətlə anılan bir yer olmayacaq."

***

…2004-cü ilin fevralında Bakının soyuq qışından ayrılıb dünyanın o başına – isti Afrikanın yayına gedirdim. Demokratiya Uğrunda Dünya Hərəkatı dünyanın dörd bir tərəfindən yüzlərlə demokratiya fəalını Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilən Üçüncü Assambleyasına toplamışdı. Başqa bir dünyaya düşmüşdüm: ekvatorun o üzü, xəritənin dibi, fərqli adamlar, ağaclar və dalğalar ölkəsinə.

Səfər hazırlığı günlərində xeyli məlumat toplamışdım bu ölkə barədə. Onun xalqları, xüsusilə, zulusların məşəqqətli taleyi, tarixin ən üzüqara rejimlərindən olan aparteid və onun onilliklər boyu yerli xalqları ölkənin yalnız 12 faiz ərazisini təşkil edən xüsusi rezervasiyalarda ("Şimali Amerikada, Cənubi Afrikada və Avstraliyada imperialistlərin yerli tayfaları zorla yerləşdirdikləri pis yerlər" – lüğətlərdən götürmüşəm) yaşamağa məhkum edən seqreqasiya ("zəncilərin ağlarla bir evdə, hətta şəhərin bir hissəsində yaşamalarına, ağların olduğu yerə gəlmələrinə icazə verilməməsindən və s. ibarət irqçilik siyasəti" – bu da lüğətlərdəndir) siyasəti və başqa səthi bilgilərim vardı.

Bu ölkədə hər üç nəfərdən birinin "SPİD" olmasından da xəbərdar idim. Qarşılaşdığım hər üç adamdan birinin QİÇS daşıyıcısı olduğunu təsəvvür edəndə indi də qarışıq hislər bürüyür canımı. Hər halda vərdiş etmədiyim mənzərə idi.

Elə ilk gündən tədbir iştirakçıları şəhərə tək çıxmamaq, qiymətli əşyaları hətta otel otaqlarındakı seyflərdə saxlamamaq və sair barədə zəruri xəbərdarlıq almışdılar. Deyilənləri ciddiyə almayanlar şəhərdən ya telefonsuz, ya da fotoaparatsız, gah gözünün altı "bandajlı", gah da ayağını çəkə-çəkə, biri pencəksiz, digəri papaqsız qayıdırdı.

Bəli, bura demokratiyanın yenicə qurulmağa başladığı “hirsli” qaradərili insanlar ölkəsi idi. Mən heç vaxt bu qədər aqressiv insanı belə cəm görməmişdim. Onlar onilliklərin, yüzilliklərin acısını, ağrısını, hirsini ağlardan belə çıxarırdılar. CAR küçə cinayətlərinin sayına görə dünyada liderdir. Mənə inanmayanlar gələn yay futbol üzrə dünya çempionatını gözləsin…

***

– Gedək çimək! Şıxov plyajı deyil e, Hind okeanıdır, dalğaların hündürlüyünə bax! – deyəndə Hikmət Hacızadənin gözləri işıq saçırdı.

– Sabah çimərik, gəl gedək şəhəri gəzək, – dedim.

– Nu, ladno, gedək, qorxmursan?

Cavaba ehtiyac qalmadı, piyada düşdük şəhərin canına. Yaşıllığı bol, küçələri təmiz, binaları gözəl, dükanları dolu, insanları sərbəst – kişiləri arxayın, qadınları mehriban.

“Bəs deyirlər, burda adamı soyurlar?” Həmsöhbətimin informasiya ilə zəngin, hərdən fəlsəfi, hərdən də məzəli söhbətinə qulaq kəsilərək Durbanın dərinliklərinə necə gəldiyimdən xəbər tutmadım. Çoxmərtəbəli evlərin sıralandığı uzun küçə ilə gedirdik. Sanki epidemiya səbəbindən boşaldılıbmış kimi bu böyüklükdə küçədə ins-cins yox idi. Avtobus dayanacağının yaxınlığında meyvə-tərəvəz satan kök qadından savayı.

– Manqo alım, yeyək?

– Pis olmaz, – dedim.

Hikmət bəy “Təzə bazar”da armudun qiymətini soruşurmuş kimi barmağını manqoya uzadıb qara və yekəpər qadına müraciət elədi, təbii ki, bakılı dilində: “How much this one?”, yəni qiymətini soruşdu.

İlahi, bu nə səs idi çıxdı qadından!.. Sifətindən bədheybətlik yağan satıcı bizə baxıb xortdan görürmüş kimi başını tutub qaçdı. Meyvə arabasını da qoyub, çox güman ki, bizi Afrika cəngəlliklərindəki ləhcələrin biri ilə söyə-söyə binanın tinində qeyb oldu. Küçənin vahiməli sükutu çox çəkmədi. Binaların arasından qara-qura uşaqlar ikibir, üçbir çıxıb bizə doğru gəlməyə başladılar. Hər şey aydındır, pis yerdə axşamladıq…

– Belə yerdə bilirsən Koroğlu nə deyib? – silahdaşım dilləndi.

– Deyirsən, qaçaq? Bu uşaqlarla ayaqlaşa bilmərik. Ağsaqqalsan da, dur qabağa.

– Pulun hamısını götürmüsən özünlə? Qorxma, mən onlarla danışaram.

– Sən danışarsan ey, onlar danışmayacaq. Döyüb biabır edəcəklər bizi.

Bütün pis variantları gözümüzün qabağına gətirib artıq iyirmi nəfərə çatmış dəstənin qabağına rus tanklarının qarşısına çıxırmış kimi çıxdıq. Qərara gəldim ki, döyüşsüz təslim olum, nə istəyirlərsə verim, təki otelə sifəti “bandajlı” qayıtmayım. Alınmasa, gərək sifətimi qoruyam, başqa yerə nə qədər istəyirlər, döşəsinlər, daha öldürməyəcəklər ki.

Yəqin dostumun da qərarı beləymiş. Amma ümid üzülməz, elə "soyulmağa" hazırlaşırdıq ki, tindən uzun bir avtobus burulub dayanacaqda saxladı. İnanmaram ki, qədim Yunanıstanın olimpiya qaçağanları bizimlə ayaqlaşalar…

Bir neçə dəqiqədən sonra avtobus sürücüsünün atasına rəhmət oxuyurduq.

Hikmət bəyin gözləri sevincdən sanki çiçəkləmişdi.

– Belə bir quldurxanada Mandela, Qandi kimi humanistlər necə yetişib?

Ağsaqqal demokrat dostum mənim bu ritorik sualıma yol boyu çox maraqlı cavablar verdi. O, insanların əsrlərlə apardığı azadlıq mücadiləsi, əzilən xalqlar, onların liderləri, demokratiya, liberalizm və onun tarixi, ümumiyyətlə, bəşəriyyətin inkişafında əsl demokrat şəxsiyyətlərin rolunu özünəməxsus jestlərlə ərz eləyirdi.

Otelə çatanda zarafatından da qalmadı:

– Sən bildin də o arvad bizi görən kimi niyə qaçdı?

– Yoox, niyə qaçdı ki?..

– Sifətimizə baxan kimi bilmişdi ki, Azərbaycandan gəlmişik, – Gözlər şeytanvari gülürdü.

Növbəti günün axşamı dostumdan daha orijinal təklif gəldi. Yerli xuliqanlara və dünənki qara uşaqlara etiraz əlaməti olaraq kazinoya, özü də piyada getməyə qərar verdik. Oteldə hamı yaxınlıqdakı kazinonun əzəmətindən danışırdı. Biz də gedib baxmağı, hələ bir şansımızı sınamağı da düşünürdük.

Bu dəfə həqiqətən qorxmurduq, özü də qaranlıq düşmüşdü. Yaxın deyilən yol bir kilometrdən çox uzandı. Və biz dostumun "demokratiyanın uzun və məşəqqətli yollarına" bənzətdiyi məsafəni qəhrəmancasına qət etdik. "Şəhər uşağı" olmasına rəğmən yol yoldaşım qətiyyən qorxaq deyilmiş.

Kazino deyilən yer bizim Əl Oyunları Sarayımız boyda iki ayrı nəhəng zaldan ibarət idi. Birində siqaret çəkənlər, digərində çəkməyənlər şanslarını yoxlayırdılar. Sözləşdik ki, adama maksimum 50-60 dollarlıq (udsaq da, uduzsaq da, olanı budur) jeton alıb bəxtimizi sınayaq.

Kazinodaşım "ruletkanı" seçdi.

– Buna böyük pul lazımdır, tez uduzub çıxacaqsan, – deyib oyun avtomatları olan cərgəyə keçdim.

Bəxtim gətirirdi. Amma ayrılmağımızdan 15 dəqiqə keçməmiş kazinodaşım qayıtdı. Uduzmuşdu.

– Hakimiyyəti də belə tez uduzdunuz ey! – Yerində, amma amansız və çox pis zarafat elədim.

– Neyləyək, ay brat, belə oldu də, – Əlini yellədi.

Özünü laqeyd aparmağa çalışdı, amma gözlərindəki pərtlik gözümü deşirdi. Avtomatdan tökülən jetonların səsindən xüsusi zövq ala-ala udluq pula aldığım "Amstel"dən içir, "Marlboro"dan dərin qullab vururdum.

– “Udmusan, dur, sonra uduzacaqsan”, – Qulağıma çox məxfi bir söz deyirmiş kimi pıçıldadı, sonra əllərinin ikisini də cinsinin ciblərinə dürtüb, çiyinlərini çəkə-çəkə oyun avtomatları arasında gözdən itdi. Bir xeyli sonra qayıdanda mənim tamam “müflis” olduğumu görüb acı-acı güldü:

– Dedim axı, uzatma! – Məndən fərqli olaraq amansız və pis zarafat eləmədi.

***

Növbəti gün əvvəlki bənzər konfranslardan tanıyıb dostlaşdığım adamlara qoşulub safari gəzintisinə çıxdım. Bir günlük tur ”Big Five” milli parkına və zulusların yaşadığı kəndə səfərdən ibarət idi. Hikmət bəy bizə qoşulmadı, o, okean sularında üzməyə üstünlük verdi.

Safari gəzintisi ömürə yazılası hadisə oldu. İlk dəfə zürafələri, begemotları, filləri sürü halında yaşadıqları yerdə görürdüm. Təbiətin insansız necə gözəl olduğunu da burda anladım. Müstəmləkəçilər bu yerlərin tək əhalisinə deyil, heyvanat aləmi də qənim kəsilibmişlər. İndi dövran dəyişib, dövlət milli parklar yaradaraq, heyvanlara da, onların yaşadığı təbiətə də sahib çıxıb.

Axşama doğru bir zulus kəndinə gəldik. Afrikanın say hesabı ilə ən böyük xalqlarından birinin məişəti, kültürü, yaşam tərzi haqda az da olsa təsəvvür yaradan bir səfər oldu.

***

Səhəri gün əvvəl Yopannesburqa, oradan da İstanbula uçaraq vətənə döndüm. Gözəl Afrikaya bir də gəlmək ümidi ilə.

**İyul, 2009**

# Çufut-Kala. Krımda qədim türk şəhəri

*"Ölü şəhərlər muzeyi" essesindən*

Dünya sivilizasiyasının beşiklərindən olan Krımda on altı ölü şəhər açıq muzey kimi durur, hamısının da öz tarixi, mədəni kimliyi var. Onlardan birinin – Puşkinin "Baxçasaray fontanı" şeirinin hesabına rus-kommunist fəlakətindən adını qoruya bilmiş əsrarəngiz Baxçasaray şəhərinin qədim hissəsindəki Xan Sarayının darvazası ağzından yuxarı qalxan yolun sonunda, sanki göy üzünə dikələn cığırın o biri ucunda, buludların əhatəsində mövqe tutan Cufut-Kala mağara-şəhəri 15 ildir qəlbimi və ruhumu fəth edib.

Cufut-Kala Krım xanlığının paytaxtı olub. Sonralar xanlıq böyüdükcə ərazi azlığı və su problemi səbəbindən xan aşağıda, daha böyük yerdə özünə paytaxt seçib Baxçasarayı. Cufut-Kalanı isə qəraim türklərinə verib. Krım-tatarca "cuhudların qalası", qəraimcə isə "Cuft Kale", yəni "cift qala", cüt qala anlamını verir.

1994-cü ilin yayında, türkçülüyün qanımı coşdurduğu cavanlıq çağımda yüzillərin araba təkərlərinin bəzən barmaq uzunluğunda dərinə işləmiş izlərini səmt tutub dar küçələrlə getdiyim vaxt keçirdiyim hislər hələ də dipdiridir.

Hündürlüyü 5 adam boyunda, duruşundan tarixin zəhmi tökülən cənub darvazasından girib bir vaxtlar tacirlərin mal satdığı bazarın sağ yanından keçirəm. Bir az da sağa burulub mağara-evlərin balaca oyuq-pəncərələrinin önündən ötürəm, burnuma xoş və tanış iy gəlir. Təzə gəlin piti asıb ərini gözləyir. Şuşada Sabir əminin – "turist Sabir"in pitisinin qoxusu idi eynən.

Yoluma davam edirəm. Kiçik meydançada ağsaqqal kişilər çöməlib oturublar, söhbət edirlər: "Deyəsən, bizim sözümüzü xana çatdırmırlar, axı. Bəlkə özümüz bir də onun hüzuruna gedək? Deyək ki, susuz yaşamaq olmur burda. Neçə ildir söz verilir, amma əlac edən yoxdur. Hamı çıxıb gedəcək, şəhər boş qalacaq axırda". Bir başqası cavab verir: "Xanın bizi dinləməyə vaxtı nə gəzir… Yenə harasa üz tutur, deyirlər bu dəfə Moskvaya hücum edəcək. Getsin, alsın, bizim uşaqlar da pis vuruşmurlar, sözüm yox, amma bizim də işimizə əncam çəksin barı".

Küçə sola burulur. Tində qəraim kenassasıdır. Şəhərin əksər evlərindən fərqli olaraq bura daşdan tikilib, üstü kirəmitlidir (Şəhərdə heç ev yoxdur, ev dediyimiz yonulub-yarılıb qayadan düzəldilmiş mağara-sığınacaqlara bənzəyir). İbadət vaxtıdır, deyəsən. Düz keçirəm.

Qəraimlərin tarixini hərə bir yerə yazır, mən onları xəzərlərin davamçıları hesab edənlərdənəm. Türk dilində danışırlar. Dini ayinləri də qəraim türkcəsindədir.

Qarşıdan gələn öküz arabasına yol verib yoluma davam edirəm. Təkərlər ağ sal daşların içində açılmış bir xətt boyunca diyirlənir. Eynən relsin üstüylə gedən tramvay kimi. Çıxardıqları səslər də bənzəyir bir-birinə. Sağ tərəf sıldırımdır, odur ki, yol sola burulur.

Aşağıda dərin dərələr göz aparır, yavaş-yavaş öyrəşirsən. Xuraman özünü buradan atıb? Görəsən, niyə atıb? Əsl səbəbini bilən varmı?

Tini dönürəm. Böyük mənzərə qarşımdadır. Solda şəhərin ən hündür tikilisidir. Bura Toxtamış xanın qızı Canıke xanımın 1437-ci ildə tikilmiş məqbərəsidir. Ziyarət edirəm. Bu ucalıqdan baxanda babası Çingiz xanın yaratdığı tarixin ən əzəmətli imperiyasının sərhədlərinin səmada Tenqrinin qapısı ağzında üfüqə çevrildiyini asanca görə bilər hər türk oğlu türk. Özümü bu məkanın, bu üfüqün bir parçası hiss edirəm. Şahin kimi bu sonsuzluğa şığımaq istəyirəm, elə dəli şahinlərin özü kimi. Tarix yaddaşımdan retrovari görüntülərlə keçir, özüm tarix oluram…

Bir qədər sağda mağara-şəhərin ikinci darvazasıdır. Əsrləri addımlayırammış kimi nəhəng divar daşlarını sürətlə qalxıb şimal darvazasına dırmaşıram. İlahi, bu nədir belə? Mən tarixin fövqündəmi durmuşam? Doğrudanmı tarix məndən başlayır? Bəşəriyyət mənim atdığım addımın, getdiyim yolun düzlüyündən, səhvliyindənmi asılıdır?! İçimdə təlatüm yaranır, bədənim qızır, hər yerimi tük basır, bom-boz tük.

Nədir, yoxsa "Canavar" filmindəki Cek Nikolson kimi mən də qurda çevrilirəm? Doğrudur, çevrilirəm, qurdam artıq, qurd – Boz Qurd! Dizlərim darvazanın sağ tumbasına dirənib, üzüm göy üzündə Tenqrinin qapısına doğru, sağ əlimdə barmaqlarım Qurdun başı rəmzini qurub və bu qapını döyəcləməyə uzanıb. Qurd kimi ulayıb Tenqridən kömək diləyirəm. Mənə yol göstərsin, bəşəriyyəti xilas edim, Ergenekondan çıxarım.

– Auuuuuuuu!!!

– Auuuuuuuu!!!

…

Qarşıda üfüqün üstüylə Tenqriyə boylanan yol, arxada mağara-şəhərin xarabalıqları…

Ruhum bu arada var-gəl edirdi ki, aşağıdan, darvazanın dibindən gələn səs məni – Qurdu diksindirib ayıldır.

– Ey tı, çeqo aryoş? A nu ka bıstro spuskaysya!

– Ya ne aru, ya layu!

– Şto? Kto tebe razreşil?

– Ya prosto layu, razve dlya etoqo nujno razreşeniye?

– Tı kto?

– Seriy volk!

– Kakoy volk, spuskaysya!

Endim aşağı. Tanış olduq. Son yüz ildə burada yalnız bir ailə qalıb. O da Qalaya baxanın ailəsi. İndi o təkdir. Həm Qalaya baxır, həm də muzeyin rəhbəridir. Tarix elmləri doktorudur.

Məni, 1990-cı illərin mənim kimi bütün türkçülərini qınadı. “Hara qoyub qaçmısınız?”, – dedi. “Buranı kimin ümidinə buraxırsınız, axı, bura sizin də vətəninizdir!”

Bizi çaya qonaq elədi. Sonra şimal darvazasından üzüaşağı düşüb qəraim qəbiristanlığına apardı. Qarabağın, bəlkə Azərbaycanın ən böyük Qarağacı qəbiristanlığına bənzəyən bir yer idi. Amma buranın qəbirləri də, ağacları da nəhəng idi. Uç adamın əl-ələ verib başına dolandığı nəhəng ağac qədim qəraim məzarının içində bitmişdi.

…Beynimin, ruhumun tarixi tərpənişindən keçən bu 15 ildə Çufut-Kalaya dəfələrlə getmişəm. Hər dəfə də özümlə bir türkçü aparmışam. Hamısı da havalanıblar mənim kimi. Həmişə bir səbəbə gəlmişəm bura – Krımın başqa şəhərində keçirilən konfransları yarımçıq qoyub, çaparaq dəyən vaxtlar da olub – Şuşanın qoxusunu, ruhunu almaq üçün. Bura mənim vətənimdir, elə Şuşa kimi…

**İyul, 2009**

## Sarayevodan Tuzlaya. Bosniya qeydləri

*“Partlamayan minaların serenadası” essesindən*

1997-ci ilin ılıq oktyabr günləri idi. Beynəlxalq Plüralizm Mərkəzləri Şəbəkəsinin növbəti konfransında iştirak etmək üçün Bosniyanın Tuzla şəhərinə gedirdim. Beynəlxalq aeroport paytaxt Sarayevo şəhərində yerləşdiyindən bütün konfrans iştirakçıları burada toplaşıb avtobuslarla Tuzlaya getməli idi. Elə də çox gözləməli olmadıq, son təyyarə enən kimi yola düşdük. O günlərdən yadımda qalanlar kifayətdir ki, insan vəhşiliyinin “yaratdıqları” haqda gördüklərimi və həyatımda ən böyük dozada aldığım adrenalini – duyduğum Qorxunu, indi qısaca da olsa, anlada bilim.

…Avtobusdakı, dünyanın dörd bir tərəfindən gələn insanların heyrət dolu baxışlarını unutmaq mümkün deyil. Sarayevo-Tuzla yolunda gördüklərimizin bir nidası vardı: HEYRƏT! Nə qədər yol gəldiyimizi hələ bilmirdik – 50-100 kilometr… İlahi, bu qədər yolda bir salamat ev yox idi! Yanıb dağılan evlərin divarlarında müxtəlif işarələr vardı. Bizə izah etdilər bu işarələrin mənasını. Serblər müsəlmanların yaşadıqları evləri əvvəlcədən işarələyirmişlər ki, hansı evi dağıtmaq, qarət etmək və sakinlərini öldürməyin lazım olduğunu bilsinlər. Səhv salmasınlar…

Serb evlərini də sonra müsəlmanlar dağıtmışdı.

İki il əvvəl, 1995-ci ilin iyulunda Srebrenitsa şəhərində tarixin ən qanlı cinayətlərindən biri baş vermişdi – 8 minəcən müsəlman kişisi işgəncə ilə qətl edilmişdi. Sonralar Avropa Parlamenti bu qətliamı soyqırımı kimi tanıyacaqdı.

Konfransın Tuzlada keçirilməsinin bir rəmzi anlamı da vardı. Tuzlada serblər, xorvatlar, müsəlmanlar və başqa etnik xalqlar birgə yaşayırdılar. Bura adamların etnik zəmində bir-birinə güllə atmadığı yeganə şəhər idi. Tuzlalılar bununla fəxr edirdilər. Bu, ilk növbədə şəhər meri Səlim bəyin xidməti hesab olunurdu. Hətta onun namizədliyi Nobel sülh mükafatına irəli sürülmüşdü. Nə isə, bunları sonra biləcəkdik. Hələlik isə yoldayıq.

Avtobuslar yolun təxminən yarısında, xeyli yüksəklikdəki meşədə dayandı. On kilometrlərlə uzanan bu ensiz dağ yollarında rahat dayanacaq yeri tapmaq o qədər də asan deyildi. Konfrans nümayəndələri avtobuslardan düşüb meşənin oksigen dolu havasını ciyərlərinə çəkir, gərnəşir, əsnəyir, bir sözlə, qırışıqlarını açırdılar. Özlərini meşəyə verənlər də az deyildi. Hərə bu bir neçə dəqiqəlik istirahətdən ehtiyacına uyğun yararlanırdı.

Mən də meşəyə üz tutmuşdum. Meşə mənim yaralı yerimdir. Onun özünəməxsus aurası var. Bura həm də təbiətdə ilk formalaşan cəmiyyətdir, canlıdır, nəfəs alır, danışır, onun sakinləri dörd bir yana hərəkətdədir – ağacları yerin və göyün dərinliklərinə, sakinləri isə bütün coğrafi səmtlərə doğru.

“Deyəsən, çox uzağa gəldim”. Arxaya baxıram. 150-200 metrədək meşə boyu dərəyə düşmüşəm.

Buralara bir milyonadək mina basdırılıb! Qəfil beynimin damarlarını yarıb keçdi bu fikir. Bədənimdə qanın bir anda buzladığını, sonra bu buzun tədricən əridiyini, əriməkdə olan qan buzlarının bir-birinə dəyib çıxardığı ürpədici səsləri apaydın eşidirdim.

Bu xəbəri hələ Bosniyaya gəlməmişdən əvvəl qəzetlərdən oxumuşdum. Qanımın donu açılırdı, ayaqlarımın qıcı isə yox. “Necə yəni, o bir milyon minanın bircə dənəsi burada deyil?” Yupyumru bir minanın üstündə durmuşdum. Bir balaca tərpən, cəhənnəmə vasil ol! Həyat doğrudan da bir andan ibarətdir. Bütün həyat bir anın içinə necə sığmışdı? Kipriklərimə toxunub, lap burnumun ucundan sivişib keçdi bütöv bir ömür, meşənin dərinliyindən gələn sarımtıl kəpənək kimi. “Əlvida, həyat. Hələlik, ata, ana. Bağışla, hələ dünyaya gəlməyən körpəm” – beləcə, həyat iynə deşiyi boyda nöqtədən keçib getdi… və mən ayıldım. Ayılıb gördüm ki, həminki meşədir. Minalar var, mütləq var, bir Allah bilir hardadır, bir də onları basdıranlar. Ümid qalır Tanrıya. Bir O bilir minaların yerini. Məni yalnız O sağ çıxara bilər bu mina labirintindən.

Geriyə baxıb, gəldiyim yolu axtarıram. Yol nə gəzir? Mən ki, cığırla, yolla gəlməmişəm. Yalnız təxmini səmti tutub qayıda bilərəm. Bir… iki … üç… Yox, belə olmaz. Bura Bakı bulvarı deyil, belə yerimək olmaz. Kinolarda baxmamısan, gözlə görünməyən tük kimi nazik məftillərə? Minalar bir-birinə bu məftillərlə bağlanır. Ayağına ilişsə, vəssalam. “Bu nə işdir düşdüm? Bəlkə avtobusdakıları köməyə çağırım? Yox! Ayıbdır! Yüz adamın içində tək azərbaycanlı olasan, özün də qorxasan. Hər şey cəhənnəmə, bir o qalıb erməniləri özümə güldürüm. Hələ amerikalı, avropalı qızları demirəm. Yox, ölsəm də, çağırmaram”, – cürətlənirəm.

Ayaqlarımı dizim hündürlüyündə qaldıraraq irəliləyirəm. Dörd… beş… Onuncu addım. “Dayan! Axı məftillər yalnız yerlə çəkilmir, o, adam boyu istənilən hündürlükdə ola bilər. Əlbəttə, niyə də yox”, – indi ayaqlarım kimi əllərim də kor adam təki havada boşluq əlləyir, yaltaq məmur kimi rəhbər yola salır. Mən belə halımla əlahəzrət minaya yaltaqlanmırammı?

“Gör bir gəlib harda ölürsən… Camaat nə deyəcək? Qarabağda ölmədi, gedib Bosniyada minaya düşdü. Allahım, sən məni bu biabırçılıqdan qurtar. Əcəlimi elə Qarabağda verərdin… Bağışlayın məni, dayıoğlu Anar, mamaoğlu Eldəniz. Sizinlə birgə ölə bilmədim”.

Sabah dünya qəzetləri yazacaq ki, Bosniyada beynəlxalq konfrans iştirakçısı, dinc sakin minanın qurbanı olub. Hamı müharibə tərəfdarlarını lənətləyəcək. BMT minaların təmizlənməsi işini sürətləndirmək üçün əlavə pul ayıracaq. Pis deyil, ölümüm nəyəsə yarıya bilər. Dünyanın diqqəti bu yazıq ölkəyə, onun bu gözəl torpaqlarına basdırılmış bir milyon minaya yönələ bilər. Amma yooox!!! Mən ölmək istəmirəm. Mən yaşamalıyam. Və bu dərədən tez çıxmalıyam. Lənətə gəlsin BMT də, ATƏT də, elə bu saat onlar çatmırdı!

Bədənimdə bütün maddələr adrenalinə çevrilmişdi ki… aha, budur, avtobuslar! Şükür sənin böyüklüyünə, Tanrım! Sənə inanmayan kafirdir. Artıq yola çatmağıma üç-beş ağac qalıb…

İnsanlar gülür, danışır. Həyat doğrudan da gözəldir. Ölmədim. “Salam, ata, ana, hələ dünyaya gəlməyən körpəm!”

Elə bu vaxt saqqallı, uzun saçı arxadan “at quyruğu” yığılmış, qulağı sırğalı biri yanımdan keçib meşəyə doğru getdi. “Ey, tuda nelzya, tam minı!!!”, – dedim. “Seryozna?”. “Ti ne çital, çto zdes milyon min zakapali?”, – boğazımın quruduğunu, dilimin damağıma yapışdığını indi hiss elədim. Onun meşəyə niyə getdiyini öz təcrübəmdən bilirdim. Vacib məsələ idi, amma getmədi, qayıdıb avtobusa mindi, dözüb oturdu.

Səhəri gün konfransda bildim ki, bu sırğalı kişi erməni hüquq müdafiəçisi Mikael Danielyan imiş. Bax, mən bir ermənini beləcə “xilas” etdim. Xilas etməyinə dəyərmiş, çünki onu uzun illər öz ölkəsində döyüb təqib edirlər, həm də “Mi zaxvatili ix zemlyu” dediyinə görə.

**İyul, 2009**

# Maldiv – Yer üzünün cənnəti

*Mərcan adalarından reportaj*

Qışın oğlan çağı Maldiv adalarına səfər hazırlığı günlərində ağlımda tək olan şey isti Hind okeanı sularında üzüb ”sümük qızdıran” qumluqda özümü günə vermək idi, ayrı heç nə.

Bilirəm, soyuq havada elə hamının könlündən isti yer keçir. Dini kitabların yazdığı cənnət də elə adamların kölnündən keçən yerlərin təsviridir, başqa bir şey deyil. Günü günəş altında ötən insanlar sərin bulaqlı meşə-çəmən arzuladığı kimi soyuq yerin adamı da isti qumu, palması olan dəniz sahilini cənnət hesab edir.

“Ölkələr və şəhərlər” silsiləsindən olan əvvəlki səyahət yazılarımı oxuyanlar görmədiyim yerlərə getmək həvəsimin səbəbini anlamış olarlar. Olmadığı yeri olduğu yerlərdən daha gəzməli-görməli zənn edənlərdənəm. İnsan belədi, elə bilir ağacda qalan alma dərdiyindən dadlıdır.

Elə o görmək, gəzmək həvəsi ilə yolumu bu dəfə Maldiv adalarından saldım. Stokholmda yaşayan dostlarla birlikdə “düşdük yolların ağına”.

Stokholmdan Dohaya 6, Dohadan Maleyə 5 saatlıq uçuşa yaşadığım şəhərdən İsveç paytaxtına 500 kilometrlik məsafə qət etməyim də əlavə olunsa “sümük qızdırmaq” bəhanəsi ilə dünyanın o başına getməyin macəradan başqa bir şey olmadığını siz də deyərsiniz. Sizi bilmirəm, mənim xoşuma gəlir macəralı səfərlər. İllah da, əvvəl görmədiyim cazibədar yer ola.

Bəri başdan onu deyim ki, işdi-şayəd, Maldivə səfər etmək istəsəniz, elə qış aylarını seçin.

## Üfüqün itdiyi an

Maldivdə bizim kimi mövsüm bölgüsü yoxdur, yerli əhali üçün yaz, yay, payız, qış fərq eləməz. Onlar ili yağışlı, bir də yağışsız mövsümə bölürlər. Bizim səfər etdiyimiz yanvar ayı ilin yağışsız dövrünə təsadüf eləsə də, bir-iki dəfə ürəyim istəyən yağışa düşdüm.

İsti dənizə yağan ılıq leysan altında çimməkdən ötrü sino gedirəm. Bir kərə belə yağışa Karib dənizində düşmüşəm, Kubada, Varadero çimərliyində. Bir dəfə də cənubi Afrika sahilində, Durban şəhərində keçirilən konfransda girəvələyib özümü vermişdim yağışlı Hind okeanına.

Bu səfər də isti leysanın birinə – Ukulhas adasında – çatdıra bildim özümü. Bunun keyfini necə təsvir edim ki, siz də hiss edəsiniz?!

Təsəvvür edin, bir yanda okeanla göyün sərhədi itib: yaşılımtıl, göyümtül, bozumtul rənglərin tünd çalarları bir-birinə qarışıb – üfüq yoxdur! Ayvazovskinin rəsmləri təki. İlk baxışda qorxulu gəlir adama, amma elə deyil, nə qədər qəribə səslənsə də, xoş qılığı var bu “qorxulu” mənzərənin.

O biri yanda isə ağ qumlu sahil, palma meşəliyi yağış-tülün fonunda 3D illüziyası kimidir. Üzünə-gözünə sıçrayan duzlu okean suyunu başına-gözünə döyəcləyən şirin yağış damlaları yuyur. Dalğalar uşaqlıq dostların kimidirlər, səninlə "Bənövşə, bəndə düşə" oyunu oynayırlar. Yüyürüb üstünə gəlirlər, tuta bilmirsən, yarıb keçirlər.

İkinci kərə çatdıra bilmədim, Hulhumale adasında yağış bizi sahildən xeyli aralı bir kafedə haqladı. Mən suya girəndə yağışın son damcıları idi, bulud tökdüyünü töküb gedirdi. Buranın yağışı uzun sürmür, bir də gördün, qara-qura bulud yunan allahı Zevs kimi göy üzündə peyda oldu, ildırımın çaxdırdı, bir aşsüzən suyu ənrədib getdi.

On beş, iyirmi dəqiqə yağar-yağmaz, bitər.

## "Şeyx Nəsrullah"ın Maldivi xilas etməkliyi

Şri-Lankadan, Hindistandan hələ 2 min il qabaq gələn dravid tayfaları bugünkü yerli əhalinin əcdadlarıdırlar. Onlar 12-ci əsrə qədər buddizmə sitayiş ediblər. Deyilənə görə, 1153-cü ildə sahilə lövbər salan gəmidə Təbrizdən bir ruhani də varmış. Bax o təbrizli şeyx, çox çəkməyib, bütün arxipelaq əhlini islama gətirib.

Rəvayətə görə, Maldivə bir cin dadanıbmış. Camaata qan uddururmuş. Hər gəlişində 7 seçmə qızı aparıb yeyirmiş. Bir gecə həmin o təbrizli xətib səhərəcən Quran oxuyur. Yalançı bunu nəql edən olsun, deyir, elə o vaxtdan ta bir də cin oralara üzükməyib.

İstədim bu rəvayəti səfər yoldaşım təbrizli Məmməd Azər bəyə danışam, zarafata salıb deyəm ki, elə o da siz tərəfdən gəlib bizim "başımıza börk qoyan" Şeyx Nəsrullah, Dərviş Məstəli şah, Molla İbrahim-Xəlil Kimyagərin tayı imiş. Demədim, Məmməd Azər bəylə təzə tanış olduğumdan, düşündüm, zarafatımı tutmaz, birdən inciyər. Yumor duyğulu olmasını sonra bildim.

Rəvayət öz yerində, dəqiq olan budur ki, 1558-ci ildə portuqaliyalılar Male adasını zəbt edib qala-istehkam tikiblər. Amma çox yox, cəmi 15 il qala biliblər. Yerli əhali qalanı dağıdıb gəlmələri qovub. Sonralar hollandlar gəlib bura, onların da qalışı uzun sürməyib.

Yalnız 1887-ci ildə Britaniya öz protektoratlığını qurmağı bacarıb. Elə Britaniyadan da 1965-ci ildə azad olub, müstəqilliyini elan edib Maldiv adaları. 3 il sonra keçirilən referendumla respublika elan olunub. Demokratiya uzun sürməyib, ölkə 1978-ci ildə hakimiyyətə yiyələnən Mamun Abdul Qəyyumun 30 illk diktatorluğunda yaşayıb.

Bizi aeroporta aparan sürücü hazırkı siyasi vəziyyətlə bağlı səfər yoldaşımız Siyavuş Yusiflinin suallarına həvəslə cavab verirdi. Onun dediklərindən belə anladıq ki, ölkənin əməlli-başlı siyasi həyatı varmış, müxalifəti, onu dəstəkləyən xeyli fəal sakini varmış.

Allah üzümüzə baxıb, biz qayıdandan 10 gün sonra xəbərlərdə oxudum ki, Maldiv adalarında siyasi böhran yaranıb, müxalifət tərəfdarları küçələrə axışıb, polislə qarşıdurmadan sonra fövqəladə vəziyyət elan edilib, turistlər həyəcan yaşayıblar.

"Tarixi maldiv"i ona görə belə uzun yazıram ki, bu cənnət adaların camaatını başıaşağı, üzüyola sanmayasınız. İlk baxışda onlar çox sakit, mülayimdirlər, di gəl, siyasi ehtiraslar qızışanda üzlərini görmə.

Əlli illik müstəqillk dövründə nələr gəlməyib bu ölkənin başına! Baş nazirin uzaq adaya sürgün olunmasınımı deyəsən, ölkə xəzinəsini götürüb Sinqapura qaçan, sonra muzdlu Tamil döyüşçüləri ilə çevrilişə cəhd edən bir başqa baş nazirdənmi danışasan!

## Tranzit paytaxt

Turistlər adətən Maledə bir gecə qalır, səhəri gün adalara gedirlər. Paytaxt bir növ tranzit rolu oynayır.

Male evlərin sıx, küçələrin dar olduğu şəhərdir. Eyni adlı adada yerləşir. Mopedlərin əlindən tərpənə bilmirsən. Adama elə gəlir ki, burada moped adamdan çoxdur. Di gəl, Maldiv xalqının sürücülük mədəniyyətinə bax! Heyran qalırsan. Nə siqnal, nə "yol ver görüm", "ə, qaç gəldim" nidaları eşidərsən.

Qəribədir, məsciddən tək azançının azan çağırışı yox, moizəçinin günboyu aradabir təkbirini də eşidirsən. Hər belə səs gələndə özünü yas yerində hiss edirsən.

Maleyə cümə günü günortaüstü çatdıq. Şəhərdə dükan-bazar, kafe-restoran bağlı idi. Camaat cümə namazında idi. Burada məscidə hərə öz canamazı ilə gedir. Elə ki azan sədası ucaldı, hər kəs canamazını qoltuğuna vurub gəlir məscidə.

Sən demə məscidin biri də hotelin yanında, düz qulağımızın dibindəymiş. Yol yorğunu otaq yoldaşım Əli Ağayev elə təzəcə mürgüləmişdi ki, qəfil uca səslə başlayan azana diksinib yerindən sıçradı: "Bismillah! O, nə idi?"

Ölkə əhalisinin 97 faizi müsəlmandır. Bura spirtli içki gətirmək olmaz. Sərhəddə yoxlayıb içki tapsalar alıb saxlayar, geri döndükdə qaytararlar. Bir şərtlə ki, verilən qəbzi itirməyəsən. Mən qəbzi etibarlı yerdə saxladım, qayıdanbaş viskimizi geri aldım. "Cola-cola" şüşəsində viskini rahatca keçirməyin yolunu sonra bir rusiyalı turist bizə başa salacaqdı.

Torpaq sahəsi az olduğundan Maledə evlər bahadır. Bir otaqlı evin aylıq kirayəsi 1000 dollardan çoxdu. Belə bahalığa rəğmən şəhərin sən deyən gəzməli-görməli yeri çox deyil. Bir günə gəzib görərsən.

Maraq doğuran yerlərindən biri İslam mərkəzidir. 5 min adamın eyni zamanda ibadət edə bildiyi cümə məscidi də burada yerləşir. 2004-cü il sunami qurbanlarının xatirəsinə ucaldılmış "Sumani" monumenti, Milli muzey, prezident sarayı ilə üzbəüz Cümhuriyyət meydanı, balıq bazarı azsaylı diqqətəlayiq yerlərdəndir.

Şəhəri dolaşıb axşama doğru sahildə qayıq-taksilər olan yerə gəldik, qiymətlərlə maraqlandıq. Gedəcəyimiz Ukulhas adası Maledən 75 kilometr uzaqlıqdadır. Dəniz təyyarələri varlı turistlərə əl verir, odur ki, biz qayıqlara üz tutduq. Səhər bizi Ukulhas adasına adambaşına 25 dollara aparmağa bir qayıqçını razı saldıq.

Açığı, nə qədər macəra xoşlayan olsam da adrenalin keyfi axtaranlardan deyiləm. Belə birtəhər çıxmasın, sir-sifətdən peşəkar qayıqçıdan çox "uşaq-muşağa" oxşayanların sürdüyü qayıqda açıq okeana çıxmaq, özü də o boyda yol getmək ürəyimcə deyildi. Gedənbaş yolumuz xoş keçdi, qayıdan da isə küləyə düşdük, iri dalğalar qayığımızı top kimi atıb-tutduqca o dünyaya gedib gəldim. Adama deyərlər, axı, nə ölümün azıb okeanın ortasında!

Sürücü də, heyət də uşaq-muşaq deyilmiş, qayığı yüz yol fırtına görmüş əsl peşəkarlar kimi idarə etdilər. Təlaş özümüzə qaldı.

## Heminqueysiz "qoca və dəniz"

Maldiv respublikası 1200 mərcan adasından ibarətdi. Amma bunun cəmi 200-də adam yaşayır.

Onu deyim ki, özəl adalarda qalmaq istəyənlər bir günə 500-2000 ABŞ dollarından keçməlidir. Çox bahadır, amma baxır kimə. Pulun varsa, niyə okean suyu üstündə tikilmiş bunqaloda qalmayasan. Hər cür şəraiti olan bunqaloda bir neçə gün gecə-gündüz okeanla canlı təmasda olmayasan. Puluna minnət.

O cür bahalı istirahət bizim cibimizə görə olmadığından yerli əhalinin yaşadığı bir adada hotel otaqları kirayələdik. Beş gün dünyanın heç bir yerində bənzərinə rastlamayacağınız müsəlmanların qəsəbə-adasında yaşadıq.

Ukulhas adasının gülərüz adamları var. Nə Yaxın Şərqin, nə Mərkəzi Asiyanın müsəlmanlarına oxşayırlar. Çarşablı qadınlar heç bir kompleks yaşamadan çimərlik geyimli kişi xeylağı bir turistin salamını alar, mopedini əyləyib nəzakətlə onun suallarına cavab verər. Buna görə yerli kişiləri "qeyrət boğmaz". Yəni, dediyim odur ki, içi biz qarışıq, başqa müsəlman ölkələrindən fərqli bir yerdir bura.

Görüb eşitmişik ki, isti yerlərin adamları qanıqaynar, haylı-küylü olurlar. Maldiv camaatı isə sakit, mehribandır.

Balaca adada məktəb, xəstəxana, iki məscid, xeyli sayda dükan, hotel, restoran var. Burada nəinki məscidə, dükana da girəndə ayağındakı sürütməni, şəpşəpini çıxarırlar.

Başqa adalarda olduğu kimi Ukulhasda da elektrik generatorlarla verilir.

Adanın o başında sutəmizləmə məntəqəsi var. Lövhəyə yazılandan aydın olur ki, Avropa Birliyinin maddi yardımı ilə qurulub. Ölkədə içməli su qaynağı olmadığından okean suyu xüsusi qurğu ilə təmizlənib istifadə olunur.

Adaya gəldiyimiz gün ehtiyyatsızlıq edib günəş altında çox qaldım. Gün dərimi yandırıb qovurdu. İki gün tərpənə bilmədim, ağrıdan zülm çəkdim. İlan kimi qabıq çıxardım. Dükandakı gülərüz satıcı qız kokos yağı məsləhət gördü. Sağ olsun, sürtdüm, bir az səbbin aldı.

Ölkə, əhalinin aşağı həyat səviyyəsinə uyuşmaz dərəcədə bahalıqdır. Buna səbəb nəqliyyat xərclərinin yüksək olması, bir də əksər istehlak malların idxal edilməsidir. Maldivin əsas gəlir mənbəyi turizm və balıqçılıqdır. Adada hər kişinin bir peşəsi də balıq tutmaqdır. Onlar tutduqları balığı özəl adaların turist mərkəzlərinə, restoranlara satırlar.

Sahil qumluğunda uzanıb ada kişilərinin sürü halında üzən balıqlara tor qurmasına, axşamçağı okeandan qayıdan balıqçı qayıqlarına tamaşa edəndə Heminqueyin "Qoca və dəniz" povestində təsvir etdiyi qoca Santiyaqonu, kənd balıqçılarını xatırlayırsan. Maraqlıdır, qəhrəmanlarını göz önünə gətirsən də, o nəhəng yazıçını burada təsəvvür edə bilmirsən.

“Heç vaxt qəşəng qız öpüşünü və bir şüşə əla viskini sonraya saxlamayın!” deyən Heminquey içkinin qadağan olunduğu yerdə təsəvvürə gəlmir.

Yerli əhalinin yaşadığı adalarda spirtli  içki satılmır, restoranlarda verilmir. İçkini yalnız özəl adalardakı hotel və restoran-barlarda əldə etmək olar. Odur ki, yeyib-içən turistlər özlərini belə yerlərə verirlər.

## Dalğa tutmaq sevdası

Mərcan adalarının sahilində okean suyu şəffafdır, nəhəng üzgüçülük hovuzunda hiss edirsən özünü.

Sualtı həyatı görmək üçün heç akvalanq da lazım deyil, elə adi su eynəyi ilə də okeanın füsunkar sualtı gözəlliyini görərsən. Elə bilərsən iri akvariumdasan. Daha dərində delfinlər, köpək balıqları var. Dayazda dərisitikanlılar, dəniz tısbağaları, alabəzək balıqlar, onayaq xərçənglər, canım sənə desin, cürbəcür mərcanlar göz oxşayır.

Mərcan sualtı qaya üzərində hərəkətsiz yaşayan dəniz heyvanıdır. İlk baxışda deyirsən bəs daşdır, heyvanlarla bitkilərin qovuşuq yaşadığı suxurdur. Amma daş deyil, daşa yapışıb qalan canlıdır. Suxuru sudan çıxarıb diqqətlə baxsan mərcanların həyəcanlanıb tərpəşdiyini sezərsən.

Min illərdi beləcə, heyvan-bitkinin suxurlaşıb yaratdığı yerdir mərcan adaları.

Bu adalarda hər turist marağına uyğun məşğuliyyət tapır. Dayvinq həvəskarları, sualtı dünya ilə canlı təması duymaq istəyənlər bu ələdüşməz fürsəti qaçırmırlar. Hüzur dalınca gələnlər üçün isə isti ağ quma uzanıb okeanı dinləməkdən, ya da bir maraqlı kitab oxumaqdan gözəl nə olar ki! Gün qızanda özünü palma kölgəsinə də verə bilərsən.

Maldivin rəngarəng mərcan riflərinin dünyayla bir adı var. Okean suyu riflərə qədər dupdurudur, səma maviliyində. Getdikcə yaşıla çalır, tündləşir. İri dalğalar riflərin o üzündədir. Qıraqdan baxmaqla olmur, dalğanı tutmaq, duymaq istəyirsən. Elə bu həvəs başıma müsibət açdı. Hulhumale adasında sahildən sıra riflərəcən 100 metr ola-olmaya, dərinlik də beldən aşağı. Di gəl, nə üzə, nə də mərcanların əlindən yeriyə bilirsən.

Bir anlıq da olsa özünü “Dalğa tutanlar” (“Chasing Mavericks”) filminin qəhrəmanı Ceyin yerinə qoyursan. İyirmi beş metrlik əfsanəvi “Maverik” dalğasını tutmaq istəyən Cey inadkar həvəslə usta sörfinq olur, həyatına məna verən arzusuna çatır – dalğaların ən irisini tutur.

Mənim elə inadkarlığım yoxdu, amma maraq güc gəldi deyə ayaqlarımı mərcan-daşlar kəsə-kəsə bir zülmlə dalğalar döyəcləyən riflərə yetişdim. Əvvəl-əvvəl dalğaları tuta bilmirdim. Mərcanların əlindən ayaq üstə durmaq olmurdu, dalğanın biri səni aşırıb yıxır, o biri qalxmağa qoymur, bir başqası batırırdı. Elə bil, dalğa ilə mərcan-daşlar sözü bir yerə qoyub səninlə alay edirlər. Nəhayət, ayağım qum gördü, dizimin olub qalan gücüylə təkan verib özümü dalğaların qoynuna atdım. Bu, hələ minilməmiş gözəl atı ram eləməyə bənzəyirdi.

Kəsik-kəsik olmuş ayaqlarımın ağrısı neçə gün sürdü.

Amma öz aramızdı, dalğaların ən irisini tutmaq duyğusunu yaşamağa dəyərdi…

## Robinzonun bunqalosu

“Over Water Bungalows”, yəni su üstündə bunqalo bahalı kef çəkməyi xoşlayanların yeridir. Məsələn, “Anantara Veli”də bunqaloların günü 800-2000 dollardır. Bunqalolar okean suyu üzərində tikilib. Okean deyəndə ağlınıza dərin sular, böyük dalğalar gəlməsin. Burada suyun dərinliyi bir metr ola-olmaya. Adətən belə kurort-düşərgəni okeanın riflərlə əhatələnən dayaz laquna-göllərində salırlar.

Robunzon Kruzonun damı kokos palmasının budaqları ilə örtülmüş daxmasını xatırlayın!

Bunqalo, bax o daxmanın müasir variantıdır. 28 il adada tənha yaşayan yazıq Robinin ağlına da gəlməzdi ki, vaxt olacaq, varlı-karlı kişilər sevgili xanımları ilə bu daxma-bunqaloda bir romantik gecəyə bir ətək pul xərcləyəcəklər.

Yazının bu yerində Daniel Defonun “Robinzon Kruzo”sunu Ağdamda həyətimizdəki armud ağacının kölgəsində oxuduğum günlər yadıma düşür. Görəsən, bunqalonun açıq terrasındakı şezlonqa (günəşlənmək üçün stul-çarpayı) uzanıb o kitabı bir də oxusam, o zövqü alarammı!

“Bounty”nin məşhur reklamında göstərilən palma altında huri-mələkli cənnət belə yurd həsrətini ovutmaz! Yazıq Robi, nələr çəkibmişsən!

***

Arada girəvəyə salıb Şri-Lankaya da beşgünlük səfər elədik. Məşhur “Ceylon” çayı, fillər və pələnglər ölkəsindən ayrıca yazı-reportaj qaraladım bəlkə. Sağlıq olsun!

**Yanvar – mart, 2018**

**Ukulhas adası, Maldiv – Trossö adası, İsveç**

# Şri-Lanka gözəlləməsi

*Filli-pələngli Seylondan pürrəngi reportaj*

Desəm, bəlkə də, inanmayacaqsınız, amma düz sözümdür, inanın, təmiz ürəklə etiraf edirəm: indiyədək gəzdiyim şəhərlər içində, nə bilim, Paris, London, Nyu-York olsun, heç biri uşaq vaxtı Ağdamdan Bakıya elədiyim səfərlərin yerini verməyib!

Böyük şəhər dəlisi əyalət uşağında Bakı nağıllar dünyası idi. Karusel dolu sahil bulvarı, səs-küylü şəhər küçələri, qoşatelli trolleybus, zəhmli tramvay, əvvəl-əvvəl eskalatorundan qorxduğum metro, anlamadığım cürbəcür dildə, ləhcədə danışan uşaqlarla "sanka-sanka" oyunu, bibimgilin qapıqonşusu sarısaçlı gözəl qızın mənə ürkək baxışı – hansını deyim!

Hər belə səfərdən təzə çıxan maraqlı oyuncaqlarla, çanta dolusu kitab-dəftər, rəngli karandaş, flamaster filanla dönərdim. Bunların çoxunu bibim qızı bağışlayardı. Yaşca məndən böyük olsa da uşaqlığımın ən simsar dostu idi o.

Bir dəfə onlarda üstündə müxtəlif ölkələrin, şəhərlərin şəkilləri olan bir qalaq açıqca gördüm. "Otkrıtka" deyirik, bax, ondan. Çox yerlərin açıqcası var idi, mən birini götürdüm. Üstünə "Şri-Lanka" yazılanı.

Bu qış Şri-Lankaya səfər üçün elektron viza blankını dolduranda o açıqca yaddaşımın illərin tozu basmış hücrəsindən boy verdi. Özümü həmin açıqcadakı fil üstündə buddist rahib kimi yox, elə o 8 yaşlı uşaq kimi hiss elədim.

## Hovuzda okean səması

Sizi bilmirəm, mən o yerlərə səfəri xoşlayıram ki, həm özünü günə verib dincəlməyə, həm də sənə təzə bilgilər verəcək gəzib görməyə cəlbedici yerləri olsun. Siz də bu cür səyahətləri sevirsinizsə, tərəddüd etmədən yolunuzu Şri-Lankaya sala bilərsiniz.

Bir tövsiyəm də var – Şri-Lankaya qışda gedin. Qışda yaylamaq həvəsi "qırxında yorğalamaq" sevdası kimi bir şeydi. Elə mən də bu ölkəyə yanvar ayında Stokholmda yaşayan bir qrup soydaşımıza qoşulub getdim.

Bakıdan elə də uzaq deyil. Bizim Stokholmdan uçuşumuz isə 12 saatlıqdır.

Təyyarədən birbaşa Kolombonun Bandaranayke hava limanına düşəndə adamı xoşsima budda qarşılayır. Elə bilərsiniz özünü deyirəm, yox, heykəli. Anındaca fərqli bir ölkəyə gəldiyini duyursan. Şəhərdə ilk gördüklərindən elə zənn edirsən ki, Hindistandasan. Amma bu təəssürat çox çəkmir, tezliklə buranın filmlərdə gördüyün Hindistan olmadığını anlayırsan.

"OZO Colombo" hoteli elə aralıdan ürəyəyatım göründü. Hələ bəxtimə onuncu qatda balkonu Hind okeanına baxan otağın çıxmasını demirəm. Hələ hotelin damındakı hovuzlu kafe-barı

heç demirəm. Maldivdə yaşadığımız günvurmanın acı ağrılarından sonra belə yer lap cənnət guşəsi oldu bizə. Onu deyim ki, bura Maldiv adalarına səfərdən vaxt girəvələyib gəlmişdik. Araları bir saatlıq yoldur. Ora da qiyamət yerdir.

Hovuzlu kafe-bardan şəhərə füsunkar mənzərə açılır. Hovuzun bitdiyi yerdə okean başlayır, bu qovuşuq mənzərəsi sonsuzluğa – üfüqdən də o yana baxmaq təəssüratı yaradır adamda. Səhər bir fincan kofe ilə okeanın, axşam bir qədəh şərabla sayrışan şəhərin seyrinə dalmağı da bura əlavə edim ki, sizin üçün mənzərəni tam verə bilim.

Elə okean deyib durmuşam, əslində isə görünən Hind okeanı akvatoriyasındakı Lakkadiv dənizi imiş. Sonra öyrəndim.

## Keçmişdən gələn qatar

Hotellə Lakkadiv dənizini qatar yolu ayırır. Səhərlər ətraf bölgələrin sakinləri sallaşa-sallaşa Nuh əyyamından qalmış vaqonlarda Kolomboya gəlirlər. Axşam da elə o cür geri qayıdırlar.

Bir dəfə istədim hotelimizə yaxın Bambalapitiya stansiyasında minib bu balacaboy, gülərüz adamlarla sahil qırağı dolanaq, dostların həvəsi olmadı, mən də ta inad eləmədim.

Şri-Lankada dəmir yolunu Britaniya hökuməti çəkdirib. Çəkilişə 1858-ci ildə başlayıblar. Müstəmləkə hökumətin qəsdi adanın dərinliklərində becərilən çayı, kofeni dəniz limanına daşımaq olub. Adama elə gəlir ki, elə qatarlar da o vaxtdan qalıb.

Çay demişkən. İlk səhərimizdə hotelin damındakı kafedə çay istədim. Paketdə “Lipton” verdilər. Ərinmədim, şikayətimi feysbuka belə yazdım: “Şri-Lankada “Seylon çayı” istəyəsən, deyələr yoxdur, “Lipton” var. Lənətə gəlmiş qloballaşma”.

Heç olmasa ingilislərin öz adlarına çıxdığı dünyaca məşhur “English Breakfast” çayı da vermədilər barı.

Əsl “Seylon çayı”nı isə Kandiyə gedən yolun üstündəki “Ceylon Tea Bungalows”da içdik. Qoyun qabağa qaçmaq olsa da, deyim. Deməli, “çay düşərgəsi” dağlar qoynunda salınmış çay plantasiyaları arasında yerləşir. 1921-ci ildə tikilən çay fabriki də buradadır.

Bizi fabriklə tanış edən xanımın dediklərindən anladım ki, vaxtilə fabrik malını əsasən Sovet hökumətinə satırmış. Demək, üstü filli çaylar bizə burdan gəlirmiş. Bələdçi xanım izah elədi ki, burada 3 cür çay istehsal olunur: qara, yaşıl, bir də ağ. Ağ çay müalicəvidir, xərçəng xəstəliyinə davadır, tütyə kimidir, çox az miqdarda becərilir.

“Seylon çayı”nın çoxlu sortları var: BOP, BOP Sp, BOPF, FBOP 1, PEKOE və sairə. Bu bölgü çayın keyfiyyətinə görə yox, yarpaqların ölçüsünə, bir də xarici görünüşünə görədir.

Bizim diqqətimizi bələdçinin dediyi başqa bir söz daha çox çəkdi. Sən demə, çaylar istifadə qaydalarına görə də fərqlənirmiş. Barmaq tuşlayıb bir-bir bizə göstərib dedi ki, o çayı şəkərlə, bunu südlə içməzlər.

Biz bir neçə sort çay dəmlədib dadına baxdıq. Çaydan daha yaxşı başı çıxan lənkəranlı dostumuz Əli Ağayevin məsləhətini dinləyib üstünə “PEKOE” kodu yazılan çaydan bir neçə

qutu aldım. Bu kod o deməkdir ki, onu şəkərlə də, südlə də, lap belə bizim kimi limonla da içmək olar.

Çay hər xalqın mətbəxində bir cür dəmlənir, hərə də onu bir şeylə içir. Türklər şəkərlə, ingilislər südlə, biz qəndlə, mürəbbə ilə. Monqolustanda qoyun quyruğu da salırlar çaya.

Əli Ağayev bir vaxtlar kəndlərində becərilən çaydan yana-yana söz salır. “Müstəqillik illərində elə bil qənim kəsildilər, hər gələn icra başçısı daha çox çay plantasiyası məhv etdi, kolları çıxarıb torpağı satdı”. Deyir, heç düşmən də belə eləməzdi. O biri lənkəranlı dostumuz Asif Haqverdiyev də ona qoşulur. “İndi duyuq düşüblər ki, bəs, gəlirli sahə imiş, təzədən qayıtmaq istəyirlər çayçılığa”.

Şri-Lanka çay istehsalına görə Çindən, Hindistandan sonra dünya üçüncüsüdür. Yalan-gerçək deyir, dünyada istehlak olunan çayın 23 faizi burada becərilir. Adanın içərilərinə doğru dağlıq ərazinin rütubətli iqlimi çayçılıq üçün əlverişlidir. Bunu Britaniya müstəmləkəsi zamanında Ceyms Teylor adlı bir ingilis fəhm eləyib. Çayın sənaye üsulu ilə istehsalına onun təklifi ilə 1867-ci ildən başlanılıb. O vaxtacan isə burada Hollandiya müstəmləkəsi dövründən qalma darçın becərilərmiş.

## Adrenalin qoxusu

Şri-Lanka Milli Muzeyinin Luvr, Ermitaj, Britaniya, canım sizə desin, Metropoliten kimi məşhur muzeylərdən üstün fərqi ondadır ki, burada nümayiş olunan eksponatların biri də xaricdən gətirilməyib, hamısı min illər boyu bu adada yaşanmış həyatın işarətləridir.

Ölkə əsrlərcə portuqalların, hollandların, ingilislərin əsarətində olsa da, başda sinhallar olmaqla yerli xalqlar öz identliyini, milli adət-ənənələrini qoruyub saxlayıblar. Muzey adanın ən qədim dövrlərindən xəbər verən arxeoloji qazıntılarda tapılmış eksponatlarla zəngindir.

Şri-Lanka ibtidai insanların yaşadığı ölkələrdəndir. Burada mağaralar, qədim məbədlər, qalalar, şəhər qalıqlarına çox yerdə rast gəlinir. Turistləri cəlb edən belə yerlərin başında Siqiriya durur. Bu dağ zirvəsində bir vaxtlar kral sarayı varmış. Qədim yazılarda sarayın möhtəşəmliyi detallı təsvir olunub. Buradakı qayalara çəkilən freskaların 2 minəcən yaşı var. Siqiriya qalıqlarını 19-cu əsrin sonlarına doğru bir ingilis ovçu təsadüfən tapıb. İndi muzey-qoruqdur. Dağa qalxmaq bileti 30 ABŞ dolları civarındadır.

Şri-Lankada yazılı ədəbiyyatın 2 min iləcən yaşı var. Sinhal ədəbiyyatı qədim pali dili əsasında yaranıb. Ən qədim tamil yazılı ədəbiyyat nümunəsi “Tamilakam” da burada yazılıb. Onu Putantevanar adlı şair 250-ci ildə yazıb.

Ölkə əhalisinin 72 faizi sinhallardır, onlar buddistdirlər, ölkənin şimal bölgələrində yaşayan tamillər sayca ikinci çoxluq təşkil edən xalqdır. Şri-Lankada cəmi-cümlətanı 3 milyondurlar, 60 milyonu Hindistanın cənub ştatlarında yaşayır. Onlar hinduizmə sitayiş edirlər.

Ötən əsrin 70-ci illərindən bəri dünya mətbuatının gündəmindən düşməyən Tamil-İlamin Azadlıq Pələnglərini yaşlı oxucular xatırlayar. Sinhal çoxluğun tamilləri gözümçıxdıya saldığını əldə dəstəvüz eləyən bu təşkilat 1976-cı ildə yaranıb, sonra hərbi birləşməyə çevrilib. Hindistanın baş naziri Raciv Qandinin qətli də daxil çoxsaylı terror onların

boynundadır. İndi təşkilat buraxılsa da, o bölgədən təhlükəli xəbərlər hələ də gəlir. Ona görə də, o tərəflərə üzükmədik.

Şri-Lanka baxmalı qədim tarixi abidələrdən, görməli təbiət gözəlliklərindən boldur. Ölkə dağlıq olduğundan bu yerlərə səfər etmək böyük vaxt itkisinə səbəb olur. Vaxta, pula qənaət üçün səfəri əvvəlcədən ciddi planlamaq vacib şərtdir. Yolunuzu bura salsanız, səfər proqramınızı elə tutun ki, mümkün qədər çox yeri görəsiniz. Bütün səfər günləri üçün Kolombonun, ya başqa sahil şəhərinin hotelində yer götürməyin. Ən yaxşısı, ölkəyə düşdüyünüz ilk gecəni Kolomboda qalıb səhər adanın dərinliklərinə doğru bir-birindən mənzərəli yerlərə çoxgünlük tur edin. Elə marşrut seçə bilərsiniz ki, bir yerdən başqasına keçərkən çox vaxt itirməyəsiniz.

Dəniz həvəskarısınızsa, başqa məsələ, elə sahil hotellərindən birində yer alın. Ölkənin məşhur çimərlikləri əsasən qərb, cənub-qərb və cənub sahillərindədir. Şimal və şərqdə dəniz kurortları təzəlikcə inkişaf etməyə başlayıb.

İşdi-şayəd, aranızda serfinq sevdalısı varsa, Arugam Bay deyilən kurort bölgəsinə gedə bilər. Vaxtilə balaca balıqçı kəndi olan Arugam Bay indi serfinq kurortları arasında dünya onluğundadır. Dörd bir tərəfdən serfinq həvəskarları bura axışır tufan sezonunda. Eyni adlı körfəz tək hündür dalğa aşiqlərini cəlb etmir, burda – okeanın sakit yerində sualtı gözəllikləri, mərcanlar dünyasını seyr etməyi xoşlayanlar üçün də hər cür şərait var.

Şri-Lankanı turizm baxımından cəlb edən təbiət, tarix zənginliyi ilə yanaşı, həm də çeşidli istirahət və əyləncə mərkəzlərinin bolluğudur. İlin dörd fəslində okean, dağ, cəngəllik öz flora və faunası ilə ekzotik həyat duyğuları vəd edir. Okeanda akuladan, şimal cəngəlliklərində pələngdən, ada dərinliklərində fildən qorxmayın, olsa-olsa bir az artıq adrenalin alacaqsınız.

Turist firmaları ilin musson mövsümünü nəzərə alaraq, noyabr-aprel ayları adanın qərb və cənub-qərbində, may-oktyabr ayları isə şərq və şimal-şərq sahillərində hotel kirayələməyi məsləhət görür, cürbəcür səyahət marşrutları təklif edirlər. Çox bilgi almaq üçün onlara qoşulmaq yaxşıdır. Azad dolanmaq istəyənlər isə bizim kimi edə bilər.

## Rus qadınlardan ehtiraslanan zəncirli fil

Biz birgünlük qısa marşrutla üzü Kandiyə getdik. Sürücümüz gün ərzində xeyli yerlərlə bizi tanış etməyə söz vermişdi. Buddası kömək olsun, əsl turist bələdçisi kimi bizi yaxşıca gəzdirdi.

Kandi əhali sayına görə ölkənin ikinci şəhəridir. Kolombodan 114 kilometr aralıda, füsunkar gözəlliyi olan dağlar, meşələr qoynunda yerləşir. 1590-cı ildə portuqallar adanın cənub-qərb sahillərini işğal edəndə sinhal hakimləri dağlara çəkilərək Kandidə öz dövlətlərini yaradıblar. Bu dövlət 225 il, yəni 1815-ci ildə ingilislər şəhəri tutanacan öz müstəqilliyini qoruyub.

Yuxarıda söz açdığım çay fabrikinə elə Kandi yolunda döndük. Fillərin yaşadığı çoxsaylı milli parklardan biri – "Pinnawala Elephant Orphanage" da bu yoldadı. Bələdçimiz bizi ora yaxşı vaxtda çatdırdı. Gündə bir dəfə filləri parkın başından ayağına gətirib Maha Oya çayında çimizdirir, sulayırlar. Bizim gəlişimiz elə o vaxta düşdü.

Fillərin çimişməyinə tamaşa eləmək nə qədər xoşdursa, ayağı zəncirli filin üstündə dövrə vuranlara baxmaq bir o qədər ürək ağrıdandır. Həmin gün yanvarın 20-si idi. Məzlum görkəmli bir filin şəklini paylaşıb feysbukda bunu yazdım: “Zəncirli fil dünyada ən kədərli mənzərələrdəndir. 20 Yanvar bizim zəncir qıran günümüzdür. Fil kimi güclü idik onda”.

Əsas fil kimi güclü olmaq deyil, zəncirli həyata dözməyib azadlığa can atmaqdır! Dərd odur ki, bir zənciri qırıb, başqasına bağlanasan!

Turistləri belində gəzdirən o boyda filin zənciri çəlimsiz sısqa bir oğlanın əlində idi. Adamlar fili minmək üçün səfə düzülmüşdülər. Qəribədir, kişili-qadınlı neçə nəfəri gəzdirən erkək filin ehtirası iki rus qadın minəndə kəllə-çarx vurdu. “Ehtirası” əyani görünən fil geri dönəndə özümü saxlaya bilməyib rus qadınlara söz atdım. “Siz tək Şərqin kişilərini yox, fillərini də ehtirasa gətirməyi bacarırsınız”. Deyəsən, birinin adı Natalya idi, sözümdən xoş hal olub filə meyvə yedirtməyə başladı.

Çayda fillərin bir xeyli şəklini çəkdim, qayıdanbaş gördüm ki, təbrizli dostumuz Məmməd Azər bəy yekə bir ilanı boynuna dolayıb. Qorxub eləmədim, yapışdım boğazından ilanın, bir şəkil də mən çəkdirdim. Onu da sosial şəbəkədəki səhifəmdə paylaşıb belə yazdım: “İlanlar yox, ilankimilərdir qorxu yayanlar – şər adamlar, hikkəli diktatorlar və sair. Hamısının canı beləcə, xirtdək ələ keçincədir”.

Milli parkda kağız məmulatlarından suvenir düzəldib satan dükan-emalatxanada maraqlı bilgi aldıq. Sən demə, burada kağızı ağacdan yox, fil nəcisindən hazırlayırlar. İstehsal prosesi park ziyarətçilərinin gözü qarşısında baş verir. İşçilərin əməyinə dəyər verdiyimi nümayiş eləmək üçün 2018-ci ilin bir təqvimini aldım.

…Fillərdən ayrılıb yolumuza davam edirik, yol qırağında mini-bazar görüb maşını saxladır, ekzotik meyvələrdən dadırıq.

Nahar yeməyinə düşdüyümüz restoranda isə, sən demə, toy varmış. Toyxanaya girib bəylə-gəlinə baxır, uzaqdan əl edirik. Bəy qaş-qabaqlıdır, gəlinsə bizi üzdə təbəssümlə qarşılayır. Musiqi bizim toylardakı kimidir, səsi qulaq batırır, amma süfrə fərqlidir, tıx-təpili deyil, yemək adamın yeyə biləcəyi qədərdir.

## Budda məbədinin sükunəti

Ölkəyə ayaq açan ilk avropalı portuqallar olub. 1506-cı ildə adanı sahil boyu zəbt etməyə başlayıblar. Paytaxt Kolombo öz adını və memarlıq üslubunu onlardan saxlayıb. Sonra hollandların əlinə keçən ada 1796-cı ildən Britaniya imperiyasının koloniyası olub. 1972-ci ildə tam müstəqillik qazanıb, elə həmin ildən Seylon adını dəyişib Şri-Lanka edib.

Kolomboda hər yana üç təkərli Tuk-Tukla getdik. Tuk-Tuk tək Şri-Lankada deyil, cənub-şərqi Asiya ölkələrində geniş yayılmış ucuz nəqliyyat vasitəsidir. Maşın taksilərdən fərqli olaraq, onda gedərdə özünü qonaq yox, şri-lankalı kimi hiss edirsən.

Kolombodakı Gangaramaya buddist məbədinə də Tuk-Tukla getdik. Məbəd sükunət içindədir. Neçə ibadət edənə usdufca qulağımı şəklədim. Burda dualar ürəkdə oxunur, heç pıçıltı da eşitməzsən. Elə bil Budda adamların duasını onların qəlbində dinləyir. Eşitdiyim tək buddist rahib – monkun səsi oldu, məbədi ziyarət etdiyimiz üçün təşəkkürünü bildirirdi.

Kolomboda Ul-Alfar camisinə də baş çəkdik. Bura ölkənin ən iri məscidi sayılır. Şri-Lanka əhalisinin cəmi 10 faizi müsəlman olsa da, məscid demək olar, hər şəhərdə var. Ul-Alfar məscidi gözəlliyi ilə göz oxşayır. O, 1908-ci ildə cənub-şərqi Asiya stilində tikilib.

Myanmadakı kimi olmasa da, axır vaxtlar Şri-Lankada da dini zəmində qarşıdurmalar olur. Son belə münaqişə bu ilin martında – Allah üzümüzə baxıb – biz qayıdandan sonra baş verib. Kandidə başlayan iğtişaşlar ölkənin başqa yerlərində də davam edib. Buddistlər müsəlmanlara məxsus dükanları yandırıblar. Araya buddist rahiblər girib. Onlar məscidlərə gedib müsəlmanlara başsağlığı verib, səbir diləyiblər. Hökumət fövqəladə vəziyyət elan etməklə müqanişəni durdura bilib.

Amma deyəsən, bu iğtişaşlarda şuluq müsəlmanların da barmağı olub. Nə isə, bundan çox yazmıram. Yazaram, birdən, Şri-Lankaya səfərdən vaz keçərsiniz. Əksinə, ora dünyanın sakit, hüzur yerlərindən biridir.

Cənnəti göydə axtarırıq, Budda onu yerdə – Şri-Lankada yaradıb!

Gəlin, ruhunuzu dincə qoyun!

**Yaz, 2018**

**Karlskrona, İsveç**

# Tatar çölü Rusiya

*Kazandan tarixi-infantil reportaj*

İyirmi ilin söhbəti olar, telefonuma "Mayak" radiosunun çağrı siqnalını yazdırmışdım. Bəlkə, xatırlayarsınız, "Moskva gecələri" melodiyasının ilk taktı idi. Hər zəng gələndə telefonum bir vaxtlar sovet xalqını yuxudan oyadan o məşhur musiqini çalırdı.

Bir dəfə varşavalı polyak tanışım zəngi eşidib qəribə nəzərlərlə üzümə baxmışdı: "Sənin də sovetə nostaljin varmış?" Məni kommunistlərdən zəhləsi gedən kimi tanıdığından təəccüblənmişdi.

"O mənə soveti yox, uşaqlığımı xatırladır", – demişdim. Başa düşməyəndə izah eləmişdim ki, bu musiqi müxtəlif adamlarda fərqli duyğular doğurur: birində uşaqlıq dövrə xiffət, birində tarixə nifrət, bir başqasında da sovetə nostalji. Mənim uşaqlığım sonralar öyrənib dəhşətə gəldiyim sovetdən uzaq, atalı-analı, qayğısız idi.

İndiki gəncliyin mən yaşda keçmiş sovet adamını sonacan anlaması bir qədər qəliz məsələdir. Bizim nostalji duyğularımız onları da polyak tanışım kimi yanılda bilər. Amma neyləyəsən, bu da bizim ömrümüzdür – dünyanın ikrah qarışıq qorxu ilə andığı bir ölkədə keçən xoşbəxt uşaqlıq ömrü.

***

Avropa ölkələrinə bir-iki tranzit keçidi hesaba almasam, axırıncı dəfə Rusiyada uzaq 1993-cü ilin yayında olmuşdum. Cəlbedici gəlməyib, əksinə, elə bil, hansısa daxili qüvvə məni uzaq tutub bu ölkədən.

Rusiya (SSRİ qarışıq) xalqımızın Avropanı, onun kültürünü, ümumbəşər dəyərlərini tanımasında, bu dəyərləri mənimsəyib müsəlman Şərqinin ilk sekulyar mədəniyyətini formalaşdırmasında əsas körpü, həlqə olub. Bunu mən də bilirəm.

Eyni zamanda onu da bilirəm ki, o, bizim tarixi bəlalarımızın baiskarıdır. Çox uzaqlara getmirəm heç, şahidi olduğum 20 Yanvar qırğını, Qarabağın işğalında erməni yandaşlığını deyirəm. Bu bəlaları yaşamış, acısını ömründən keçirmiş biri kimi yazıram.

Mədəni təsir dairəsindən bir qədər uzaqlaşsaq da, bu gün Rusiyanın siyasi, hərbi basqısını qorxulu hənirti kimi hələ də duyuruq.

Dediyim odur ki, içi biz qarışıq metropoliya xalqları müstəmləkəsi olduğu dövlətə ikili duyğu bəsləyir, sıx əlaqə telləri müstəqillik qazanandan sonra da qalır. Bu əlaqələrin başında dil, mədəni, iqtisadi bağlar durur. Məsələn, Fransanın Əlcazir xalqının başına açmadığı oyun qalmamışdı, bu gün Əlcazirdə əhalinin 40 faizi ərəb dili ilə yanaşı fransızca da danışır.

Yəqin sizdə də belə gizli duyğu var – özümdən deyim ki, rus xalqına məhrəm duyğuların baş qaldıran anları az olmayıb məndə, qəlb tellərinə toxunan, uşaqlıq yaddaşını oyadan filmlər, kitablar, musiqilərlərlə baş-başa qalanda.

Misal üçün ikisini deyim. İsveçə qastrola gələn Sankt-Peterburq Marinsk teatırının ifasında "Qu gölü" baletinə baxmaq üçün məni 600 kilometrlik yol qət etməyə də, Rostov musiqi teatrının qala-konsertinə aparan da o duyğular olub. Bu konsertlərin təsiri mənə "Sonalar gölü"nün sahilində", bir də "Le Concert", yaxud azadlıq duyğusunun səsli izahı" esselərini yazdırdı. Bloqumda var, oxusanız demək istədiklərimi daha aydın biləcəksiniz.

Amma bu yazdıqlarım o fikrə gəlməsin ha, mən də nənnisində "bayu bayuşki" ilə yuxuya getmişlərdənəm. Əsla! Mən nənəmin laylaları ilə yatar, evlərinin məhəccərindəki radiodan gələn aşıq musiqiləri ilə oyanardım.

Qəlb duyğuları öz yerində, beyinin yadda saxladığı acılar "qapı köpəkləri" təki oyaqdır, sərvaxtdır. Bu "qapı köpəkləri" çox qorxuncdurlar. Qorxuda isə sevgiyə yer olmur. "1813", "28 Aprel", "20 Yanvar" çoxsaylı "qapı köpək"lərindən yalnız üççə dənəsidir.

Rusiyaya bu təzadlı duyğularımın təbii ki, izahı var. Bu yazıda qəsdim o deyil. Qəsdim heç Tütçevin razılaşmadığım məşhur "Rusiya ağılla dərk edilməz" misrasına şərh yazmaq da deyil.

Bir də ki, Rusiya ruslar üçün dərkedilməz ola bilər, onun əsarətində yaşamış xalqlar onu yaxşı tanıyır, yaxşı dərk edirlər.

***

Kazana onun "belıy noç" saatlarında çatdıq – səhər saat 3 idi, amma elə bilirdin, günün günorta çağıdır. Bu 10 günlük səfərdə uşaqlıq dostlarım Müşfiq, Rauf, Moskvadan görüşümüzə gələn İlqar mənə illərin sevincini bəxş etdilər.

Otuz ildir, Kazanda yaşayan uşaqlıq dostum Müşfiq Qənizadəyə qonaq gələcəyimi neçə il idi, söz verirdim. Bu yay alındı. Bəri başdan onu deyim ki, səfərin bu yay baş tutmasının orada keçirilən futbol üzrə dünya çempionatına qəti dəxli yox idi. Dünya çempionatının oyunlarına həvəslə baxsam da, biletə ən azı 200 avro verməyə əlim gəlməzdi. Dostumun yanında xəsis görünməmək üçün bəhanə də fikirləşmişdim: "Bir "avropalı" kimi mən də bu çempionatı boykot edirəm!"

Müşfiq də məni tək qoymadı, aldığı bileti səfərdə mənə yoldaşlıq edən oğlum Uğura bağışladı. "Onların yaşında biz dünya çempionatına Ağdamda televizorda baxardıq, nə vaxtsa stadionda tamaşa eləmək heç ağlımızın ucundan belə keçməzdi. Qoy gedib baxsınlar".

Almaniya – Güney Koreya oyununa baxmağa oğullar getdi.

…Səfər öncəsi görüb gəzmək istədiyimiz yerlərin siyahısını tutmuşdum. İlk günlər bizi qonaq çağıran tatar dostların məsləhət bildikləri yerləri də siyahıya əlavə etdim.

Bu səfərdə oğluma həm uşaqlıq dostlarımı, həm də neçə əsr taleyimizlə oynamış bir ölkəni tanıtmaq istəyirdim. Araya salıb Avrasiya qitəsinin az qala yarısını tutan türklərdən də danışır, Kazan tatarlarının timsalında qədim etnosumuzdan da söz salırdım.

## Rus dərisi geymiş türk

Yalan-gerçək deyir, Napoleon bir dəfə belə söz işlədib: “Rusu siyirsən altından türk çıxar”.

Bəlkə də, məğlubiyyətinə bəraət axtarırmış böyük sərkərdə, yəni demək istəyirmiş ki, ruslara yox, Avropanı fəth etmiş Atillanın törəmələrinə, neçə-neçə imperiyalar qurmuş türklərə uduzub.

Sizi bilmirəm, mənim beyinimə batır Napoleonun sözü – rus xalqının xəmiri türklə, özü də qıpçaq türkləri ilə yoğrulub. Bunu bilmək üçün akademik biliyə gərək yoxdur. Bir az tarixdən, bir az etimologiyadan, bir çimdik də etnoqrafiyadan başın çıxırsa, buyur düş Rusiyanın çöllərinə. Rastladığın hər yer adı özü tarixi səhifə-səhifə açacaq sənə.

Tatar çölünü görəcəksən!

…Kazan Kremli Moskva Kremlindən qədimdir. Kazanın, eləcə də Tatarıstanın ən çox turist cəlb eləyən tarixi yeridir. Tatarlar onunla qürur duyurlar.

İç-içə yığılmış “Matroşka” suvenir-oyuncağı Uğura göstərib deyirəm ki, ən böyük fiquru indiki rus təsəvvür elə, ondan sonrakını rusla türkün qarışığı və beləcə, ən xırdası xalis – cır türkdür, Tenqriyə sitayiş edən türk.

Rusiya suvenir bazarının məşhur fiqurunu zarafatla oğluma belə izah elədim ki, Napoleonun dediyini daha aydın anlada bilim.

Hələ Qızıl Orda imperiyası çöküb, yerində Kazan xanlığı yaranmazdan əvvəl bu yerlərdə İtil bolqarları yaşayıb, Volqaboyu böyük mədəniyyət yaradıbmışlar. Bilməyənlər üçün balaca haşiyəyə çıxıb deyim ki, İtil Volqa çayının əvvəlki adıdır. Üzdə sakit göründüyünə baxmayın, iti axır. Elə ilkin adı da buradan yaranıb.

Əvvəl çar Rusiyasının, sonra bolşeviklərin tarixçiləri nə qədər əlləşsələr də, bu yerlərdən türkün izini silib qurtara bilməyiblər. Onlarla işim yoxdu, mənim hörmətim Lev Qumilyov kimi tarixçi-etnoqraf alimədir. Odur ki, Kazanda heykəlini görən kimi yaxınlaşıb, türkiyəlilər demiş, önündə sayğı duruşu yapdım.

Gənc oxucu dostlarıma onun kitablarını, xüsusən də, “Qədim türklər”, “Yerin etnogenezi və biosferi” kimi əsərlərini oxumağı tövsiyə edirəm.

Nə isə, uzun söhbətdir, tarixi-Rusiya açsam, səfər söhbətlərimə yer qalmaz. Bircə onu deyim ki, “Rusiya tarixinin ata”sı Karamzinin (tatarca Kara Murza) özü türkün rusa “çevrilmə”sinə ən bariz nümunədir.

Nə qədər qəribə görünsə də, qoyun deyim, bu türk-rus qovuşma-çevrilmə prosesini izah edəsi olsam, “assimilyasiya” sözüylə bərabər “təkamül” kəlməsindən də istifadə edərdim. Xristianlığı qəbul etmiş Kreşin tatarlarını misal çəkərdim. Əriyib qarışmışların sayı isə ölçüyə gəlməz.

## İvan Qroznının erməni casusları

Kazanka çayının sağ sahilindən baxanda Kremlin əzəmətini daha çılpaq görürsən. Dəfələrlə rus knyazları bu şəhərə hücum çəkiblər, mühasirədə saxlayıblar.

Tatar dostumuz danışırdı ki, Kazanı İvan Qroznıya ermənilər satıb. Acığı, əvvəl-əvvəl onun sözlərinə şübhə elədim, mənim azərbaycanlı olduğumu bildiyindən ermənilər haqda belə deyir, deyə düşündüm. Sonra dedikləri xeyli ağılabatan göründü.

Sən demə, dəfələrlə mühasirəyə alınan Kazanı sonunda İvan Qroznıya erməni sənətkarlar satıb. Şəhərin kanalizasiya sistemini quran ermənilər gizli yeraltı yolların yerini ruslara bildiriblər. Tatarlar yeraltı tunellərlə rus ordusunun arxasına keçib onlara ciddi zərbələr vururmuşlar.

Deyilənə görə, tatar tarixçiləri məhz bu faktı inandırıcı dəlillərlə sübut edib, Tatarıstan prezidenti Şaymiyevi inandırdıqlarına görə erməni kilsəsinin tikintisi yarıda dayandırılıb.

Kremlə gəlsəniz, gözəlliyi ilə artıq Kazanın simvoluna çevrilmiş Gül Şərif məscidini, onun nəzdindəki islam muzeyini ziyarətlə kifayətlənməyin. Burada çoxsaylı muzeylərə də vaxt ayırın. Ermitajın Kazan filialı, Təbiət Tarixi muzeyi, Tatarıstan Respublikasının Milli muzeyinə baş çəkin. Bu muzeylərdə sərgilənən tatar xalqının etnoqrafiya nümunələri sizdə tanış hislər, doğma duyğular doğuracaq.

***

Kazandan 60 kilometr qərbdə Sviyajsk çayının Volqaya tökülən yerində Ostrovqrad deyilən ada-kənd var. Bu kəndi İvan Qroznı Kazan yürüşlərinin birində salıb. Ordu burada dincini alarmış, yaralılar yerbəyer edilər, müalicə olunarmış, rahatlanıb, toparlanıb yenə hücuma keçərmişlər.

Ostrovqraddan Volqaya, üfüqədək uzanan çöllərə baxıb xəyala dalırsan. Xəyal da tatar çölündə əsən külək kimidir, adamı elədən-beləyə, belədən-eləyə aparır.

Bizə görə Kür nədirsə, Volqa da bu yerlərin adamları üçün elə odur. Volqa təkcə çay deyil, özündə bütöv bir tarixi, etno-kültürəl yaddaşı saxlayan simvol daşıyıcısıdır.

Deyilənə görə, İslamla tanış olan İvan Qroznı, az qala, bu dini qəbul edəcəkmiş. Tək maneə İslamın içkini haram buyurması olub. Kazan yürüşləri zamanı özünə qala tikdirdiyi Ostrovqradın hündür təpəsindın Svyajsk çayının Volqa ilə qovuşuğuna baxa-baxa onun İslamı qəbul edəcəyi halda bizim bölgə də daxil Avrasiyanın sonrakı taleyini – müsəlman Rusiyanı təsəvvür etməyə çalışdım. Qəribə mənzərə alındı…

Bax o Volqaboyu tatar çölündə gözüm önünə böyük bir ordu gəldi. Ordunun başında da qorxunc biri. Uşaq vaxtı baxdığım "Ölməz Koşşey" adlı köhnə sovet filminin qorxulu qəhrəmanı Koşşeyə oxşayırdı. O vaxt hamı kimi mən də şərqi slavyanların bu mifik obrazından qorxurdum. Sonralar, xüsusən də, qumuk kökənli rusiyalı türkoloq Murad Acının kitablarından öyrəndim ki, bu obraz rusların folklorunda monqol-tatar istilasından qalıb. Koşşey rusların gözündə qədim türklərin qorxunc obrazı imiş.

Rusiyanı "ağılla dərk etmək istəsəniz" Tütçevə yox, mənə qulaq asın – zarafatımı ciddi qəbul edib Murad Acının kitablarını oxuyun. Ən azından "Qıpçaq çölünün yovşanı" əsərini. Mən oxuyanda indiki Rusiya torpaqlarında neçə min illik türk tarixinin gizləndiyini öyrənmiş, sanki o Böyük Çöldə bitən yovşan qoxusunu duymuşdum.

# Geri dönən uşaqlıq

Gəlin sizə bu səfərin ən məhrəmanə anlarından danışım. Əvvəl onu deyim ki, qonağı olduğum Müşfiq Qənizadə ilə əvvəl uşaq bağçasına bir getmişik, sonra da on il eyni sinfə. Mən jurnalistlik oxumağa Bakıya gedəndə o, hərbçi olmaq üçün Vladiqafqaza üz tutdu. Elə o qalan qaldı Rusiyada. Kazanda polis rəisi oldu, rütbəsi podpolkovnikəcən qalxdı, böyük nüfuz qazandı.

Rauf Ələsgərov da Kazanda yaşayan canlaradəyən dostumdur. İşdən başını qaşımağa macalı olmayan İlqar Məmmədov isə Moskvadan iki günlüyə çaparaq özünü yetirdi. İndi illər uzunu üzünü görmədiyim uşaqlıq dostlarımla görüşəndə yaşadıqlarımı özünüz təsəvvür edin.

“Ruhlar şəhəri” kitabının sinfimizə həsr etdiyim “Toz adamlar” bölümündə belə yazmışdım: “Fələk (Ağdamsızlıq) divara dəyən təbaşirli yastıqcadan qopan toz dənələri kimi hərəmizi bir yana uçurtdu, bir diyara saldı. Elbrus haqq dünyasına, Bəhruz tutulub Vladivostoka (Allah qapısını açsın!), Rauf, Müşfiq Kazana, İlqar Moskvaya üz tutdu. Burda qalanların isə biri Şəkiyə, digəri Bakıya – hər yerə, hər yana səpələndilər. Harda desən varıq, Ağdamdan savayı…”

Səhər obaşdan Moskva qatarında İlqarı qarşılayıb Müşfiqin bağına gətirəndə, gecədən yarımçıq qalan məclis davam edəndə, dostların şaqqanaqlı gülüşlərini dinləyəndə oyuncaq mağazasındakı uşaq kimi sevincəyə düşmüşdüm. Səhər alatoranlığının o ucunda günəşin titrək şüalarını görəndə içimdən qopan körpə sevinci ilə ayağa qalxdım, bu “toz adamlar”a sarıldım, bağrıma basdım, “sizə şükür”, – dedim.

Həmin gün görən olsa idi, bizə saqqallı uşaqlar deyərdi. Söhbətimiz də, davranışımız da eynən 35 il əvvəlki kimi idi. Kazanın sovet illərini xatırladan “Sosialist məişəti”, “Xoşbəxt uşaqlıq” muzeylərində elə bildik ki, zaman maşını bizi uşaqlığımıza qaytarıb.

Bu muzeylərdə rastladığımız hər eksponat bizə qayğısız uşaqlıq illərindən bir xatirat oldu. Elə bildik, 70-80-ci illərin Ağdamındayıq. Burada pioner qalstukumuz da vardı, partamız da. Stolüstü futbol meydançamız da öz yerində. Vısotskinin səsi də gəlirdi qonşu Vahid əminin ötüb keçən “Jiquli”sindən.

Müşfiqlə İlqar televizora baxırmış kimi yerə oturanda elə bildim uşaqlar Ağdamdakı evimizə gəliblər, indi ağ-qara “Qorizont” televizorumuzda “Elektronikin macəraları” filminə baxacağıq…

Bir sözlə, qınayan olmasa, axşamacan burada qalar, uşaq kimi əylənərdik. Sovet içki butulkaları arasında “Ağdam” çaxırının boş şüşəsini görəndə isə səsimiz muzeyi başına götürdü, sevincdən elə təsirləndik ki, az qala, muzey bələdçisi kövrələcəkdi…

***

İlqarı yola saldığımız günün səhəri Müşfiqin təkidi ilə Kazanın mərkəzinə velosipedlə getdik. Çoxdan sürmürdüm, amma dala qalmamaq üçün bütün gücümü dizlərimə verirdim. Usaq vaxtı nə qədər yalvarıb-yaxarsaq da, atalarımız bizə velosiped almadılar. Ağdamda onu sürmək təhlükəli idi deyə. Uşaqlıq arzusunu 35 il sonra gerçəkləşdirdik. Sürüb gəldik şəhərin mərkəzinə.

Bauman Kazanın yalnız piyada gəzintiyə icazə verilən tarixi mərkəzi küçəsidir. Seyrəngah kimi bir yer. Parisin Yelisey çölü, İstanbulun İstiqlal caddəsi, bizim Torqovı kimi. Kazan xanlığı zamanında bu küçəyə Noqay yolu deyərmişlər.

Bauman Kazanda doğulmuş bolşevik inqilabçıdır. Açığı, belə bir gözəl küçənin hələ də bolşevik adı ilə adlanması heç ürəkaçan deyil. Küçəyə başqa bir Kazan doğumlu məşhur rus müğənnisi Fyodor Şalyapin adının verilməsi təklifi neçə vaxtdır gündəlikdədir. Yəqin dəyişərlər. "Şalyapin palas" otelinin yanından keçəndə önündəki heykəlinə yaxınlaşdım, bu təklifə dəstək əlaməti olaraq bir zamanların dünya şöhrətli opera müğənnisi ilə selfi çəkdirdim.

Yeridir, Şalyapinin Bakı səfərlərindən bir neçə kəlmə deyim, sonra gəzintiyə davam edək.

Dünya opera sənətinin korifeyi "Həyatımın səhifələrindən" adlı avtobioqrafik kitabında 1891-ci ildə, hələ 18 yaşında ikən, Bakıya ilk qastrol səfərindən, burada başına gələn müsibətlərdən, aclıq, şəhəri bürüyən vəba epidemiyasından yazır. Hansısa səbəbdən teatrın sahibi qastrola gələnlərin pasportunu alıb vermirmiş.

Sonralar o, yenidən Bakıya qastrol səfərləri edəcəkdi. 1900-1915-ci illər arası hər səfəri şəhərin həyatında böyük hadisəyə çevriləcəkdi. "Kaspi" qəzeti 1900-cu ilin mart, aprel saylarında konsertdən böyük məqalələr dərc edəcəkdi.

Böyük sənətkar dünya şöhrətini 1922-ci ildə mühacirətə gedəndən sonra qazandı.

Elə "Şalyapin palas" otelindən təzəcə aralanmışdıq ki, Kolombiya azarkeşlərinin böyük bir izdihamına düşdük. Onlar mahnı oxuyur, rəqs edir, əylənir, küçədən keçənlərdə xoş təəssürat oyatmağa çalışırdılar.

## Sabantoy – tatar Novruzu

Kazan səfərimiz Sabantoy bayramına təsadüf elədi. Bu, Volqaboyu türk xalqlarının yaz bayramıdır. Balkan, noqay kimi Qafqaz türkləri də Sabantoy bayramını keçirirlər. "Saban" İdel-Ural türklərində kotan deməkdir, "toy" sözü də elə bizim anladığımız toy-bayramdır. Yaz əkini başa çatan kimi elliklə yığışıb şənlik edirlər. Kişilər atları cıdırda sınayır, güləş yarışı keçirirlər. Qadınlar biş-düş edir, ən ləziz yeməklərini, şirniyyatlarını bişirirlər.

Əvvəllər Sabantoy yarışmalarının qalibinə qoç verərdilər. İndi dövlət səviyyəsində keçirilir, qalibə maşın bağışlayırlar.

Axşam bizi evində ağırlayan tatar dostumuz İlham Şarafuddinovla xüsusi olaraq belə şənliklər üçün tikilmiş arenada görüşdük. Builki qalib pəhləvan onun yetirmələrindən imiş.

## Kommunist şinelli Rusiya

Həqiqət iri reklam ekranlarında yox, bəzən kitabxana güncündə gizlənir. Rusiya mətbuatı futbol çempionatını təbliğat vasitəsinə çevirdi. Tam boğaz gücü ilə, gur səslə. Rəsmilər ölkənin azad, təhlükəsiz olduğunu dünyaya nümayiş etdirməyə çalışdılar. Amma boykota qoşulmayıb gələnləri bilmirəm, məni buna inandıra bilmədilər.

Bu günlərdə gəzdiyim Ulyanovsk, Çeboksarı, Kazan kimi şəhərlərdə əvvəllər hər yerdə rastlanan sərxoş “bomjlar”, içkili gənclər, kriminal dazlar, kobud milislər yox idi. Bəlkə də, bu, dünya əhəmiyyətli bir çempionatın keçirildiyi günlərdə belə idi, müvəqqəti halı idi, bilmirəm.

Amma bütün bunlar ilk görüntülərdir, bilirəm. Rusiya hələ də dünya üçün təhlükə mənbəyi sayılır. Bunun da əsas səbəbi bu ölkənin azadlıqları boğması, demokratik fikirləri təqib, dünyanı sovetdən qalma köhnə hərbi gücü ilə təhdid etməsi, qonşu ölkələri ərazi iddiaları, hərbi təxribat və başqa təzyiqlərlə qorxu altında saxlamasıdır.

Kazanın ən böyük kitab mağazasında keçirdiyim iki saatda minlərlə siyasi, hərbi, tarixi kitab içində Rusiya həqiqətlərinə işıq salan kitablara rastlamadım. Məsələn, Nobelçi yazar Svetlana Aleksiyeviçin bir kitabını belə tapmadım. Soruşdum, dedilər, yoxdur.

Satışı qadağan olunub!

…Bauman küçəsindən burulub gəzə-gəzə məşhur Kazan universitetinə gəlirsən. Dünya proletarlarının rəhbəri Vladimir Lenin burada oxuyurmuş. Universitetin qarşısında onun tələbə vaxtının heykəli ucaldılıb. Sovet tarix kitabları onun inqilabi fəaliyyətinə görə buradan qovulduğunu yazır. Daha o vaxtkı avam deyilik ki, hər yazılana inanaq.

Totalitar rejimlər elə istedadla saxta tarix uydururlar ki, adamları inandıra bilsinlər. Lenin Kazan universitetində cəmi 4 ay, 1887-ci ilin 13 avqustundan 5 dekabrınacan oxuyub. Özü də onu hansısa inqilabi fəaliyyətinə-zada görə yox, tələbə adına yaraşmayan oğru “razborka”sında iştiraka görə universitetdən qovublar.

Tatarıstan Milli muzeyinin bütöv bir divarını tutan nəhəng tabloda isə gənc Ulyanov tələbə dostları qarşısında inqilabi təbliğat çıxışı edir. Bütün saxta qəhrəman obrazları tarixin həqiqət küləkləri ilə sovrulur. Lenin də, onunla bağlı hər şey də beləcə.

Ulyanovska gedəndə tarixin bu acı ironiyasına şahid oldum. Bu vilayətin Tatarıstanla sərhədində. Varlı Tatarıstanın sərhədi şüşə kimi hamar asfalt yol çala-çuxurla, yaraşıqlı evlərin tikildiyi abad tatar kəndləri nimdaş, yarı uçuq, tərk edilmiş rus kəndləri ilə əvəz olunanda.

Lenin burada doğulub deyə bir vaxtlar Ulyanovsk şəhərinin dövlət səviyyəsində xüsusi imtiyazı vardı. Ətraf yerlərdən camaat tapa bilmədiyi ərzağı, başqa malları burada tapardılar. Ac Volqaboyu ellər içində bura cənnət köşəsi idi. Lenin və onun ideyaları ölən kimi şəhər köhnə Simbirsk halına qayıtdı.

***

Səfəri başa vurub geri dönürdük. Aeroportda Müşfiqlə vidalaşıb ayrıldıq. Yoxlama keçidini ötəndə çevrilib geriyə baxdım. Neçə üz içində dostumun üzünü tapdım. Getməmişdi, gözləyirdi. Qəribə baxışlı gözlərində uşaqlıq həsrətini duydum.

…elə bil Kazana yox, uşalığımın Ağdamına gəlmişdim, qayıdıb uzağa – bu günə gedirdim…

**Kazan, Rusiya – Helsinborq, İsveç**

**Yay, 2018**

# Fironlar ölkəsinə səyahət

*Misirdən səfər qeydləri*

Açığı, Misirdə Hurqada adlı turist məkanı olduğunu bilmirdim. Şərm-əl-Şeyx haqda eşitmişdim, məşhurdur. Hurqadadan isə İsveçin turist firmasından şirnikləndirici endirim qiymətinə səyahət təklifi gələndə xəbər tutdum. Düzdür, Şərm-əl-Şeyxə də sərfəli putyovka vardı, amma mən buranı seçdim. Nəsə Şərm-əl-Şeyx adı gələndə harınlamış ərəb şeyxləri yadıma düşür.

Zarafat öz yerində, Hurqadanı ona görə seçdim ki, burada həm Qırmızı dənizin sahilində uzanıb özünü günə verə bilirsən, həm də nisbətən yaxın olduğu üçün Misirin tarixi yerlərinə rahat səfər edirsən. Hurqada paytaxt Qahirədən 470, qədim Luksordan isə 290 kilometr məsafədə yerləşir.

Misirə gəlib bu yerlərə dəyməmək isə ayıb olardı.

## Qırmızının mavi suları

Hurqada Misirin Afrika hissəsində, Qırmızı dənizin sahilində yerləşir. Ölkənin ən çox turist cəlb edən şəhərlərindəndir. Yerli turist firmaları Qahirə, Giza ehramları, Luksordakı Karnak məbədi, Fironlar vadisi, safari gəzintisi, səhrada bədəvi kəndi, mərcan adaları kimi çoxsaylı görməli yerlərə səyahət təklif edirlər.

Könlümdən sadaladığım və sadalamadığım nə qədər yer var hamısına baş vurmaq keçir. Misir günəşi ilə İsveç soyuğunu canımdan çıxarmaq da, uşaqlıq xəyalı piramidalara, fironlar oylağına getmək də istəyirəm. Amma olmur, tək deyiləm. Xanımım, bir də qızım Ayan da mənimlədir, gərək səfər yoldaşlarımın da istəyini nəzərə alam. Sonra nə vaxtsa qızımdan məni xəbər alan olsa, deməsin ki, atamın bir qəpiklik yol yoldaşlığı yoxudu, ancaq özünü düşünürdü.

Yoldaşlarımla səfər planını müzakirə edib, ümumi fikrə gəldik. Onların təkidi ilə səhrada bədəvi kəndi, əvvəl “vezdexod” motoarabalarda, sonra dəvə belində safari gəzintisi, akvalanqla dəniz dibinə etmək kimi macəralı əyləncələrdən vaz keçəsi oldum.

Amma tarixi yerləri gəzib-görməyə hamımız həvəsliydik. Odur ki, günləri gəzməklərdə keçirdik.

Həm də çimmək mövsümü olmadığından sahildə yaş bədənlə çox qala bilmirsən. Qış ayları buralar küləkli olur. Küləkli havada dəniz də, onun sahili də günəşlənməyə sən deyən elə də əl vermir. Amma girəvələyib bir neçə dəfə özümüzü dənizə verdik. Dəniz demişkən, qoy onu da qeyd edim: əvvəl üzdüklərimin içində ən duzlu Egeyin suyunu bilirdim. Qırmızı dəniz

ondan da duzlu imiş. Burada istəsən də, bata bilmirsən. Məzə üçün nə qədər çalışdım, gördüm yox, batmaq olmur.

Şəhərə gəldikdə isə deyim ki, Aralıq dənizi sahillərinin turist bölgələrindən, nə bilim, Yunanıstan, İspaniya kurortlarından fərqlidir bura. Küçələrin təmizliyindən tutmuş hotel-restoranlarda servisəcən keyfiyyət xeyli aşağıdır.

Küçədə ərəbcədən sonra ən çox eşitdiyin rus dilidir. Bəh, siz satıcı ərəb oğlanın rus qızı görəndə çiçəyi çırtlamasını görəsiniz, rusca bülbül təki cəh-cəh vurmağa can atmasını eşidəsiniz – komediyadır.

## Qahirəyə varanda mən…

Elə hoteldəcə turist firmasının nümayəndəsi ilə danışıb əvvəl Qahirəyə, sonra Luksora səyahət biletləri aldıq.

Qahirəyə gecəyarı yola çıxdıq. 500 kilometrəcən yolu gedib qayıtmaq üçün obaşdan durmaq lazım idi. Minibusumuzda bizdən savayı cavan ingilis cütlüyü də vardı. Təzə evlənənə oxşayırdılar, üzləri gülsə də, ünsiyyətcil deyildilər.

Bir günlük səyahət proqramına Qahirədəki Misirşünaslıq muzeyi, Giza ehramları daxil idi. Nildə qayıqla gəzməyi də mən əlavə elədim. Necə yəni, Misirə gələsən, Nildə üzməyəsən!

Bir günlük səyahət proqramına Qahirədəki Misirşünaslıq muzeyi, Giza ehramları daxil idi. Nildə qayıqla gəzməyi də mən əlavə elədim. Necə yəni, Misirə gələsən, Nildə üzməyəsən!

Bir ölkəni yaxşı tanımaq istəyirsinizsə, məndən sizə əmanəət, onun bir yerindən başqa yerinə səfərə çıxın. Yolboyu gördükləriniz həmin ölkə haqda sizdə bolluca təəssürat yaradacaq. Yerli adamlarla təmas isə xalqı tanımağa imkan verəcək.

Yolumuz Qırmızı dəniz, Süveyş körfəzi boyunca üzü şimala uzanır. Sahilqırağı istirahət mərkəzləri bir-birini əvəz edir. Bir neçə yüz kilometr uzanan yolda bu qədər turist mərkəzinə heyrət edirsən. Məhz bu yolda Misirin iqtisadi həyatında turizmin hansı miqyasda rol oynadığını anlayırsan.

Ölkənin ən böyük gəliri turizmdəndir. İllik 13 milyard ABŞ dolları civarındadır. Həcminə görə ikinci gəlir mənbəyi isə Süveyş kanalıdır. Ölkə iqtisadiyyatı bu kanaldan ildə 5 milyard dollaracan qazanır.

Yol boyu Azərbaycanın Xəzər sahillərini düşünürəm. Astaradan Nabranacan da yol elə Hurqadadan Qahirəyəcəndir. Xəzərqırağı turizmin inkişafı üçün infrastruktur yaradılarsa, ölkənin mənzərəsi də dəyişər, iqtisadiyyatda ciddi canlanmaya da səbəb olar.

Şəxsi qənaətimdir – ötən yanvarda Maldiv adalarında olanda da müşahidə elədim – müsəlman ölkəsində turizmin inkişafı sekulyarizmə, tolerantlığa da təkan verir. Ən azından çarşablı yerli xanımların, saqqallı dindar kişilərin gözü Avropanın, Uzaq Şərqin kürəyi açıq qadınlarına, şortikli kişilərinə öyrəşir.

Qahirəyə qalanda isə onu deyim ki, təsəvvür etdiyim kimi deyilmiş. Güman edirdim qədim Şərqin arxitekturasında möhtəşəm bir şəhər görəcəyəm. Şəhər sanki başdan-başa kərpicdən

tikilmiş yarımçıq evlərdən ibarətdir. İlk baxışda elə bilirsən burada müharibə olub. Sonra bələdçi izah etdi ki, evlər tikilsə də, onun təhvil alınmasında bürokratik əngəllər var. Odur ki, evlər eləcə suvaqsız, damında armaturu dikələn haldadır.

## İnqilab təhrikçisi Təhrir meydanı

Qahirədə ilk getdiyimiz yer onun məşhur Misirşünaslıq muzeyi oldu. Muzeyə yol Təhrir meydanından keçir. Bir az bu meydan haqda deyim, sonra muzeyə girərik.

Təhrir meydanı 1952-ci il inqilabına qədər İsmayıl Paşa adlanıb. İsmayıl Paşa Misirin ilk hidivi olub. Hidiv Osmanlı sultanının Misir üçün təsis etdiyi yeni valilik üsul-idarəçiliyinə deyilirmiş. Atadan oğula ötürülən vitse-sultan deməkdir. Qahirənin düz göbəyində, Nilin sağ sahilində yerləşən meydanda məni elə uzaq tarix yox, təzəlikcə baş verənlər, "ərəb baharı"ndan ilhamlananların inqilabı düşündürürdü.

Sizi bilmirəm, mən belə yekə meydanları adamla dolu çox görmüşəm. Kiyevdə "Narıncı", Tiflisdə "Qızılgül", Bişkekdə "Zanbaq" inqilablarının canlı şahidiyəm. Bakıda 1988-ci ilin meydan hərəkatı, 2003-cü ilin oktyabr fəlakəti də gözümün qabağında olub.

2011-ci ildə Hüsnü Mübarəkin 30 illik hakimiyyətinə bu meydanda başlayan inqilab son qoyub. İnqilab dalğasında hakimiyyətə gələn Məhəmməd Mursini iki il sonra "yeni firon" deyə-deyə elə bu meydandakılar prezident kürsüsündən salıb.

Xalqın etirazı öz yerində, Misirdə bütün inqilabların, çevrilişlərin başında ordu durur. Hərbçilər Misir elitasında həmişə söz sahibi olublar. Monarxiyanın axırına çıxıb 1952-ci il inqilabı ilə ölkəni respublikaya çevirən də, onilliklərin qadağasından sonra ilk azad seçkidəcə qalib gəlmiş "Müsəlman qardaşlar"ın dinçi hakimiyyətini devirən də onlar idi.

Misirin "Müsəlman qardaşlar"ı ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında paralellər aparan analitiklərin fikirlərini qəribçiliyə salmazdım. Amma bu yazının mövzusu o deyil.

Bu yazıda qəsdim dünyanın ən qədim ölkələrindən biri haqda təəssüratımı oxucu dostlarımla bölüşməkdir.

## "İtə ataram, yada satmaram"

Gümanım məni aldatmasa, bir söz deyərdim. Misirşünaslıq muzeyində mənə elə gəldi ki, Luvrda, Britaniya muzeyində gördüyüm qədim Misirə aid eksponatlar burdan daha çox idi. Bu haqda fikrimi "Facebook" səhifəmdə paylaşan kimi dostlar başladılar yazmağa ki, bəs Qərb Şərqin varidatın daşıyıb aparıb, filan, beşməkan. Düz deyirlər, etiraz eləmirəm, daşıyıb aparıblar. Amma bir əmması var – aparıb neyləyiblər?

Aparıb muzeyə qoymaq, haram deyib dağıtmaqdan yaxşıdır, vallah. Elə dünən-srağagün Suriyada, İraqda antik dövrə aid nə qədər abidəni gürzlə, külünglə dağıtmadımı başıpozuq fundamentalistlər? Eramızın neçənci ilindəsə yox ey, XXI əsrdə.

Londonda Şah İsmayılın Ərdəbil məscidi üçün sifariş verdiyi məşhur "Şeyx Səfi" xalısını görəndə adamın əti ürpəşir. O gün jurnalist Aynur Talıbova Filadelfiya muzeyində saxlanan Qarabağ, Şirvan gəbələrinin şəklini paylaşmışdı. Aparmasaydılar, biz qoruya biləcəkdikmi?

Nələri qoruyub saxlamışıq? Yeddi arxa dönənlərimizi demirəm heç, iki dönəm babamızın bir muştuğunu, kəmərini, nə bilim nəyinisə saxlamışıqmı "ailə muzeyi"mizdə?

"İtə ataram, yada satmaram" atalar sözümüzdür. "Kitabi-Dədə Qorqud"ın əlyazması Drezden muzeyində saxlanır, dünyanın neçə muzeyində Azərbaycana aid nə qədər eksponat qorunur, sərgilənir. Bəs "itə atdıqlarımız" hanı?

Ən gözəli bilirsiniz nədir? Yaxşı oğlan olaq, tarixi sənət əsərlərimizi alıb qaytaraq, öz muzeylərimizdə qoruyaq, sərgiləyək.

Elə bu günlərdə misirlilər məhsuldarlıq, ovçuluq və balıqçılıq tanrısı Herişefin kahini Necemanxın qızıl sarkofaqını Nyu-Yorkdakı Metropolitan Muzeyindən geri alıblar. Misir rəsmilərinin təqdim etdikləri sənəd Manhetten dairə prokurorluğu araşdırıb və sarkofaqın oğurlanaraq, saxta sənədlərlə satıldığını sübut edib.

Bax, şəklini çəkdiyim sandıq 1922-ci ildə bir ingilis arxeoloqunun tapdığı Tutanhamonun sərdabəsində imiş. Neçə belə sandıq ləl-cəvahirlə dolu imiş orda. Yalan-gerçək, deyirlər, düz bir ton iki yüz kilo. İngilisin yox, o vaxt yerli sakinlərin əlinə keçsə idi, nə qalardı o sandıqlardan?

Belə suallar bir yana, o sandıqlara baxanda düşünürsən: fironlara qalmayan dünya fironluq edənlərəmi qalacaq? Bu günün fironlarını bura ekskursiyaya gətirsələr, bunu anlayarlarmı görən?

## Günəş tanrısı Amon Ra ilə söhbət

Misirşünaslıq muzeyində günəş tanrısı Amon Ra ilə bu xəyali söhbətim oldu. Şəkildə gördüyünüz heykələ tamaşa edirdim, birdən cana gəlib dilləndi. Demə eşitmədim, Misirin baş tanrısı ilə söhbətimizi olduğu kimi danışım, qulaq asın.

*– Dayan, bir sözüm var.*

*– Kimsən? Nə istəyirsən?*

*– Adım Radı. Günəş tanrısıyam. Yanımdakı arvadım Mutdur, Göy ilahəsidir. Üstümüzü bu abırda görüb qaçma, gör nə deyirəm. Bizi bu hala İbrahim dinləri salıb, halımıza bax, parça-tikə ediblər! Qayıdanda get Luksora, gör mənim məbədimi necə xarabaya çeviriblər. Adamları tovlayıb məndən uzaq saldılar. Vəd etdikləri xoşbəxtliyi verdilərmi barı sizə?*

*– Fironlar o boyda fironluq edəndə hara baxırdınız? Niyə qulların yanında olmadınız? Fironlara qulluq elədiniz öz kahinlərinizlə.*

*– Guya sonrakı dinlər bədbəxt xalqın tərəfinimi tutdular? Bütün sinaqoqlar, kilsələr, məscidlər krallara, sultanlara, prezidentlərə xidmət etmədimi? İnişil Afina akropolunda Zevsin də xaraba qalmış məbədinə getmişdin, qıraqdan baxırdım, eşidirdim Zevslə söhbətini. Qullardan danışırsan! Azad olmusunuz?*

Xanımı Mut əyilib qulağına nə dedisə, qoca Ra qaşların çatıb susdu, təzədən daş heykəl oldu.

Bax belə! Sonra da deyirsiniz ki, muzey eksponatı danışa bilmir, dili yoxdur, filan. Elə deyil, muzeydə hər əşya canlıdır, dili var, danışır!

Misirin unikallığı həm də neçə dinə sinə açmağındadır. Firon zülmündən qurtarmaq üçün xalqını İsrailə qaçıran Musa peyğəmbərdənmi deyim? Xristianların çatdırıb sonacan dağıda bilmədiyi antik dövrün məşhuri-cahan İsgəndəriyyə kitabxanasına od vurub yandıran islam sərkərdəsindənmi danışım?

Qayıdanbaş dincimizi alaq deyə sürücümüz dəniz qırağında bir yerdə əylədi. Eyvanı Qırmızı dənizə baxan kafedə oturduq. Sahilə düşən cığırı göstərib yol yoldaşlarıma Musa peyğəmbərin İsrail oğullarını məhz buradan keçirdiyini elə əminliklə danışdım ki, dediyimə az qala özüm də inandım.

Səmavi dinlərin kitablarında bu haqda yazılanları bilirsiniz yəqin, deyir, Allahın əmri ilə Musa yəhudiləri fironun zülmündən xilas edib İsrailə aparırmış. Firon da öz qoşunu ilə onların arxasınca çapırmış. Qırmızı dənizə çatanda Musa əlindəki əsayla dənizi iki yerə bölür, su çəkilir, yəhudilər keçirlər. Onlar keçən kimi sular təzədən qovuşur və fironun qoşunu dənizdə batır. Bax, hal-qəziyyə belə olub. Mən də eşitdiyimi deyirəm, inanıb-inanmamaq öz işinizdir. Şər qarışan vaxt idi deyə yol yoldaşlarımın üzlərindən oxuya bilmədim fikirlərini, bilmədim inandılar, ya yox.

Misir həm də xristianlığın yayıldığı ilk ölkələrdəndir. VII əsrdə ərəblər işğal edənəcən xristianlıq burada əməlli-başlı özünə yer eləyibmiş. Rəsmi məlumata görə, indi Misirdə 9 milyonacan xristian yaşayır. Onlara kopt deyirlər. Bələdçimiz də koptdur, deyir ki, Misirdə xristianların sayı 20 milyonacandır. 95 milyonluq ölkə üçün az rəqəm deyil. Nədənsə mən rəsmi rəqəmə yox, bələdçimizə inandım.

## Misir ehramları – fironluq abidələri

Giza Qahirənin həndəvərində yerləşən Misirin əhali sayına görə üçüncü böyük şəhəridir. Heç həndəvər də demək olmur, hər iki şəhər o qədər böyüyüb ki, bir-birinə qovuşmuş kimidirlər. Aralarındakı polis postunu sərhəd hesab eləmək olar.

Ümumiyyətcə, Misirin hər yanında addımbaşı polis postlarına rast gəlirsən. Bir növ qeyri-rəsmi hərbi rejimi xatırladır. İri şəhərlər bir yana, hər kəndin girəcəyində, bir də çıxacağında əlisilahlı polislər, əsgərlər, zirehli maşınlar var. Bu vəziyyət 2011-2013-cü il inqilab-çevrilişlərindən sonra sabitliyi qorumaq üçündür. O hadisələr ölkə iqtisadiyyatının canı olan turizmi əməlli-başlı çökdürmüşdü. Belə təhlükəsizlik tədbirlərinin hesabına indi-indi canlanma yaranır.

***

Gizanın girəcəyində də böyük post qoyulub, yoxlanışdan sonra üzü piramidalara sarı hərəkətə icazə verilir. Biz evə dönəndən on gün keçməmiş elə burdaca partlayış olduğu xəbəri gəldi. İraq bizdən! Xəbərdə oxudum ki, bu terrorda 4 vyetnamlı turist ölüb, 10 nəfər yaralanıb.

Maşın yoxuşa dırmandıqca Qahirənin böyüklüyünü aydın görürsən. Turist bürosunun ayırdığı bələdçinin dediyinə görə Qahirədə ətrafı ilə birlikdə 20 milyon adam yaşayır. Bu nəhəng mənzərəni görəndə onun dediyinə inanmaya bilmirsən.

Sonuncu təpəni burulan kimi qarşına çıxan nəhəng piramida elə uzaqdan adama qorxunc qəsr kimi görünür. Günəşin şüaları fonunda qara kölgəsi onu daha vahiməli edir.

Misirdə 130-dək piramida var. Ən böyüyü Xufu piramidasıdır, Gizada yerləşir. Rus, türk dillərində, elə bizdə də ona Xeops, yaxud Keops deyirlər. Qədim yunanlardan gəlir bu söz. Məncə, onu elə öz orijinal adında çağırsaq düz olar – Xufu. Əgər firon Xufunun adı onun öz kartuşunda elə 4 hərflə "Xufu" yazılıbsa, biz niyə Xufu deməyək?

Kartuş papiruslarda, ehram divarlarında, taxta sarkofaqlarda, boyunbağı kulonlarında hökmdarın adı yazılmış xüsusi mətnə deyilir. İndi turistlər arasında öz kartuşunu düzəltdirmək dəbdir. Qədim Misirdə yazılar heroqliflərlə (fiqur), piktoqrafik (rəsm) işarələrlə yazılırdı. "Xufu" adındakı "u" hərfi iki quş rəsmi ilə çəkilib. Oğlum Uğur üçün yaşlı bir sənətkara düzəltdirdiyim kartuşda da "u" hərfi həmin rəsmlədir.

Ehramlara yaxınlaşdıqca adamı qəribə duyğu bürüyür. İstənilən nəhəng şey ilk baxdığında adamda qorxu, həyəcan və təəccübün sintezindən qatma-qarışıq hiss doğurur. İlk belə halı Kazbek dağında yaşamışdım uşaq vaxtı. Atam bizi Qafqaz Hərb yoluyla Kislovodska aparanda. Maşını yolun bir qırağında, qurdlamış qar yığnağının yanında saxlamışdı; zirvələrə baxanda deyirdin bəs bu saat başından papağın düşər, aşağı baxanda isə dərinlikdən gözün axar, başın gicəllənərdi – dağın əzəmətindən heyrətə gəlmişdim.

Amma Misir ehramları başqadır. Onlar dağ deyillər, onları insan tikib. Baxıb şübhə edirsən, istəyirsən sən də bu piramidaları yerdənkənar canlıların tikdiyinə inananlara qoşulasan. 2-3 ton ağırlığında 2 milyonacan daşı 200 kilometr uzaqlıqdakı karxanadan necə daşıyıblar, qaldırıb üst-üstə necə düzüblər? Bunu hansı memar başı düşünüb? Fironlarda tanrılıq iddiasının mənbəyi nə idi? Neçə qul qurban gedib bu tanrılıq hikkəsinə?

Piramidaları dolandığın müddətcə bu suallar səndən əl çəkmir. Suallar cavablardan çoxdur. Bilinəsi tək bir həqiqət varsa, o da odur ki, məhz bu piramidalar, onların tikintisi üçün yaradılan infrastruktur – liman, ticarət, yollar, yeni insan məskənləri və sair – böyük Misir sivilizasiyasının formalaşmasında və min illərcə yaşamasında həlledici rol oynayıb. Sanki həyat bu ehramların ətrafında elə bunlara görə varmış. Nilin sağında və solundakı atkeçməz səhralar da bu sivilizasiyanı yadellilərdən qoruyan hasar imiş.

Hələ ayrı bir möcüzədən danışmıram heç. Bilirdinizmi ki, 3800 il qabaq qədim misirlilərin Nildən çəkdikləri kanalla Fəyyum vadisindəki bataqlıqların yerində yaratdıqları su anbarı indi də dünyanın ən böyük süni gölüdür? Mən də bilmirdim, təzə öyrəndim. Elə Sonek adlı timsah başlı su tanrısı da o gölün salındığı Orta Çarlıq dövründə Misir mifologiyasına daxil olub. O vaxt bu yerlər timsahların oylağı imiş.

***

Böyük Xufu Piramidası önündə sanki zaman vakuumuna düşürsən. Burda keçmiş-gələcək söhbəti öz əsl anlamını itirir. Deyirsən bəs "əbədi indi"dəsən – zamanın sükunət çağında ehramlar heç yana tələsmirlər!

Bir də insandan başqa gələcəyə can atan varmı ki…

"İnsan gələcəyinin quludur", belə yazır Paulo Koelo öz "Kimyagər"ində. Röyada bəxş edilən xəzinə dalınca uzaq Əndəlüsdən Misir ehramlarına gedən onun qəhrəmanını bu sonsuz səhraya baxanda xatırladım.

Gələcək keçmişdən qorxuludur! Bəlkə ona görə adam gələcəyə hazırlayır özünü?! Fironlar da elə bu ehramları öz gələcəkləri üçün tikdirməyiblərmi?

***

Dünyanın dörd bir tərəfindən turistlər bura həm də bir istəklə gəlir – ehramlarla müxtəlif pozalarda şəkil çəkdirsinlər, sosial şəbəkələrdə yaysınlar. ”Piramidaları gördüm”, desinlər.

Mən də tənbəllik eləmədim, xeyli şəkil, selfi filan çəkdim. Birini də xanımımla çəkdirdim. Bu arada maraqlı bir söhbətimiz oldu. Öz aramızda qalsın, sizə də deyim. Dedim, görürsən də, insanlar min illərdi sevgi abidələrini yox, fironluğu təcəssüm edən ehramları qoruyur.

Cavabından xoşum gəldi: “Sevgi ehramları səhralarda daşlardan tikilmir, könüllərdə saf duyğulardan hörülür”.

## Türk kurqanları ilə Misir ehramlarının qohumluğu

Napoleon Misiri tutan kimi arxasınca Fransa Elmlər Akademiyasının arxeoloqlarını gətirir. Alimlər ondan sonra da qalıb neçə il Misir piramidalarında tədqiqat aparırlar. O vaxtacan elmə məlum olmayan qədim sivilizasiyaya aid yazıları, nəhayət, 1822-ci ildə oxuya bilirlər. Qədim mədəniyyətin sirləri beləcə aşkar edilir. Bundan təsirlənən Misir hakimi təşəkkür əlaməti olaraq nəhəng sfinksin birini fransızlara bağışlayır. Luvr muzeyində nümayiş olunan həmin sfinksdir. Onu deyim ki, Luvrda o sfinkslə şəkil çəkdirəndə Fransa imperialistlərini qınamışdım, amma Misirdə nədənsə o qınaqdan vaz keçdim.

Parisin Həmrəylik meydanında ucalan obeliski də Misir hakimi Məhmət Əli fransızlara bağışlayıb. Yaman əliaçıq imiş Misir hakimi. Londonda Temza çayı sahilindəki obeliski də o verib ingilislərə.

İsgəndəriyyədən aparılan obelisklərin biri də Nyu-Yorkdadır. “Kleopatra iynəsi” adı ilə tanınan bu obelisklər Qahirədən 820 kilometr cənubda yerləşən Asuan şəhəri yaxınlığındakı qırmızı qranit karxanasında min illər öncə müxtəlif fironların adına kəsilib, Nillə qədim Misirin müxtəlif məbədlərinə daşınıb.

Baxıb düşünürsən ki, əsas ölkələr zəbt etmək deyil, qalıcı olan ağılları, könülləri fəth eləməkdir. Məmlük Sultanlığını da nəzərə alsaq, Misirdə 6 əsrədək türklər hökmranlıq ediblər. Bu müddətdə türk sultanların birinin də ağlına gəlməyib ki, ehramların sirri ilə maraqlana, bunları kim, nə üçün tikib deyə sual verə, alimləri bu işə cəlb edə.

Sivilizasiyaların inkişafında varislik, ənənə, yaddaş mühüm rol oynayır. Türk sultanları bilmirdilər ki, bu ehramların bənzərini elə onların ulu babaları tikərmişlər. Karpat dağlarından Çin Səddinəcən uzanan Böyük Çöldə adına kurqan dediyimiz minlərlə belə təpə-məzar var.

Kurqan mədəniyyəti qədim türklərin islamdan öncə sitayiş etdikləri Tenqriçilik zamanında yaranıb, əsrlər boyu ənənə halında yaşayıb. Adlı-sanlı adamlar öləndə öz əşyaları, bəzən hətta atları ilə də birlikdə basdırılırdı. Daşdan hörülmüş məzar otağının üstü bəzi hallarda 70 metrəcən torpaqla örtülürdü. Qazaxıstandakı Əsik kurqan öyrənilmiş ən məşhurlardandır. Eradan əvvəl V əsrə aid edilir. Uzağa getməyək, Azərbaycanda Xankəndi, Qobustan, Xaçbulaq kurqanları var. Deyilənə görə, Ağdamın Quzanlı qəsəbəsindəki yüksək təpə də kurqandır, uzun illərdir arxeoloqları gözləyir.

Misir ehramlarını öyrənmədilər dedim, əvəzində türklər başqa işlər gördülər. Məmlüklər islamı həm xristianların səlib yürüşlərindən, həm də monqol-tatar istilasından xilas etdilər.

Məmlük ərəbcə kölə deməkdir. Qara dəniz çöllüklərindən əsir gətirilən qıpçaq türkləri tezliklə Əyyubi dövlətində əvvəl orduya, sonra bütün dövlətə sahib oldular.

Osmanlı zamanında isə türklər islamı Avropayacan daşıdılar. ”Roma papasından artıq katolik olmaq” deyiminə balaca dəyişiklik edib belə demək olar, “ərəbdən artıq müsəlman” oldular. İslamı Çin səddi, Ural dağları, Adriatik dənizinədək yaydılar.

Amma adamın üstündə Allah var, deyəndə gərək ağlındakının hamısını deyəsən. “Ərəbdən artıq müsəlman” dedim, bəlkə elə islamın hesabına saxlamışıq türklüyümüzü? Hanı iudaizmi, xristianlığı qəbul edən türklər? Əriyib yox olmadılarmı?

Bir dəfə qatı islamçı, eyni zamanda türkçü (ikisini bir yerdə sonacan anlamağa çətinlik çəkirəm) bir tanışımla söhbətdə dilxoşluq edib dedim ki, türklər Dədə Qorqudu tanrı elçisi, “Kitabi Dədə Qorqud” dastanını da tanrı kitabı kimi qəbul etsəydilər indi dünya tanrıçılığa sitayiş edər, türkcə danışardı.

Qoy tanışım öz fikrində qalsın, qayıdım Misirə. Onu deyim ki, Misirdə istər-istəməz dini mövzuda düşüncələrsiz ötüşmək olmur. Qahirədəki Misirşünaslıq muzeyində günəş tanrısı Amon Ranın param-parça heykəli önündə, onun Luksordakı Karnak məbədində olanda bu cürə xəyalatlarım az olmadı.

## Dirilik suyu – əbədi yaşam arzusu

Misirin ehram yazılarında aparıcı mövzuların biri ölümsüzlükdür. Elə piramidanın özü əbədilik simvoludur. Nil çayı da qədim misirlilərdə sonsuzluq anlamındadır. Şəkildə gördüyünüz fironun əlindəki bu nişan Nilin əbədiliyinə inamı təcəssüm etdirir.

Fironlar “dirilik suyu”nu tapıb əbədi yaşayacaqlarına inanırdılar. Dirilik suyunu Xızır peyğəmbərdən, İsgəndər Zülqərneyndən üzübəri kimlər axtarmayıb ki! Tək bizim deyil, bir çox xalqın mifologiyasında dirilik suyu söhbətinə rast gələrsiniz.

Yolda oxumaq üçün götürdüyüm Hararinin “Homo Deus. Sabahın qısa tarixi”nə görə müasir insan fironların o arzusunu gerçəkləşdirməkdədir. Kitabda yazılır ki, bu əsrin sonunacan 150 il yaşamağın, gələn əsrin axırınadək isə ölümsüzlüyün sirri tapılacaq. Demək, qədim fironların ilahiləşmək sevdasını gələcəyin insanı reallaşdıracaq.

150 il yaşayan, yaxud ölümsüz olan insan xoşbəxtliyin reseptini də tapacaqmı? İstər o vaxtın fironları olsun, istər indinin fironluq edənləri, onların əbədi yaşamaq istəyi başa düşüləndir. Bəs o dövrün qulları, indinin əzabkeş insanları necə, ölümsüzlük istərdilərmi?

Odur ki, əsas çox yaşamaq deyil, xoşbəxt yaşamaqdır. Bu günün insanı xoşbəxtliyin də ömrünü uzatmağın yollarını arayır, onu anlardan çıxarıb aylar, illər, bütün ömür boyu uzatmaq istəyir.

İnsan əbədi ömrü yox, daimi xoşbəxtliyi tapanda həyatın sirrini açacaq. Belə düşünürəm!

## Günəş tanrısının məbədində

Geriyə qayıdanda elə yorulmuşduq ki, nə fironlar yada düşürdü, nə onlardan qalan piramidalar. Hotelə gecəyarı yarıyuxu çatdıq. Bir gün ara verib yenə səfərə çıxdıq.

Hurqadadan Luksoracan 300 kilometr yol getdik. Ətraf bomboz təpəlik, səhralıqdır. Bir suyu bizim Xızı yolunu xatırladır, Mərəzə təpəliklərinə bənzəyir. Nəfəs dərməyə saxladığımız yolqırağı qəhvəxananın qabağındakı balaca ağaclar xaric üfüqəcən gözoxşayan boşluqda yaşıl adına bir kol da görünmür. Qəhvəxananın ağzında üç-beş Misir funtuna şəkil çəkməyə icazə verən bədəvi qadınları gecə geri qayıdanbaş da elə burada gördük.

Səhra düz Qena şəhərinəcən uzanır. Qenaya çataçatda rastımıza çıxan əkin sahələri, bağlar Nilə yaxınlaşmağımızdan xəbər verir. Bu torpaqlar Nil çayından çəkilmiş kanallarla suvarılır. Kanal boyu görünən mənzərələr yerli sakinlərin yaşayış səviyyəsini əyani göstərir. Görünənsə odur ki, buranın camaatı kasıbdır.

Bələdçimiz bizi Luksordakı Karnak Məbəd Kompleksinin giriş qapısında qarşıladı. Rusca danışan gənc bir oğlan idi.

Möhtəşəm məbəd kompleksi Nilin sağ sahilində yerləşir. Sfinkslər xiyabanından keçib günəş tanrısı Amon Ranın məbədinə böyük alaqapıdan giririk. Bura Kambocada hinduzm dinində ən yüksək məqamda qərar tutmuş Vişnunun şərəfinə XII əsrdə inşa olunmuş Angkor Vat məbədindən sonra dünyada ikinci ən böyük dini tikilidir.

Yeni Çarlıq zamanında, yəni eramızdan əvvəl 2000-2500-cü illərdə tikilən məbədə hər firon öz adını həkk edib. Məbəd müqəddəs üçlüyün – Amon Ra, arvadı Mut, oğlu Xonsu – şəninə əsrlər boyu qədim misirlilərin ibadət yeri olub. Kompleksin həyətində camaatın gətirdiyi qurbanların, nəzir-niyazın saxlandığı yerlərdən sonra III Tutmosun adına ucaldılan 134 sütundan ibarət örtülü hündür zal gəlir. Zalın o üzündə böyük ərazidə müxtəlif tikililər, müqəddəs göl da var.

Məbədə sadə adamların girişi qadağan imiş. Burada yalnız kahinlər yaşayıb, ibadət edərmişlər. Bir növ xristianların monastrı kimi. Müqəddəs günlərdə firon ailə üzvləri, əyanlarıyla ziyarətə gələrmiş. Xalqın gətirdiyi qurbanlar elə məbədin qapısındaca qəbul olunarmış.

2016-cı ildə Aleks Proyasın çəkdiyi "Misir tanrıları" filmindəki əzəmətli saray-məbəd elə Karnakdakı müqəddəs günəş məbədinin oxşarıdır. Görən kimi həmin filmi xatırladım.

Bax bu şəkildə gördüyünüz o uzaqda dikələn uzun obelisklərin bir tayı Parisə aparılıb. Aralıdan görən kimi Bakıdakı bayraq meydanı ağlıma gəldi. Bir bayrağı üçcə il saxlaya bilmədik. Külək vurub aşırdı. Bu obeliskləri isə 4 min ildir neçə zəlzələ yerindən dəbərdə bilməyib. Uzunluğu 24 metr, ağırlığı isə, yalançı bələdçimiz olsun, 143 tondur. Adam heyrət edir – bu yekəlikdə sal qraniti 240 kilometr uzaqlıqdakı Asuan karxanasından barjda Nillə necə gətiriblər!

Məbədi gəzib dolandıqdan sonra bələdçimiz bizi qayıqla Nilin o üzünə keçirdi. Əvvəlcədən danışdığı restoranda bizə nahar aldı.

Yeridir, qoy bir cümlə də yeməkdən deyim. Tək burda yox, bütöv səfər boyu Misirdə dadı damaqda qalan bir qismət yemək yeyə bilmədim. Haradadır, bizim lülə, tikə, cızbızımız!

Çarlar Vadisi (ona "Ölü Vadi" də deyirlər) Nilin sol sahilindədir. Uzun dərə boyunca dağı üzüaşağı yarıb nəhəng sərdabələr düzəldirmişlər. Fironları yerin dərinliklərində qazılmış nəhəng qəbirlərə qoyurmuşlar. Sərdabələrdə şəkil çəkməyə icazə yox idi. Düzdür, oğurluq bir-iki şəkil çəkdim, amma alatoranda yaxşı çıxmadı.

Giza ehramlarından fərqli olaraq burada məbəd yerin üstündə tikilmir, əksinə, dağın altında qazılırdı. İndiyədək 63 sərdabə tapılıb. Ən böyüyü "Məqbərə 320" adlanır.

"Məqbərə 320"dəki 37 sarkofaqda fironların, onların arvadlarının, şahzadələrin mumiyası aşkarlanıb. Bu sarkofaqlar qayalığın 13 metr dərinliyində çapılmış 70 metrlik dəhlizin sonundakı otaqlardaymış. Başqa sərdabələr kimi buranı da ilk tapanlar talan ediblər. XIX əsrdə talanlarla bacarmayan dövlət mumiyaları, orada aşkarlanan zinət əşyalarını saxlamaq üçün başqa yerə köçürür. Elə baş vurduğum beş sərdabənin beşini də boş gördüm.

Sonra bələdçimiz bizi Deir əl-Baharı vadisinə, Hatşepsut məbədinə gətirdi. Nəhəng dağın içində çapılıb qabağında üç terras tikilmiş məbəd qadın firon Hatşepsutun əmri ilə 9 ilə inşa edilib. Əri II Tutmos öləndən sonra taxta hələ balaca olsa da oğlu III Tutmos çıxmalıymış. Hatşepsut ərinin vəsiyyətini elan etməsinlər deyə kahinləri rüşvətlə ələ alır, özünü firon elan edir və 21 il ölkənin yarımtanrı hökmdarı olur.

Onun fironluğu dövründə Misir görünməmiş inkişafa çatır. Nə olsun? Oğlu III Tutmos bu uğurları saya salmır, böyüyüb hakimiyyəti geri alandan sonra Hatşepsutun adını hər yerdən sildirir. Amma tarix yazanı firon da poza bilməz! Karnak məbədində əl yetməyən dalda bir yerdə qalan yazı lövhəsi başqa mətnlərə də açar olur, beləliklə, gələcək nəsillər Hatşepsutdan xəbər tutur. Hatşepsut II Ramzes, Kleopatra kimi məşhur fironlar cərgəsinə düşür.

Fironlar, onların ağılasığmaz tikililəri, qoy elə qaldıqları yerdə qalsınlar. Sizə onu deyim ki, geri qayıdanda yol qırağındakı adamların "hardansa uzaq xoşbəxt ölkələrdən gələn bəxtəvər turistlərə" yarı qibtə, yarı həsrət dolu baxışları fonunda özünü fironların yox, bu sadə adamların – fironlar ölkəsinin kasıb sakinlərinin yanında daha rahat hiss edirsən.

Ta qədimdən bu günəcən belədir – fironu, kralı, şahı-sultanı, lideri-prezidenti varlı olan ölkələrin əhalisi kasıb, ac-yalavac yaşayıb.

## Bəşərin ən dəyərlisi – İnsan

Misirdə minillərin sınağından salamat keçib gələn qədim abidələr səni dəyər ölçüsünə bir ayrı bucaqdan baxmağa sövq edir. Düşünürsən, zaman və məkandan asılı olaraq kim üçünsə dəyərli olan sənə də dəyərlidirmi? Yaxud əksinə, sənin dəyər anlayışını başqaları da bölüşürmü? Anlayırsan ki, bir vaxt müqəddəs olmuş bu möhtəşəm abidələr belə insan dəyəri yanında bir heçdir!

Dünən inanıb uğrunda can qoyduğun bu gün də o müqəddəslikdə, o dəyərdədirmi? Qədim misirlilər üçün Karnakdakı Amon Ra məbədi bir vaxtlar ən müqəddəs yer idi. Niyə misirlilər daha Amon Raya, yunanlar Zevsə itaət etmirlər? Romalı sevgililər məhəbbət tanrısı Amuru yada salmırlar?

Vatikandakı Müqəddəs Pyotr kilsəsi, yəhudilərin Ağlayan Divarı, müsəlmanların Kəbəsi min il sonra da indiki müqəddəsliyini saxlayacaqmı? Yoxsa Hararinin “homo deus”u bu yerləri muzey kimi ziyarət edəcək?

Hər şeyin ömrü – bu gün müqəddəs bilinənlər belə – insanın ona inanıb dəyər verdiyi çağacandır!

Bunlar mənim səfərdən gətirdiyim düşüncələrim, subyektiv fikirlərimdir. Misirə qalanda, dünyanın ən görməli qədim ölkələrindən birinə azından bir dəfə də olsa gəlməyinə dəyər. Gəlin, gəzin, özünüz görün. Oxumaq başqa, görmək başqadır..

**Hurqada, Misir – Helsinborq, İsveç**

**Qış ayları, 2019**

# Qotland

*İsveç savannasına səyahət*

Deyim, Qotlanda səfərə yeganə səbəb pandemiyadır, düz çıxmaz. Yəni tək qıraq ölkələrə səyahət çətinlikləri var deyə seçmədik buranı. Bu olsa-olsa həqiqətin yarısıdır. Normalda bu bahalı adaya iki günlük səfər xərcinə turizm saytlarından İspaniya, Yunanıstan, Türkiyə, canım sizə desin, Aralıq dənizi ölkələrinin başqa birinə bir həftəlik putyovka alarsan. Ölkələr turistlərin üzünə indi-indi açılsalar da, səfər riskləri hələ də qalır. Qotland isə İsveçdaxili turist məkanıdır, səfərə koronavirus maneəsi yoxdur.

Həqiqətin o biri yarısı mənim arzumdur. Qotlanda getməyi İsveçə köçəndən arzulamışam. Üç il əvvəl dünya kinosunun klassiki İnqmar Berqmanın 100 illik yubiley günlərində yazdığım "Berqman, Tarkovski və Qotland adası" yazısında isə qəti söz verdim ki, o iki nəhəng sənətkarın eşqinə bu adaya gedəcəyəm. Odur ki, qısa müddətli səfər həvəsinə düşəndə xanıma, gəl elə Qotlanda gedək, deyib Baltikin ləpədöyənində iki gecəlik otaq kirayələdim.

Qəribədir, adam "gəlmək"dən çox, "getmək" haqda düşünür. Sizi bilmirəm, mən "getmək"dən ötrü sino gedirəm. "Getmək" sözünün "ayrılmaq" kəlməsi ilə məna səsləşməsi var, düzdür, amma mənim aləmimdə getmək həm də qovuşmaqdır. Kiminləsə, yaxud nə iləsə görüşmək, qovuşmaq üçün gedirsən.

Hər dəfə İsveçin gəmi-bərələrinə minəndə Çingiz Aytmatovun "Ağ gəmi" əsərindəki uşaq yadıma düşür. O balaca oğlan balıq olub gəmiyə sarı üzməyi, gəmidə təzədən adama çevrilib itmiş atasını tapmağı, sonra atası ilə birlikdə uzaqlara getməyi xəyal edir. Dediyim odur ki, mən də o uşaq kimi "gələnlər"dən yox, "gedənlər"dənəm.

***

Yola obaşdan çıxdıq. Ölkənin qərb sahilindən şərq sahilinə 4 saat yol sürəcək, sonra gəmi-bərə ilə 3 saat adaya doğru üzəcəkdik.

Bakı ilə danışanda deyirdilər ki, orada qorabişirən istilər keçir. Mən də Bakı istisində imişəm kimi hərdən maşının şüşəsini endirib əlimi yağışlı havaya çıxarırdım. Yol boyu kəsməyən yağmurun iynəucu damlaları dərimə sərinlik çilədiyi kimi isveçli cazmen Nils Landgrenin saksafonunda səslənən "Gotland"ı da ruhumu hüzur beşiyində imiş kimi yırğalayırdı.

Nilsi təzə kəşf eləmişəm, vaxtilə ABBA-da da çalıbmış. Düzdü, sevimli saksafon ifaçılarıma – Fausto Papettiyə, George Katsarosa çatmaz, amma Qotland yolunda onun "Gotland"ını dinləməyin yeri vardı.

Belə vaxtlarımda rahatca özümü bizi Ağdamın istisindən Şuşanın sərinliyinə aparan atamın "Jiquli"sində hiss edə bilərəm. Atam da dolamaları qalxdıqca əlini çölə çıxarar, sərinliyə maqnitafonda oxuyan Şahmalı Kürdoğlunun "Rast"ını da qatardı.

Mənim isə yağışlı havada saksafon fonunda maşın sürməkdən xoşum gəlir. Romantik oxucu göydə tutar dediyimi.

***

Qotland adası İsveçin siyasi, biznes, kültür elitasının tez-tez cəmləşdiyi yerdir. Ölkə səviyyəli görüşlərini, elə beynəlxalq tədbirlərini də, həvəslə burada keçirirlər. Sosial nərdivanın üst pillələrində qərarlaşmış kəsim dincəlməyə bura gəlir. Yəni kasıb isveçlilərin arzusudur Qotland. Məsələn, səfər öncəsi rastıma çıxan qonşu Monikadan “Qotlandda olmusanmı?” soruşanda, “Yox, ora çox bahadır”, – dedi. Sonra da “Amma deyirlər gözəldir”, – əlavəsini elədi.

Adanın baş şəhəri Visbidə hər il dünyanın ən böyük “demokratiya festival”larından biri keçirilir. Almedalen parkında İsveçin siyasi partiya rəhbərləri, vətəndaş cəmiyyəti fəalları, böyük biznes qurumlarının yönəticiləri həftə boyu ölkənin siyasət və cəmiyyət problemlərini müzakirə edirlər. Müxtəlif mövzularda seminarlar, təqdimatlar olur.

İsveçlilərin Almedalsveckan dedikləri Almedalen həftəsi – Demokratiya festivalı 1968-ci ildən keçirilir. Əvvəl-əvvəl yalnız sosial-demokratlar yığışar, debatlar, siyasi müzakirələr təşkil edərmişlər. Partiyanın sonralar qətlə yetirilən lideri Olof Palmenin 1968-ci ildə yük maşınının üstündə elədiyi tarixi çıxış Demokratiya həftələrinə başlanğıc olub.

İndi isə iqtidarlı-müxalifətli hamı gəlir Almedalen həftəsinə. Nədən istəsən danışırlar. Bir növü Londonun Hayd parkı kimi.

Bu mənada azadlıq adası da deyərdim Qotlanda.

## Həm də azad sənət adası deyərdim

“Sənət adamının özünü nümayiş coğrafiyası onun azadlıq sərhədlərinədəkdir.

Andrey Tarkovski SSRİ-yə qayıtmamasını orada işləməyə, film çəkməyə imkan verilməməsi ilə izah edirdi atasına yazdığı məktubda. Ömrü boyu cəmi yeddi film çəkə bildi, beşini vətəndə, ikisini vətəndən uzaqda, qərib rejissor kimi.

İnqmar Berqmanın isə azadlığına İsveçdə sərhəd olmayıb. Teatrda 170 tamaşa səhnələşdirib, 100-cən bədii, sənədli, televiziya filmi çəkib. Bununla belə, şəxsi həyata da bol vaxt ayırıb – teatrı arvada, kinonu məşuqəyə bənzədən Berqman beş qadınla rəsmi nikaha girib.

Görünür, azadlıq tək yaradıcılığa deyil, sevgiyə də üfüqlər açır.

Azadlıq nələrə üfüq açmır ki!”

Yuxarıdakı sətirlər "Berqman, Tarkovski və Qotland adası" yazısındandır.

İlqmar Berqmanı Bergmancenterdə – onun kino yaradıcılığını əks etdirən muzeydə yad etdik. Dünya kinosunun klassiki ömrünün son illərini burada, insanlardan uzaqlaşıb guşənişin olduğu Forö (Fårö) adasında yaşayıb, ölüb, basdırılıb. Bərə bu iki ada arasında gün boyu işləyir. 10 dəqiqəyə keçirsən.

Bura turistlər əsasən iki yerə dəyməyə gəlir. Biri söz açdığım Bergmancerterdir. O biri Langhammarsgubbendir. Baltik sahilindəki əhəng daşı süxurlarının eroziyaya uğraması nəticəsində əmələ gəlmiş daş sütunlu qayalıq. Onu da deyim ki, Qotlandda 7 belə qayalıq var. Hamısı da milli park statuslu qoruqdur.

Muzeydə öyrəndim ki, Berqman adına üç fond var. Muzeyin əməkdaşı deyir ki, bu fondlar müxtəlif təyinatlı olsa da, birgə işləyirlər ki, Berqman irsini layiqincə yaşada, yönləndirə bilsinlər.

İnqmar Berqman Fondu hər il ssenari müsabiqəsi elan edir. Bu ilki qalib "Həyat rişəsi" ssenarisinə görə Praqa Film Məktəbinin məzunu İnqa Kempe adlı gənc ssenarist və rejissor xanımdır.

Muzey, həmçinin, ildə bir dəfə Berqman Həftəsi keçirir. Həftə boyu kinoşünaslar, aktyorlar, rejissorlar, sadə kinosevərlər yığışıb Berqman yaradıcılığından, yerli və dünya kinosunun yeniliklərindən danışırlar.

Muzeyi dolaşdıqca bizdə də belə bir muzey-mərkəzin açılması arzusu keçir adamın könlündən. Məncə, bunu eləsə-eləsə Rüstəm İbrahimbəyov edər. Ondan müsahibə alanda İçərişəhərdəki evində olmuşdum. Bax, o malikanədən əsl kino mərkəzi çıxar – İbrahimbəyovun Kino Evi, məsələn.

Sonra yolumuzu Langhammarsgubben milli parkına saldıq. Adanın şimal sahillərində yerləşən bu əhəng daşı süxurları sonuncu buzlaşma dövründən qalıb. Nəyə görəsə, elə bilirdim ki, Berqman onun adını dünya ilə bir edən "Yeddinci möhür" filmində Cəngavərlə Ölümün şahmat oynadığı kadrları burada çəkib. Yanılıbmışam! Öyrəndim ki, filmin o yeri İsveçin qərb sahilində, yaşadığım şəhərə yaxın Hovs Hallar qoruğunda çəkilibmiş.

Əvəzində başqa bir sevdiyim rejissorun kino çəkdiyi yeri axtaranda yanılmadım.

Səhəri gün Qotlandın cənubuna getdik. Andrey Tarkovskinin son filmi "Qurbanvermə"nin ("Жертвоприношение") son kadrlarını çəkdiyi Närsholmen-ə. Film haqda yuxarıda söz açdığım yazıda bəhs etdiyimdən bir də mövzuya qayıtmaq istəmirəm. Bircə onu deyim ki, İohann Baxın "Matfeyin ehtirasları" musiqisi fonunda bəşəri xilas naminə qurbanvermənin kinoda təcəssüm olunduğu kadrları niyə məhz burada çəkdiyini anlamaq istəyirdim. Bunu yol boyu çox düşünəcəkdim...

Geri gönəndə Folhammar qayalığına – adanın şərq sahilindəki əhəng daşı süxurlarına da dəydik. Min illərin bu əhəng daşı suxurlarına toxunanda bəşəri zamanda bir an, təbiətdə bir toz dənəsi olduğunu anlayırsan. Onda keçmişin və bu günün tanrı iddialı fironlarını başa düşməkdə problemin yaranır. Bəlkə də bu yerləri dahi rejissora sevdirən qədim süxurlar və onların insanlara vermək istədikləri səssiz mesajlardı. Tarkovski o daş mesajları oxuya bilib deyə Apokalipsis öncəsi həyəcanı kino dilində ötürmək istəyib. Nə biləsən.

Yaşlı kino xiridarları xatırlayarlar, istərdim gənc kinosevərlər də tanısınlar bu dahi rejissorları. Onların bənzərsiz "darıxdırıcı" şedevrlərinə baxsınlar. Niyə "darıxdıcı" deyirəm

onların filmlərinə? Cavabı yuxarıda adını çəkdiyim yazıda var, keçid qoyuram, maraqlı gəlsə, oxuyarsınız.

## Afrika savannası və "Tanrı quzusu"

Qotlandın bu başından o başına – şimalından cənubuna gedəndə adanın İsveçdən fərqli iqlimini aydın görür, duyursan. Xüsusən də, cənub sahillərinə yön alanda özünü Afrika savannasında hiss edirsən. Çöllük, otlaqlar, balacaboy ağaclar, kollar.

Diqqətimi cəlb edən bir də qoyun fermaları, qoyun dərisi satanların yol uzunu reklam yazıları oldu. Qoyunçuluq İsveçdə populyar deyil, amma bu adada ən çox gözə dəyən qoyun rəmzləri idi. Əyalətin bayrağında da qoyun rəsmi əks olunub.

Maraqlandım. Sən demə, bu, xristianlıqdan gəlir. "Tanrı quzusu" 1280-ci ildən adanın simvolu kimi bayraqlarında, gerbində yer alıb. İohannın "İncil"ində İsa peyğəmbər haqda deyilmiş sözdür. "İohann İsanı gördü və dedi: "Dünyanı xilas edəcək Tanrı Quzusu".

Üstündə "Tanrı quzusu" əks olunan bayraq 1936-cı ildə Qotlandın rəsmi bayrağı kimi qəbul olunub.

## Lummelunda mağarasında Şuşa söhbəti

İbrahim xanın mağarasından çox adamın xəbəri yoxdur. Heç ali təhsilini Şuşada almış xanımım da bilmirmiş. Ona danışdım, sizə də deyim.

Cıdır düzündən üzüaşağı baxanda nəhəng Daşaltı dərəsinin o üzündə sıldırım qayalar arasında kiçik qara dəlik kimi görünür. Atam o mağaranı göstərib uşaq vaxtı dostları ilə ora macəralı səfərindən danışardı. Deyirdi ki, dar cığırla qorxa-qorxa gedibmişlər. "Aşağı baxanda gözün qaralır, yuxarı boylananda başın gicəllənir".

Uzaqdan balaca görünsə də mağara hündürdür, adam at belində girə bilir. Deyilənlərə görə, Qacar Şuşanı tutanda İbrahimxəlil xan burada gizlənibmiş.

Adamda, özü də mənim kimi xəyalpərəstdə arzular bitib-tükənməz! Lummelunda mağarasına girəndə ürəyimdə bir gün Şuşadakı Xan mağarasına, bir də Füzilidən cəmi 14 kilometr aralıda yerləşən Azıx mağarasına getmək istəyi yarandı.

Lummelunda mağarası Visbi şəhərindən 13 kilometr aralıda yerləşir. Mağaranı ötən əsrin əvvəllərində üç oğlan uşağı təsadüfən kəşf edib. Qayalardan sızan suyun əmələ gətirdiyi kiçik çay 1 kilometrdən çox yeraltı axışla Baltik dənizinə tökülür. Bütün mağaralar elə bu cür suların süxurları əritməsi nəticəsində əmələ gəlir. Elmdə buna karst hadisəsi deyilir. Lummelunda da əhəng daşı süxurlarının yuyulması ilə yaranıb.

İl ərzində 100 min turistin ziyarət etdiyi mağarada hava hərarəti yay-qış eyni dərəcədə olur – müsbət 8-12. Yaxşı ki, mağaraya düşmədən öncə özümüzlə isti paltar götürməyi tövsiyə etdilər. Yoxsa qısaqol yay köynəyində adam sətəlcəm də olar saat yarımlıq bu yeraltı tur-gəzintidə.

Yaşı min illərlə ölçülən stallaktik (tavandan sallanan) və stalaqmit (döşəmədə altdan yuxarı qalxan) süxurlara burada da rastladım. Bu süxurlar əhəng daşından əmələ gəlmiş sırsıra mineral maddələrdir. Bəzən stallaktik və stalaqmit süxurlar birləşib sütuna çevrilirlər. Bu proses milyon illər çəkir.

Alaniyanın Dim mağarasındakı Damlataş sırsıraları ilə müqayisədə buradakılar çox kiçikdirlər. Dim mağarasının sırsıra süxurlarının yaşı milyonlarla ölçülür, ona görə də çox iridirlər.

Adamda qəribə duyğular oyadır bu sırsıralar. Onların yaranışından keçən milyon illər bir göz qırpımında gəlib keçir və beləcə dünya da, zaman da gözündə kiçilir.

Demək istəyirəm ki, daha öz mağaralarımız – Azıx da, Xan mağarası da azad olunub. Qarabağa gedəndə yolunuzu oralardan salın. Mən də getmək istəyirəm. Yollar xalqın üzünə açılsın, gedəcəyəm!

## Vikinqlərin qurbangahı

Vikinqlərin Qotland adasında VIII-XII əsrlərdə yaşadığı ehtimal edilir. Burada onların daş üzərində runik yazıları da tapılıb. Visbi şəhərinin adı da qədim skandinav dilində "qurbangah", yəni qurban kəsilən yer anlamını verir.

Belə söyləyirlər ki, Visbi Skandinaviyada Orta əsr memarlıq üslubunu az-çox saxlanmış tək şəhərdir. Qala divarları içindəki qədim küçələri dolaşdıqca özünü Orta əsr Avropasında hiss edirsən. Yəqin elə buna görədir ki, 1984-cü ildən bəri hər il burada Orta Çağ Həftəsi ("Medeltidsveckan") festivalı keçirilir. Orta əsr sayağı bazarlar açılır, qədim libaslı adamların iştirakı ilə müxtəlif turnirlər, oxatma, atçapma, qılıncoynatma yarışları keçirirlər.

Turistlərin adaya ən çox gəldiyi dövr hər ilin avqustunda keçirilən bu festival günləri hesab olunur. Tədbirlər tək Visbidə deyil, bütün ada boyu təşkil olunur. Festivala maraq ilbəil artır. Məsələn, əgər turistlər 2007-ci ildə festival vaxtı 125 milyon kron xərcləmişdilərsə, 2014-cü ildə 204 milyon kronluq, yəni 20 milyon avroluq alış-veriş ediblər.

Visbini gəzməyə qala divarları arasındakı qədim hissədən başladıq. Şəhərin dairəvi qala divarları XIII-XIV əsrlərdə tikilib. Bu günə 3,5 kilometrlik hissəsi salamat qalıb.

Şəhərdə 13 qədim kilsə xarabalığı var. Hamısı da orta əsrdən qalma. Biz Drottens, bir də Müqəddəs Nikolay kilsə xarabalıqlarına dəydik. Burada gördüklərim Ağdamın Qiyaslı kənd məscidini xatırlatdı. Hər ikisinin fotolarını qoyub facebookda belə bir status paylaşdım: "Bir-birinə oxşadığına baxmayın, eyni yerin şəkilləri deyil bunlar. Birinci fotonu internetdən götürmüşəm, Ağdamın Qiyaslı kənd məscidinin xarabalığıdır. O birilərini özüm çəkdim, İsveçin Qotland adasındakı XIII əsr kilsəsinin – Drottens Ruin – qalıqlarıdır. Qotland kilsəsini tarix bu kökə salıb, Qiyaslı məscidini isə erməni işğalçıları xaraba qoyub".

Dar, dolanbac küçələrlə şəhərin fəaliyyətdə olan ən böyük Müqəddəs Mariya kilsəsinə çatırıq. Təmirdən sonra gözəlliyi göz oxşayır. Amma onun əzəmətindən, gözəlliyindən çox yaxınlıqdakı "Rus dalanı" yazısı diqqətimi çəkdi. Ruslar buraya da mı gəlibmişlər?

Maraqlandım. Sən demə, gəlmək nədi, adanı işğal da edibmişlər. Özü də Qarabağı zəbt edən dönəmdə. İsveçlə 1808-1809-cu illər müharibəsi vaxtı. Amma cəmi 3 həftə adanı işğalda saxlaya bilibmişlər.

Ondan əvvəl isə uzun əsrlər boyu Qotlandla Novqorod arasında ticarət əlaqələri varmış. Visbidə rusların, Novqorodda isə isveçlilərin ticarət nümayəndəliyi fəaliyyət göstərirmiş.

Şəhər haqda qısa bunları yazsam, bəsdi. Nə qədər təsvir etsəm də, Qotlandın vəsfinə yetməz. Elə təkcə Högklint uçurumunun mənzərəsi nəyə desən dəyər. Uçurumun Baltik dənizinə uzanan ən uc nöqtəsinə çıxdım ki, şəklimi çəkə, xanımdan qopan fəryada az qala göydə qağayılar qanad salacaqdı. Qorxdu ki, yıxılaram. Sonra hündürlüyə gözü alışdı və bu möhtəşəm mənzərədə şəklimi çəkə bildi.

***

Elə gəldiyimiz gəmi-bərə ilə də geri qayıtdıq.

Qotlandı da sevdik, Visbini də. Azərbaycanın işarələrini gördük, yəqin ona görə Visbi doğma gəldi. Burada elə bilirsən bizim Şuşa, Şəki, bir də Nabranın sintezindən yaranmış bir yerdəsən. Şuşanın Qala divarı da var, Şəkinin kirəmitli damları, Nabranın daşlı sahili də.

Hər yanda Yurd nişanəsi gəzən bəndəniz belə gördü Qotlandı...

**İyul, 2021**
**Qotland, İsveç**

# Qaraqoyunlu Karaqounis

*Səmərqənddən futbol reportajı*

Futbol üzrə Avropa və dünya çempionatlarında azarkeşlik ünvanımı dağılan SSRİ-dən Türkiyəyə dəyişməyimin səbəbi onun milli qürurla bağlı daxili boşluğu doldura biləcək oyun sərgiləməyə başlaması oldu. Bu ilki Avropa çempionatında isə biri obyektiv, o biri subyektiv səbəbdən iştirak eləmir. Ya buna görədi, ya da artıq yaş futbol ehtirasına təsir edir, bilmirəm, bu çempionat qışqır-bağırsız, həyəcansız, sakit, soyuqqanlı baxdığım ilk futbol yarışmasıdı. Cəmi 10 il əvvəl isə tamam başqa havada idim.

***

2002-ci ilin dünya çempionatı günlərində Səmərqənddə “İctimai liderlik” mövzusunda seminardaydıq. Onda hələ Özbəkistanda belə tədbirlər keçirmək olurdu. Türkiyə komandasının oynadığı saatlarda hər cür məşğələdən azad olmağımız üçün heç bir icazəyə ehtiyac qalmamışdı, çünki amerikalı təşkilatçılar hay-küylü söhbətlərimizdən, bir zamanlar türk dünyasının paytaxtı olmuş bir şəhərin əzəmətindən vəcdə gəlmiş iki türkçü qonağın Türkiyə komandasının gözəl oyununa köklənməsindən xəbərdar idilər.

Türkçü damarım olmayan kimi tutmuşdu. Bir yandan da səfər yoldaşım Ülvi Həkimovun hər fasilədə, axşam söhbətlərində rastına çıxan özbəyə türkçülükdən alovlu mühazirələr oxuması məni bu havaya kökləmişdi. Elçibəyin müridlərindən olan Ülvi bu söhbətləri eləməklə həm də vəzifə borcunu yerinə yetirdiyini düşünürdü. O biri yandan da Səmərqəndin abidələri – Əmir Teymurun dəfn olunduğu Əmiri-Gur məqbərəsi, Rehistan, Xoca Əhrar türbəsi, İmam əl-Buxari memorial kompleksi, Uluğbəy rəsədxanası, neçə-neçə mavzoley, saysız tarixi tikili məni qəribə hislərə çulğamışdı: bu əzəmətli tarixi abidələrin Azərbaycan qarışıq neçə türk ölkəsinin viran edilməsi hesabına tikildiyini düşündüyüm kimi dövrünün məşhur sənətkarlarını bir yerə toplayıb dünya inciləri yaratmağa qüdrəti çatan gücə heyran qalmışdım.

Tarixi dövlətlərin qüdrəti onlardan qalan tikililərdən bilinir. Bizim Şuşa qalası, Şirvanşahlar sarayı, Şəki Xan sarayımız təmsil elədikləri xanlıqların regional səviyyəli balaca bir dövlət olmasına izah verdiyi kimi, Topqapı, Sultan Əhməd cameəsi, Səmərqənd abidələri də dünya əhəmiyyətli imperiyaya şahidlik edir…

Səmərqənd seminarı başa çatanda amerikalı dostumuz bir-iki günlük Buxaraya gəzməyə getmək təklifi verdi. “Türkiyə Braziliya ilə oynayacaq” dedik. “Orda baxarsınız” cavabı ilə razılaşdıq.

Buxaradakı hotelimiz vaxtilə yerli yəhudi tacirinin evi olub. İndi İsraildə yaşayan varislərinin mülküdü. Dörd tərəfi otaqlar, müxtəlif yardımçı tikililərlə əhatələnmiş həyət səhradakı oazis qədər cənnət duyğusu yaradır. Həyətin ortasındakı çarhovuzun yanında qurulmuş tapçana yayxanıb içdiyin yaşıl çay 50 dərəcə istidə belə adama sərinlik gətirir.

Seminar iştirakçılarından yerli ictimai fəal Rəşidlə söhbətimiz tuturdu. Bizim göylə gedən türkçü ovqatımız ona da sirayət eləmişdi. Gecədən keçənədək etdiyimiz söhbəti eşidən olsaydı bizi qatı türk şovinisti sanardı. Ülvinin yuxusu gözündən tökülən Rəşidi buraxmaq fikri yox idi. Şumerdən başlayıb Bozqurd əfsanəsinədək tarixi-dastan açmışdı. “Bilirsən də

Kamçatka da qədim türklərin olub – "Gəmiçatdı" deməkdi". Onun bu sözündən sonra özümü saxlaya bilməyib dilxoşluq eləmişdim: "Hə, düz deyir, Madaqaskar da "Məşədi Əsgər" sözündən yaranıb". Mənim zarafatıma gülən Rəşid "Elədi, Amerikanı da Əmir Əkə kəşf edib, sadəcə Kolumbun adına çıxıblar" deməsi gecənin söhbətinə son qoymuşdu.

Buxara öz cazibəsiylə Səmərqənddən geri qalmır, əksinə, adamı daha çox sehrinə salır. Bu da onun öz tarixi görkəmini məhlə-məhlə saxlaya bilməsiylə bağlıdı. Səmərqənddə tarixi abidələrə baxanda özünü muzey eksponatlarını seyr edən tamaşaçı kimi hiss etdiyin halda Buxarada "zaman maşını"nın səni qədim Şərqə gətirdiyini zənn edirsən, sanki buradakı həyatın bir parçasısan. Deyilənə görə bu mənada Xivə öz təbiiliyini daha yaxşa qoruyub, təəssüf, getmədik…

Şəhəri yaxşıca gəzib dolandıq. Futbolun başlamasına bir saat qalmış hotelə qayıtdıq. Məlum oldu ki, burada günortadan işıq yanmır. Hotelin müdiriyyəti işığın nə vaxt yanacağını bilmirdi. Ülvinin səsi aləmi başına götürmüşdü: "Bir azdan futbol başlayacaq, Türkiyə oynayır, özü də Braziliyaynan".

Özbəklərin soyuqqanlığı onu özündən tamam çıxarmışdı. Elə bilirdi ki, bütün Özbəkistan bu gün dünya türklərinin şərəfini qoruyan Türkiyə komandasının tarixi oyununa baxmaq üçün televizor başına toplaşmağa borcludu. Danışdığımız adamların əksəriyyəti isə belə bir oyundan tamam xəbərsiz idi. Axırda bizə küçənin sonundakı restoranda işığın hər zaman yandığını və futbola orda baxa biləcəyimizi dedilər. Sevincimiz yenə üzümüzə qayıtdı. Rəşid bizimlə futbola baxmağa gəlmədi, görünür "dünənki türkçülük dərsi ona kar eləməmişdi", bunu da dodaqaltı Ülvi mızıldadı.

Səfər yoldaşım restoranın qapısını elə ərklə açdı ki, elə bil yüz ildi tanıdığı yerə gəlib. Qarşısına çıxan ofisianta gur səslə "Futbol başlayıb?" deyə soruşanda üzündən fağırlıq yağan cavan özbək lap yazıqlaşdı. Ülvinin nə dediyini anlamamışdı. Restoranın müdiri ilə də onun söhbəti alınmadı. Müdir iki ayağını bir başmağa dirəyib zalın küngündə divardan asılan televizorda futbola baxmağa icazə vermədi.

"Siz nətəhər türksünüz? Türkiyə tarixi bir gün yaşayır. İlk dəfə finala çıxa bilər. Bu gün Braziliyanı udacaq!" sözlərini elə əminliklə dedi ki, türklərin mütləq qələbə çalacağına mən də inandım. Amma müdir yumşalmadı. "Sir-sifətindən Teymurləngin cəlladına oxşayır" deyən Ülvi az qala dava salacaqdı.

Onu sakitləşdirib televizora yaxın masada oturtdum. Ofisiantı çağırıb kabab sifariş verdim, "yarım" araq istədim. Ülvi tamam dilxor olmuşdu. Ac olmasaq da yeyəsi olduq. İkinci rumka süzüləndə ofisiantı çağırdım, daha iki şiş kabab sifariş verib şəstlə dedim: "İndi get o televizoru aç".

Bu sözümü barda qurdalanan yekəqarın müdir də eşitdi. Elə ordanca pultla televizorda futbolu göstərən kanalı tutdu. Beləcə, dörd şiş kabab, yarım litr araq futbolun bağlı qapısını üzümüzə açdı.

Restorandan çıxanda halımız yaxşıydı… Türkiyənin məğlubiyyəti daha vecimizə də deyildi…

***

Çox güman ki, 2012-ci ilin Avropa çempionatı Yunanıstan komandasının kapitanı (özbəkçə "Komandaning sardori" deyirlər) Karaqoinisin soyadı, rusların qapısına vurduğu qələbə topu, bir də şərqlilərə məxsus ədası ilə yadımda qalacaq.

Həm də görünür qan çəkir, Karaqounis də qədim türk tayfasındandı axı, bilmirdiniz? Qaraqoyunludu!

17 iyun 2012

## ...Və başqa macəralı yol xatirələri

Bir dəfə İssık-Kul sahilində, vaxtilə Sovet İttifaqı Kommunist Partiyasının tabeliyində olmuş "Avrora" sanatoriyasında konfransda idım. Bir vaxt Brejnevin istirahət elədiyi mehmanxanada qalırdıq. Konfransın sessiyalarından birində Qırğızıstan Elmlər Akademiyasından qoca bir alim mövzunu qoyub İssık-Kul gölündən danışmağa başladı. Konfransın mövzusuna dəxli olmasa da, maraqlı çıxış edirdi deyə sözünü kəsmirdilər.

O deyirdi ki, 1950-ci illərdə Ermənistanın Sevan gölündən təcrübə üçün balıq gətirmişdilər. Hər iki göl dağda yerləşdiyindən onların bitki və heyvanat aləminin oxşar və fərqli cəhətlərini öyrənirmişlər. Təcrübə onunla nəticələnib ki, gəlmə balıqlar hansısa yerli balıq növünün nəslini kəsib. O, bunu çox ciddi fəlakət hesab edir və kənardan balıq gətirilməsini səhv qərar adlandırırdı. Gölün təbii faunası gəlmə balıqlar hesabına dəyişibmiş.

Bu çıxışı dinləyə-dinləyə mənimlə üzbəüz oturan Helsinki Vətəndaş Assambleyası Ermənistan Milli Komitəsinin rəhbəri Nataliya Martirosyana baxırdım. Gələni saxlamazlar, akademikin sözünü kəsib belə bir replika atdım: "Yaxşı ki, Ermənistandan balıq gətirmisiniz, erməni gətirsəydiniz, indi burda qırğız qalmazdı".

Akademikin başa düşüb-düşmədiyini bilmədim, amma xanım Martirosyan bərk incidi. Dilxor oldu, etiraz elədi; mənə də, təşkilatçılara da, sessiya vaxtı da, fasilədə də. Dostlar onu belə sakitləşdirdilər ki, Vahid zarafatcıl oğlandı, bunu pis niyyətlə deməz. Mən isə dediyim sözün gətirdiyi kefdən xoşhallanmışdım.

***

1997-ci ilin dekabrında 15-dək ictimai-siyasi fəalla ABŞ-ın Hyuston şəhərində mer seçkilərinin ikinci turunu müşahidə edirdik. Namizədlərdən biri qaradərili idi, bir suyu Barak Obamaya oxşayırdı; sadə, zəhmətkeş sinfin nümayəndəsi idi. O biri ağdərili, qırmızısifət, "tortyeyən" (sovet vaxtı biz tərəfdə varlı-hallı adama nəyə görəsə tortyeyən deyərdilər) burjuyun yekəsi idi.

İlk dəfə qaradərilinin seçilmək şansı yaranmışdı. Ona görə də seçki çox gərgin keçirdi. Kim uğurlu namizəddi, kim udacaq deyə aramızda ciddi müzakirə edirdik. Axırda qrupumuzda fikirlər haçalandı. Əksərimiz "zəhmətkeşə", bir neçə nəfərsə "burjuya" azarkeşlik eləməyə başladıq. Qəribədi, o vaxt "burjuya" azarkeşlik edənləri sonra bizim "burjuylar"ın cərgəsində gördüm. Amma sözüm bunda deyil. Sözüm ondadır ki, səslərin sayılmasını ilk dəfə canlı izlədiyimiz seçkidə qaradərili Li Braun (Lee Brown) qalib gəldi. Cəmi 30 il öncə bu, ABŞ-da ağlasığmaz hadisə olardı.

***

Akademik Saxarovun zövcəsi, məşhur hüquq müdafiəçisi Yelena Bonner-Alixanyan niyə mənimlə debatın davamını istəmədi?

” – Siz yenə yalan danışırsınız!

– Siz kimsiniz? Azərbaycanlısınızmı?

– Bəli, Qarabağdanam. Məni bağışlayın, bizlərdə böyüyün sözünü kəsməzlər, amma buna sizin sözləriniz məni məcbur edir.

– Onda icazə verin, fikrimi tamamlayım. Siz axı bilmirsiniz mən nə deyirəm.

– "Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb" sözünü siz dediniz indicə.

– Siz məni tanımırsınız…

– Ola bilər, çoxları sizi xanım Bonner kimi tanıyır, mənsə sizi Yelena Alixanyan bilirəm. İndi həm Ermənistanda, həm də Qarabağda bir nəfər azərbaycanlı qalmayıb. Etnik təmizlənməni biz yox, ermənilər aparıb. Siz axı bunları bilirsiniz, niyə faktları təhrif edirsiniz?”

Bu, 1998-ci ildə Polşa Seymində keçirilən İnsan Hüquqları üzrə III Beynəlxalq Konfrans vaxtı akademik Saxarovun zövcəsi, məşhur hüquq müdafiəçisi Yelena Bonnerin sözünü kəsdiyim dialoqdur.

Bu səhər rus saytlarını dolaşanda gözüm sataşdı ki, 18 iyun Bonnerin ölüm günüdür. Həmin konfrans yadıma düşdü. Konfransda BMT-nin baş katibi Kofi Annana "sərhədlərin toxunulmazlığı" ilə "xalqların öz müqəddəratını təyinetmə hüququ" arasında ziddiyyət barədə müraciətə Dağlıq Qarabağın da adı salınmışdı. 3 gün gərgin işdən sonra buna necə mane olduğumuz haqda "Kerolayn Koks, Yelena Bonner və genosid debatları" yazısında ətraflı yazmışam.

O vaxt Baronessa Koks, Yelena Bonner sayaq beynəlxalq aləmdə tanınmış neçə məşhur şəxsin imzaladığı müraciət təkidli dirənişimizlə qəbul olunmadı.

***

Günlərin bir günü Borjomiyə cender problemlərinə həsr olunmuş konfransa getmişdik. Axşam hotelin televizor qoyulmuş guşəsində deyib-gülüb şirin söhbət edirdik. Birdən üzbəüz otaqdan bir gürcü çıxıb rusların ”vaşmat”ları sayaq söyüşlərlə bizi təhqir elədi. Səsimiz bərk gəlirmiş, kişini narahat edibmişik.

Xoşagəlməz vəziyyət yaranmışdı, bir tərəfdə alt paltarda çıxıb bizi söyən kefli gürcü, bir yanda da beş-altı azərbaycanlı qadın arasında tək kişi xeylağı mən. Bir xanımlarımıza baxdım, bir bu çılpaq gürcüyə.

O deyirlər ey, qeyrət boğdu, filan. Bax, ona bənzər bir şey oldu. Masanın üstündəki gürcü çaxırını götürüb söyüş söyənə tolazladım. Başını əyməsəydi butulka təpəsini yaracaqdı – divara dəyib qırıldı. Qan rəngində ”Kindzmarauli” divar aşağı axmağa başladı.

Gürcü otağına qayıtdı. Elə şeşələnib xanımlarımıza sarı çevrilmişdim ki, çığırtı qopdu. Sən demə bu ”alçaq çılpaq” məndən qorxub qaçmayıbmış, otağa pistoletini götürməyə gedibmiş.

Bir də gördüm Novella Cəfərova ”Vahidi gizlədin” deyib sinəsini qabağa verdi, gürcünün üstünə getdi. Əli pistoletli kefli adamın! Gürcü onu görüb məni unutdu.

Sonra olanları yazıb uzatmayım. İş səhəri gün gürcünün gəlib hamımızdan üzr istəməsi ilə bitdi.

Sonralar o hadisəni yada salıb dilxoşluq edərdik. Bilmirəm, nə qədər haqlıyam, bir dəfə Novella xanıma dedim ki, gərək 1993-cü ilin iyununda Surət Hüseynovun qabağına səni çıxarardılar. İndi milli hökumətimiz də durardı, Qarabağ da işğal olunmazdı, arzuladığımız cəmiyyət də qurulmuşdu və s.

***

Yalçın Rzazadə mənə nostalji duyğular yaşadan ilk müğənni olub.

1987-ci ilin yayı idi. Əsgərliyim bir vaxtlar Jukovun atom bombası sınaqları keçirdiyi Totsk səhrasında davam edirdi. Poliqonda neçə günün ağır təlimindən kazarmaya dönürdük. Yorğunluqdan ayağımı güclə sürüyürdüm. Kəsə gedək deyə yolu kəndin içindən saldıq. Rus daxmaları, həyətləri, filan...

Qəfil səsə diksinən təhər oldum. Radioda eşitdiyim səsdən ətim ürpəşdi. Dizdən bir azca yuxarı taxta hasarı aşıb səs gələn evə yüyürdüm.

Radioda Yalçın Rzazadə oxuyurdu. Orenburq vilayətinin gözdən-könüldən uzaq bir kəndində vətən havası başıma vurdu. Dedim, yəqin burda yaşayan yerlimizdir.

Elə deyilmiş. Bir rus mujiki radionun axtarış diyirçəyini bura-bura dinləməyə bir şey axtarıbmış. Sən demə, səsdən xoşu gəlib deyə əl saxlayıbmış. Elə bu vaxt da mən yoldan keçirmişəm. Sözlərini başa düşmürdü. Dedim, "Juravli"di mahnının adı, yəni durnalar. Vətənə uçan durnalar...

2 stəkandan sonra çaxır qoxuyan mujikə sarılıb qəhərlənməyimdən ta uzun yazmıram bura. Bircə demək istəyirəm ki, estradamızın bənzərsiz səslisi Yalçın Rzazadə tək bizlərin yox, uzaq ellərdə yadların belə könlünü fəth etməyi bacarırdı.

***

2002-ci ilin yayında Özbəkistanın bir neçə şəhərində seminar keçirib Daşkəndə dönmüşdük. Bu o vaxt idi ki, hələ QHT-lərin fatihəsini verən qanun qəbul edilməmişdi, Əndicanda qırğın törədilməmişdi. Lakin buna baxmayaraq bizim demokratiya, vətəndaş cəmiyyəti problemləri mövzusundakı tədbirlərimiz yerli həmkarlarımız üçün müəyyən qədər riskli idi. Odur ki, Daşkəndin sayılıb-seçilən restoranlarından birində şam etmək üçün masa seçərkən özbək dostlarımızın cidd-cəhdlə qapalı yer istəmələrinin əsl səbəbini vaxtında duymamışdıq. Onlar dünyanın müxtəlif ölkələrindən gəlmiş demokratiya aşiqlərinin sərbəst söhbətlərinin kənardan eşidilməsini istəmirmişlər.

Amma azad dünyanın azad sakinləri təmiz havada, qocaman çinar altında qoyulmuş iki uzun masadan birini seçdilər. Dostlarımız dəmirdən keçən arqumentlərini dilə gətirmədilər, eləcə razılaşdılar. Bir qədər sonra rəngarəng söhbətlərdən bağlanmış söhbət çələngi çeşidli özbək

yeməkləri və içkiləri ilə birlikdə nə vaxtsa mövcud olmuş Bakının tramvay relsləri kimi yan-yana gedirdi. Ev sahibinin sifətindəki narahatçılıq da elə bu relslər kimi yoxa çıxmışdı.

Amma bu, uzun çəkmədi. Tezliklə yanımızdakı ikinci masaya bazburutlu, qalstuklu adamlar gəldi. Restoran heyətinin tam səfərbər edilməsi gələnlərin ali qonaq olmasına dəlalət edirdi. Bizim masadakı cürbəcür dillərdə danışan xaricilər, hətta sarışın polyak gözəli də öz dəyərini itirmişdi. Bütün diqqət yeni qonaqlarda idi. Süfrə sahibimizin həyəcan və narahatlığı artıq hamımıza sirayət etmişdi.

Gələnlərin çox yüksək rütbəli məmurlar – aralarında nazir, deputat da vardı – olduğunu öyrənməyimiz çox çəkmədi. Onlar gəlişləri ilə ilk anda başa düşmədiyimiz bir qaramat da gətirmişdilər. İndi bizim yox, onların səs-küyü ətrafı başına götürmüşdü. Aralarında birinin onsuz da qıyıq olan gözünü bir az da qıyıb hərdən bizim özbək dostumuza oğrun-oğrun baxması diqqətimdən yayınmadı. Dostumuz həmin qıyıq gözün yiyəsini tanımışdı və bu gözlərdə yazılanları oxuduqca onun ürək döyüntülərinin necə artdığını masanın o biri başında “eşidirdim”, düz sözümdür.

Onu belə zavallı görmək ağır idi. Dostumuzun məclisi qapalı otaqda açmaq istəməsinin səbəbini indi anlamışdıq.

Bəzən azadlıq açıq havada yox, dörd divar arasında, hətta zirzəmidə olur. Avtoritar rejimlərdə belə olub, elə indi də belədir. Məclisin boğanaq havasını dəyişmək lazım idi. Ayağa qalxıb çöl havasının “qapı-pəncərələri”ni açmaq üçün söz aldım. “Bir sağlıq deyəcəm və əminəm ki, məni eşidənlərin hamısı bu sağlığa ayaq üstə içəcəklər” – deyə üzümü həm də yan masaya tutdum.

Onlar məni görüb-eşitməsələr də, sözlərim bizim məclisdəkilərdə canlanma yaratdı. Amma Andrey Platonovun “Can”ındakı Çaqatayevin əzabı bizim özbək dostumuzun üzünə qonmuşdu, ürək paralayan bu sifətə baxmaq olmurdu. “Məzlum ən böyük qəddardır – kababın göz yaşları atəşi daha da alovlandırır”. Farsların təxminən belə bir atalar sözü olmalıdır. Dostumuzun bu iztirablı halı məni də beləcə “qəddarlaşdırmışdı”.

Səsimin tonunu bir oktava da qaldırıb Özbəkistan və onun xalqının şəninə köhnə val kimi təkrar-təkrar tariflər yağdırırdım. Dediklərimin qonşu masada oturanlara aid olduğunu artıq hamı başa düşmüşdü. “Vıpyem za velikovo uzbekskovo naroda” (“İçək böyük özbək xalqının sağlığına”). Qonşularımız artıq məni eşidirdilər. Söhbətə ara verib bir-bir masamıza çevrilirdilər, sanki bizi indi görürdülər. Amma ayağa durmurdular.

Sağlığa başlamazdan əvvəl yanımdakı amerikalı dostum İrena Lasota ilə bu yekəxana qonşuları ayağa qaldıracağımdan mərcləşmişdim. Bu xəbər pıçhapıçla bizim masadakılara yayılmışdı. Odur ki, sözlərimə elə qulaq asırdılar, sanki Roma Papası II Pavel Varşavadakı məşhur mərasim nitqini söyləyir. Hamı diqqətlə bayaqdan məclisimizin azad həyatını pozanların reaksiyasını gözləyirdi.

“Özbək xalqı” kömək etmədi, yardıma Əmir Teymuru çağırdım. Bayaqkı nitqimi təkrarlayıb sonunda bu dəfə “Vıpyem za velikovo Tamerlana” dedim. Dünyanın yarısını hüzuruna gətirən Əmir Teymur 5-10 partnomenklaturu ayağa qaldıra bilmirdi. Özümü işə salmışdım, mənim bu dilxoşluğum yaxşı heç nə vəd eləmirdi. Amerikalı dostum isə mərci udubmuş kimi qımışırdı.

Səsimi bir qədər də qaldırdım. İndi məni hamı eşidirdi. Nəvaidən tutmuş Əmir Teymiracan (hələ qazax və türkmənlərin də nəhənglərini özbəklərin ayağına yazdım) yada saldım. Qalstukların sıxıb şişirtdiyi qıp-qırmızı sifətlərdən dombalan gözlərin birində laqeydlik, digərində ikrah vardı. Axı, mən onları necə insafa gətirim, bunlar heç dədələrinin də sağlığına ayağa durana oxşamırlar. Məclisimizin sahibi, yazıq dostumuz isə dirigözlü ölmüşdü.

"Vıpyem za velikovo sına uzbekskovo naroda, za İslama Karimova!" ("İçək özbək xalqının böyük oğlu İslam Kərimovun sağlığına").

Nidam özümü də diksindirdi. Bir məclis "tuluq" löngərləyib dik ayağa durdu. Bizim masadakılar da qalxdı. Amma orada əsl Daşkənd zəlzələsi baş verdi; boşqablar şaqqıldadı, bakallar cingildədi, yaşıl çay dolu piyalə yerə düşüb qırıldı. Sonra bayaqkı donuq gözlərə işıq gəldi, alışıb yanırdılar. Razılıq əlaməti olaraq üzümə gülür, başlarını yelləyirdilər. Onların məclisimizə, xüsusilə də mənə münasibəti tamam dəyişdi. O yandakı qıyıq göz böyümüşdü, daha özbək dostumuza açıq gözlə baxırdı. Dostumuz isə Sizifdən fərqli olaraq daşı dağın başına "qaldırmışdı", indi rahat-rahat gülürdü.

Mən sanki İslam Kərimovun məclisdəki xüsusi nümayəndəsi, masa ətrafındakılar isə onun xarici dostları idi. Onlardan biri baş aşbazı çağırtdırıb bizim nasaya nəsə sifariş edir, digəri boşqabları dəyişdirmək göstərişi verirdi. Masaları birləşdirməkdən tutmuş hesabımızı ödəməyədək heç bir təklifləri ilə razılaşmadıq. Sonda sağollaşıb ayrılanda onlar ayağa qalxıb bizi qapıyadək gülə-gülə yola saldılar.

Əlahəzrətin qonaqlarının hüzuru elə Əlahəzrətin öz hüzuru idi. Bu barədə "Şərq hüzuru"nda ətraflı yazmışam.

***

Moskva çeçeni, etnoqraf dostum Leça İlyasovla Vaşinqtonda qonaq idik. Ev yiyəsi özünün bütün istedadı ilə "amerikan əsilli qafqaz qonaqpərvərliyini" nümayiş etdirirdi. Günümüzün maraqlı keçməsi üçün internetdəki elanları bir-birinə vurub mədəni tədbirlərin siyahısını tutur, həyatımızı qrafikə salırdı. Muzeylər, parklar, restoran-kafelər bir-birini əvəzləyirdi. Artıq tarixi-Vaşinqtonu "yarısınacan oxumuşduq" – "Reyqana güllə, bax, burada açılmışdı" və sairə.

Bir gün bizi pantomim teatrına aparmaq istədiyini dedi. "Özü də bu teatrı gürcü miqrantları yaradıb. İstedadlı uşaqlardır". Qafqazlı təəssübkeşliyimizə hesablanmış bu təqdimat neçə gündür mədəni tədbirlərdən "doyan"larda heç bir maraq oyatmırdı. Ona başqa işimizin olduğunu bəhanə edib getmək istəmədiyimizi bildirsək də, bir səhər soruşub eləmədən biletlə gəldi. Teatra getməli olduq, könülsüz, həvəssiz. Sankı kolxozçuları lafetə yığıb Qara Qarayevin "Don Kixot"unu dinləməyə aparırdılar. Həmin axşam "Van Ness" metrostansiyasının o üzündəki barda pivə içmək vədimiz yada düşəndə isə az qala bu gürcü artistləri nə vaxtsa Amerikaya gətirən təyyarənin pilotunu lənətləyirdik. İşimiz var da, Vaşinqtonda səni zorla gürcü tamaşasına aparalar, özü də lal dili tamaşaya.

Şəhər ətrafındakı Arlinqton Spectrum Teatrına girəndə məlum oldu ki, baxacağımız tamaşa Sinetik Teatrın (Synetic Theater) hazırladığı "İlahi komediya"dır (Dante). Öyrəndik ki, bu teatrı 2001-ci ildə gürcü miqrantları Paata və İrina Tsikurişvililər yaradıblar. Az müddətdə

populyarlaşan teatr bu illər ərzində xeyli mükafat qazanıb. Çox da böyük olmayan zal tezliklə doldu. Tamaşaçıların orta yaş həddini çıxara bilmədim. Yaşlılar çoxluq təşkil etsə də, cavanlar da az deyildi. Xanımlı-kişili daraqlanıb-sığallanıb gəlmişdilər. Hamının üzündən bəxtəvərlik yağırdı, dostum Leçadan başqa. Sanki çeçen müharibəsinin əzabı gözlərinin dibinə çökmüşdü. Sifətimdəki Qarabağdan qalma müharibə çöküntüsünü də yəqin, yalnız o görürdü.

İşıqlar söndü. Tamaşa başlandı. Bir neçə rəngin tünd çalarlarından ibarət qeyri-adi dekorasiya qəribə mənzərə yaratmışdı. Nəhəng qıfa bənzəyən "burulğan" azğın ehtiras içində çapalayan insan ruhları ilə dolu idi. Qeybdən gələn musiqi ruhların fəryadına züy tuturdu. Tanrı dərgahında çılpaq ruhların "ruhları" da çılpaq idi: burada heç nəyi gizlədə bilməzsən. Burada yalnız günahlar "diri"dir. Bəli, bura cəhənnəmdir, Dantenin cəhənnəmi! Dantenin özü də bir gürcü balasının qurduğu bu cəhənnəm səhnəsinə qibtə edərdi. Zal nəfəs almırdı. Səhnədəki "cəhənnəm"dən fərqli olaraq burada həyat yox idi, donmuşdu. Sanki biz cəhənnəm sakinlərinin yox, onlar bizim halımıza heyrət edirdilər. Özümü bu ruhların arasında hiss edəndə nədənsə sağımdakı Leçaya baxırdım. Dünyanın ən mağmın çeçeni yumaq kimi yığılmışdı. Bütün zal bir böyük yumaq idi. Mənim də halımı yəqin ki, yanımdakılar sezirdi. Özüm öz günümü görə bilməzdim.

"İlahi komediya"nın növbəti hissələri də eyni uğurla oynandı. Rənglər, işıqlar, səslər, aktyorların üz və bədən ifadələri bir ahəng yaratmışdı. Tamaşa bitəndə bizim sifətimizdən "əzab", amerikalıların üzündən isə "bəxtəvərlik" yox olmuşdu. Hamının üzü bir idi. Hamımız HEYRAN qalmışdıq! Tamaşa hamımızı "Cəhənnəm"in "Məşhər"indən adladıb "Cənnət"ə çıxarmışdı.

Qayıdanda yolboyu teatrşünaslar kimi tamaşanı şərh edirdik. Dostumuz pərtliyimizi səhnədəki "cəhənnəm oduna" atmışdı. Bizə ömrə yazılası bir axşam bəxş etdiyinin fərqində idi, çöhrəsi çiçəklənmişdi. Bizim də üzümüz Konnektikut küçəsinin lampaları kimi işıqlanmışdı…

***

Polşa Seyminin üzvü, senator Zbiqnev Romaşevski Şərqi Avropa Demokratiya İnstitunun (İDEE) təşkil elədiyi konfransdan sonra iştirakçılardan bir qrupunu evinə dəvət eləmişdi. Əliboş getməmək üçün səfər torbasından "Gəncə" konyakını bəxtəvər təbəssümlə çıxaranda onun neçə gündür açılmamasına təəccübləndiyim qədər də sevinmişdim.

Bir oteldə qaldığımızdan dəvət olunan dostlarla senatorun evinə birlikdə getdik. Alaqaranlıq otağın küncündəki neçə əsrdənsə qalma kamodun üstündə mənim "Gəncə"mlə yanaşı sıralanan çex "Becherovka"sı, gürcü "Xvançkara"sı, Belarus vodkası, qırğız "Kırqızıstan"ı … və bir kömbə qara çovdar çörəyi natürmortu xatırladırdı.

Maraqlı söhbətlər, siyasi lətifələr, müdrikanə sağlıqlar bir-birini əvəz edirdi. Kimi Mordva həbs düşərgəsində qoşduqları siyasi lətifəni danışır, kimi Çili kommunistlərinin lideri Luis Korvalanla dəyişdirilərək SSRİ-nin vərəm qoxulu qaranlıq məhbəs küncündən azad dünyanın qoynuna atılan dissident Vladimir Bukovskiyə bəxtəvərlik verdiyi günləri xatırlayırdı. Başqa birisi də kommunist ölkələrinə gedən qatarların açıq pəncərəsindən içəriyə siyasi ədəbiyyat tullamasından xüsusi ləzzətlə söz açırdı.

Bütün söhbətlər fırlanıb arılar kimi bir pətəyə yığışırdı – ana mövzu kommunizmin xalqlara vurduğu yaralar və kimin yarasının daha dərin olması idi. Bu xüsusda hərənin öz versiyası vardı. Həmin vaxt Belarusun künc-bucağını təzəcə gəzib gəlmişdim. “Zerkalo” və “Avropa” qəzetlərində dərc olunan “Ağ Rusiyanın qara taleyi” adlı essemin istisi hələ soyumamışdı. Odur ki, əminliklə kommunizmdən ən çox zərər çəkənin Belarus xalqı olduğunu deyib bu ölkədə yaşlılardan, vətənpərvər ziyalılardan eşitdiyim tükürpədən hadisələrdən söz açırdım.

O, elə bu vaxt, əlində matah Argentina şərabı, pay gətirdiyi qara çovdar çörəyinin rəngində olan güncdən çıxıb mənə yaxınlaşdı. Yalnız çənədə saxladığı, üzündəki Avropa aristokratlığını daha da artıran qısa ağ saqqalına tumar çəkib, mehriban səslə dedi: “Ay mənim bakılı dostum, hamımız kommunizmdən ağır yaralarla çıxmışıq. Məgər siz azərbaycanlılar qədər dərin yaraları olan varmı?”

Sözünün eşidənlərin marağına səbəb olduğunu görüb davam elədi: “Amma bu yaraları sağaltmaq üçün ən yaxşı şans da elə sizdədir. Bu şansdan yararlanmaq bacarığınızı göstərməyə imkanınız hamıdan çoxdur. Neft pullarını ədalətli rifah cəmiyyəti qurmaq işinə yönəltsəniz, bütün postkommunist ölkələrinə nümunə olarsınız”.

Sonra pianonun arxasına keçib özünün yeni bəstələdiyi musiqi ilə gecənin qara bağrına şəfəq sancdı, parlaq çöhrəsindən hər yana nur çilədi. Piano dillərinin çıxardığı səsin məlhəm kimi axıb ürəkdə qana qarışdığını həm görür, həm də eşidirdim. Hamı iki dünya arasındakı qəribə mühitə düşmüşdü.

Avropanın nüfuzlu idealist demokratı, məşhur “Sayudis” hərəkatının qurucularından biri, Litvanın keçmiş dövlət başçısı, Avropa Parlamentinin 77 yaşlı üzvü Vitautas Landsbergislə o gecəki görüş haqda “Qara çörəyin ağ üzü” yazısında yazmışam, o xatirəni bu kitaba salmaya bilməzdim.

İsveçdə qonşu şəhərdə bir litvalının ərzaq dükanı var. Hər dəfə yolum düşəndə Vitautas Landsbergisin o axşam özü ilə gətirdiyi qara çovdar çörəyindən birini alır, o böyük demokratı beləcə yad edirəm.

***

Polşanın mərhum prezidenti Lex Kaçinski ilə 2005-ci ildə görüşmüşdüm. Onda hələ Varşavanın meri idi. Bizi İrena Lasota tanış eləmişdi. Şəhər meriyasının düzənlədiyi sərgiyə biz də qatılmışdıq. Varşavanın meri prezidentliyə ən real namizədlərdən biri idi. Polyak dostlar ona ümudlə baxır, qalıb gələcəyi təqdirdə Polşanın istər daxili, istərsə də xarici siyasətində ciddi dəyişikliklər olacağını deyirdilər.

O, gülərüz, hamı ilə zarafat edən, səmimi adama bənzəyirdi. Biz şərqlilərdən fərqli olaraq, Qərb adamı, xüsusilə siyasətçisi daim gülümsəyir, istiqanlı görünməyə çalışır, ələlxüsus da seçki ərəfəsində. Siyasətçilərə skeptik yanaşmağım hələ də arzulanan demokratiyanı qura bilmədiyimiz post-kommunist ölkənin vətəndaşı olmağımdandır yəqin. Dostlarım isə təkidlə onun fərqli bir siyasətçi, ideya adamı, “Solidarnost” dönəmindən üzüağ çıxmış, bir sözlə, “bizim adam” olduğunu deyirdilər.

Dostlara inanmayıb kimə inanası idim ki?! Həmin il o, prezident seçildi, sonrakı illərdə dostların dediklərini təsdiqləyib başlarını uca elədi. Hamıya Polşanın birləşmiş Avropada yerini göstərdi. Onun Şərqi Avropadakı status və missiyasını təsdiqlətdi.

Təyyarəsi 2010-cu ildə Rusiya səmasında müəmmalı şəkildə qəzaya uğradı. Kommunistlərin güllələdiyi polyak zabitlərinin Katındakı abidəsinin açılışına gedirdi. Onda Kaçinskiyə "Xilas missiyalı ölüm" adlı yazı həsr elədim.

Yazıya rusiyalı dissident Valeriya Novodvodskayanın bu fikirlərini də salmışdım: "Lex Kaçinski Gürcüstana dəstəyin, Tbilisiyə edilən qəhrəman səfərin, universitetlərdə Belarus tələbələrinə yer və təqaüd ayırmağın, çeçen qaçqınlarına və saytlarına sığınacaq verməyin, Yaruzelskini ittiham etməyin, antisovet və antikommunist fəaliyyətin, Qərb oriyentasiyalı olmağın, "Katın" filmi, Katınla bağlı sualların və NATO-da fəallığın bədəlini ödəyir".

Növbəti səfərlərin birində Kaçinskinin Krakovdakı qəbrini ziyarət etdim.

***

Kubaya növbəti yolum Meksikanın Kankun şəhərindən keçdi. Kankun Qəraib dənizinin sahilindədir. Buranın bitib-tükənməyən çimərliyi, çimərlik boyu saya gəlməyən hotelləri var. Regionun ən böyük kurort şəhərlərindəndir. Adamları balacaboy, gülərüz və səmimidirlər. Adamın heç inanmağı gəlmir ki, bu insanlar "Qəraib dənizinin quldurları"nın törəmələridirlər. Məsələ onda deyil, heç biz də Babəkə, Koroğluya oxşamırıq, gözə görünən odur ki, buralar cənnəti xatırladır.

Kankundan qalxan təyyarə Havanaya 50 dəqiqəyə çatdı. Gecə yarı olmuşdu. Bərk yorulmuşdum. Tez çıxıb getmək, başımı atıb yatmaq istəyirdim. Meksikada mənə zülm vermişdilər. Sən demə, burda tranzit yolçular da əvvəlcədən viza almalı imişlər. Odur ki, Kankunda pasportumu alıb, özümü də salmışdılar qapısı bağlı şüşəli bir yerə. Qışqır-bağırın mənası yox idi, eşidən olmayacaqdı, olan da başa düşməyəcəkdi. Şüşə qəfəsdə altı saatlıq iztirabdan qurtulub Havana sərhədçilərinin çamadanaçma əməliyyatına düşəcəyimi ağla gətirəndə cin başıma vururdu.

Çamadanımda az qala bir kitabxananın kitabı, videotekanın filmi vardı – müstəqil jurnalistlər, yazıçı və rəssamlar, müəllimlər, hüquq müdafiəçiləri, din xadimləri, bir sözlə, ictimai fəal adamlara ünvanlanmış kitablar, filmlərlə dolu idi. Məsələn, A.Kamyunun "Taun", F.Kafkanın "Proses", A.Kestlerin "Kor qaranlıq", F.Hayekin "Köləliyə aparan yol", "Azadlıq konstitusiyası", C.Oruellin "1984", V. Şalamovun "Kalım hekayələri", N.Şaranskinin "Demokratiyanın müdafiəsində: azadlıq tiraniya və terrora qalib gələcək", H.Falladanın "Hər kəs təklikdə ölür", M.Kunderanın, Ç. Miloşun, A.Soljenitsının, başqalarının xeyli kitabı, filmlərdən isə "Şərq-Qərb", "Arbat uşaqları", "Doktor Jivaqo", "Keşişi öldürmək", "Qandi", "Master və Marqarita", "Dairədə birinci", "Tyananmen meydanı", "Andeqraund", A.Tarkovskinin, M.Formanın, A.Vaydanın, S.Spilberqin və başqalarının daha neçə-neçə filmi olan DVD. Xanımlar üçün sabun, şampun, diş pastası, çox da baha olmayan parfümeri isə öz təşəbbüsümlə almışdım – burda əl çatan deyil.

Buranın da vaxtilə bizdə olmuş "kubinka" kimi qara bazarları var, amma ordan nəsə almağa çoxunun imkanı çatmır. Aeroportlarda ispandilli qəzet və jurnalların son saylarını da almağı

unutmamışdım. Görüşəcəyim adamlar üçün azad dünyadan xəbər gətirmək yaxşı işdi, elə bil, türmədəki siyasi məhbusa təzə qəzet verirsən, bax elə. Bu qədər DVD və kitablarla sərhədi keçməyin riskli olduğunu bilirdim. Düzdü, indi belə şeylərə o qədər də əhəmiyyət vermirlər, amma bütün hallarda ilişə bilərdilər. Soruşana cavab hazırlamışdım: “Yeni tanışlarıma hədiyyə edəcəm”.

Əlbəttə, 10-15 il əvvəl sənin bu sayaq arqumentin keçməzdi. Əvvəllər açıq şəkildə bir kitab belə keçirmək mümkün deyildi. Yaxşı xatırlayıram, 1996-cı ildə keçmiş dissident dostumun Quba tərəfdə sərhədi qanunsuz keçməsi xəbəri bütün ölkəni silkələmişdi. Səhər işə gələndə jurnalistlərdən biri sensasiyalı xəbərə məndən təsdiq alacağına ümid edib zəng eləmişdi: “Xəbər var ki, sənin amerikalı dostun Quba tərəfdən sərhədi qanunsuz keçərkən saxlanıb. Bütün dünya agentlikləri bağırır. Amma bizimkilər deyir ki, xəbərləri yoxdu. Məsələnin nə qədər ciddi olduğunu deyirəm, amma hələ də təsdiqləmirlər”.

Dərhal dostları aradım, o vaxt rabitə indiki kimi deyildi, internet yox, mobil telefon yox. Axşama doğru öyrəndim ki, dostumu Qubada yox, Kubada, Havana aeroportunda saxlayıblar. Sən demə, çamadanındakı uşaq yeməyi qutusundan Soljenitsının “Qulaq arxipelaqı” çıxıb, digər qutulardan da başqa bu sayaq ədəbiyyat tapıblar. Üç gün dindirəndən sonra “persona non-qrata” edib geri göndəriblərmiş. Rusiya informasiya agentliklərinin səhv xəbəri bir jurnalistin sayəsində bizim sərhəd qoşunlarımızı bax beləcə ayağa qaldırıbmış.

Nə çamadanlarıma, nə də portfelimə baxan oldu. Sakitcə keçib şəhərə çıxdım. Taksiyə oturub gedəcəyim ünvanı dedim.

Kubaya belə səfərlərdən, orada gördüklərimdən, başıma gələnlərdən “Çamayra. Kuba dəftəri” adlı bir kitab da yazdım sonralar.